ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2020
№5/6 (59-60)

BAKI-2020

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
İctimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2020
№5/6 (59-60)

BAKU-2020

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 323.1; 327.39
355;32;32:355

Siyasi elmlər

# ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ AZƏRBAYCANIN HƏRBİ STRATEGİYASI

**RAMİL ALLAHVERDİYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Müasir Siyasətin Fəlsəfəsi şöbəsinin dissertantı*

*E-mail: allahverdiyev-77@mail.ru*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında danışarkən ilk növbədə ermənilərin Azərbaycanda məskunlaşdırılması məsələsinə diqqət yetirmək zərurəti meydana çıxır. Məsələ burasındadır ki, ermənilər Azərbaycana xeyli sonralar köçürülüb. Tarixi faktlar göstərir ki, XIX əsrə kimi Azərbaycanda bir nəfər də olsun erməni yaşamamışdır. Onların bu ərazidə məskunlaşdırılması Rusiya imperiyasının həmişə özəl siyasi maraqlarına xidmət etmişdi. XIX əsrdə bütün Şərqi Avropada, o cümlədən Rusiyada cərəyan edən hadisələr (Rusiya-Türkiyə, Rusiya-İran müharibələri) Azərbaycanın şimal qonşusunun regionda mövqelərinin getdikcə zəifləməsinə gətirib çıxarırdı. Rusiya cənub sərhədində müsəlman və türk ölkəsinin mövcudluğundan da ciddi narahatlıq keçirirdi və elə buna görə də Şimali Azərbaycanda ermənilərin məskunlaşdırılması ideyasını reallığa çevirmək barədə düşünməyə başladı. Lap qədimdən XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən qəsb olunana qədər bu region müxtəlif Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuşdur.[1.s.5] 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim Xan və Rus imperatoru Sisianov arasında Kürəkçay müqaviləsi imzalandı. Bu müqavilə ilə Qarabağ xanlığı Rusiyanın hakimiyyəti altına keçdi [9]. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi kütləvi hal aldı [28.s,59]. Bu dövrdə Türkiyədən 86 min, İrandan isə 40 min erməni indiki Ermənistanın ərazisi olan Qərbi Azərbaycan torpaqlarına köçürüldü. Ermənilər əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirildi. Bundan sonra da Azərbaycanın parçalanması cəhdləri davam etdi və burada erməni vilayəti yaradıldı. Doğrudur, sonralar, 1846-cı ildə bu vilayət ləğv edildi, bununla belə, ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırılması prosesi tarixdə öz mənfi izini qoydu. Ermənilərin Qafqazda məskunlaşdırılması müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçirilmişdir. Təxminən 200 il əvvəl Rusiya çarı bir qisim erməni əhalisinin Dərbənd və Qubaya köçürülməsi barədə fərman imzalamışdır. “Dərbənd və Müşkir ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında” adlanan bu fərmanda ermənilərə kifayət qədər geniş hüquqlar verilmiş və onların həyat şəraitinin yaxşılaşdırılması üçün münbit torpaqlara köçürülmələrinin vacibliyi qeyd olunmuşdu. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir. Bununla da, əslində ermənilərin Azərbaycan ərazilərinə köçməsi üçün zəmin yaradılırdı. Çünki Rusiya əraziləri dedikdə məhz İrana daha yaxın olan Azərbaycan nəzərdə tutulurdu. 1828-1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Türkiyədəki ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi barədə razılıq əldə olunmuşdu. Bunun reallaşdırılmasını sürətləndirmək məqsədilə Rusiyada xüsusi komitə yaradılmış və 12 maddəni əhatə edən ümumi qaydalar müəyyənləşdirilmişdi. Pyotrun vəsiyyətlərinə istinad edən bu siyasətin əsas məqsədi Azərbaycan ərazisini etnik baxımdan parçalamaq və burada xristian xalqlarının yerləşdirilməsini həyata keçirməklə cənubdan gələ biləcək təhlükələrə qarşı sipər yaratmaqdan ibarət olmuşdur. Beləliklə də ermənilər tədricən Azərbaycan ərazilərində yerləşdirilir, onlar üçün burada yaxşı şərait yaradılır və münbit torpaqlar ayrılırdı. Məşhur rus statistiki İ. Şopenin hesablamalarına görə, XIX

əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailəsi, 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. Belə ki, 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və yaxud 80 faizini azərbaycanlılar təşkil edirdi. Rusiya imperiyasında birinci dəfə keçirilən əhalinin siyahıyaalınmasına görə, 1897-ci ildə Qərbi Azərbaycanda - İrəvan quberniyasında 313.178 nəfər azərbaycanlı yaşamışdır. Lakin bir neçə il sonra bu rəqəmlər tamamilə dəyişmişdi. Ermənilər ərazilərimizdə məskunlaşdıqdan sonra öz dövlətlərini yaratmaq haqqında düşünməyə başladılar. Elə bunun nəticəsi idi ki, 1905-1906-cı illərdə Azərbaycanda ermənilər tərəfindən kütləvi soyqırımı aktları həyata keçirilmişdir. Bu illər ərzində onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlıları məhv etmiş, dəhşətli cinayətlər törətmişdilər.

28 May 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının (ADR) qurulduğu elan edildi. Elə həmin gün Ermənistan Respublikası yaradıldı. Azərbaycan Demokratik Respublikasının İstiqlal Bəyannaməsinin 1-ci maddəsində qeyd olunurdu: “bu gündən etibarən Azərbaycan xalqı suveren hüquqlara malik olacaqdır. Şərqi və Cənubi Qafqazı əhatə edən Azərbaycan hüquqi müstəqil dövlətdir”.

1919-cu ilin aprel ayında müttəfiq dövlətlər ADR hökuməti tərəfindən 1919-cu ilin yanvarında təsis edilmiş, mərkəzi Şuşa şəhəri və qubernatoru Xosrov bəy Sultanov olmaqla Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını özündə birləşdirən Qarabağ general-qubernatorluğunu Azərbaycanın yurisdiksiyası daxilində tanıdılar. 1919-cu ildə Dağlıq Qarabağın erməni Milli Assambleyası Azərbaycanın hakimiyyətini rəsmən tanıdı. Bu faktın özü ermənilərin Dağlıq Qarabağın “müstəqil hüquqi şəxs” və ya “müstəqil siyasi vahid” statusu olduğuna dair iddialarını tamamilə inkar edir.

Britaniyalı jurnalist Skotland-Liddel 1919-ci ildə Şuşadan Londona məktubunda yazırdı: “Qarabağa sülh gəldi. Ermənilər Azərbaycan hökumətinə itaət etməyə razılaşdılar ... Ermənilərin mənə dediyinə görə, Şuşa və Qarabağda əvvəllər heç vaxt belə bir nizam və sülh olmamışdır”. O, həmçinin əlavə edir ki, “hər iki xalq həyat tərzini dinc şəkildə davam etdirməyə hazırdır və təxribatçıların müdaxiləsi olmayanadək bu belə də davam edər. İnanıram ki, ermənilər Zaqafqaziyanın digər hissələrində ermənilər erməni-tatar (Azərbaycan) qırğınının səbəbkarıdır. Təbliğata gəldikdə isə, erməni təbliğatçısı vicdanla işləyir, amma əminəm ki, onların Zaqafqaziyadakı fəaliyyəti sadəcə təxribatdır”.

1920-ci ildə Azərbaycan bolşevik Rusiyasının tərkibinə salındıqdan sonra erməni millətçilərinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddialarına cavab olaraq, 5 iyul 1921-ci il tarixində Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosu müsəlmanlar ilə ermənilər arasında milli sülhün təmin edilməsi zərurətini, Yuxarı və Aşağı Qarabağ arasında iqtisadi əlaqələrin, həmçinin Yuxarı Qarabağın Azərbaycanla daimi təmaslarının vacibliyini nəzərə alaraq, Dağlıq Qarabağın Azərbaycan Sovet Sosialist Respublikası sərhədlərində saxlanılması və Şuşa şəhəri inzibati mərkəz olmaqla Dağlıq Qarabağa geniş muxtariyyət verilməsi barədə qərar qəbul etmişdir. 7 iyul 1923-cü il tarixində Qarabağın dağlıq hissəsində Xankəndi şəhəri inzibati mərkəz olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı[19.s,308]. DQMV idarəetmənin bütün əsas elementlərinə sahib idi. 1923-cü ilin sentyabr ayında Xankəndi şəhərinin adı dəyişdirilərək, bolşevik lideri olan Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırıldı. [20.s,34]. Lakin həmin dövrdə Ermənistanda kompakt şəkildə yaşayan 300 minə qədər azərbaycanlıya isə istər SSRİ-nin mərkəzi hökuməti, istərsə də Ermənistan SSR hökuməti tərəfindən mədəni muxtariyyət verməkdən belə imtina edilmişdir [9]. Lakin ermənilər bununla da Dağlıq Qarabağla bağlı separatçılıq fəaliyyətindən əl çəkmədilər. 1960-cı illərdə SSRİ-də antitürkiyə kampaniyasının gücləndiyi şəraitdə yenidən bu problemi ortaya atdılar. 1965-ci ildə Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə 45 min nəfərin “imzaladığı” petisiya Moskvaya təqdim edilmiş, bunun əsasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibliyi Ermənistan və Azərbaycana bu barədə məsələ hazırlamağı tapşırmışdı. Erməni separatçıları belə hesab edirlər ki, buna Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibi M.Suslov mane olmuşdur. 1969-cu ildə Heydər Əliyevin Azərbayan rəhbərliyinə gəlməsi ilə onun cəsarətli və qətiyyətli mövqeyi sayəsində ermənilərin separatçılıq təşəbbüsləri və bu niyyətlə Mərkəzdə göstərdikləri “fəaliyyət” uzun müddət heç bir nəticə vermədi. SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı da ermənilər eyni inadla bu problemi ortaya atmağa çalışdılar. Lakin bu dəfə də heç nəyə nail ola bilmədilər.

H.Əliyevin qətiyyəti sayəsində onun Azərbaycana rəhbərliyi (1969-1982) və SSRİ rəhbərlərindən biri olduğu dövrdə (1982-1987) erməni separatçılarının niyyətlərinin canlanmasına yol verilmədi [16].

SSRİ kimi nəhəng bir dövlətin qanunverici orqanın qərarının yerinə yetirilməməsinin nə demək olduğunu başa düşmək çətin deyil. Lakin Heydər Əliyev öz xalqının milli maraqları naminə böyük riskə gedərək Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsinin qarşısını aldı. Buna baxmayaraq, 1986-cı ildə Azərbaycan rəhbərliyinin etinasız münasibəti ucbatından bəzi ərazilər Ermənistana birləşdirildi. 1985-ci ildə Sov. İKP MK-nın Baş katibi vəzifəsinə seçilən Mixail Qorbaçov bu mənfur niyyətinin gerçəkləşdirilməsi üçün əlindən gələni etdi. M. Qorbaçovun hakimiyyətə gəlməsi ilə ermənilər ölkənin birinci şəxsinin timsalında siyasi himayədar qazanmışdılar və bu fürsətdən maksimum istifadə etməyə çalışırdılar. 1987-ci ildə Heydər Əliyevin Siyasi Bürodan və Nazirlər Soveti sədrinin birinci müavini postundan uzaqlaşdırılması məhz bu cəhdlərin məntiqi sonluğu kimi qiymətləndirilə bilər. Ermənilərin Qarabağ iştahasının qarşısında dayanan əsas maneə aradan götürülmüşdü, planın qalan hissəsinin həyata keçirilməsi texniki xarakter daşıyırdı. 1987-89-cu illərdə Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilib, 1154 nəfər isə yaralanıb. 20 fevral 1988-ci ildə DQMV-nin Xalq Deputatları Sovetinin iclasında vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə keçirilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər. 22 fevral 1988-ci ildə Əsgəran qəsəbəsi yaxınlığında ermənilər DQMV-nin Xalq Deputatları Sovetinin qərarına qarşı etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açdılar. Nəticədə həlak olan iki azərbaycanlı gənc münaqişənin ilk qurbanları oldular. 1 dekabr 1989-cu ildə Ermənistan SSR Ali Soveti Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qərar qəbul etmişdir. 10 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ Konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etmişdir. Qərarda Ermənistan SSR ilə Dağlıq Qarabağın Azərbaycan SSR-in razılığı olmadan yenidən birləşdirilməsinin qeyri-qanuni olması bildirilmişdir. Bu, faktiki, Azərbaycan ərazilərinin ilhaqı anlamına gəlirdi. Ermənilər artıq mübarizə taktikasını hərbi təcavüz müstəvisinə keçirmişdilər və bu baxımdan Azərbaycandakı kütləvi etiraz aksiyaları proseslərin inkişaf istiqamətini dəyişmək qüdrətində deyildi. Şübhəsiz ki, ermənilərin təcavüzkar siyasətinin həyata keçməsində məhz kənar qüvvələrin dəstəyi daha böyük rol oynamışdır. Bu mənada o vaxtkı SSRİ rəhbərliyinin səyləri xüsusilə qabarıq şəkildə nəzərə çarpırdı. 1990-cı ildə Sovet ordusunun Bakıda keçirdiyi əməliyyatlar bunu bir daha təsdiqlədi [21]. Dağlıq Qarabağın Ermənistana ilhaqına etiraz əlaməti olaraq keçirilən mitinqlər sovet əsgərlərinin gülləleri ilə yatırıldı. Bu hərbi akt zamanı yüzlərlə azərbaycanlı qətlə yetirildi. Şəhərdə bir neçə ay davam edən fövqəladə vəziyyət rejimi elan olundu. Bütün bunlar Azərbaycan xalqının mübarizlik əzmini qırmaq, onun azadlıq ideyalarına inancını sarsıtmaq və Qarabağın Ermənistana ilhaqı prosesinə yardım göstərmək məqsədi daşıyırdı.
Bu qanlı hadisələr zamanı xalq yenidən respublika rəhbərlərinin biganəliyinin şahidi oldu. Yenə də məhz Heydər Əliyev bu terror aktına açıq etirazını bildirdi. 1990-cı il yanvarın 21-də onun Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı bütün dünya dinlədi. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etdi. 20 Yanvar faciəsindən sonra erməni hərbi birləşmələrinin cəbhə xəttində fəallığı bir qədər də artdı. Bir-birinin ardınca işğal olunan kəndlər, rayonlar Qarabağın qarış-qarış itirildiyinə dəlalət edirdi. 1991-ci ilin fevral ayında Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyev hamını bu adi gerçəkliyi etiraf etməyə çağırırdı: "Hesab edirəm ki, "Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması" - məsələnin dar çərçivədə qoyulması deməkdir. "Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması" - məsələ belə qoyulmalıdır. Biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq". Bu, təkcə parlamentdə aparılan müzakirələrin istiqamətinə etiraz əlaməti deyildi.

Heydər Əliyev cəmiyyəti mövcud reallıqlardan xəbərdar etməyə çalışırdı. Həmin reallıq isə bundan ibarət idi ki, Azərbaycan hakimiyyətinin siyasi laqeydliyi ucbatından Qarabağ itirilib və bu reallığı anlamaq, bütün perspektiv fəaliyyəti onun dəyişdirilməsinə hesablamaq lazımdır. Heydər Əliyev həmin sessiyada deyirdi: "Biz gərək təhlil edək: nə cür oldu ki, Dağlıq Qarabağı əldən ver-

dik!" Kifayət qədər maraqlı və haqlı sual idi. Amma şübhəsiz ki, A. Mütəllibovun rəhbərlik etdiyi siyasi komanda bu sualın cavabının araşdırılmasında maraqlı ola bilməzdi[25].

30 avqust 1991-ci ildə Azərbaycanın Ali Soveti dövlət müstəqilliyinin bərpasını elan etdi. 18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. 26 noyabr 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi haqqında" Qanun qəbul etdi. 1991-ci ilin sonu-1992-ci ilin əvvəlində münaqişənin hərbi mərhələsi başlandı. Sovet İttifaqının parçalanması və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış siyasi qeyri-sabitlikdən istifadə edərək, Ermənistan xarici hərbi yardımla Dağlıq Qarabağda hərbi əməliyyatlara başladı. 1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədilmişdir. Xocalı soyqırımı kimi tanınmış bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi yaxud əsir düşməsi ilə nəticələnmiş, şəhər yerlə-yeksan edilmişdir. 1992-ci ilin may ayında Şuşa şəhəri və Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Laçın rayonu işğal edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı daha altı rayonunu – Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdilər. 30 aprel 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı qətnamə qəbul etdi. 29 iyul 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnamə qəbul etdi. 14 oktyabr 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası ATƏM-in Minsk qrupunun nizama salmaya dair vaxt cədvəlinə uyğun olaraq, dərhal qarşılıqlı və zəruri addımlar atılmasını, o cümlədən ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı qətnamə qəbul etdi. 11 noyabr 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası 884 saylı qətnamə qəbul etdi[5]. Qətnamə Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə qarşı hücumu və Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləmiş, Zəngilan rayonu və Horadiz qəsəbəsindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb edir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb.

1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb. Azərbaycanın işğal edilmiş ərazilərində dünya əhəmiyyətli abidələrə Cəbrayılda orta əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri və Tunc dövrünə aid Niftalı kurqanları, Kəlbəcərdə orta əsrlərə aid Gəncəsər və Xudavanq monastırları, Ağdamda XIV əsrə aid Qutlu Musa oğlu türbəsi və Tunc dövrünə aid Üzərliktəpə yaşayış massivi, Xocavənddə Paleolit dövrünə aid Azıx və Tağlar mağarası və Xocalıda Tunc və Dəmir dövrünə aid kurqanlar daxildir. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirə (ATƏM) çərçivəsində başlamışdır. ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilən 24 mart 1992-ci il tarixli əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zaman ərzində böhranın ATƏM-in prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə həlli istiqamətində danışıqlar üçün forumu təmin edəcək Dağlıq Qarabağa dair konfransın çağırılması qərara alındı. 12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olundu. ATƏM-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk konfransı

həmsədrlik institutunun yaradılması barədə qərar qəbul olundu. Budapeşt sammiti ATƏM-in fəaliyyətdə olan sədrinə silahlı münaqişənin dayandırılması üçün siyasi razılaşmanın əldə olunması məqsədilə danışıqlar aparmaq tapşırığı verdi. Sözügedən siyasi razılaşma münaqişənin nəticələrini aradan qaldırmalı və Minsk konfransının çağırılmasına imkan verməli idi. 23 mart 1995-ci ildə ATƏT-in fəaliyyətdə olan sədri Minsk prosesinin həmsədrlərinə mandat verdi. 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon sammitində ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri tövsiyə etdi, lakin Ermənistan bu prinsipləri qəbul etmədi və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət oldu. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində dünya birliyinin daha qətiyyətli və ardıcıl mövqedən çıxış etməsi və Ermənistanı beynəlxalq birliyin nüfuzlu üzvləri olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təklif etdiyi başlıca prinsiplər əsasında münaqişənin bir dəfəlik həllini nəzərdə tutan yekun sülh sazişi üzərində işə başlamasına vadar etməsinə ümid bəsləyir.

Bir çox beynəlxalq təşkilat münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı çoxsaylı sənədlər qəbul etmişdir. BMT Baş Assambleyanın 2008-ci il martın 14-də qəbul etdiyi qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyir. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayır. Münaqişə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də dəfələrlə müzakirə edilib. Təşkilat beynəlxalq hüququn prinsip və normalarını rəhbər tutaraq, Azərbaycanın hərbi təcavüzə məruz qaldığını elan edib. Hələ 1993-cü ildə təşkilatın xarici işlər nazirlərinin Pakistanın Karaçi şəhərində keçirilən 21-ci iclasında qəbul edilən qətnamə Azərbaycana qarşı erməni təcavüzünü qınayır, erməni qoşunlarının işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılmasını tələb edir, Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə və münaqişənin dövlətlərin ərazi bütövlüyünə, sərhədləri toxunulmazlığına əsaslanan sülh yolu ilə, ədalətli həllinə çağırır. Növbəti qətnamələrdə təşkilat BMT Təhlükəsizlik Şurasını münaqişənin siyasi həlli prosesində fəal iştirak etməyə, qəbul olunmuş dörd qətnamənin icrasını tam təmin etməyə və Azərbaycan Respublikasına qarşı təcavüz aktının mövcudluğunu tanımağa çağırır. 1996-cı ilin 2-3 dekabr tarixlərində keçirilən ATƏT-in Lissabon sammitində ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri tövsiyə etmiş, lakin Ermənistan bu prinsipləri qəbul etməmiş və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət olmuşdur. ATƏT-in fəaliyyətdə olan sədri sözügedən prinsipləri ehtiva edən bəyanatla çıxış etmişdir. Həmin prinsiplər aşağıdakılardır:

-Azərbaycan Respublikası və Ermənistan Respublikasının ərazi bütövlüyü;

-Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək səviyyəli özünüidarəetməni nəzərdə tutan öz müqəddəratını təyinetmə sazişi əsasında Dağlıq Qarabağın hüquqi statusu;

-Nizamlamanın müddəalarını bütün tərəflərin yerinə yetirəcəyinə dair qarşılıqlı öhdəliklər daxil olmaqla Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinə zəmanət. [9]

Lissabon sammitindən sonra 1997-ci il 1 yanvar tarixindən ATƏT Minsk konfransına Fransa, Rusiya və ABŞ həmsədrlik etməyə başlamışdır (1992-ci ildən Minsk konfransına İtaliya (1992-1993), İsveç (1994), Rusiya və Finlandiya (1995-1996) sədrlik etmişlər).

1997-ci ilin 1 iyun tarixində həmsədrlər münaqişənin nizamlanmasına dair hərtərəfli saziş layihəsini təqdim etmişdirlər. Azərbaycanın sözügedən sənədlərin mahiyyəti ilə bağlı konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, erməni tərəfi təklif olunan yanaşmanı rədd etmişlər. 1997-ci ilin sentyabrında həmsədrlər münaqişənin "mərhələli həlli"nə əsaslanan yeni təklif təqdim etmişdirlər. Bu təkliflər ilk mərhələdə Dağlıq Qarabağın ətrafındakı rayonların işğaldan azad olunması, ATƏT-in sülhyaratma əməliyyatlarının başlaması, köçkünlərin azad olunmuş ərazilərə qayıtması və münaqişə

bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə Laçın dəhlizi və Şuşa şəhəri, həmçinin Dağlıq Qarabağın statusu məsələləri həll olunmalı və nəticədə ATƏT-in Minsk konfransı çağırılmalı idi. 1997-ci ilin 10 oktyabr tarixində Strasburqda Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanatla çıxış edərək, həmsədrlərin son təkliflərinin Minsk qrupu çərçivəsində danışıqların bərpa edilməsi üçün ümidverici baza olduğunu bildirmişlər. Lakin 1998-ci ilin fevral ayında Ermənistan prezidenti Levon Ter-Petrosyanın istefası və 1998-ci ilin mart ayında Robert Köçəryanın hakimiyyətə gəlişindən sonra həmsədrlərin bölgəyə növbəti səfəri zamanı Ermənistan rəsmi olaraq, münaqişənin "mərhələli" həlli təkliflərinə dair razılığını geri götürmüşdür.

1996-cı ildən 2016-cı ilədək dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində çoxsaylı görüşlərin keçirilməsi Ermənistan tərəfinin məsələyə qeyri konstruktiv münasibətini bir daha təsdiqləmişdir.

2016-cı ildə İƏT-in İstanbulda keçirilən sammitində İƏT çərçivəsində "Ermənistan Respublikasının Azərbaycana təcavüzünə dair Təmas Qrupu" yaradılıb. Təmas Qrupunun tərkibinə 7 ölkə daxildir: Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Mərakeş, Cibuti, Qambiya, Avropa İttifaqı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına, tərəflərin ərazi bütövlüyünə, beynəlxalq sərhədlərinə hörmət göstərilməsinə və heç bir beynəlxalq legitimliyi olmayan, güc yolu ilə yaradılmış vəziyyətdən imtina edilməsinə çağırır. 2017-ci il noyabrın 24-də Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı sammitində qəbul edilən birgə bəyannamədə Avropa İttifaqı bütün tərəfdaşların ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləməklə bu məsələdə qərarlı olduğunu nümayiş etdirib. 2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri ağır silahlardan atəşə tutub. Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla 6 nəfər həlak olub, 33 nəfər isə ağır yaralanıb. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verib, əks-həmlə nəticəsində strateji əhəmiyyətli mövqeləri işğaldan azad edib. Aprel hadisələrindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından tamamilə azad olunub. Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları əsasında böyük bərpa və quruculuq işləri görülmüş, kənddə normal həyat bərpa olunmuşdur. Ermənistan siyasi və hərbi təxribatlarını 2017-ci ildə də davam etdirib. Ermənistan hərbi hissələri ağır artilleriya qurğularından Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tutub. Nəticədə iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində 2 mülki şəxs qətlə yetirilmiş, bir nəfər isə ağır yaralanmışdır. Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan destruktiv siyasəti ilə problemin mərhələli şəkildə tənzimlənməsinə mane olur, siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışır və Azərbaycan ərazilərinin işğalına əsaslanan mövcud status-kvonu qorumağa çalışır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın beynəlxalq sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Hazırda dünya birliyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə tanıyır və dəstəkləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq bəyan edib ki, "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Yəni, Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaq".[9]

2019-cu ilin 29 mart tarixində Vyanada Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etmək üçün görüşü baş tutmuşdur. Görüş əvvəlcə təkbətək keçirilib, daha sonra ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam etmişdir.

2019-cu ilin 15 aprel tarixində Moskva şəhərində Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında görüş keçirilmişdir. Görüşdə həmçinin ATƏT-in Minsk Qrupunun həmsədrləri iştirak etmişdir. Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini, danışıqlar prosesinin irəli aparılmasını, münaqişə zonasında gərginliyin azaldılmasını, həmçinin KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla, insanlararası təmasların qurulması istiqamətində addımların atılması müzakirə edilmişdir. 2019-cu ilin 20 iyun tarixində Vaşinqton şəhərində Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında görüş keçirilmişdir. Görüşdə həmçinin ATƏT-in Minsk

Qrupunun həmsədrləri iştirak etmişdir. Görüş zamanı nazirlərin bundan öncəki Paris və Moskva görüşləri nəticəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi müzakirə edilmişdir. 2019-cu ilin 23 sentyabr tarixində Nyu York şəhərində Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü keçirilmişdir. Görüş zamanı ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirilməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə fikir mübadiləsi aparılmışdır.

2019-cu ilin 5 dekabr tarixində ATƏT Nazirlərinin Bratislavada keçirilən iclası çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin ilə görüşü keçirilmişdir. 3 saat yarımdan çox davam edən görüş zamanı tərəflər münaqişənin həlli ilə bağlı mövcud vəziyyəti və onun gələcəkdə sülh yolu ilə həlli istiqamətləri ətrafında müzakirələr apardılar. Nazirlər danışıqların davam etdirilməsi və gələn ilin əvvəllərində növbəti görüşün keçirilməsi üzrə razılığa gəlmişdirlər.[9]

2020-ci ildə Fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr hətta Ermənistan tərəfindən birmənalı qarşılanmadı. Ermənistanın Azərbaycana hərbi təzavüzündən sonra ilk dəfə idi ki, beynəlxalq səviyyədə belə bir formatda açıq diskussiya keçirilirdi. Azərbaycan lideri İlham Əliyevin debatda fərqli olaraq tarixi faktlara əsaslanması, problemə məntiqi yanaşması, intellektual potensialı ilə auditoriyanı ələ alması, müzakirələr zamanı Nikol Paşinyandan arqumentli danışması, tərəf müqabili üzərində psixoloji üstünlük əldə etməsi Ermənistan mətbuatının da diqqətindən yayınmayıb. Bu ölkənin "Tert.am" saytı bir neçə aparıcı ekspertin iştirakı ilə Münxen debatında Paşinyanın və Əliyevin arqumentlərini incələyib. Ermənistanın "Tert.am" saytının müzakirəsində iki ölkə rəhbərinin Münxen debatı ilə bağlı daha sonra bildilirib ki, Azərbaycan tərəfi ənənəvi arqumentlərini təkrarladı. Paşinyan, görünür ki, buna hazır deyildi və mənasız "münaqişə hər üç xalqın: Azərbaycan, Ermənistan və Qarabağın maraqlarına cavab verməlidir" tezisindən başqa heç nə deyə bilmədi. Tarixi mübahisələri kənara qoysaq, Əliyev növbəti dəfə danışıqlarda tələbini açıq şəkildə ortaya qoydu, Paşinyan isə növbəti dəfə bunu edə bilmədi. Erməni saytında deyilir: "Rəsmi Bakı Qarabağı öz tərkibində görmək, Şuşa və digər yaşayış məntəqələrini qaytarmaq istəyir. Bütün bunlara Əliyev mərhələli həll variantını: ətraf 7 rayonun dönüşünü, məcburi köçkünlərin öz torpaqlarına qaytarılmasını və s. istəyir. Paşinyan isə İlham Əliyevin şahin kimi göründüyü müzakirələrdə Qərbin dəstəyini almaq üçün özünü sülh göyərçini kimi təqdim edirdi. Amma bu çox təhlükəli oyundur, xüsusən Münxendə" [26].

Münaqişənin həll edilməsində hərb yolunun istisna edilməməsi Azərbaycanın hərbi cəhətdən son dövrdə güclənməsinin nəticəsi olaraq qiymətləndirilirdi.

Arxada qalan hər bir il ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi ilə əlamətdar olur. Və bu inkişaf paralel şəkildə digər sahələrin inkişafına, o cümlədən ordumuzun döyüş imkanlarının artırılması istiqamətində qarşıya qoyulan vəzifələrin daha sürətlə həyata keçirilməsinə təkan verdi. Güclü ordu dövlətin və xalqın təhlükəsizliyinin əsas təməl prinsiplərindən biridir. Ona görə Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin daim artırılması torpaqlarımızın işğal altında qaldığı bir vaxtda təbii olaraq qarşıda dayanan ən əsas vəzifədir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyətində ordu quruculuğu məsələləri daim prioritetdir. Bu istiqamətdə Heydər Əliyevin başlatdığı işləri layiqincə davam etdirən ölkə rəhbərinin qarşıya qoyduğu vəzifə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin ən yüksək səviyyəyə çatdırılmasıdır. Artıq bu istiqamətdə son 16 ildə möhtəşəm nailiyyətlərə imza atılıb. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində bu dövrdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəldilmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Ordunun döyüş imkanlarının artırılması sahəsində diqqət yetirilən əsas məsələlərdən biri isə modernləşmə, yəni ən son hərbi texnologiyaların silahlanmaya cəlb edilməsidir. Bu baxımdan indiyədək keçirilən möhtəşəm paradlarda nümayiş etdirilən silah və texnikalar Silahlı Qüvvələrimizin həm güc və qüdrətini, həm də modernləşdiyini təsdiqləyir. Bu paradlar həm də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının təntənəsi və gözəl nümunəsi idi. Çünki Azərbaycan Silahlı Qüvvələrinin qüdrətlənməsi və işğal olunmuş ərazilərimizi istənilən an azad etməyə qadir mükəmməl bir orduya çevrilməsi yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək əzmkarlıq Heydər Əliyev ideyalarının

davam etdirilməsi deməkdir. Hazırda Azərbaycan Silahlı Qüvvələri regionun qüdrətli hərbi gücüdür. Ən mühümü odur ki, ölkəmiz işğalçı Ermənistan qarşısında əzici üstünlüyə malikdir. Bunu ötən illərdə baş vermiş bir sıra hadisələr də təsdiqləyir. 2014-cü ilin avqust hadisələri, 2016-cı ilin aprel döyüşləri və nəhayət 2017-ci il Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqi idi. Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib oldu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verdi ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edilsin və istənilən tədbir görülsün. Hazırda dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlar Azərbaycanda var. Bunun nəticəsidir ki, Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Həmçinin beynəlxalq reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır. Məsələn, bu günlərdə ABŞ-ın “Global Firepower” araşdırma mərkəzinin açıqladığı dünyanın ən güclü ordularının siyahısında Azərbaycan Silahlı Qüvvələri də yer alır. Mərkəzin dünyanın 137 ölkəsinin hərbi gücü ilə bağlı araşdırmasına əsasən, Azərbaycan 52-ci yerdə qərar tutub. Bununla yanaşı, Azərbaycan tank və zirehli maşınlar, raket və artilleriya sistemləri göstəricilərinə görə siyahıda daha da qabaqdadır. Belə ki, “Global Firepower” hesab edir ki, Azərbaycan Ordusu tanklarına görə dünyada 32-ci, zirehli döyüş maşınlarına görə 41-ci, özüyeriyən artilleriyaya görə 27-ci, raket sistemlərinə görə isə 21-ci yerdədir. Bu siyahıda ölkəmiz Qazaxıstan, Macarıstan, Avstriya, Çili, Slovakiya, Birləşmiş Ərəb Əmirlikləri, Finlandiya, Filippin, Portuqaliya, Belçika, Yeni Zelandiya kimi qabaqcıl ölkələrdən irəlidədir. Cənubi Qafqaz regionundan Gürcüstan 85-ci, işğalçı Ermənistan isə 96-cı yerləri tutublar. Təbii ki, hər bir ordunun gücü həm də onun şəxsi heyətinin mənəvi-psixoloji durumunun yüksək səviyyədə olmasından asılıdır. Fəxarət hissi ilə qeyd etməliyik ki, Azərbaycan Silahlı Qüvvələrində rütbəsindən asılı olmayaraq xidmət keçən hər bir şəxs öz hərbi borcunu layiqincə yerinə yetirir. Ordumuzda fərarilik halı isə ümumiyyətlə yoxdur. Bundan başqa, ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi Azərbaycanda istehsal olunan silah-sursat növləri öz göstəricilərinə görə fərqlənir və bir sıra orduların arsenalında yer alır.

Azərbaycanda Ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO- ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması öz nəticəsini verməkdədir. Hazırda Azərbaycan ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir, ordunun maddi - texniki bazası möhkəmləndirilir. Yüksək ixtisaslı milli hərbi kadr hazırlığı istənilən məkan və zaman şəraitində ordu quruculuğu prosesinin obyektiv tələbidir. Hərbçi peşəsinin incəliklərinə yiyələnmiş zəruri sayda peşəkar kadr olmadan ordu quruculuğu kimi çətin bir işi uğurla həyata keçirmək mümkün deyil. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə yaradılan C.Naxçıvanski adına Hərbi Liseyi və Naxçıvan Muxtar Respublikasında yaradılan Heydər Əliyev adına Hərbi Liseyi ötən illər ərzində minlərlə gənc bitirərək ali hərbi məktəblərə daxil olmuş və böyük ordu həyatına vəsiqə almışlar.

Hər il Azərbaycan Respublikası ilə NATO arasında fərdi əlaqələndirmə proqramı hazırlanır və təsdiq edilir. Proqrama əsasən Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri NATO-nun hərbi məktəblərində, kolleclərində və başqa strukturlarında keçirilən sülhməramlı kurslarda, Avropa təhlükəsizlik sahəsində əməkdaşlıq, adi silahlara nəzarət, böhran vəziyyətini idarəetmə, ətraf mühitin mühafizəsi, inteqrasiya proseslərinin genişləndirilməsi və digər tədbirlərdə iştirak edirlər. Hərbçilərimiz sülhməramlı, humanitar və digər çoxmillətli təlimlərin planlaşdırılması, hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər. Azərbaycan sülhməramlılarının bundan əvvəl Kosovoda, İraqda və hal-hazırda isə Əfqanıstanda NATO-nun, Koalisiya Qüvvələrinin tərkibində öz missiyalarının layiqincə və yüksək peşəkarlıqla yerinə yetirmələri NATO komandanlığı tərəfindən də yüksək qiymətləndirilmişdir.

2004-cü ilin may ayında Fərdi Tərəfdaşlığın Fəaliyyət proqramı NATO Baş katibinə təqdim edilmişdir. Bu proqram 2005 -ci ilin may ayında NATO tərəfindən təsdiq edilmiş və onun icrasına başlanmışdır. Son illərdə NATO-nun müxtəlif tədbirlərində Azərbaycan Silahlı Qüvvələrinin yüzlərlə nümayəndəsi iştirak etmişdir.

Azərbaycan Ali Hərbi Məktəbində “NATO - Sülh naminə tərəfdaşlıq” kafedrası, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində isə Sülh Naminə Tərəfdaşlıq Milli Təlim Mərkəzi yaradılmışdır. NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramı

çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə təcrübə mübadiləsi aparmaq, mühazirələr oxumaq və seminarlar keçirmək məqsədilə Respublikamıza vaxtaşırı NATO-nun müxtəlif komandanlıqlarından, strukturları və idarələrindən hərbi nümayəndə heyətləri gəlir. NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində respublikamızda bir neçə çoxmillətli komanda-qərargah təlimləri keçirilmişdir. "Kooperativ Determineyşn", "Regional cavab -2009" kimi təlimlərdə NATO üzvü və tərəfdaş dövlətlərdən nümayəndələr iştirak etmişdir.

Ordumuzun möhkəmlənməsi istiqamətində Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin yaradılması yeni mərhələnin əsasını qoydu. Azərbaycan bu gün nəinki hərbi əşya və arxa təminat təchizatçısıdır, artıq döyüş silahlarını da istehsal edir. Bu silahlar nəinki daxili tələbata yönəldilir, həm də dünya bazarlarına çıxarılır və ciddi rəğbətlə qarşılanır. Silahlı Qüvvələrimizin təminatının gücləndirilməsi, Dövlət büdcəsində hərbi xərclərin artırılması da əhəmiyyətli məqamlardandır. Məlum olduğu kimi Ermənistanın büdcəsi Azərbaycanla müqayisə edilə bilməz. Demək lazımdır ki, bu yanaşma problemin həllinə birbaşa təsir edir.

Azərbaycan dövlətinin qüdrətinin artması ilə paralel Azərbaycan Ordusunun da səviyyəsi yüksəlmişdir. Vaxtilə, Prezident İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi dövlət büdcəsinə bərabər olacaq" bəyanatı işğalçı ölkədə elə də ciddi qəbul edilmirdi. Onlar bunu sadəcə təbliğat hesab edirdilər. Ancaq aparılan işlər ölkə prezidentinin verdiyi bəyanatın həqiqiliyini sübut etdi. Artıq bir neçə ildir ki, Azərbaycanın hərbi büdcəsi 2 milyard dollara bərabərdir. Bu isə təxminən Ermənistanın dövlət büdcəsinə bərabərdir. Qeyd edim ki, bu ölkənin 2010-cu il üçün dövlət büdcəsi 2,2 milyard dollardır. Bu fakt torpaqlarımızın 20 faizini işğal etmiş, bütün siyasətini ancaq və ancaq qonşu dövlətlərin torpaqlarının işğalı üstündə quran Ermənistanda da kifayət qədər məlumdur. Təbii resursları kasad olan, militaristləşdirilmiş siyasət həyata keçirərək Azərbaycana, Türkiyəyə, Gürcüstana torpaq iddiaları irəli sürməsi və beləliklə də özünü inkişafdan kənarda qoyması Ermənistanda iqtisadiyyatın geriləməsinə səbəb olmuşdur.

Azərbaycan xalqı isə öz qüdrətli dövlətini qurmağa, torpaqlarının bütövlüyünün təmin olunmasına çalışır. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu istiqamətdə apardığı iş müsbət nəticə verməkdədir və ölkəmizə daha da yeni uğurlar qazandıracaq. [13.s,2]

Prezident İlham Əliyev Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantaları qarşısında 2012-ci ildə çıxışı zamanı deyib: "... əfsuslar olsun ki, müasir dünyada beynəlxalq hüquq normaları pozulur. Biz bu mənzərəni görürük. Bu pozuntular getdikcə daha da geniş vüsət alır. Belə olan halda, əlbəttə bizdə görürük ki, güclü olmasan, sənin hüquqların tapdanacaqdır."[15]

Hərbi sahədə milli təhlükəsizliyin qorunmasında əsas rol orduya məxsusdur. Silahlı qüvvələrə göstrəilən qayğı və Azərbaycanın hərbi cəhətdən güclənməsi Respublikanın konstitusyon hüquqları və o cümlədən beynəlxalq hüququn norma və prinsipləri ilə heç bir ziddiyət təşkil etmir. Ermənistan respublikası tərəfindən ərazisinin 20%-nin işğal altında saxlanılması və mövcud hərbi təhdidin daim mövcud olması, həmçinin regional geosiyasi vəziyyətin mürəkkəb olması, Azərbaycanın hərbi strategiyasında onun silahlı qüvvələrinin gücləndirilməsi, regionun ən güclü ordularından birinə çevrilməsini həyata keçirmək məsələsini ön plana çəkmişdir. Region üçün ən böyük təhdid isə Ermənistanın təcavüzkar siyasəti, erməni terroru və Dağlıq Qarabağda silahlı qrupların fəaliyyətini davam etdirməsidir. Bu fikirlər əsasında Cənubi Qafqazın təhlükəsizliyinin qlobal təhlükəsizlik kontekstində əsas məqamlarını müəyyənləşdirə bilərik. Məsələ Cənubi Qafqazın bir geosiyasi sistem olaraq özünütənzimləməyə nail olmasından ibarətdir. Bunun üçün isə yuxarıda vurğuladığımız təhlükə və təhdidlərin mənfi təsirlərini neytrallaşdırıb, regionda sabitliyi təmin edən mexanizmlərin səmərəliliyini artırmaq lazım gəlir. Onların sırasında indiki mərhələdə Ermənistanın sülhə məcbur edilməsi mexanizminin işə salınmasını zəruri hesab edilən məsələdir. Bu, region üçün yeni bir mexanizmdir. Lakin təcrübə göstərir ki, qlobal təhlükəsizlik kontekstində regionun təhlükəsizliyini təmin etməyin başqa yolu yoxdur. Həmin üsulun səmərəliliyi aprel müharibəsində açıq hiss edildi. Dərhal rəsmi İrəvan barış yolları axtarmağa başladı. Deməli, bu mexanizmin əsası qoyulub. Bundan sonra əsas təşəbbüs qlobal təhlükəsizlikdə ciddi rol oynayan böyük dövlətlərin təzyiqi faktorunun önə çıxmasının vacibliyindədir. Konkret desək, onlar Ermənistanı sülhə məcbur etməlidirlər. Deməli, Azərbaycan region ölkəsi kimi faktiki olaraq təhlükəsizliklə bağlı çoxşaxəli

fəaliyyət göstərməklə öz funksiyasını layiqincə yerinə yetirir. Beləliklə, qlobal təhlükəsizlik kontekstində regional təhlükəsizlik sisteminin formalaşmasında ‘’sülhə məcburetmə” prinsipinin Azərbaycan formulunun mühüm bir özəlliyi vardı[18]. Lakin münaqişənin həll olunmasında bütün qeyd eilən labüd faklarla yanaşı hərbi cəhətdən güclənmənin də paralel olaraq müasir dünyada əhəmiyyət daşıdığını nəzərdən qaçırmaq olmaz. Son dövrdə Cənubi Qafqazın Regional təhlükəsizlik məsələsi Beynəlxalq manasibtlərdə çox aktual məsələlərdəndir. Dünyanın aparıcı dövlətlərinin müzakirələrinin bir hissəsini təşkil edən və hər zaman aktual olan Cənubi Qafqaz regionunun münaqişələri xüsusən də Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövzusunun, regionun geostrateji cəhətdən son dərəcə əhəmiyyətli olmasını göstərdi. Regionun üstün geostrateji mövqeyindən səmərəli istifadə etməklə, şərq-qərb nəqliyyat, beynəlxalq transmilli enerji lahiyələrinin həyata keçirilməsində ev sahibliyi və vasitəçiliyi Azərbaycan üçün eyni zamanda yeni təhlükəsizliyin qarantı olmaq məsuliyyətini yartmışdır. Azərbaycanın hərbi cəhətdən güclü olmaq strategiyası sadalanan beynəlxalq tranzit-enerji lahiyələrinin infrastrukturunun təhlükəsizliyinin həyata geçirilməsi, ona etibarlı və dayanıqlı beynəlxalq partnyor imicini qazandırmışdır. Beynəlxalq əhəmiyyətə malik mühüm lahiyələrin təhlükəsizliyində etibarlı və dayanıqlı tərəf müqabili öhdəliklərinin davamlı həyata keçirilməsi getdikcə Azərbaycanın nüfuzunu artırmış və Azərbaycanın hərbi cəhətdən güclənmək strategiyasının iki əsas səbəbini yaradmışdır:

1) Hərbi təhdid səbəbləri;

2) Geostrateji səbəblər:

Beləliklə məqalədə Azərbaycan Respublikasının məhz Cənubi Qafqaz regionunun və beynəlxalq enerji lahiyələrinin təhlükəsizliyi məqsədilə apardığı hərbi cəhətdən güclənmə siyasətinin birinci; hərbi təhdid səbəbini əsas götürməklə güc amilinin yüksək əhəmiyyət verildiyi müasir geosiyasət kontekstində, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həll olunması imkanları təhlil edildi. Məhz bu səbəblərdən irəli gələn milli hərbi strategiya Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bərpa edilməsi ilə həll olunması proqnozlarını doğrultdu.

Digər tərəfdən də Azərbaycan ordusunun əməliyyat taktiki baxımdan hərbi strategiyaında yenilənmə baş verdi. Bu yenilənmə aprel 2016-cı ilədək olan düşmənlə bilavasitə təmas xəttində aktiv müdafiə hərbi strategiyasının, düşmənin təxribat xarakterli əməliyyatlarının qarşısının alınması və əks hücumların təşkili strategiyası ilə əvəzlənməsi ilə baş verdi. Qabaqlayıcı uğurlu əks hüçüm əməliyyatlarının gedişində Azərbaycan ordusunda müasir qoşun kəşfiyyatı məlumatlarının təhlilinin, taktiki monitorinq və qiymətləndirmənin, operativ qərar qəbuletmənin və idarəetmənin ən yüksək səviyyədə olmasını bir daha göstərdi. Düşmən Ermənistan ordusunun təxribat xarakterli hücumlarının qarşısının alınması üçün qabaqlayıcı əks hücumla işğal altında olan ərazilərimizin azad edilməsi strategiyası düşmənə qarşı “sülhə məcburetmə” əməliyyatının həyata keçirilməsi üçün qazanılmış təcrübə idi.

Azərbaycanda enerji infrastrukturu təkcə ölkənin özü üçün deyil, həm də Avropa Birliyi və NATO üçün eyni dərəcədə vacib olması məsələsinin də gündəmdə olmuşdur [30]. 2020-ci il 12 iyuldan etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədlərinin artilleriyalardan atəşə tutulması qarşı tərəfin məkrli siyasətinin bariz nümunəsidir. Ordumuzun əks hücum tədbirləri nəticəsində düşmən tərəf xeyli sayda canlı qüvvə və hərbi texnika itirərək geri çəkilib. Lakin atəşkəsin qoşunların təmas xəttində deyil, iki ölkə sərhədində pozulması haqlı olaraq Azərbaycan ictimaiyyətinndə sual doğurmuşdur. Ehtimal olunan variantlardan biri odur ki, Avropa ilə Azərbaycanı birləşdirən iri kommunikasiya xətləri məhz bu bölgədən keçməsi ilə bağlıdır. Dövlət sərhədinin Tovuz istiqamətində gərginlik yaranacağı halda Rusiya bura yaxınlaşma şansı qazanacaq və eyni zamanda Avropa Birliyi və Türkiyə üçün təhlükəsizlik problemi yaradır [31].

2020-ci ilin əvvəlindən başlayaraq Ermənistan rəsmiləri, baş naziri Nikol Paşinyan, bu ölkənin prezidenti Armen Sarkisyan, müdafiə naziri David Tonoyan, silahlı qüvvələrin baş qərargahının rəisi Onik Qasparyan və başqalarının işğal altında olan Azərbaycan torpaqlarına qanunsuz səfər etmişlər. Avqustun sonunda da Ermənistanın müdafiə naziri David Tonoyan separatçıların başçısı Araik Arutunyanla hərbi əməkdaşlığı müzakirə etmişdir. Bunun ardınca Paşinyan Qarabağa gəlib separatçılarla hərbi məsələlərin müzakirəsini aparır, işğal altında olan torpaqlara köçkün adı altında terroristləri yerləşdirir. Bu şəkildə aqressivlik, qeyri konstruktiv bəyanatlar, Ermənistanın bir daha konfliktin həllində sülh danışıqları formatında münaqişənin həlli arzusunun olmadığını göstərdi. Belə halda

BMT-nin Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı qətnamələrinin 27 ildir icra olunmadığından, onun özü tərəfindən icra edilməsi üçün tam əsaslar yaranmışdır. Azərbaycan Respublikası öz silahlı qüvvələrindən və hərbi birləşmələrdən istifadə etməklə bu qətnmələrin icrasını həyata keçirərək Beynəlxalq müstəvidə tanınan ərazi bütövlüyünü bərpa etmək üçün öz torpaqlarını işğalçı Ermənistanın silahlı və xarici muzdlu qüvvələrindən təmizləməyə başlaması qaçılmaz idi. Beləliklə Azərbaycan Respublikası öz silahlı qüvvələrindən və hərbi birləşmələrdən istifadə etməklə bu qətnmələrin icrasını həyata keçirərək Beynəlxalq müstəvidə tanınan ərazi bütövlüyünü bərpa etmək üçün öz torpaqlarını işğalçı Ermənistanın silahlı və xarici muzdlu qüvvələrindən təmizləməyə başlaması hüquqi və siyasi baxımdan zəruri addım idi. Hərbi strategiya baxımından da Azırbaycan buna hazır idi. 2020-ci ilin sentyabrın 27-də başlanan erməni təxribatı Azərbaycan ordusunun yuxarıda qeyd edilən hərbi strategiyaya uyğun olaraq əks hücumu ilə yaşayış məntəqələrinin ardıcıl olaraq işğaldan azad edilməsi əməliyyatı başlandı. 44 gün davam edən şiddətli döyüşlərdə Ali baş komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz Suqovuşanı (keçmiş Madagez), Cəbrayıl və onun kəndlərini, Xocavənd şəhəri və kənlərini, Fizuli şəhəri və kəndlərini, Zəngilan şəhəri və kəndlərini, Qubadlı şəhəri və kəndlərini, həmçinin müqəddəs şəhərimiz olan Şuşanı düşməndən azad etmişdir. Beləliklə Ali baş Komandan, ordu və milli birlik Azərbaycan xalqını, öz torpaqlarına qovuşmaq üçün gözləıdiyi 30 illik arzusuna qovuşdurdu. 10 noyabr 2020-ci ildə Ermənistan Azərbaycan və Rusiya dövlət rəhbərlərinin iştirakı ilə üçtərəfli bəyanat imzalanmış, bu bəyanata görə Ermənistan baş naziri N.Paşinyan qısa müddətdə Azərbaycanın digər işğal olunmuş Kəlbəcər Ağdam və Laçın rayonlarının boşaldılıb Azərbaycana verməsini öhdəlik olaraq qəbul etmiş, bununla bağlı vaxt cədvəli ilə razılaşmaya imza atmışdır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu bəyanat xalqımıza elan edilmişdır. Hüquqi baxımdan imzalanmış bu bəyanat Ermənistanın məğlubiyyətinin rəsmiləşdirilməsinin ilkin faza sənədi kimi qiymətləndirilir. 16 noyabr 2020-ci il tarixdə şanlı ordumuz tərəfindən işğaldan azad olunmuş rayonlara ilk dəfə səfər edən ölkə başçısı Prezident İlham Əliyev Fizuli və Cəbrayıl rayonlarında olmuş və düşmən tərfindən dağıdılmış bütün ərazilərin yaxın gələcəkdə bərpa olunacağını bildirmişdir. Ölkə başçısı həmçinin beynəlxalq və yerli mütəxəsislər tərəfindən yaşayış yerlərinə vurulmuş ziyanın qiymətləndiriləcəyini və buna görə Ermənistan tərəfinə təzminat iddiasının qaldırılmasını da öz çıxışında vurğulamışdır.

Daha sonra dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul etdiyi görüşdə çıxış edən Azərbaycan Respublikasının Prezident İlham Əliyev demişdir ki, "Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər" [32] .

**Açar sözlər:** *milli təhlükəsizlik, regional təhlükəsizlik, hərbi doktrina, hərbi təcavüz, soyqırım, ərazi bütövlüyü, beynəlxalq aləm.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. http://www.ebooks.az/Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI Dağlıq Qarabağ münaqişəsi.*

*2. www.usinfo.state.gov/russki/topics/ terror/ lol-jones.htm.ABŞ-ın dövlət departamentinin saytı, Beynəlxalq informasiya proqramları. Terrorizm 11.10.2001*

*3. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının yekun Aktı. M., 1987.*

*4. BMT-nin nizamnaməsi, Nyu-york. 1998.*

*5. BMT TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələri.*

*6. BMT TŞ-nın (1993) 29 iyul 1993-cü il tarixli 853 saylı qətnaməsi.*

*7. //http ://www. azerembassy. org.cn/rus/back_ ecdam.html. aqressiyası nəticəsində Azərbaycana vurulmuş iqtisadi ziyan*

*8. KoacyuiKO E.CoBpeMeHHHH TeppopH3M. Minsk. 2003.*

*9. http://mfa.gov.az/az/content/111/munaqisenin-helli-prosesi*

*10. https://sesqazeti.az/news/kivdf/357060.html VAHİD ÖMƏROV*

*11. http://www.azerbaijan-news.az/view-171726/ regionun-qudretli-herbi-gucu*

*12. Hərbi doktrina*

*13. Aydın Mirzəzadə, Milli Məclisinin deputatı, YAP Siyasi Şurasının üzvü Azərbaycan qəzeti- 2010. 11 aprel.*

*14. Dictionary of Military and Associated Terms (as ammended through 15 January 2012) US Department of Defence, The Joint Publication 1-02, Acessed 8 November 2010,*

*15. http://www.president.az/articles/5252 Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı; Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2012-ci il buraxılışına həsr olunmuş mərasim, 25 iyun 2012-ci il.*

*16. http://supremecourt.gov.az/static/view/173 AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu;*

*17. A.N.Abasbəyli. Dünya siyasəti. Bakı,2011.*

*18. Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransının / AZƏRTAC, 4 fevral 2012.*

*19. ASE. Cild III. Bakı, 1979.*

*20. ASE. Cild IX. Bakı, 1986.*

*21. https://mod.gov.az/az/20-yanvar-faciesi-414/*

*22. http://www.dtx.gov.az/news405.php]*

*23. Bakı, 7 iyun 2016 – Newtimes.az*

*24. Баранов Н.А. Международная безопасность и механизмы ее обеспечения // Лекции по курсу "Основы международной безопасности" / ''nicbar.ru").*

*25. http://www.meclis.gov.az/?/az/content/158*

*26. http://xalqqazeti.com/mobile/az/news/41481*

*27.Əli HəsənovAzərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı 2016. 663 s.*

*28. Azərbaycan: Müstəqillik və tarixi irs. Bakı 2001. 117s*

*29. Смирнов Р.Организация в США военно-научной деятельности //http://pentagonus.ru/*

*30. www.Newtimes.az*

*31. https://aqreqator.az/az/siyaset/895512*

*32. https://president.az/articles/48908 Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 12 dekabrda ATƏT-in Misk qrupunun həmsdr ölkələrinin nümayəndələri ilə görüşündən.*

**РЕЗЮМЕ**
**Аллахвердиев Рамиль Ариф**

**Армяно-Азербайджанский нагорно-карабахский конфликт и военная стратегия Азербайджана**

Военная политика укрепления безопасности в регионе Южного Кавказа и безопасности международных энергетических проектов урегулирование Армяно-Азербайджанского нагорно-карабахского конфликта в контексте современной геополитики, где силовой фактор приобретает все большее значение, Это еще больше увеличивает перспективы восстановления территориальной целостности Азербайджана.

**Ключевые слова:** *национальная безопасность, региональная безопасность, военная доктрина, военное вторжение, геноцид, территориальная целостность, международное сообщество.*

**SUMMARY**
**Allahverdiyev Ramil Arif**

**Armenian-Azerbaijani Nagorno-Karabakh conflict and military strategy of Azerbaijan**

Military strengthening policy for the security of the South Caucasus region and the security of international energy projects, In the context of modern geopolitics, where the power factor is increasingly given importance, Armenia and Azerbaijan further increase the prospects for resolving the Nagorno-Karabakh conflict and restoring Azerbaijan's territorial integrity.

**Key words:** *national security, regional security, military doctrine, military aggression, genocide, territorial integrity, the international community.*

UOT 327; 930.22

# TÜRKİYƏNİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU

**HUMAY GÜLMƏLİYEVA**
*BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının doktorantı*

*E-mail: humayalibayova@gmail.com*

Geosiyasi xarakteristika vacib element olduğu üçün Türkiyə xarici siyasət nümayəndələri xarici siyasəti müəyyənləşdirərkən bu amili nəzərə alır ki, bu da Türkiyənin strateji cəhətdən əhəmiyyətli mövqedə yerləşməsi ilə bağlıdır. Geosiyasi amil ölkələrarası əlaqələri analiz etmək üçün xüsusi əhəmiyyətə malikdir, lakin onun məzmunu həm nəzərdən keçirdiyimiz ölkə, həm də onun digər ölkələrlə əlaqəsinin xarakterindən asılıdır.

Düzdür, gosiyasət bütün daxili və xarici siyasət strategiyalarının müəyyənləşdirilməsində iştirak edən amil olmur. Lakin ölkə öz geosiyasi vəziyyətinə əsasən siyasətini müəyyənləşdirir. Ölkənin geosiyasi üstünlük və zəiflərini nəzərə alır.

Kolin Flintə görə ölkələrin dünyaya münasibətdə meyl etdiyi istiqamət geosiyasi kodeks adlanır. Flintə görə bu kodeksdə 5 amil mövcuddur.

1) ölkənin cari və potensial müttəfiqləri kimdir.
2) ölkənin cari və potensial düşmənləri kimdir.
3) müttəfiqləri necə qoruyub saxlamalı.
4) düşmənlərə və təhlükələrə qarşı necə mübarizə aparmalı.
5) ölkə ictimaiyyəti və qlobal səviyyədə bu dörd amili necə əsaslandırmalı.

Hər bir ölkə üçün ilk növbədə qonşuluq amili, qonşu ölkələrin xarakteri vacibdir. Müttəfiqləri iqtisadi, mədəni, hərbi, təhsil əlaqələri ilə saxlamaq olar. Düşmənlərə qarşı isə hərbi və qeyri-hərbi (sanksiyalar, boykot, diplomatiya) metodlardan istifadə etmək olar (7, s:3).

Türkiyənin geostrateji mövqeyinin üstün və zəif cəhətləri mövcuddur. Üstünlüklər ondan ibarətdir ki, Asiya, Afrika və Avropanın kəsişməsində yerləşən, Aralıq, Qara və Egey dənizləri ilə əhatə olunan, Bosfor və Dardanel boğazlarına sahib olan Türkiyə strateji cəhətdən əlverişli mövqeyə malikdir. O, təbii resurslarla zəngin olan Yaxın Şərq və bu resurslara ehtiyacı olan Avropa arasında yerləşir və bu resursların Avropaya nəqlində tranzit cəhətdən mühüm əhəmiyyət kəsb edir. Hər bir enerji-nəqliyyat layihələri onun rolunu daha da artırır. Mənfi cəhətlər isə ondan ibarətdir ki, Türkiyə terrorizm, mütəşəkkil cinayətkarlıq, miqrasiya məkanına çevrilə bilər (7, s:4).

Türkiyənin əlverişli geostrateji mövqeyi onun dünya enerji siyasətində mövqeyinə də təsir göstərir. Belə ki, o, təbii ehtiyatlarla zəngin olan bölgələrdən enerjinin qərbə nəqlində əsas tranzit ölkələrdən biridir.

Strateji nöqteyi-nəzərdən Türkiyəyə müxtəlif adlar verilmişdir: 1. pikdə dayanan, 2. həyati, 3. periferial, 4. mərkəzi. Şiner Aktürkə görə Türkiyənin dünya siyasətində milli maraqlarını başa düşmək üçün 4 istiqamətə fikir vermək lazımdır: 1. Pan-İslamçılıq, 2. Pan-Türkçülük, 3. Qərbçilik, 4. Avrasiyaçılıq. Pan-İslamçılıq Ərəb –İslam ölkələrinə yönəlik siyasəti nəzərdə tutur. Pan-Türkçülük türk dünyasında lider rola malik olmağa əsaslanır. Qərbçilik Avropa və Atlantik strukturlarına gələcək inteqrasiyanı nəzərdə tutur. Avrasiyaçılıq isə Rusiya meylli oriyentasiyaya əsaslanır (2).

Türkiyənin geostrateji əhəmiyyəti aşağıdakı faktorlarla əlaqəlidir:

- ✓ O, Qara dəniz regionunu stabilləşdirir,
- ✓ Boğazlara nəzarət edir,
- ✓ NATO-nun cənub dayağı rolunu oynayır,
- ✓ Bütün cənub-şərqi ərazidə Rusiyanı balanslaşdırır,
- ✓ O, regionda yeni müstəqillik qazanmış ölkələr üçün model rolunu oynayır və onların dünya birliyinə inteqrasiyasına kömək edir,
- ✓ Xəzər hövzəsi və Mərkəzi Asiya ilə Qərb dünyasının enerji əlaqələrinin qurulmasında vacib

rol oynayır,

✓ Balkan və Yaxın Şərq məsələlərində həyati əhəmiyyət kəsb edən ölkə rolunu oynayır (8).

Türkiyənin Osmanlı imperiyası kimi tarixi bir mirasa sahib olması onun Soyuq müharibədən sonra Balkanlarda, Qafqazda aktiv xarici siyasət yürütməsinə yol açmışdır (1, s:22).

Türkiyənin gənc və artan əhaliyə malik olması da onun mühüm güc faktorlarından biridir.

Ölkənin tarix, əhali, mədəniyyət, coğrafiya kimi sabit imkanları ilə yanaşı, iqtisadi, texnoloji və hərbi bacarıqları kimi potensial imkanları da vardır. Bu imkanlardan xarici siyasətdə səmərəli istifadə dövlətin beynəlxalq münasibətlər sistemində nüfuzunun artmasına səbəb olar (1, s:24).

Ölkənin nüfuzunun artmasına səbəb olan əsas amillərdən biri də texnoloji inkişafdır. Buna görə də dövlətlər texnoloji üstünlüyə səy göstərirlər. Bir ölkənin sabit (tarixi, coğrafi, demoqrafik və mədəni) ünsürlər və dəyişkən (texnoloji, iqtisadi, hərbi imkanlar) ünsürləri çox üstünlük qazanmağa imkan versə də, siyasi iradə, strateji zehniyyət və strateji planlamanın yüksək səviyyədə olmaması onların daha irəli getməsinə mane olar.

İnsan faktoru, ümumiyyətlə, dövlətin roluna təsir edən mühüm cəhətlərdən biridir. Belə ki, biz tarix və coğrafiyamızı dəyişdirə bilmərik. Amma keyfiyyətli insan faktoru bu ünsürlərdən yaxşı istifadə edib dövlətin gücünü artırar. Keyfiyyətsiz insan faktoru isə əksinə həmin gücü zəiflədər. Həmçinin, iqtisadi, hərbi və texnoloji inkişaf da insan amilindən asılıdır (1, s:35).

Qeyd edək ki, Türkiyə xarici siyasi məqsədlərinə aşağıdakılar aiddir: 1) təhlükəsizliyə mane olmadan mülki azadlıqları gücləndirmək, 2) qonşularla sıfır problem siyasəti yürütmək, 3) qonşu regionlarla əlaqələri inkişaf etdirmək, 4) çox ölçülü siyasətə sadiq qalmaq, 5) ritmik siyasət icra etmək (yəni dünyanın istənilən yerində problem olsa, Türkiyə də həmin məsələ ilə bağlı öz sözünü demək iqtidarına malik olmalıdır). Bütövlükdə, Türkiyə mərkəzi dövlətdən qlobal gücə çevrilməlidir (7, s:5).

Türkiyə xarici siyasətinin əsas prinsiplərindən biri Qərbə oriyentasiyasıdır. M.K.Atatürk Türkiyə Cümhuriyyətini yaradarkən qərb dəyərlərini, qərb strukturlarına inteqrasiyasını, bir sözlə, qərbləşməni vacib elementlərdən biri hesab etmişdi. İkinci element tarixin roludur. Üçüncü element təhlükəsizlik və təhlükəsizlik yönümlü xarici siyasətin olmasıdır (4).

Strateji cəhətdən əlverişli mövqedə yerləşən Türkiyə bir sıra mühüm məsələlərdə ABŞ üçün əhəmiyyət kəsb edir. İraq məsələsinin həlli, Yaxın Şərqdə təhlükəsizlik, Suriya, İran, ərəb-müsəlman dünyasında təsir, İran və İraqa KQS-nin yayılmasının qarşısını almaq, Mərkəzi Asiya və Cənubi Qafqazda təsir, Mərkəzi Asiyada Rusiya və Çinin güclərinin balanslaşdırılması kimi məsələlərdə ABŞ-ın Türkiyəyə ehtiyacı vardır (7, s:5).

Xarici İşlər İdarəsinin eksperti Steven A.Kuk bildirmişdir ki, Obama administrasiyası Türkiyəni təkcə geostrateji nöqteyi-nəzərdən qiymətləndirmir, həmçinin, onu Yaxın Şərqdə potensial tərəfdaş hesab edir. Bu gün Türkiyə Qafqaz, Balkan, Yaxın Şərqdə aktiv siyasət yürüdür. Qeyd edək ki, Beynəlxalq Strateji Araşdırmalar Təşkilatı belə hesab edir ki, Türkiyə hələ də regional lider hesab edilə bilməz. Çünki, bunun üçün iqtisadi, diplomatik, təşkilati bacarıqdan əlavə hərbi güc də lazımdır. Yaxın Şərq ölkələri Türkiyəyə model ölkə kimi yanaşsalar da, bu, onun siyasi sisteminə görə deyil, iqtisadi inkişafına görədir.

Türkiyə apardığı siyasətə əsasən müxtəlif adlar qazanıb: "tarixi böyük qardaş", "regionun lideri", "müsəlman azlıqların müdafiəçisi".

Tarixi böyük qardaş roluna baxsaq, bunu onun Qafqaz, Yaxın Şərq və Balkan regionundakı mövqeyi ilə nəzərdən keçirmək olar. Türkiyənin bu regionlarda artan nüfuzunu "yeni osmançılıq" adlandırırlar və belə hesab edirlər ki, Türkiyə tarixi Osmanlı imperiyasının keçmişinə qayıtmaq istəyir.

Regionun təbii lideri müsəlman azlıqların müdafiəçisi rolunu Türkiyənin müsəlman ölkələrinə və sünni qruplarına yardımı ilə əlaqələndirirlər. Ərdoğanın Suriyadakı sünni qruplarına yardımı və 2011-ci ildə Liviyaya səfərini onun özünü xəlifə hesab etməsi ilə əlaqələndirmişdilər.

Türkiyə beynəlxalq proseslərə təsir göstərə bilən mühüm aktora çevrilmək istəyir. Bunun üçün o, addımlar da atmışdır. Belə ki, qonşu ölkələrlə əlaqələri gücləndirmək üçün viza rejimini ləğv etmişdir. İran və eləcə də ərəb ölkələri ilə ticarət əlaqələrini gücləndirmişdir. Həmçinin, müxtəlif hadisələrdə, məsələn, İran və beynəlxalq birlik, Suriya və İsrail, Pakistan və Əfqanıstan arasında danışıqlar aparılmasına səy göstərmişdir (9).

Qeyd edək ki, 1990-cı illərdə xarici borcların artması, büdcə kəsiri, yüksək inflyasiya nəticəsində iqtisadiyyat daxili və xarici təsirlərə qarşı çox zəif

idi. 2002-ci ildə Ədalət və İnkişaf Partiyasının hakimiyyətə gəlməsi ilə siyasət, iqtisadiyyat və digər sahələrdə islahatlar aparılmaqla “Yeni Türkiyə” konsepsiyasına uyğun siyasət yürüdülür (3, s:115).

2001-ci il dünya iqtisadi böhranından sonra dünya bazarlarından inkişaf edən ölkələrə kapital artmağa başlayır. Türkiyə də belə ölkələrdən biri idi. Nəticədə, məhsul və xidmətlərin ixracı artmaqla bərabər, sağlam daxili tələb mühiti də formalaşır və Türkiyənin iqtisadiyyatı sürətlə güclənməyə başlayır. Nəticədə, Türkiyə 2011-ci ildə Çindən sonra (9,2%-lik artım) 8,5%-lik illik artımla dünya iqtisadiyyatının sürətlə inkişaf edən II ölkəsi olmuşdur (3, s:117).

XXI əsrin əvvəllərində neftin qiymətinin qalxması ilə dövlətlər neftlə zəngin olan bölgələr uğrunda mübarizə başlayır. Türkiyə Yaxın Şərq, Rusiya, Xəzər hövzəsi ölkələri ilə həmsərhəd olmaqla dünya neft və təbii qaz ehtiyatlarının 70%-nin cəmləşdiyi bölgəyə qonşu olmaqla mühüm əhəmiyyət kəsb edir. Həmçinin, Türkiyə beynəlxalq su yollarının üzərində yerləşir. Hər iki faktor onun dünya enerji ehtiyatlarının nəqlində vacib rol oynamasına müsbət təsir göstərir (5, s:97).

Türkiyənin ümumi enerji təminatı aşağıdakılardan ibarətdir: neft – 38%, təbii qaz – 23%, kömür – 27%, bərpa olunan enerji – 7%. Türkiyənin ən çox enerji istehlak edən sahələri sənaye (45%), yaşayış sektoru (31%), nəqliyyat sferasıdır (19%).

Türkiyə parlamenti 2001-ci ildə enerji sferasının liberallaşmasına dair qərar qəbul etmişdir. Məqsəd hökumətin bu sferada monopoliyasına son qoymaq və özəlləşdirməni sürətləndirmək idi.

Türkiyə iqtisadiyyatının güclü tərəfləri: cavan və çoxsaylı əhali, investisiya cəlb olunmasına dair islahatlar, turizm, sənayenin vacib sahələri. İmkanlar: əhali və işçi qüvvəsi artımı, uzunmüddətli iqtisadi inkişaf layihələri, bazar potensialı, vergi və sosial təhlükəsizlik islahatları, infrastruktur layihələri, enerji və nəqliyyat üçün əlverişli geostrateji mövqeyi, özəlləşdirmə prosesləri.

İqtisadiyyatın zəif tərəfləri: cari hesab defisiti, işsizlik, dar vergi bazası, struktur islahatların çatışmazlığı, inflyasiya, xarici enerjidən asılılıq, yüksək elektrik qiymətləri, regional qeyri-bərabərlikdir. Hədələr: lirənin devalyasiyası, hakimiyyət mübarizəsi, daxili enerji böhranıdır.

Türkiyənin hərbi büdcəsi ÜDM-nin 5%-ni təşkil edir. 1996-cı ildə Türkiyə 2030-cu ilə kimi hərbi büdcəsi 150 mlrd.ABŞ dolları səviyyəsində təsdiqləmişdir (12, s:25).

Bəzi mütəxəssislər belə hesab edirlər ki, Türkiyədə hərbi xərclər həddən artıq çoxdur. Bu isə iqtisadi və sosial rifahın artmasına mane olur. Ona görə də hərbi xərclər azalmalı, hərbi sferanın rolu zəifləməlidir (6, s:30-31).

Türkiyənin inkişafında əsas faktorlardan biri iqtisadi irəliləyiş olmuşdur. Türkiyə milli iqtisadiyyatı Avropada 6-cı yerdə dayanır. Türkiyə iqtisadiyyatı sürətlə inkişaf edir. 90-cı illərdə kənd təsərrüfatı sahəsi liderlik edirdisə, indi ÜDM-də 60%-lik payla I yeri xidmət sahəsi tutur. Sənaye 30%-lik payla II yerdə dayanır. Kənd təsərrüfatı sahəsi isə iqtisadiyyatda 10%-lə III yerdə dayanır. AKP-nin hakimiyyətə gəlməsi ilə iqtisadi (özəlləşdirmə, liberallaşdırma), siyasi və sosial sferalarda (söz azadlığı, mətbuat azadlığının inkişafı, ölüm cəzasının ləğvi, milli təhlükəsizlik şurasında islahatlar, hərbi sferanın hakimiyyətinin məhdudlaşdırılması, Aİ standartlarına uyğun olaraq mülki və cinayət hüququnun təkmilləşdirilməsi və s.) çoxsaylı islahatlar həyata keçirilmişdir (14).

Türkiyənin əmək bazarı onun iqtisadiyyatının inkişafına təsir göstərmək qabiliyyətinə malikdir. Belə hesab edilir ki, 2040-cı ilə kimi əhali 90 milyona qədər artacaq. ÜDM-nin göstəricisinə görə Türkiyənin 2040-cı ilə kimi 12-ci yerdə dayanacağı proqnozlaşdırılır. Qeyd edək ki, Türkiyədə qida sənayesi, kənd təsərrüfatı və xidmət sahəsi, alternativ enerji, avtomobil istehsalı və turizm sahələrinin potensial beynəlxalq inkişafı mümkündür (16).

2016-cı ildə Dünya Bankının məlumatında qeyd olunmuşdur ki, Türkiyənin əhalisi 78,6 milyon nəfər, ÜDM-si 856 milyard dollar, adambaşına düşən ÜDM isə 10807 dollar olmuşdur (11).

Türkiyə iqtisadiyyatına nəzər saldıqda qeyd etmək lazımdır ki, ÜDM-nin illik artımı 2014-cü ildə 3%, 2015-ci ildə 4%, 2016-cı ildə isə 3,3% təşkil etmişdir. ÜDM-nin sektorlar üzrə bölgüsündə isə kənd təsərrüfatı 8,6%, sənaye 7,1%, xidmət sahəsi 64,3% paya sahibdir. 2016-cı ildə sənaye istehsalının artım göstəricisi 4,5%-ə bərabər olmuşdur. İşçi qüvvəsi isə 2016-cı ildə 30,24 milyon nəfər təşkil etmişdir. İşçi qüvvəsini sektorlar üzrə bölsək onun 25,5%-i kənd təsərrüfatı, 26,2%-i sənaye, 48,4%-i isə xidmət sahəsinin payına düşür. 2016-cı ilin büdcəsinə nəzər salsaq gəlirin 184,3 milyard

dollar, xərcin 198, 8 milyard dollar olduğunu görərik. İnflyasiya səviyyəsi isə 2015-ci ildə 7,7%, 2016-cı ildə isə 8% təşkil etmişdir. İxrac dəyəri 2015-ci ildə 152 milyard dollar, 2016-cı ildə isə 150,1 milyard dollara bərabər olmuşdur. Əsas ixrac tərəfdaşları isə Almaniya (9,3%), Böyük Britaniya (7,3%), İraq (5,9%), İtaliya (4,8%), ABŞ (4,5%), Fransadır (4,1%). İdxal dəyəri isə 2015-ci ildə 200,1 milyard dollar, 2016-cı ildə 197,8 milyard dollar təşkil etmişdir. Əsas idxal tərəfdaşları Çin (12%), Almaniya (10,3%), Rusiya (9,9%), ABŞ (5,4%), İtaliyadır (5,1%). Hərbi xərclər isə büdcənin 2011-ci ildə 2,28%-ni, 2012-ci ildə 2,31%-ni, 2013-cü ildə 2,39%-ni, 2014-cü ildə 2,36%-ni, 2015-ci ildə isə 2,1%-ni təşkil etmişdir (10).

Türkiyənin regional və beynəlxalq təhlükəsizlik sistemində rolunun güclənməsi bir sıra səbəblərlə bağlıdır. I onun iqtisadi gücünün artması. Bildiyimiz kimi dövlətin güclü olmasının əsas səbəblərindən biri onun iqtisadiyyatının güclü olmasıdır. Nəticədə Türkiyə dünya iqtisadiyyatında 15-ci yer tutmaqla qonşu ölkələrlə, həmçinin, Afrika və Uzaq Şərq ölkələri ilə iqtisadi əlaqələrini gücləndirir və onlara investisiya yatırır. II Türkiyənin xarici siyasətində əsaslı dəyişikliklərin baş verməsi. Nəticədə, Türkiyə, xüsusilə, müsəlman ölkələri üçün model ölkə rolunda çıxış etməyə başlayır. Bütövlükdə, Türkiyə öz iqtisadi, siyasi və hərbi bacarıqlarına görə beynəlxalq siyasətə təsir göstərən aktor kimi çıxış edə bilər. III Geostrateji mövqe. Türkiyənin əlverişli geostrateji yerləşməsi, əsas enerji və ticarət yollarının üstündə yerləşməsi, Rusiya və Ukrayna ilə dəniz sərhədlərinin olması da onun regional güc kimi peyda olmasına təsir göstərir. Nəticədə, o, regional konfliktlərin qaçılmaz aktoruna çevrilir (13).

Ümumiyyətlə, regional gücə dair bir sıra parametrlər irəli sürülür. 1) Regional güc hesab olunan dövlət coğrafi, iqtisadi və siyasi-ideoloji cəhətdən sərhədlənən regionun bir hissəsidir. 2) Regionda aparıcı mövqeyə malik olmağa iddia edir. 3) Regionun geosiyasi bölünməsinə və siyasi-ideoloji təşkilinə təsir edir. 4) Regional güc layihələrdə maddi, təşkilat və ideoloji mənbələrlə təminatı təşkil edir. 5) İqtisadi, siyasi və mədəni cəhətdən regionla qarşılıqlı əlaqədədir. 6) Həqiqətən, regional məsələlərdə böyük təsirə malikdir. 7) Regional təhlükəsizlik gündəliyini müəyyən edir. 8) Regionda aparıcı dövlət kimi tanınır.

Düzdür, regional gücə dair bir nəzəriyyə yoxdur. Lakin ümumi qəbul olunmuş fikirlərə əsasən regional güc xüsusi gücə sahib olmalıdır. Onun iqtisadi və hərbi gücündən əlavə, qeyri-maddi mənbələrə, yəni siyasi və sosial dəyərlər, mədəni cəlbetmə, xaricdə diplomatik reputasiyaya malik olması da önəmli cəhətlərdən biridir. Qeyd edək ki, regional güc, həmçinin, başqaları tərəfindən də qəbul edilməlidir.

Regional güc və orta güc arasında dəqiq sərhədi müəyyənləşdirmək nisbətən çətindir. Orta güc dedikdə böyük güc statusuna malik olmayan lakin beynəlxalq təsirə malik olan dövlətlər nəzərdə tutulur.

Regional gücün ümumi qüdrətini təşkil edən yumşaq güc (soft power) və sərt güc (hard power) kimi aspektləri vardır. Sərt güc dedikdə, əsasən hərbi güc nəzərdə tutulur. Yumşaq güc isə regional mübarizədə regional sosial birləşmə, xüsusi mədəni xarizma, regionda yaxşı imicə malik olmaq kimi başa düşülür.

Qeyd edək ki, regional güc öz sərhədlərini qorumalı, digər aktorların regiona müdaxiləsinə imkan verməməli, digər dövlətlər tərəfindən regional güc kimi tanınmalıdır.

2010-cu ildə Türkiyə İordaniya, Livan və Suriya ilə "Yaxın Qonşular İqtisadi və Ticarət Assosiasiyası Şurası" yaratmışdır. Türkiyə daha stabil, inteqrasiya olunmuş region üçün insanların, ticarət və ideyaların yayılmasının zəruriliyini vurğulayırdı.

Regional gücün əsas göstəricilərindən biri digər ölkələr tərəfindən qəbul edilməsidir. 2010 və 2012-ci illərdə TESEV tərəfindən aparılan ictimai sorğuda ərəb ictimaiyyətinin 60%-i Türkiyəni model ölkə kimi qəbul etmiş və ərəb dünyasının transformasiyasında Türkiyənin pozitiv roluna inandıqlarını bildirmişdilər. Türkiyə regionda öz rolunu gücləndirmək üçün yumşaq gücdən, yəni tələbə mübadiləsi proqramları, televiziya verilişlərinin ərəb dilində yayımlanması kimi mədəni mübadilə metodlarından istifadə edir.

İqtisadi və hərbi potensialına görə də Türkiyəni bəzən regional güc hesab edirlər. Qara və Aralıq dənizi regionlarında Türkiyənin bəzi ideyaları, məsələn Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması ideyası, Yaxın Şərqdə vasitəçilik etmək səyləri onun haqqında regional güc fikirləri formalaşdıra bilər.(17).

Bildiyimiz kimi, ərazi, əhali, iqtisadi, hərbi po-

tensial güc göstəricilərdir. Türkiyənin əlverişli geostrateji mövqedə yerləşməsi, cavan və artan əhaliyə malik olması, iqtisadi və hərbi gücünün artması onu beynəlxalq münasibətlər sisteminin mühüm aktoruna çevirir. Bu gün Türkiyə beynəlxalq aləmdə baş verən proseslərə aktiv şəkildə təsir edir və bu rolu dəyərləndirməmək olmaz. Lakin o, beynəlxalq prosesləri idarə edən qlobal güc hesab edilə bilməz.

**Açar sözlər:** *Türkiyə, geosiyasət, iqtisadi və hərbi potensial, insan faktoru, regional güc.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Davutoğlu A. Stratejik derinlik. Türkiyenin uluslararası konumu. İstanbul 2016. s.585*

*2. Donelli F.,Levaggi A.G. Becoming global actor: the Turkish agenda for the global south. Rising powers quarterly. Vol.1.Issue.2.2016.pp.93-115*

*3. Karagöl E.T. The Turkish economy during the Juctice and Development Party decade. Insight Turkey. Vol.15. №4.2013.pp.115-129*

*4. Oktav Ö.Z. Turkey in the 21st century Quest for a new foreign policy. New York 2016. pp.224*

*5. Shaffer B. Turkey's energy policies in a tight global energy market. Insight Turkey. April-June 2006. Vol.8. №2.pp.97-104*

*6. Akça İ. Military-economic structure in Turkey: present situation, problems and solutions /https:// www.files.ethz.ch/isn/120118/gsr-2-eng.pdf*

*7. Bağcı H. Changing geopolitics and Turkish foreign policy /http://edoc.bibliothek.unihalle.de/ servlets/MCRFileNodeServlet/HALCoRe_clerivvate_00004940/IILP_06_09_Bagcı_Changing_Geopolitics_and_Turkish_Forei.pdf*

*8. Çakar N. A strategic overview of Turkey / http://sam.gov.tr/wp-content/uploads/2012/02/NezihiCakar.pdf*

*9. Gürzel A. Turkey's role as a regional and global player and its power capacity: Turkey's engagement with other emerging states. Revista de Sociologia e Politica. Vol.22. №50. June 2014 / http://dx.doi.org/10.1590/1678-987314225007*

*10. https:// www.cia.gov/library/publications/ the-world-factbook/geos/tu.html*

*11.http://www.worldbank.org/en/country/turkey/ overview*

*12. Kaartemo V. Analysis of Turkish economy / https:// www.utu.fi/fi/yksikot/tse/yksikot/PEI/raportit-ja-tietopa-ketit/Documents/kaartemo_1208. pdf*

*13. Müftüler-Baç M. Turkey as an emerging power: an analysis of its role in global and regional securitygovernance constellations /http:// cadmus.eui.eu/bitstream/handle/1814/31325/ RSCAS_2014_52.pdf?sequence=1*

*14. Senkyr J. Turkey on the road to becoming a regional power /http:// www.kas.de/wf/doc/ kas_19452-544-2-30.pdf?100428134511*

*15. The economy in Turkey in 2017 /http:// www. tusiad.us/wp-content/uploads/2017/02/The-Economy-in-Turkey-in-2017.pdf*

*16. Turkey in 2041 Looking to the future /https:// www.pwc.com.tr/tr/publications/arastirmalar/pdf/ turkey-in-2041-eng.pdf*

*17. Üstün Ç. Theoretical analysis of Turkey as a regional power /http:// web.isanet.org/Web/Conferences/FLACSO-ISA%20BuenosAires%202014/ Archive/3baeodf8-do5d-4837-9811-73216a95bf.pdf*

## РЕЗЮМЕ

**Хумай ГЮЛЬМАЛИЕВА**
**Бакинский Государственный Университет**

### Место и роль Турции в системе международных отношений

В статье рассматривается роль Турецкой Республики в международной системе. Для этого его геополитическая ситуация, экономический потенциал и реформы в этой области, военная мощь оцениваются. Как известно, Турция, расположенная на пересечении Азии, Африки и Европы, с Босфором и Дарданеллами, в окружении Средиземного, Черноморского и Эгейского морей, имеет стратегически выгодное положение. Он расположен между Ближнем Востоке богатыми природными ресурсами и Европе, которые нуждаются в этих ресурсах, и имеет транзитное значение для транспортировки этих ресурсов в Европу. Кроме того, экономическое развитие в Турции привело к усилению его роли на международной арене. В целом укрепление роли Турции в региональных и международных системах обусловлено несколькими причинами. I Его возросшая экономическая мощь. II Основные изменения во внешней политике Турции. III Геостратегическое положение. Благоприятное

геостратегическое положение Турции, ее расположение на ключевых энергетических и торговых маршрутах увеличивает его влияние и репутацию. Правда, Турецкая Республика активно участвует в международных процессах и может влиять на них. Но мы не можем признать его силой, способной внести изменения в мировой порядок и управлять процессами на международной арене.

**Ключевые слова:** *Турция, геополитика, экономический и военный потенциал, региональная мощь*

**SUMMARY**

**Humay GULMALİYEVA**
**Phd student, Baku State University**

**The place and role of Turkey in the system of international relations**

The article depicts the role of the Republic of Turkey in the international system. For this, its geopolitical situation, economic potential and the reforms implemented in this field, the military strength are valued in the article. As we know, Turkey, located at the intersection of Asia, Africa and Europe, surrounded by the Mediterranean, Black Sea and Aegean seas, with the straits of Bosphorus and Dardanelles, has a strategically favorable position. It is located between Middle East rich with natural resources and Europe which needs these resources, and has the transit importance in the transportation of these resources to Europe. Also, the economic development in Turkey caused to the strengthening of its role in the international arena. In general, the strengthening of Turkey's role in the regional and international systems is due to several reasons. I Its increased economic power. II Major changes in Turkey's foreign policy. III Geostrategic position. The favorable geostrategic position of Turkey, its location on the key energy and trade routes increases its influence and reputation. It is true that, today the Republic of Turkey is actively involved in international processes and has the potential to influence them. But we can not accept it as a force capable of making changes in the world order and managing processes in the international arena.

**Key words:** *Turkey, geopolitics, economic and military potential, regional power*

UOT 94"19/..."

# Tarix

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ AZƏRBAYCAN – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

**SANİ HACIYEV**
*BDU Asiya və Afrika ölkələri tarixi kafedrası. Professor*

*E- mail: sani.hajiyev@outlook.com*

*İkinci Qarabağ müharibəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarını azad edən Azərbaycan Respublikasının qələbəsi ilə başa çatmışdır. Bu 44 günlük müharibə təkcə bölgənin hərbi-siyasi həyatı üçün deyil, həm də beynəlxalq təhlükəsizliyin təmini üçün müsbət nəticələnmişdir.*

*Türkiyə hərbi əməliyyatların ilk günündən Azərbaycanı ədalətli mübarizəsində dəstəkləmiş, ona siyasi və diplomatik dəstək göstərmişdir. Son hadisələr bir çox regional vəzifələrin həllində Azərbaycanın, Rusiyanın və Türkiyənin qarşılıqlı əməkdaşlığının effektliyini bir daha göstərmişdir.*

İlk növbədə qeyd etməyi vacib bilirik ki, məqalədə "İkinci Qarabağ müharibəsi" ifadəsi şərti olaraq istifadə edilmişdir. Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında 2020-ci il 27 sentyabr – 9 noyabr tarixləri arasında Qarabağda davam etmiş silahlı qarşıdurma müxtəlif qaynaqlarda "Vətən Müharibəsi" və ya "Ermənistanı sülhə məcburetmə əməliyyatı" kimi də göstərilməkdədir [1; 2; 3]. Hesab edirik ki, bu tarixi hadisənin adekvat məfhumu Vətən tarixşünaslığında ən qısa zamanda elmi dövriyyəyə buraxılacaqdır.

Azərbaycan Respublikasının 1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini bərpa etməsindən sonra istər daxili, istərsə də xarici siyasətində aparıcı yer alan məsələ – Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azadedilməsi məsələsi olmuşdur. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin kökündə Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribat və terror fəaliyyətlərinin durduğu şübhəsizdir.

1987-ci ilin sonlarından etibarən Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası ilə başlayan münaqişə 1988-1989-cu illərdə isə Ermənistanın başqa rayonlarından azərbaycanlıların deportasiyası ilə davam etmişdir [4]. Hadisələrin xronologiyasına diqqət etsək, Ermənistan tərəfinin bu məsələdə çox cəld hərəkət etdiyini, öz ərazisində həyata keçirdiyi deportasiya və soyqırımı prosesini qısa bir zamanda Azərbaycan ərazisinə keçiridiyini görə bilərik. 1988-ci il fevralın 13-də DQMV-nin mərkəzi Xankəndi şəhərində (o dövrdə Stepanakert) Qarabağ məsələsi ilə əlaqədar ermənilərin ilk nümayişi keçirilmiş, fevralın 16-dan martın 2-dək DQMV-də müxtəlif mitinqlər təşkil edilmişdir [4]. 1988-ci il iyunun 14-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsi" haqqında qərar qəbul edərək əslində bu aktla Azərbaycanın ərazi bütövlüyünə zidd hüquqi addım atmış, SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi cəza almadığı üçün bunun davamında 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etmişdir. Hətta 1990-cı il yanvarın 9-da Ermənistan SSR Ali Soveti DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSR-in 1990-cı il üçün planına daxil etmişdir [4].

O dövrdə Azərbaycan siyasi rəhbərliyinin zəifliyi, ölkədə siyasi və milli liderin olmaması respublikanın vəziyyətinə, eləcə də münaqişənin dərinləşməsinə çox ciddi təsir göstərmişdir. Azərbaycanın görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasətdən uzaqlaşdırılması Ermənistan tərəfi üçün istər bölgədə, istərsə ümumi siyasi məkanda əlverişli şərait yaratmışdı. Bu şəraitdən istifadə edərək, 1991-ci il sentyabrın 2-də DQMV-də qondarma "Dağlıq Qarabağ Respublikası" elan edilmişdir. Bu qanunsuz akt

əslində münaqişənin yeni mərhələyə girməsindən xəbər verirdi.*

Ermənistanın hərbi təcavüzü, həmçinin 1992-ci ilin ortalarına doğru Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, siyasi səriştəsizlik və iqtisadi böhran ölkəni böyük təhlükələrlə üzbəüz qoymuşdu və məhz belə bir böhranlı şəraitdə, 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Heydər Əliyev Azərbaycanı ən qısa zamanda böhranlı vəziyyətdən çıxarmağın labüdlüyünü əsas alaraq böyük Vətən təssübkeşliyi və dövlətçilik təcrübəsinə dayanaraq, milli strategiyanın hazırlanması prosesini başlatdı. İstər daxili vəziyyəti, istərsə də regional və beynəlxalq vəziyyət nəzərə alan Ümummilli liderin bu strategiyası "ictimai-siyasi sabitliyin təmin edilməsi, döyüş qabiliyyətli nizami ordunun yaradılması, dövlət institutlarının yenidən formalaşdırılması və onların səmərəli fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın bərpası və köklü idarəçilik islahatlarının həyata keçirilməsi, ölkənin yaxın onilliklər üçün inkişafını təmin edəcək strateji neft müqavilələrinin bağlanması və nəticə olaraq millətin bir amal – azərbaycançılıq ətrafında birləşdirilməsini özündə ehtiva edirdi" [4].

Ermənistanın təkcə regional deyil, beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyinə çevrilən işğalçılıq siyasəti bu illər ərzində istər beynəlxalq təşkilatlar, istərsə də ikitərəfli münasibətlər çərçivəsində ciddi müzakirələrə və münaqişə ilə bağlı bir sıra mühüm sənədlər qəbulu ilə nəticələnmişdir. BMT Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixində Ermənistan qoşunlarının Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən 822 saylı qətnaməsi, 29 iyul 1993-cü il tarixində Ermənistan qoşunlarının Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnaməsi, 14 oktyabr 1993-cü il tarixində Ermənistan qoşunlarının ATƏM-in Minsk qrupunun nizama salmaya dair vaxt cədvəlinə uyğun olaraq, ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı qətnaməsi və 11 noyabr 1993-cü il tarixində Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə qarşı hücumu və Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləyən, Zəngilan rayonu və Horadiz qəsəbəsindən və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb edən 884 saylı qətnaməsi qəbul edilmişdir. Həmçinin 1996-cı il ATƏT-in Lissabon sammitində qəbul edilən bəyanatda Azərbaycan Respublikasının ərazi bütövlüyü öz əksini tapmışdır [6, s.5-12, 549-550]. 2007-ci ildə Minsk qrupu münaqişənin sülh yolu ilə həlli prinsiplərini hazırlasa da, Ermənistanın destruktiv mövqeyi səbəbindən gözlənilən irəliləyiş əldə edilməmişdir. Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində hücum xarakterli təxribatları isə danışıqlar prosesinin intensivliyini aşağı salmışdır. 2016-cı il Aprel hadisələri status-kvonun saxlanmasının, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun münaqişə bölgəsində gərginliyin əsas səbəbi olduğunu və Azərbaycanın heç vaxt işğalla barışmayacağını növbəti dəfə nümayiş etdirmişdir. Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması ilə çıxış etməsi isə Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunu rəsmi şəkildə də sübut etmişdir [4].

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir [7]. 44 gün davam edən müharibə nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri düşməndən azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağ münqaişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması [8, maddə 1], 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən (Kəlbəcər, Ağdam, Laçın) çıxarılması [8, maddə 2 və 6] və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi [8, maddə 9] elan edilmişdir.

Bundan əlavə, bəyanata müvafiq olaraq Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda sülhməramlı kontingenti yerləşdirilmişdir [8, maddə 3].

İkinci Qarabağ müharibəsi gedişində Azərbaycan Respublikası hərbi zəfərlə yanaşı, böyük diplomatik-siyasi uğurlarını da davam etdirmişdir. Belə ki, Azərbaycanı bu müharibədə birbaşa dəstəkləyən Türkiyə Respublikası və Pakistan ilə yanaşı, İsrail, Ukrayna, Gürcüstan da Azərbaycanyönlü mövqeyini gizlətməşmişdir. Eyni zamanda KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) çərçivəsində Ermənistanla müttəqif olan Rusiya Federasiyasının rəsmi dairələri, o cümlədən prezident V.Putin [9; 10] Dağlıq Qarabağ və ətraf rayonların Azərbaycan Respublikasının suveren torpaqları olduğunu bəyan etdilər. Qeyd edək ki, diplomatik müstəvidə Azərbaycanın belə güclü mövqeyə sahib olması - əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və son iki onillikdə uğurla davam etdirilmiş böyük dövlət strategiyasının nəticəsi olaraq qəbul edilməlidir.

İkinci Qarabağ müharibəsi başladığı ilk saatlardan etibarən Azərbaycan istiqamətində öz qəti mövqeyini bəyan edən Türkiyə Respublikasının istər rəsmi dairələri, istərsə də Türkiyə ictimaiyyəti siyasi və diplomatik dəstəyini davam etdirmişdir. Belə ki, müharibənin başladığı tarixdən etibarən, sentyabrın 27-də Türkiyənin Müdafiə naziri H.Akar Azərbaycanın tərəfində olduğunu bildirərək Ermənistanın mövqeyinin Cənubi Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulamışdır [11]. Türkiyə prezidenti R.T.Ərdoğan isə həmin gün "Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır," deyə mövqeyini bəyan etmişdir [12]. Sonrakı günlərdə Türkiyənin Azərbaycana dəstəyinin bariz nümunəsi olaraq Xarici işlər naziri M.Çavuşoğlunun Bakıya səfərləri baş tutmuş, bu səfərlər gedişində Türkiyəli nazir Azərbaycanın hər zaman dost ölkəyə güvənə biləcəyini bir daha bəyan etmiş, hərbi əməliyyatlar gedişində hər iki tərəfin itkilərindən Paşinyanın məsuliyyət daşıdığını bildirmişdir [13; 14].

Müharibənin başa çatıb sülhməramlıların bölgəyə yerləşdirilməsi gedişində də Azərbaycanın Türkiyə ilə sıx əməkdaşlığı aktual qalmışdır. Bu istər siyasi, istərsə də diplomatik müstəvidə davam etmişdir. Belə ki, artıq noyabrın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri M.Çavuşoğlunu, milli müdafiə naziri H.Akarı və Milli Kəşfiyyat idarəsinin rəisi H.Fidanı qəbul etmişdir. Prezident İlham Əliyev çıxışında bildirmişdir ki, "Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir. Bütün bu günlər ərzində Türkiyənin vəzifəli şəxsləri, Məclis üzvləri, nazirlər, ictimai fəallar, mətbuat, geniş ictimaiyyət, bizim bütün qardaşlarımız bizə çox böyük dəstək oldular. Bu, bizə əlavə güc verdi, ruh yüksəkliyimizi daha da artırdı" [15]. Qeyd edək ki, istər müharibə gedişində, istərsə də müharibədən sonrakı günlərdə Türkiyənin rəsmi dairələri ilə yanaşı, türk ictimaiyyətinin də Azərbaycan dövlətinə və xalqına dəstəyi yüsək olmuş, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərində zəfəri Türkiyə vətəndaşları tərəfindən də böyük sevinclə qarşılanmışdır. Bu böyük zəfərə görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları, dəstək mesajları göndərilmişdir [16].

İkinci Qarabağ müharibəsi gedişində və sonrasında Azərbaycan-Türkiyə münasibətləri xarici mətbuatda və müxtəlif ictimai dairələrdə də ən çox müzakirə olunan məsələlərdən olmuşdur. Siyasi və beynəlxalq icmalçılar müharibənin Azərbaycan və Ermənistan üçün nəticələrini şərh edərkən, bölgədə qüvvələr nisbətindəki dəyişiklik, xüsusilə Türkiyənin güclənməsi amilinə böyük diqqət ayırırlar.
Bəzi siyasətçilər və politoloqlar İkinci Qarabağ müharibəsində təkcə Azərbaycanın deyil, Türkiyənin də qalib gəldiyini düşünməkdədirlər. Məsələn, New York Times qəzetinin müxbiri Anton Troyanovski hesab edir ki, Qarabağ müharibəsi Türkiyənin

böyüyən regional gücünü göstərmiş oldu. Müəllifə görə, "müharibənin sona çatması Türkiyə, Rusiya və İran arasında sıxışmış dəyişkən bir bölgə olan Cənubi Qafqazın təhlükəsizlik xəritəsinin əhatəli bir şəkildə yenidən cızıldığını göstərir ... və bu xəritədə Türkiyə çox önəmli bir rola sahibdir" [17]. İsveçrədə dərc olunan "Le Temps" qəzeti isə 10 noyabr bəyanatını "Türkiyə və Rusiya gələcəyin dünyasını formalaşdırır" başlığı ilə təqdim etmişdir [18].

Rusiyanın Karneqi Mərkəzinin eksperti A.Qabuyev isə BBC News-a verdiyi müsahibəsində qeyd edir ki, "Azərbaycan bu müharibədən zəfərlə çıxdı, lakin Rusiya və Türkiyə də əhəmiyyətli nailiyyətlər qazandı ... konkret olaraq Ankara üçün bu müharibə Cənubi Qafqazda mövqeyinin güclənməsini nümayiş etdirmək imkanı verdi" [19]. "Независимая газета"nın müxbiri V.Muxinə görə isə, "10 noyabr razılaşması Qərbdə və İranda Ankaranın strateji triumfu kimi qiymətləndirilmişdir". Xüsusilə adı çəkilən bəyanatın beşinci maddəsi ("Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması) bəzi güclər üçün narahatçılıq doğurmuşdur, çünki bu, birbaşa Türkiyənin bölgədə hərbi gücünün təsbiti kimi qiymətləndiririlir [20]. Bəzi rus media nümayəndələri isə, hətta bundan sonra nəinki Cənubi Qafqazda, ümumilikdə postsovet məkanında NATO-nun güclənməsini də proqnozlaşdırırlar [21].

Türkiyə mətbuatında da 10 noyabr bəyanatının və ümumiyyətlə İkinci Qarabağ müharibəsinin nəticələri geniş şəkildə təhlil edilməkdədir. Türk politoloqlarına görə, Azərbaycanın zəfər əldə etdiyi müharibənin nəticəsində baş verən Türkiyə-Rusiya yaxınlaşmasının iki başlıca tərəfi vardır: birincisi, NATO üzvü olan Türkiyə Liviya, Suriya və Dağlıq Qarabağda Rusiyanın gücünü öz gücü ilə tənzimlənmiş bir hala gətirmişdir. İkincisi, bu münasibətlər gələcəkdə Qərb üçün rəqabət çıxara bilər [22; 23].

Əslində dünya mətbuatında adı çəkilən məsələ ilə bağlı çox qısa bir müddət ərzində böyük sayda analitik yazıların ortaya çıxması, siyasi debatların keçirilməsi və təhlillərin aparılması bir tərəfdən, Azərbaycan-Türkiyə dostluq münasibətlərinin analoqu olmayan bir əməkdaşlıq ənənəsindən xəbər verirsə, digər tərəfdən də, bu münasibətlərin yüksələn xətlə artmasının bəzi böyük gücləri çox ciddi narahat etdiyinin də göstəricisidir. Eyni dil, din və tarixi köklərə malik olan iki ölkənin həm də hərbi-siyasi əməkdaşlığı, iqtisadi əlaqələri və diplomatik gücü təkcə Cənubi Qafqaz bölgəsində deyil, böyük bir Avrasiya coğrafiyasında Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsi deməkdir. Azərbaycanın Avropa İttifaqının enerji və kommunikasiya layihələrində aparıcı rola sahib olması, Türkiyənin isə Yaxın və Orta Şərqdə son onillikdə üstünlük qazanması, Bakı – Tiflis – Ceyhandakı iştirakı, həmçinin Türk Akımda (ingiliscə TurkStream, rusca Турецкий Поток) aparıcı rollardan birini əldə etməsi [24] onu Rusiyanın da etibarlı tərəfdaşlarından biri halına gətirmişdir. Hətta "Valday" klubundakı çıxışında Rusiya prezidenti V.Putin Türkiyə prezidenti R.T.Ərdoğan haqqında "Belə partnyorla əməkdaşlıq həm xoşdur, həm də güvənlidir" demişdir [25] ki, bu bəyanat da, öz növbəsində, siyasətçilər arasında birmənalı qarşılanmamışdır. Bəziləri V.Putinin bu bəyanatını zəiflik, digərləri isə dəyişkən siyasət yeridən Qərblə müqayisədə sabit-yönlü Türkiyəni seçməsi ilə əlaqələndirmişdir.

Əlbəttə, İkinci Qarabağ müharibəsinin mühüm məqamları və müharibə ətrafında gedən beynəlxalq əhəmiyyətli hadisələri bir məqalə çərçivəsində təhlil etmək çətindir. Bu məqalədə biz müharibədən keçən az müddətdə əldə edilmiş hərbi və diplomatik-siyasi zəfərlərin fonunda Azərbaycan Respublikasının Türkiyə ilə dostluq münasibətlərinin qısa icmalını verdik. Bu münasibətlərin yüksələn xətlə inkişafı və təkcə iki ölkə arasında deyil, regional səviyyədə də böyük perspektivlərə malik olması tarixçilərin və politoloqların gələcək araşdırmaları üçün həm də elmi əhəmiyyət daşıyan mövzu obyekti olacaqdır.

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, Qarabağ müharibəsi, regional təhlükəsizlik*

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR

*1. Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədə Ali Baş Komandan İlham Əliyevin nitqi, 25 oktyabr 2020 // https://president.az/articles/44371 (25 oktyabr 2020)*

*2. Hikmət Hacıyev: "Bu əməliyyatları sülhə məcburetmə əməliyyatı da adlandırmaq olar" // htt-*

*ps://big.az/409830-hikmet-haciyev-bu-emeliyyatlari-sulhe-mecburetme-emeliyyati-da-adlan dir maq-olar.html (28 sentyabr 2020)*

*3. Вторая Карабахская война. Начало // https://www.kavkaz-uzel.eu/blogs/ 83781/posts/45291 (30 sentyabr 2020)*

*4. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi // https://president. az/azerbaijan/karabakh*

*5. Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri // https://mod.gov.az/az/pre/24525.html (13 oktyabr 2018)*

*6. Document of international organizations of the Armenia-Azerbaijan conflict //https://www.mfa.gov.az/files/shares/Documents%20of%20international%20organizations.pdf*

*7. Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib // https://mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-butun-cebhe-boyu-genismiqyasli-texribat-toredib-32310.html (27 sentyabr 2020)*

*8. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyanın Prezidentinin bəyanatı // https://president.az/articles/45924 (10 noyabr 2020)*

*9. На Армению не покушались: почему Россия не вступила в войну на Карабахе // https://www.gazeta.ru/army/2020/11/22/13371067.shtml (22 noyabr 2020)*

*10. Путин выступил с заявлением по Карабаху // https://iz.ru/1084914/2020-11-10/putin -vystupil-s-zaiavleniem-po-karabakhu (10 noyabr 2020)*

*11. Bakan Akar'dan Azerbaycan'a mesaj: Kardeşlerimizin yanındayız // https://www. yenisafak.com/video-galeri/gundem/bakan-akardan-azerbaycana-mesaj-kardeslerimizin-yanindayiz-2210581 (28 sentyabr 2020)*

*12. Ərdoğan: Türk milləti bütün imkanları ilə Azərbaycanın yanındadır // https://ordu.az/az/news/172169 (27 sentyabr 2020)*

*13. Dışişleri Bakanı Çavuşoğlu Bakü'de // https://www. trthaber.com /haber/gundem/disisleri-bakani-cavusoglu-bakude-527465.html (1noyabr 2020)*

*14. İlham Əliyev Türkiyənin xarici işlər və milli müdafiə nazirlərini qəbul edib // https://president.az/articles/45789 (8 noyabr 2020)*

*15. İlham Əliyev Türkiyənin xarici işlər, milli müdafiə nazirlərini və Milli kəşfiyyat idarəsinin rəisini qəbul edib // https://president.az/articles/46077 (10 noyabr 2020)*

*16. Prezidentə yazırlar: Cənab Ali Baş Komandan, Sizin ətrafınızda sıx birləşib ərazi bütövlüyümüz uğrunda canımızdan keçməyə hər an hazırıq // https://ordu.az/az/news/172382 (28 sentyabr 2020)*

*17. In Bitter Nagorno-Karabakh War, a Reordering of Regional Powers // https://www.nytimes.com/2020/11/10/world/europe/armenia-azerbaijan-nagorno-karabakh.htm (10 noyabr 2020)*

*18. Turquie et Russie dessinent le monde de demain // https://www.letemps.ch/opinions/turquie-russie-dessinent-monde-demain (10 noyabr 2020)*

*19. Оценены результаты войны в Карабахе для России и Турции // https://lenta.ru/news/2020/11/12/benefits (12 noyabr 2020)*

*20. Миротворцев в Карабахе ждет турецкая засада // https://www.ng.ru/armies/2020-11-10/1_8010_peacekeepers.html (10 noyabr 2020)*

*21. Война за Нагорный Карабах завершилась // https://www.bragazeta.ru/news/ 2020/11/10/vojna-za-nagornyj-karabax-zavershilas (10 noyabr 2020)*

*22. Duran Burhaneddin. Yeni bir zamanın eşiğinde // "Sabah" qəzeti, 13 Kasım 2020*

*23. Son dakika haberi: Cumhurbaşkanı Erdoğan ve Putin'den kritik görüşme // https://www.hurriyet.com.tr/gundem/son-dakika-haberi-cumhurbaskani-erdogan-ve-putinden-kritik-gorusme-41659438 (10 noyabr 2020)*

*24. Путин и Эрдоган запустили «Турецкий поток». РИА Новости // https://news.mail.ru/politics/40122344/?frommail=1 (8 yanvar 2020)*

*25. Путин: Эрдоган проводит независимую политику // https://ria.ru/20201022/turtsiya-1581073246.html (22 oktyabr 2020)*

## ВТОРАЯ КАРАБАХСКАЯ ВОЙНА И АЗЕРБАЙДЖАНСКО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ

**Проф.Сани Гаджиев**
**БГУ, Кафедра истории стран Азии иАфрики**

**РЕЗЮМЕ**

Вторая Карабахская война закончилась

победой Азербайджанской Республики, которая освободила свои оккупированные территории от вооруженных сил Армении. 44-х дневная война имеет большое значение не только для военно-политической жизни региона, но и для обеспечения международной безопасности.

Турция с первых дней военных операций поддержала Азербайджан в его справедливой борьбе, оказав политическую и дипломатическую поддержку братской республике. Последние события еще раз доказали эффективность взаимодействия Азербайджана, России и Турции в решении различных региональных задач.

**Ключевые слова:** *Азербайджан, Турция, Карабахская война, региональная безопасность*

## THE SECOND KARABAKH WAR AND AZERBAIJAN-TURKISH RELATIONS

**Prof.Sani Hajiyev**
**BSU, Department of Asian and African History**

**SUMMARY**

The Second Karabakh war ended with the victory of the Azerbaijan Republic, which liberated its occupied territories from the armed forces of Armenia. The 44-day war is of great importance not only for the military-political life of the region, but also for ensuring international security.

From the first days of military operations, Turkey supported Azerbaijan in its just struggle, providing political and diplomatic support to the fraternal republic. Recent events have once again proved the effectiveness of interaction between Azerbaijan, Russia and Turkey in solving various regional problems.

**Key words:** *Azerbaijan, Turkey, Karabakh war, regional security.*

* Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmaqla yanaşı, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfərdən çox azərbaycanlı hərbi əməliyyatlar dövründə öldürülmüş, 50 min nəfərdən çoxu isə əlil olmuşdur. Münaqişə nəticəsində aralarında 71 uşaq, 267 qadın, 326 qoca olmaqla, itkin düşmüş 3889 azərbaycanlının, o cümlədən əsir və girov götürüldüyü müəyyən edilmiş 871 nəfərin sonrakı taleyi məlum deyil. 1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdır (5).

UOT 94(479.24)

# İLHAM ƏLİYEV DİPLOMATİYASININ UĞURU - QARABAĞ QƏLƏBƏSİNƏ QISA NƏZƏR

**ARZU XƏLİLZADƏ**
*Bakı Dövlət Universiteti.*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

*Email: azerbaijan@rambler.ru*

*Bildiyimiz kimi, dünya ölkələrinin tarixində bir çox müharibələr, işğallar, geri dönüşlər və qələbələr baş vermişdir. 2020-ci il 10 noyabr tarixi Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazıldı. Belə ki, 44 gün davam edən müharibə çərçivəsində Azərbaycan Ordusu Ermənistanın bütün 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək düşməni ağır bir məğlubiyyətə uğratdı.*

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ilə başlayan hərbi əməliyyatlar Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başlaması barədə qərar verilməsinə gətirib çıxarmışdır. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir [18].

Ermənistanın 30 il ərzində yaratdığı ordu Azərbaycan əsgərinin qarşısında sadəcə 44 gün tab gətirə bildi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqda elə Ermənistanın özü tərəfindən yaranan yenilməzlik mifi yoxa çıxdı. Azərbaycan Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bir yumruq kimi birləşərək haqq mübarizəsinin qalibinə çevrildi. Azərbaycan ordusu dünya hərb tarixinə yeni döyüş strategiyası və ən müasir hərbi texnikanın tətbiq edilməsi ilə, bununla yanaşı minimum itki verərək, çox qısa müddətdə düşmənin bütün silah-sursatını, hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Döyüşlərin başlandığı 27 sentyabrdan oktyabrın 6-na kimi az müddətdə Ermənistan tərəfinin məlumatlarına əsasən döyüşlərdə 1120 hərbçi həlak olmuşdur [16]. Dünya üzrə müharibələrin aparılması doktrinasında Azərbaycanın bu döyüş taktikası öz xüsusi yerini tutacaqdır.

Hərbi əməliyyatın elə ilk günlərindən Türkiyə və Şimali Kipr Türk Respublikası, Əfqanıstan, Ukrayna, Pakistan, Azərbaycana dəstək olduqlarını bildirərək Azərbaycanın bu haqlı savaşında Azərbaycanın yanında olduqlarını hər vəchlə bildirmişlər. Bu kontekstdə qardaş Türkiyə Cümhuriyyətinin xüsusi rolunun olduğunu vurğulamaq yerinə düşərdi, Türkiyənin Müdafiə naziri Hulusi Akarın bu muharibədə həmişə Azərbaycanın tərəfində olduğu bildirərək Ermənistanın mövqeyinin Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulaması, Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çəliyin Ermənistanın Azərbaycana qarşı hücumlarını sərt şəkildə qınaması, Türkiyə Cümhuriyyətinin Prezidentinin sözçüsü İbrahim Kalının Türkiyənin bu hücumlara qarşı Azərbaycanın yanında olduğunu bildirməsi qardaş Türkiyənin Azərbaycana olan sevgisinin və mənəvi dəstəyinin bariz nümunəsidir.

"Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir oyuncaq kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyanı işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır ki, məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın

yanındadır", deyən Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğan öz çıxışlarında dəfələrlə bu iki dövlət arasında olan səmimi münasibətin əsl qardaşlıq təməlləri üzərində qurulduğunu bir daha dünyaya sübut etmişdir [13].

Müharibə davam edən ərəfədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun və digər dövlət nümayəndələrinin Azərbaycana dəfələrlə səfər etməsi bizə olan mənəvi dəstəyin əsl təcəssümü idi.

Müharibə ilə əlaqədar 29 sentyabr tarixində BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar təcili iclası da baş tutdu. Vaxti ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qətnamələrinin heç birinə əməl etməyən Ermənistan dövləti beynəlxalq hüquqa, beynəlxalq münasibətlərə nə dərəcədə hörmətsiz yanaşdığını bütün bu 30 il boyu sübut etmişdi.

Sülh danışıqlarını, atəşkəsi dəfələrlə pozan Ermənistan tərəfi bu qanunsuz əməlləri ilə yetinməmiş, təxribatçı xarakter daşıyan hərəkətləri ilə Azərbaycan mühitində ciddi ölçüdə narahatlığa səbəb olmuşdur. 2018-ci ildə Ermənistan inqilabı nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist çıxışlar etməsi və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri danışıqlar prosesinə zərbə vurmuşdur [5]. "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək Azərbaycan xalqını bu müqəddəs amal, bu uca əqidə ətrafında birləşdirən prezidentimiz, Cənab Ali Baş Komandanımız İlham Əliyev Ermənistan baş nazirinin bu sərsəm iddiasına həm hərb meydanında Ermənistan ordusunu darmadağın etməklə, həm də siyasi diplomatik yollarla cavab vermiş və əsl qalibin kim olduğunu bütün dünyaya sübut etmişdir. Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdi- mərdanə şəkildə sinə gərərək onları dəf etmiş, öz prinsipial mövqeyindən dönmədən dünyanın aparıcı media qurumlarına verdiyi 30-a yaxın müsahibə ilə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etmişdir.

Ermənistanın təxribatçı əməllərinin davamı qismində, 2019-cu ilin mart ayında Ermənistanın müdafiə naziri David Tonoyanın ABŞ-da rəsmi səfərdə olarkən, "yeni torpaqlar üçün yeni müharibə" çağırışı etməsi Ermənistanın əslində başqa niyyətinin olduğunu bir daha sübut edirdi [15]. Tonoyanın bəyanatı təmas xəttində bir sıra hərbi təxribatlarla müşaiyət olundu. Ermənistan Silahlı Qüvvələrinin bölmələri 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərsə də, bu mənfur niyyətinə müvəffəq ola bilmədi. Birbaşa hərbi təxribatlarla yanaşı, Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq Azərbaycan Respublikasının işğal altındakı ərazilərinə çox sayda YPG, PKK terrorçularının o cümlədən, minlərlə Livan ermənilərinin köçürülməsi münaqişəni daha da alovlandırdı. Yeri gəlmişkən qeyd edək ki, münaqişədən əvvəl İraq və Suriyadan bir çox YPG və PKK üzvünün Azərbaycana qarşı erməni milisləri yetişdirmək üçün Dağlıq Qarabağa köçürüldüyü haqqında iddialar irəli sürülmüşdür. 30 sentyabrda isə 300-ə yaxın PKK döyüşçüsünün İran vasitəsilə Dağlıq Qarabağa köçürüldüyü bildirilmişdir [17]. 28 sentyabrda Azərbaycan Silahlı Qüvvələrindən verilən məlumata görə, erməni itkiləri arasında Suriyadan və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni mənşəli muzdluların olması faktı nəzərdən qaçmamışdır.

Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev müharibənin başlanmasının elə ilk günündə Təhlükəsizlik Şurasının iclasını keçirmiş və bu fikirləri səsləndirmişdir: "Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir. Onu deyə bilərəm ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində

Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm! Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik [6]"

Bəli, müharibənin elə ilk günündən xalq-iqtidar birliyinin nə dərəcədə böyük və səmimi olması öz əksini tapdı. Milyonlar öz liderinin arxasında dağ kimi dayanaraq onu qalibiyyətin ən yüksək zirvəsinə qaldırdılar. Hər kəsin dilində şüara çevrilən "Qarabağ Azərbaycandır" ifadəsi bir növ şanlı qələbəmizin simvoluna çevrildi. Xalqa verdiyi bütün vədləri əksiksiz yerinə yetirən Ulu Öndər davamçısı bir daha dünyaya səriştəli lider, savadlı diplomat, iradəli sərkərdə olduğunu sübüt etdi və tarixə öz adını Azərbaycan torpaqlarını bərpa edən lider olaraq yazdırdı. Dövlət başçısının, Ermənistanın uzun illər ərzində təcavüzü və işğalı nəinki bütün infrastrukturun dağılmasına gətirib çıxarıb, Xocalı soyqırımından başqa, onlar mədəni soyqırım da törədiblər fikri dünyaya erməni vandalizminin tanıdılmasında böyük əhəmiyyətə malikdir.

Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı sentyabrın 30-da Prezident və xanımı bir daha sübut etdi ki, Azərbaycan dövləti öz əsgərinin arxasındadır. Onu qoruyur, onun sağlamığı və şərəfi hərşeydən üstündür. Qeyd edək ki, müharibə müddətində Ermənistan dövləti tərəfindən öz əsgərləri inanılmaz işgəncələrə məruz qalmışdır. Belə ki, əsgərlərin hərbi maşınlara zəncirlənməsi, hətta, ölümlə üz-üzə qaldıqda belə qaçmalarının əngəllənməsi üçün vandal tədbirlər görülmüşdür. Müzəffər Azərbaycan ordusu ilə müharibədə döyüşməyin yalnız ölüm gətirəcəyini bilən erməni ordusunda fərarilik hallarının baş alıb getməsi əbəs yerdən deyildi. Hərbçilərlə görüş zamanı, Prezident bildirmişdir: "Mən demişdim ki, əgər bizə qarşı törədilmiş hərbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir. Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq [2]."

44 gün davam edən müharibə ərzində demək olar ki, hər gün xalqa müraciət edən, xalqın öz dilində danışan Ali Baş Komandan belə demək mümkünsə, Azərbaycan xalqının ürəyindəki bütün sözləri dilə gətirirdi, el dili ilə desək ürəyimizdən tikan çıxarırdı. Sözləri dillər əzbəri olan Prezidentimiz xalqla nə qədər sadə, səmimi danışsa da, ondan bu müddət ərzində 30 a qədər müsahibə götürən xarici və çox zaman da qərəzli media nümayəndələrinin qarşısında bir o qədər diplomatik, savadlı, təmkinli, analitik düşüncə qabiliyyəti ilə bir çoxlarını susduran bir lider kimi də yaddaşlarda qaldı. İntellektual səviyyəsi, dil bilgiləri, gələn hər jurnalistlə öz dilində danışması, tutarlı arqumentləri, mükəmməl tarixi bilikləri, beynəlxalq münasibətlər və beynəlxalq hüquq sahəsindəki savadı dillərə dastan oldu. Hətta, Azərbaycanı bəyənməyən və hər zaman çıxışlarında xalqımıza qarşı qərəzli iddialar irəli sürən bəzi şəxslər də bu fenomenal istedadın, esl aristokrat diplomatın qarşısında susdular və onun mütləq üstünlüyünü qəbul etmək məcburiyyətində qaldılar. Ot öz kökü üstündə bitər deyib atalarımız. Bizim Prezidentimizin kökü Ulu Öndər kökündür. Ümummilli lider kökündür. Bu gün Azərbaycan xalqının İlhamına çevrilən Prezidentimiz Heydər Əliyev məktəbi keçmişdir. Zamanında öz siyasi, diplomatik, vətənpərvər fəaliyyəti ilə bütün SSRİ-ni lərzəyə gətirən Ulu Öndər Heydər Əliyevə həsəd aparanlar indi onun şah əsəri, ləyaqətli davamçısı, Azərbaycan xalqının xilaskar oğlu, böyük sərkərdə İlham Əliyevə həsəd aparırlar. Dəyişən yeganə şey isə İlham Əliyevə həsəd aparanların daha geniş arealı əhatə etməsidir.

Ali Baş Komandanın 4 oktyabr tarixində xalqa etdiyi müraciəti zamanı səsləndirdiyi bu fikirlər də xalqın ürəyindən xəbər verirdi: "Qondarma "Dağlıq Qarabağ Respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir? Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir? O deməkdir ki, orada qanunsuz

məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var? Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! [7].

Bəli, Ali Baş Komandanın əmri və Müzəffər azərbaycan Ordusunun əzmi ilə qələbə Azərbaycanın oldu. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl [8], 17 oktyabrda Füzuli [9], 20 oktyabrda Zəngilan [1] 25 oktyabrda Qubadli [4] və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir [12]. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir [10].

Bəli, Azərbaycan uzun illər beynəlxalq ictimaiyyəti ədalətli olmağa, BMT Təhlükəsizlik Şurasının, digər beynəlxalq təşkilatların qərar və qətnamələrinin icrasına çağırış etsə də, ölkəmizin haqq səsi qulaq ardına vuruldu. Bunun əksinə olaraq ATƏT-in Minsk qrupunun həmsədrləri "münaqişənin hərbi həlli yoxdur" kimi bəyanatlar verirdi, amma Azərbaycan Ordusu 44 gündə yeni reallıqlar yaratdı". Noyabrın 10-da Azərbaycan, Rusiya Prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı birgə bəyanat məzmun, mahiyyət, nəticə etibarilə işğalçı Ermənistanın məğlubiyyəti, Azərbaycanın siyasi qələbəsidir. Bu bir mənalı olaraq belədir. Bu sənəd sentyabrın 27-dən Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində yaranmış reallığa uyğun hazırlanıb və Ermənistanın kapitulyasiya aktıdır". Bu tarixi sənəd ədalətin, haqqın, Azərbaycanın ərazi bütövlüyünün təminatının təsdiqi olmaqla yanaşı, qələbəmizin beynəlxalq hüquq çərçivəsində dəstəklənməsidir. Təbii ki, bu uğurlarımızda Azərbaycanın 30 ilə yaxın müddətdə bütün təzyiqlərə baxmayaraq Dağlıq Qarabağ münaqişəsinin həllində dəyişməz mövqeyinin, müstəqil siyasətinin rolu böyükdür. Qətiyyətli siyasi iradə nümayiş etdirən dövlətimizin başçısı İlham Əliyev öz prinsipial mövqeyindən dönmədi. 44 gündə xarici mətbuata 30-a yaxın müsahibələrinin hər birində münaqişənin əsl mahiyyətini, dünyanın ikili standartlar əsasında yanaşmasının yaratdığı problemləri, Ermənistanın işğalçılıq və faşist siyasətini faktlar əsasında bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı" [14].

10 noyabr bəyanatına əsasən 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, 1 dekabrda isə Laçın öz doğma soydaşlarına qovuşdu. Qarabağ azddır! Qarabağ Azərbaycandır!

Hal-hazırda Ermənistanda demoqrafik böhran daha da dərinləşib, minlərlə erməni gəncinin işğal edilmiş ərazilərdə ölməsi, şikəst olması, xaricə miqrasiya axınının daha da artması qarşıdakı illərdə Ermənistanda əhalinin təbii artımını kəskin aşağı salacaq, ölkə insan resurslarını bərpa etmək üçün qeyri-müəyyən müddətə qədər gözləməli olacaq: "Hərbi fiaskodan sonra Ermənistanda yüksək çinli məmurların varidatını tələsik ölkədən çıxarması, xarici ölkələrə qaçması, yaxud buna hazırlaşması barədə məlumatlar artıb. Həmçinin, Ermənistan iqtisadiyyatı tam çöküb, ölkənin xarici borcu artıb, əhalinin sosial təminatı sahəsində fəlakətli durum yaranıb. Erməni diasporası tərəfindən göndərilən vəsaitlərin və yardımın mənimsənilməsi, əhaliyə və orduya çatmaması da geniş şəkildə müzakirə olunur. Bir sözlə, 44 günlük müharibə Ermənistan dövlətinin əsaslarını sarsıtdı. Paşinyan Müdafiə Nazirliyinin yüksək rütbəli vəzifəli şəxslərinin və qondarma rejimin Prezidenti Araik Harutyunyanın məsləhəti ilə razılaşmanı imzaladığını desə də, müxalifət nümayəndələri onların adlarını hallandırmır, birbaşa Paşinyanı məsul tuturlar. Bu isə onu göstərir ki, müxalifətin dərdi Qarabağ deyil hakimiyyətə gəlməkdir. Hazırda da erməni müxalifəti Qarabağdakı məğlubiyyətdən istifadə edərək hakimiyyətə gəlməyin yollarını axtarır və Paşinyanı linç etməyin planlarını qurur, ictimai-siyasi rəyi buna hazırlayır. Lakin Avropa dövlətləri, beynəlxalq təşkilatlar müxalifətin linç kampaniyasına səssiz qalır, demokratiya və insan haqlarının qorunmasından bəhs etmir. Son vaxtlara qədər Paşinyan hökumətinə dəstək verən dövlətlər, beynəlxalq təşkilatlar hələ də səssizliyini qoruyur" [11].

Qarabağ münaqişə ilə bağlı formalaşmış bir sıra

illüziya və stereotiplərə son qoyuldu. Eyni zamanda, bir sıra həqiqətlər praktiki baxımdan da təsdiqini tapdı. Birincisi, bu münaqişənin "dondurulmuş" halda olması ilə bağlı iddiaların nə qədər əsassız olduğu, eyni zamanda, təhlükəli mahiyyəti üzə çıxdı. İkincisi, "münaqişənin sülh yolu ilə həllinin alternativi yoxdur" kimi "hökm"lərin universal xarakter daşımadığı, əksər hallarda isə beynəlxalq hüququn norma və prinsipləri ilə ziddiyyət təşkil etməsi faktı təsdiqini tapmış oldu. Eyni zamanda, bütün dünya bir daha şahidlik etdi ki, müasir dünyada güc amili həlledici rola və statusa malikdir. Münaqişənin həll istiqamətində real heç bir addım atılmırdı həmin mövqe hələ də yoxdur. Nəticəsi isə bəllidir. Bu münaqişənin həlli missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən hansı biri 30 il ərzində torpaqlarının işğal altında qalması faktına dözərdi? Yəqin ki, heç biri. Buna baxmayaraq, onlar 30 ildir ki, yorulmadan həm "münaqişə ilə bağlı status-kvo vəziyyəti qəbuledilməzdir" deyirlər, həm də eyni müvəffəqiyyətlə "müharibənin hərbi həlli yoxdur" psevdopasifist tezisi beynəlxalq ictimai fikrə sırımaqla məşğuldurlar. Nəticədə işğalçı Ermənistanda arxayınçılıq sindromu formalaşır və cəzasızlıq rejiminin hökm sürdüyü bir reallıqda yeni cinayətlər, yaxud təxribatlar törətməyə şirniklənmiş olur.

Bu prosesdə ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olan Fransa və onun siyasi rəhbərliyi izafi "fəal"lıq nümayiş etdirir. Bəlkə də Fransa sözügedən qurumun üzvü olmasaydı və ermənipərəst mövqeyini milli səviyyədə ifadə etsəydi, bu, haradasa başa düşülən olardı. Məsələ ondadır ki, Fransa münaqişənin həllində vasitəçilik missiyasını daşıyan ATƏT-in Minsk qrupunun həmsədri statusunda olan üç dövlətdən biridir. Beynəlxalq hüquqa görə, münaqişələrin tənzimlənməsində vasitəçi olan tərəf və ya tərəflər, ilk növbədə, qərəzsiz, tərəfsiz, obyektiv və neytral mövqedə olmalıdır. Reallıqda isə Fransa dövləti öz prezidentinin timsalında beynəlxalq hüquqda vasitəçilər üçün müəyyən edilmiş norma və prinsiplərə nəinki məhəl qoymur, əslində, onları ayaqlar altına atıb tapdalayır. Azərbaycan Silahlı Qüvvələrinin Dağlıq Qarabağ ərazilərini geri qaytarmasına imkan verməyəcəklərini bəyan edir. Belə həmsədri olan ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasının iflasa uğraması təəccüb doğurmamalıdır. Elə bu səbəbdən də Azərbaycan ictimaiyyəti haqlı olaraq Fransa dövlətinin münaqişənin tənzimlənməsi prosesində ATƏT-in Minsk qrupunda həmsədr kimi qalmasına heç bir mənəvi və hüquqi haqqının qalmadığını bildirir [3].

Azərbaycanın bu şanlı qələbəsini gözügötürməyən dairələr hər vəchlə qələbəmizə kölgə salmağa çalışırlar. Bu qələbə Azərbaycan ordusunun və Azərbaycan diplomatiyasının qələbəsidir. Hər iki cəbhədə Azərbaycan qələbə çaldı. Ali baş Komandanın təbirincə desək, qalib gəlmiş ölkə Azərbaycan, məğlub ölkə isə Ermənistandır. Qarabağ Bizimdir! Qarabağ Azərbaycandır!

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, Ermənistan, II Qarabağ müharibəsi, silahlı qüvvələr, BMT, ATƏT, dünya dövlətləri*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Ali Baş Komandan: "Zəngilan şəhəri və bir neçə kənd işğaldan azad edildi": [Elektron resurs] / URL: https. www. lent.az (azərb.). 20 oktyabr 2020. - İstifadə tarixi: 8 noyabr 2020.*

*2. Azərbaycan Prezidenti: "Bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq": [Elektron resurs] / URL: https. www. ordu. az (ingilis). 30 sentyabr 2020. 30 sentyabr 2020 tarixində arxivləşdirilib. İstifadə tarixi: 30 sentyabr 2020.*

*3. Ermənistan-Azərbaycan müharibəsi: həqiqət anı. Elman Nəsirov. 03.10.2020 [20:55] : [Elektron resurs] / URL: https. www.A+A–Bakı, 3 oktyabr, AZƏRTAC.*

*4. Qubadlı şəhəri işğaldan azad edilmişdir: [Elektron resurs] / URL: https.www. sputnik.az (azərb.). Sputnik Azərbaycanca. 25 oktyabr 2020. İstifadə tarixi: 8 noyabr 2020.*

*5. Paşinyan yenə təkrar etdi: "Qarabağ Ermənistandır və nöqtə" : [Elektron resurs] / URL: https. www. yeniavaz.com. YENİAVAZ.COM. İstifadə tarixi: 22 oktyabr 2020.*

*6. Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Azərbaycan Dövlət İnformasiya Agentliyi (azərb.): [Elektron resurs] / URL: https. www. 27 sentyabr 2020. 28 sentyabr 2020 tarixində arxivləşdirilib. İstifadə tarixi: 28 sentyabr 2020.*

*7. Prezident İlham Əliyev və birinci xanım*

*Mehriban Əliyeva yaralı hərbçilərlə görüşüblər: [Elektron resurs] / URL: https. www. milli. az(azərb.). 30 sentyabr 2020. 30 sentyabr 2020 tarixindəarxivləşdirilib. İstifadə tarixi: 30 sentyabr 2020.*

*8. Prezident: Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır: [Elektron resurs] / URL: https. www. azeridefence.com (azərb.). 4 oktyabr 2020. İstifadə tarixi: 8 noyabr 2020.*

*9. Prezident: "Füzuli şəhəri və rayonun daha bir neçə kəndi işğaldan azad olunub": [Elektron resurs] / URL: https. www. report.az (azərb.). Report İnformasiya Agentliyi. 17 oktyabr 2020. İstifadə tarixi: 8 noyabr 2020.*

*10. Prezident İlham Əliyev Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin iştirakı ilə imzalanmış sənədin mətnini açıqlayıb tam mətn: [Elektron resurs] / URL: https. www. lent.az(azərb.). 10 noyabr 2020. İstifadə tarixi: 10 noyabr 2020.*

*11. Sədaqət Vəliyeva: 44 günlük müharibə Ermənistan dövlətinin əsaslarını sarsıtdı. 17 Noyabr 2020.*

*12. Şuşa şəhəri işğaldan azad edildi: [Elektron resurs] / URL: https. www. report.az(azərb.). Report İnformasiya Agentliyi. 8 noyabr 2020. İstifadə tarixi: 8 noyabr 2020.*

*13. Türkiyə XİN başçısı Azərbaycan səfirliyini ziyarət edib: [Elektron resurs] / URL: https. www. ordu.az (ingilis). 29 sentyabr 2020. 29 sentyabr 2020 tarixində arxivləşdirilib. İstifadə tarixi: 29 sentyabr 2020.*

*14. yap.org.az. "44 günlük müharibə tarixi ədaləti bərpa etdi" Malik Həsənov 12 Noyabr 1467*

*15. After peace negotiations, threats of war break out between Armenia and Azerbaijan: [Elektron resurs] / URL: https. www. eurasianet.org. EURASIANET.ORG. İstifadə tarixi: 22 oktyabr 2020.*

*16. https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si#cite_note-armeniancasualtiesofficial-108*

*17. Turkey: Armenia transports hundreds of PKK militants to fight Azerbaijan. Middle East Monitor (ingilis). 30 sentyabr 2020. 1 oktyabr 2020 tarixində arxivləşdirilib. İstifadə tarixi: 1 oktyabr 2020*

*18. The humanitarian fallout of the Nagorno-Karabakh conflict: [Elektron resurs] / URL: https. www. thenewhumanitarian.org (ingilis). The New Humanitarian. 5 noyabr 2020. İstifadə tarixi: 8 noyabr 202.*

**АРЗУ ХАЛИЛЗАДЕ**
**Д.ф.п.и., доцент, Бакинский Государственный Университет**

## УСПЕХ ДИПЛОМАТИИ ИЛЬГАМА АЛИЕВА - КРАТКИЙ ОБЗОР КАРАБАХСКОЙ ПОБЕДЫ

**РЕЗЮМЕ**

Как мы знаем, в мировой истории было много войн, оккупаций, неудач и побед. 10 ноября 2020 года золотыми буквами вписано в славную историю Азербайджана. Таким образом, в ходе 44-дневной войны азербайджанская армия нанесла поражение противнику, уничтожив вооруженные силы, созданные Арменией за все 30 лет.

**Ключевые слова:** *Азербайджан, Турция, Армения, Вторая карабахская война, вооруженные силы, ООН, ОБСЕ, мировые державы.*

**ARZU KHALILZADE**
**PhD, docent, Baku State University**

## THE SUCCESS OF DIPLOMACY OF ILGAM ALIYEV - BRIEF REVIEW OF THE KARABAKH'S VICTORY

**SUMMARY**

As we know, there have been many wars, occupations, failures and victories in world history. November 10, 2020 is inscribed in golden letters in the glorious history of Azerbaijan. Thus, during the 44-day war, the Azerbaijani army defeated the enemy, destroying the armed forces created by Armenia for all 30 years.

**Key words:** *Azerbaijan, Turkey, Armenia, Second Karabakh war, armed forces, UN, OSCE, world powers.*

UOT 94 "19/..."

# QARABAG ZƏFƏRİ HEYDƏR ƏLİYEV İRSİNİN TƏNTƏNƏSİDİR

**SEVDA ŞƏRİFOVA**
*Bakı Dövlət Universitetinin "Qafqaz Xalqları tarixi" kafedrasının doktorantı*

*E-mail: sevdasharifova@mail.ru*

***Məqalə Heydər Əliyevin xatirəsi hörmətlə anılaraq yazılmışdır.***

Bir çox əlamətdar və ağrılı-acılı hadisələrlə tarixə qovuşan 2020-ci ilin son aylarında Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı yerə-göyə sığmayan sevinc hissi və qururla Qarabag zəfərini qeyd etdi. Bu böyük qələbəyə aparan keşməkeşli yol 30 il sürdü. 30 il torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində düşmən tapdağı altında qalması Azərbaycan xalqının ürəyində bir yara oldu. 30 il Qarabağ həsrətilə alışıb-yanan ürəklərin fəryadı, 30 il Qarabağa qayıdacağı ümidi ilə yaşayan gözü yaşlı insanların duaları, 30 il bu qələbənin gerçəkləşməsi uğrunda dövlət başçılarımızın apardıqları ədalətli siyasi mübarizə, diplomatik danışıqlar və gərgin ordu quruculuğu, nəhayət ki, bu gözəl Zəfər gününü gətirdi! Ümimmili lider Heydər Əliyev bu günün gələcəyini bilirdi və vaxtılə uzaqgörənliklə söylədikləri bu gün artlq Azərbaycanın reallığıdır: "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun". (1) Ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanı azad etdi, Qarabağı işğaldan azad etdi. Bu həqiqətən də Azərbaycan tarixinə qızıl hərflərlərlə yazılan Böyük Zəfərdir!

1923 ildə Azərbaycanın tərkibində yaranan Dağlıq Qarabağ Muxtar vilayətinin qısa, lakin qanlı-qaralı tarixçəsi "xüsusi statusa" malik olmasından ibarətdir. Ümummilli lider Heydər Əliyevin 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsindən sonra sistemli və məqsədyönlü tədbirləri nəticəsində vəziyyət dəyişdi. 1970-1985-ci illərdə DQMV-də ümumi dəyəri 470 milyon manat olan əsas fondlar, 15 sənaye müəssisəsi və başqa istehsal sahələri ıstifadəyə verildi. (2,s.58). Məsələn, Ağdama qədər uzanmış dəmir yolunun qalan 11 km nədənsə çəkilmirdi. 1979-cu ildə "Ağdam–Xankəndi" dəmiryolu çəkildi və istifadəyə verildi. Nəticədə, Qarabağın dağlıq və aran hissələrinin, respublikanın digər rayonları ilə daha sıx təsərrüfat əlaqələri yaradıldı. 1973-cü ildə Xankəndidə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı, amma bir şərtlə ki, burada erməni və rus fakültələri ilə bərabər azərbaycan fakültəsi də fəaliyyət göstərsin. Bu tədbirlər, sözsüz ki, Heydər Əliyevin erməni separatçılarını açıq çıxışlardan çəkindirmək siyasəti və Azərbaycan xalqı qarşısında böyük tarixi xidmətləri idi, çünki Dağlıq Qarabağın Azərbaycana bağlılığını təmin etdi.

Daha bir fakt ondan ibarətdir ki, 1977 ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunduqda Konstitusiya Komissiyası yarandı, onun sədri SSRİ Sov.İKP Mərkəzi Komitəsinin I katibi L.Brejnev, Heydər Əliyev isə üzvü idi. Vaxtaşırı bu komissiyanın keçirdikləri müzakirələri Mərkəzi Komitənin katibi, akademik Ponomaryov aparırdı. İclasların birində Heydər Əliyev komissiyaya Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi barədə coxsaylı ərizələrin daxil olduğunu və onun etirazlarına baxmayaraq Ponomaryovun və başqalarının bu ərizələrin müzakirəyə qoyulmasının tərəfdarları olduğunu görür. Dərhal reaksiya verərək Heydər Əliyev L.Brejnevin qəbuluna gedir və öz etirazını

bilavasitə ölkənin rəhbərinə bildirdikdən sonra bu məsələ komissiyanın müzakirəsindən çıxarılır. Belə hallar Heydər Əliyevin ilk dəfə Azərbaycanda rəhbər vəzifəyə seçildikdən sonra 14 il ərzində və dövlətçilik fəaliyyətinin Moskva dönəmində saysız-hesabsız dərəcədə təkrar olunmuşdur və qarşısı alınmışdır. Ümummilli lider Heydər Əliyev sonralar bu barədə demişdi: "Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma, qarşısını almaq da çətin idi. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım". (3)

Sovet rejiminin dağılması ərəfəsində ermənilərin separatizm meylləri geniş vüsət almışdır. Onlar Qarabağ məsələsinin yenidən qaldırılmasına əvvəlcədən hazırlaşmış və bu hazırlıq işlərinin hədəfində Heydər Əliyev amili vardı, çünki erməni millətçiləri yaxşı bilirdilər ki, Heydər Əliyevin varlığı, onun sovet rəhbərliyində böyük nüfuza malik olması onların mənfur planlarını, həmişə olduğu kimi, darmadağın edəcək, ona görə də Ermənistandan və hətta Azərbaycanın özündən kütləvi şəkildə anonim məktular Moskvaya göndərilir, qəsdən Heydər Əliyevə qarşı şər-böhtan kompaniyası aparılırdı. Elə bu səbəbdən Heydər Əliyevin 1987 ildə istefa verməsindən cəmi 20 gün sonra akademik A.Aqanbeqyan "Yumanite" qəzetinə verdiyi müsahibəsində bildirdi ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməlidir və bu məsələ M.Qorbacyovla razılaşdırılmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ərəfəsində cəbhədə hərbi güc balansı artıq Ermənistanın xeyrinə idi, həmçinin informasiya mübarizəsində ermənilər üstün vəziyyəti ələ keçirmişdilər. Azərbaycanın paytaxtında hakimiyyət uğrunda şiddətli mübarizə gedirdi. Qarabağ hadisələrinin dalğasında A.Mütəllibov istefa verir, ardınca Şuşa və Laçının təslim olması bahasına cəbhədən geri çağırılan tank və könüllü dəstələrin köməyi ilə Elçibəyin rəhbərlik etdiyi Xalq Cəbhəsi hakimiyyətə gəlir. Respublikanın şimalında və cənubunda separatçılar baş qaldıraraq Azərbaycanı parçalayıb "suveren Ləzgistan" və "muxtar Talış-Muğan Respublikası" yaratmağa çalışırdılar. O vaxtki Azərbaycanın rəhbərliyi təcrid olunmuş vəziyyətdə fəaliyyət göztərirdi, çünki ölkəni diletant səviyyəsində idarə edərək MDB-nin əksər respublikaları, həmçinin yaxın qonşuları – Rusiya və İranla münasibətləri korlamışdılar. Azərbaycan xalqının sadiq oğlu Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə Azərbaycanda hakimiyyətə qayıtdıqdan dərhal sonra vəziyyəti düzgün qiymətləndirərək müharibənin davam etdirilməsinin uğurlu nəticələr verməyəcəyi qənaətinə gəlir və ilk addım olaraq atəşkəs əldə edərək mənasız axıdılan qanın qarşısını alır. Bundan sonra Dağlıq Qarabağ reallığını dünyaya çatdırmaq, dünyanın aparıcı siyasi liderlərini danışıqlar prosesinə cəlb etmək, beynəlxalq ictimai rəydə dönüş yaratmaq və ilk mərhələdə informasiya müharibəsini qazanmaq uğrunda uzun və gərgin siyasi mübarizə yolu başlanır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin danışıqlar yolu ilə nizama salınması Ulu Öndər Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Dahi Öndər Heydər Əliyevin münaqişənin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə ATƏT-in Zirvə toplantılarında, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin dünyada siyasi gücə malik olan dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də, çoxtərəfli görüşlərdə bu münaqişənin mahiyyətiyinə, reallığına dünya birliyinin diqqətini cəlb enməyə bacarmışdı. Böyük Öndər Heydər Əliyev bütün gərüşlərində və çıxışlarında, siyasi fəaliyyətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışırdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü ağır vəziyyət, yerlərindən-yuvalarında qovulan bir millyona yaxın insanların ağır şəraitdə çadırlarda yaşadıqları və öz evlərinə qayıtmaq arzusunda olduqları haqqında dünya ictimaiyyətinə ətraflı məlumat verən milli liderimiz özünün qətiyyətli və prinsipial mövqeyini hər bir görüşdə, hər bir çıxışında dünya ictimaiyyətinə tarixi faktlarla əsaslandıraraq çatdırırdı.

Rusiyanın ciddi dəstəyi ilə hərbi əməliyyatlar aparan ermənilərin maksimum məqsədi Dağlıq Qarabağ ətrafında təhlükəsiz bufer zonası yaratmaq idi. Bundan əlavə, ermənilərin daha ciddi niyyətlərindən biri də Yevlaxı ələ keçirmək, Murovdan enərək Gəncəyə girmək və bu hissəni

Bakıdan ayırmaq idi. Çox təhlükəli bir vəziyyət yaranmışdı. Bu məqamda Rusiya vasitəçilik təklifini irəli sürdü və Azərbaycan Rusiyanın təklif etdiyi atəşkəsə razılıq verdi. Atəşkəs sənədinin Bişkekdə imzalanmasını təklif edildi. Rusiyanın Minsk Qrupundakı həmsədri Vladimir Kazimirov Bakıya gəlir, görüş zamanı Heydər Əliyevin təkidli tələbi ilə atəşkəs haqqında sənəddən qondarma "DQR" sözü çıxarılır və sənədə "erməni və azərbaycanlı icmaları" ifadəsi daxil edilir. V.Kazimirov dərhal bu tələblə razılaşır və hətta Azərbaycan tərəfinin düzəliş etdiyi sənədin hüquqi qüvvəsinin olduğuna dair imza da atır. Budan sonra sənəd 3 nüsxədə - erməni, rus və azərbaycan dillərində hazırlanır. Beləliklə, Birinci Qarabağ müharibəsində atəşkəsi nəzərdə tutan sənəd olan Bişkek protokolu 1994-cü ilin mayın 12-də imzalanır. Sənədə Ermənistan və Azərbaycanın parlament sədrləri, həmçinin Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının rəhbərləri imza atıb. Azərbaycan tərəfi sənədə iki əlavə ilə imza atmışdı. Bişkek protokolunun 5-ci abzasında "tutulmuş ərazilər" sözü "işğal olunmuş ərazilər"lə əvəzlənmiş və atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək müşahidəçilərin"beynəlxalq müşahidəçilər missiyası" olması Azərbaycan tərəfinin təklifi ilə qeyd edilmişdi.(4) Tarixi faktlar və sənədlər sübut edir ki, atəşkəsə nail olunduqdan sonra 1995-1996-cı ilin sonlarına qədər Ermənistanın öz işğalçı siyasətindən əl çəkmək istəməməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin həlli məqsədi ilə Qərb və ATƏT-in, həmçinin Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlar prosesində konkret nəticənin alınmasında ən böyük və yeganə maneə olmuşdur.

Danışıqlar prosesində Heydər Əliyevi ən çox düşündürən məsələ bu olmuşdur ki, Qərb dünyasının aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanı təcavüzkar dövlət saymır. Döğrüdür, Azərbaycanla daima həmrəy olan qardaş Türkiyə Respublikası hər bir zaman və hər yerdə Ermənistanın təcəvüzkar siyəsəti haqqında bəyan edirdi. Bundan savayı İslam Konfransı Təşkilatı Azərbaycan Respublikasına siyasi dəstəyini göstərərək Ermənistanın Azərbaycan torpaqlarına təcavüz etməsi haqqında qətnamə qəbul etmişdir. Lakin Qərb dünyası ölkələrində vəziyyət başqa idi. Baxmayaraq ki, Ermənistanın təcavüzünə məruz qalan ölkə Azərbaycandır, Qərbin aparıcı ölkələrinin, əfsuslar olsunki, ən çox Fransanın, parlamentlərində Ermənistana doğma münasibət göstərilir, hətta ermənilərin ortaya atdıqları qondarma "soyqırımı" məsələsinə baxılıb qəbul edilməsinə də səylər göstərilirdi. Bu siyasətin hələ də davam etdirilməsinin bariz nümunəsi kimi 4 dekabr 2020-ci il tarixində Fransa Milli Assambleyasının reallıqla heç bir əlaqəsi olmayan "Erməni xalqının və Avropa və Şərqin xristian icmalarının qorunması" adlı qətnaməsinin qəbul edilməsini göstərmək olar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin artıq həll olunmasına baxmayaraq, Fransada ermənipərəst qüvvələr hələ də bu münaqişənin dinlərarası və sivilizasiyalararası toqquşma kimi qələmə vermək cəhdlərini davam etdirirlər və Azərbaycanın müxtəlif etnik mənsubiyyətə və dini etiqadlara malik olan əhalisinin sülh içində yaşadığı çox millətli və çox konfessiyalı dövlət olması reallığını görməzdən gəlirlər.

XX əsrin 90-cı illərində isə reallıq bundan ibarət idi ki, əslində Ermənistan-Azərbaycan müharibəsi gedirdi və Ermənistan Respublikası suveren Azərbaycan Respublikasının ərazisinə təcavüz etmişdi. Qarabağ münaqişəsi ilə bağlı BMT-nin Təhlükəsizlik Şürasının dörd qətnaməsi qəbul edilmişdir (822, 853, 874 və 884). Hamısı Qarabağda gərgin hərbi əməliyyatların aparıldığı bir dövrdə - 30 aprel-12 noyabr 1993-cü il tarixlərində qəbul edilmişdi. Bu qətnamələrin dördündə də yazılıb ki, işğalçı ordu işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır, lakin heç birində "Ermənistan" və ya "Ermənistan silahlı qüvvələri" sözləri yoxdur.(5,s.145) Müdrik və uzaqgörən dövlət başçısı olan Heydər Əliyev münaqişənin başlıq mətninə xüsusi diqqət yetirirdi. Məhz Heydər Əliyevin tövsiyyəsi ilə münaqişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi adlandırılmağa başlanmışdır, çünki əks halda qarşıdurmanın iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasında baş verməsi təəsuratı yaranırdı.

1992-ci ildə ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) çərcivəsində Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin

həllində vasitəçilik edəcək 12 dövlətdən ibarət Minsk qrupu yaradıldı və Birləşmiş Millətlər Təşkilatı bu məsələni ATƏT-in himayəsinə verdi.

5-6 dekabr 1994-cü ildə keçirilən Budapeşt sammiti Heydər Əliyevin iştirakı ilə ilk sammit idi. Bu sammitdə Minsk prosesi çərçivəsində həmsədrlik institutu təsis olundu. Ona əvvəl Finlandiya ilə Rusiya, sonra isə 1995-97-ci illər ərzində İsveç ilə Rusiya başçılıq ediblər. Beləliklə, Rusiyanın "fərdi sülhyaratma" istəyinin qarşısı alındı. Budapeşt sammitində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnamə qəbul edildi. Bu qərarda ATƏT-in sülhməramlı qüvvələrinin yaranması və saziş əldə olunarsa, Dağlıq Qarabağ bölgəsinə ATƏT-in sülhməramlı qüvvələrinin daxil olması nəzərdə tutulmuşdur. Beləliklə, ATƏT-in növbəti, Lissabonda keçiriləcək dövlət başçılarının dördüncü Zirvə görüşü ərəfəsində yeganə nailiyyət Azərbaycan və Ermənistan arasında 1994-cü ildə razılaşdırılan atəşkəsin qorunması oldu. Buna baxmayaraq, Heydər Əliyev 1996-cı il noyabrın 30-da Binə hava limanında jurnalistlərə verdiyi bəyanatında Lissabon zirvə görüşünə böyük əhəmiyyət verdiyini və Budapeştdən Lissabona qədər keçən dövrü də müsbət qiymətləndirdiyini bildirmişdir. (6)

Qafqaz regionu, xüsusilə Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yüksək səviyyədə ilk dəfə geniş müzakirə olunacağı ATƏT-in Lissabon sammiti 1996-cı il dekabrın 2-3-də 52 Avropa dövləti, ABŞ, Kanada və 10 Asiya-Afrika dövləti başçılarının müşahidəçi statusunda iştirakı ilə keçirilmişdir. Buna qədər vəziyyət tamamilə Ermənistanın xeyrinə idi. Lakin Lissabon sammitində Heydər Əliyev öz veto hüququndan istifadə edərək, adi silahların məhdudlaşdırılması ilə bağlı ATƏT-in bütün yekun sənədlərinə, həmçinin Avropada təhlükəsizlik konsepsiyasına aid olan sənədlərə veto qoydu (7, s.162). Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllinin əsas prinsipləri Lissabon sammitində məhşur veto qarşıdurmasında milli liderimiz Heydər Əliyevin qalib çıxmasının nəticəsində qəbul edilmişdir. Ermənistan sammitdə təklənmiş, təcrid olunmuş, pat vəziyyətində qalır. Heydər Əliyevin mövqeyini 53 dünya dövləti dəstəkləyir. Bununla öz parlaq diplomatiya məharətini bütün dünyaya nümayiş edən böyük liderimiz Heydər Əliyev ABŞ nümayəndə heyətinə başçılıq edən vitse-prezident Albert Qorun təklifi ilə bu prinsiplərin ATƏT-in fəaliyyətdə olan sədrinin ayrıca bəyanatında səsləndirilməsinə nail olur. Həmin prinsiplər aşağıdakılardı:

- Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün tanınması
- Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək özünüidarə statusunun verilməsi
- Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi

Ümummilli lider Heydər Əliyev Lissabon görüşünün tarixi əhəmiyyətini dəyərləndirərək bu üç prinsipin səsləndirilməsi uğrunda aparılan gərgin mübarizəyə görə qiymətləndirmişdir: "Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm Zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik". (8,c.9)

Rəsmi materiallarda qeyd edilir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il 2 dekabr Lissabon Zirvə görüşündə səsləndirilən nitqində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü barədə ümumi məlumat verib. Heydər Əliyev çıxışında Ermənistan tərəfinin bu münaqişədə məqsədini təcavüzün nəticələrini qanuniləşdirmək və Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaq niyyəti kimi qiymətləndirib, bütün bunlara yol verilməyəcəyini iştirakçı dövlətlərin başçılarına elan edib. (9,c.3) Lissabon sammitinin materiallarını nəzərdən keçirdikdə aydın olur ki, Azərbaycan xalqının lideri Heydər Əliyevin Azərbaycanın gələcəyi uğrunda bütün dünya dövlətləri qarşısında nümayiş etdirdiyi diplomatik istedad, cəsarət və müdriklik, əminəm ki, bu parlaq şəxsiyyətə hər bir insanda rəğbət və qürur hissi yaradır. Bəli, bir həqiqət danılmazdır - biz Qarabağ zəfərinə vaxtilə Ümummilli lider Heydər Əliyevin gərgin əməyi və siyasi mübarizəsi nəticəsində nail olmuşuq.

Biz, azərbaycanlılar xoşbəxt millətik, çünki Uca Tanrı Heydər Əliyev kimi dahi şəxsiyyəti

Azərbaycan xalqına bəxş etmişdir. Heydər Əliyevin öz xalqına qoyub getdiyi zəngin və tükənməz irsindən hələ neçə-neçə yeni nəsillər bəhrələnəcək, yaşayıb-yaradacaq. Heydər Əliyevin irsi – həm Qarabağ zəfərinin bünövrəsi, həm də gələcək nəsillərin xoşbəxt və firavan həyatının zəminidir.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk Qrupunun həmsədrləri təyin olundu. Beləliklə, Heydər Əliyev ərazilərində millətlərarası qarşıdurma yaranan heç bir dövlət başçısının bacarmadığını bacardı - danışıqlar prosesinə dünyanın aparıcı siyasi gücə malik olan dövlətlərin liderlərinin cəlb olunmasına nail oldu. Azərbaycan xalqının sədaqətli oğlu Heydər Əliyevin siyasi mübarizəsi nəticəsində Lissabon sammitinin sənədlərində ilk dəfə yazıldı ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilsin və Dağlıq Qarabağın əhalisinin - həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin. Bu, öncə Ermənistanla Azərbaycan arasında gedən informasiya müharibəsində kəskin dönüş, daha sonra, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi reallığının dünya ictimaiyyəti tərəfindən yekdilliklə qəbul edilməsi kimi qiymətləndirilməlidir.

1997-ci ilin iyun ayından başlayaraq ATƏT-in Minsk Qrupunun həmsədrləri məhz Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət təkliflərlə çıxış etmişlər - Dağlıq Qarabağın ətrafında yerləşən 7 işğal olunmuş rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair. Onların təqdim etdikləri ilk təklif münaqişənin “paket” həllini nəzərdə tuturdu, yəni Dağlıq Qarabağın statusunun müəyyən edilməsi bütün məsələlərə baxılması ilə eyni vaxtda baş verməli idi. İkinci təklif isə münaqişənin “mərhələli həll” təklifi idi. O zamanlar Azərbaycan Prezidenti olan Heydər Əliyev həmin planlarla tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini qəbul etmişdi. Ermənistan Prezidenti Levon Ter-Petrosyan isə ikinci təkliflə razılaşdı. Sonralar Heydər Əliyev bu barədə demişdir: “Biz bunu qəbul etdik. Ədalət naminə deməliyəm ki, Ermənistanın o zamankı Prezidenti Levon Ter-Petrosyan buna müsbət reaksiya göstərdi. Oktyabr ayında Strasburqda olduğumuz zaman da rəsmi olaraq bu təklifi prinsipcə qəbul etdiyimizə dair ortaq bir bəyanat verdik”. (10)

Lakin Ermənistanda Levon Ter-Petrosyana qarşı müxalifət meydana çıxdı və o,1998-ci ilin fevral ayında istefa verdi. Bundan bir qədər sonra Robert Koçaryan prezident seçildi. 1998-ci il noyabrın 9-da həmsədrlər həm beynəlxalq hüquq normalarına, həmçinin, Azərbaycanın dövlət maraqlarına zidd “ümumi dövlət” təklifini irəli sürdülər. Buna cavab olaraq ulu öndərimiz qətiyyətlə bu təklifi müzakirə etməkdən belə imtina edərək ATƏT-in Minsk Qrupunun fəaliyyətini kəskin tənqid etmişdir, çünki bu təklifin qəbul ediləcəyi təqdirdə Azərbaycanın ərazisində iki dövlətin yaranması və Azərbaycanın Dağlıq Qarabağa bütün hüquqlarının itirilməsi planlaşdırılmışdır. Heydər Əliyev çıxışlarının birində bu barədə demişdir: “Onların nümayəndəsi buraya bir neçə dəfə gəldi, amma dedim ki, bunu qəbul edə bilmərik. Sonra Amerika Konqresində danışmağa başladılar ki, niyə Azərbaycan Minsk Qrupunun təkliflərini qəbul etmir, Ermənistan qəbul edir? Ermənistan Minsk Qrupunun təklifini qəbul etmədikdə nədənsə bir nəfər də qalxıb demədi: Ermənistan niyə bunu etmir? Azərbaycan yalnız bir dəfə təklifi qəbul etmədikdə, bizim başımıza nələr gəlmədi”. (10)

Belə bir vəziyyətə Milli liderimiz çox böyük əzm, cəsarət və diplomatik məharətlə ona təzyiq göstərməyə çalışan Minsk Qrupunun planlarının həyata keçməsinə izn verməmişdir: “Minsk Qrupu həmsədrlərinin təmsilçiləri uzun sürən fasilədən sonra, görünür, danışıqlar prosesini yenidən canlandırmaq istəyi ilə 1997-ci il noyabrın 9-da Azərbaycan tərəfini çox məyus edən və danışıqların davam etdirilməsinə imkan yaratmayan sayca üçüncü təklifi irəli sürmüşlər. Bu təklif dünya praktikasında mövcud olmayan “ümumi dövlət” ideyasına əsaslanırdı və ATƏT-in iki sammitinin təsdiq etdiyi qərarlardan və prinsiplərdən irəli gələn əvvəlki mövqedən geri çəkilməkdən başqa bir şey deyildi. Bu təkliflər əslində Dağlıq Qarabağı respublika formasında dövlət ərazi qurumu kimi ayırır və ona uydurma “ümumi dövlət” çərçivəsində Azərbaycan ilə bərabər status verirdi. Həm də

bu "ümumi dövlət"in Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində yaradılmalı olduğuna istinad edilməsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü üçün təminat yaratmır, əslində bunları pozur".(11) Bununla ümummilli liderimiz Heydər Əliyev bir daha yüksək siyasi iradəyə malik olan dahi dövlət xadimi olduğunu sübut etmiş və Azərbaycan Respublikasının dövlət mənafeyinə zidd heç bir planın baş tutmayacaqını böyük cəsarətlə bütün dünyaya bəyan etmişdir.

1999-cu il ərzində Amerika Birləşmiş Ştatlarının rəhbərliyi, prezident Klinton, dövlət katibi xanım Olbraytın xahişi ilə Heydər Əliyev bir neçə dəfə Robert Koçaryanla görüşüb danışıqlar aparmış, hətta bu danışıqlar prosesində mövqelərin xeyli yaxınlaşması da baş tutmuşdur, lakin həmin ildə Ermənistan parlamentində baş verən terror hadisəsindən sonra Ermənistan əldə edilmiş razılaşmalardan yenə də imtina etmişdir.

Beləliklə, Cənubi Qafqazda ən "uzunömürlü" münaqişə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında danışıqlar prosesinin Ermənistan tərəfindən dəfələrlə pozulması Qafqaz regionun, Avropanın və bütün dünyanın təhlükəsizliyinin təmin edilməsində başlıca maneə olmuşdur. "Ümumi dövlət" prinsipinin ortaya atılması, sözsüz ki, öz məqsədləri uğrunda hətta terrorçuluq əməllərindən belə çəkinməyən Ermənistan millətçi dairələrinin maraqlarına tam cavab verirdi və münaqişənin nizamasalma prosesinə maneçilik törətməklə yanaşı tərəflərin arasında olan ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı. Danışıqlar prosesinin uğursuzluğu nəticəsində yaranmış belə bir şəraitdə Heydər Əliyev dünya dövlətləri ilə sıx əməkdaşlıq və inteqrasiya proseslərinə qoşulmaq imkanlarından geniş istifadə edərək bütövlükdə Qafqaz regionun geosiyasi vəziyyətində ciddi dəyişiklik etmək uğrunda mübarizəyə başladı.

Dahi rəhbər Heydər Əliyevin dünya siyasətində ən mühüm uğurlarından biri də o olmuşdur ki, bütün maneələrə baxmayaraq, Cənubi Qafqazda qlobal iqtisadi layihələrin təməlini qoyub uğurla həyata keçirdərək böyük dövlətləri ermənipərəst mövqelərindən uzaqlaşdırıb regionda iqtisadi maraqlar müstəvisinə cəlb etməyi məharətlə bacarmışdır. Bunun bariz sübutu 20 sentyabr 1994-cü ildə Heydər Əliyevin müdrik dövlətçilik fəaliyyəti nəticəsində bağlanan Əsrin kontraktının 2017-ci ildə daha 50 il müddətinə uzadılması, nəinki təkcə Azərbaycanın, həm də bütövlükdə Orta Asiyanın təbii sərvətlərinin daşınmasında mühüm nəqliyyat dəhlizi olan tarixi Böyük İpək Yolunun bərpası strategiyası, bir-birinin ardınca həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft-qaz layihələrinin təməlinin qoyulması ilə yaradılmış iqtisadi amilin Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllində getdikcə daha önəmli rol oynamağa başlamasıdır. Eyni zamanda Azərbaycan Respublikasının TASİS və TRASEKA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə sıx əməkdaşlıq yaradılmışdı. Bunun nəticəsində 1995-1998-ci illərdə Avropa-Asiya istiqamətində tranzit yüklərin daşınmasında respublikamızın nəqliyyat kommunikasiyasından istifadə edilmiş və onun yükdaşıma dövriyyəsi 10 dəfə artmışdı. (12,s.244) Gürcüstan da bu proseslərə qatıldı. Həyata keçirilən layihə çərçivəsində Gürcüstanla Azərbaycan sərhədində yerləşən"Qırmızı körpü" yenidən qurulmuş, TRASEKA yolu üzərində olan qəzalı körpülər bərpa edilmişdi. 1993-cü ildən əsası qoyulan TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin keçdiyi ölkələrdə Avropa İttifaqının ayırdığı vəsait hesabına onlarca layihələr reallaşdırılmıdır. (12,s.249) Lakin Ermənistan bu layihələrdən təcrid olunmuş vəziyyətdə qaldı və bununla da özünün Cənubi Qafqazda siyasi, sosial-iqtisadi inkişafa və ümumiyyətlə Qafqazda müasir dövrdə yaşayan xalqların mədəniyyətlərarası dialoqunun qurulmasında maneə olan bir dövlət olduğunu sübut etdi. 1996-cı ilin fevralında Azərbaycana rəsmi səfərə gələn Gürcüstanın Prezidenti Ediard Şevardnadze Bakı Dövlət Universitetinin professor-müəllim heyəti qarşısında çıxış edərkən Azərbaycan Prezidenti Heydər Əliyevin Qafqazda sülhvə əmin-amanlığın bərqərar olunmasında xüsusi rolunu qeyd etdi: "Prezident Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır". (13,s.87)

Beləliklə, Azərbaycan xalqının ümummilli lideri özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq 2003-cü ilədək davam edən gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycan-Ermənistan Dağlıq Qarabağ probleminin tənzimlənməsi üçün beynəlxalq və milli hüquqi baza yaratdı, və ən əsası, Azərbaycana əbədi tarixi zəfər qazandıran ordumuzun quruculuğu ilə bağlı islahatlar unudulmaz Heydər Əliyevin adı ilə bağlıdır. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunların qəbul edilməsi nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırılmış, ordunun maddi-texniki təminatı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmişdir. (14)

Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri ona minnətdar olan xalqın tarixində və hafizəsində əbədiyyən yaşayacaq. Parlaq istedada, nəcib insani keyfiyyətlərə malik böyük siyasi və dövlət xadimi kimi Heydər Əliyevin əziz xatirəsi xalqımızın dilində canlı bir əfsanədir. Zəngin dövlətçilik təcrübasinə malik olan Heydər Əliyevin Azərbaycanda 35 illik hakimiyyəti dövründə Azərbaycan və ümumilikdə, Qafqaz xalqlarının xoşbəxt və firavan yaşamaları uğrunda həyata keçirtdiyi tarixi xidmətlər əvəzedilməzdir. Dünya siyasətində tanınmış, parlaq siyasi lider olan Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda qüdrətli Silahlı Qüvvələrin yaradılması, cəbhədə atəşkəsin əldə edilməsi, iqtisadiyyatın canlandırılması və Qafqazın qeosiyasi xəritəsini dəyişən qlobal iqtisadi proyektlərin reallaşması kimi möhtəşəm işləri müasir Azərbaycan tarixinin ən şanlı və qürurverici səhifələridir.

2003-cü ildə ulu öndərin bütün ömrü boyu fədakarlıqla xidmət etdiyi idarəçilik məktəbinin ideyalarını, yolunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müasir inkişaf dövrü başlayır və bizim ölkəmiz artıq iqtisadiyyatın, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdiyi bir ölkəyə çevrilir. Böyük öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək demişdir: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm”.(15,s.456)

Azərbaycan tarixində əbədi rəhbər kimi qalan Heydər Əliyevin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Bütün azərbaycan millətinin atası olan Heydər Əliyevin vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan ordusu yerinə yetirdi – 44 günlük Qarabağ müharibəsində düşməni torpaqlarımızdan qovdu və üçrəngli bayrağımız yenə də doğma yurdumuzda, Qarabağın döyünən ürəyi - Şuşada qürurla dalğalandırıldı.

Ümummilli lider Heydər Əliyevin təyin edib həyata keçirtdiyi müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş İlham Əliyevin mərdi-mərdanə və böyük cəsarətlə məqsədyönlü addımlar ataraq qondarma Dağlıq Qarabağ probleminin ədalətli həllininə nail oldu -. Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı silah gücünə azad etdi. Beləliklə, Azərbaycan xalqının təbii və müqəddəs hüququ təmin edilərək, Qafqaz xalqları tarixində böyük dönüş nöqtəsi olan tarixi hadisə - Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və dövlət sərhədlərinin bərpa olunması baş verdi.

Dəmir yumruqla başı əzilən düşmən 10 noyabr 2020-ci il tarixində “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı”nı - faktiki olaraq kapitulyasiya aktını imzalamağa məcbur edildi və ərazi bütövlüyümüz təmin edildi. (16) Beləliklə, Ali Baş Komandana inanan və güvənən cəsur Azərbaycan əsgərləri canları bahasına 30 illik işğala son verdi.

44 günlük İkinci Qarabağ Müharibəsində Böyük Qələbə münasibətilə Bakıda 10 dekabr 2020-ci il tarixində keçirilən möhtəşəm Zəfər Paradı ümummilli lider Heydər Əliyev siyasi irsinin layiqli varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.

**Açar sözlər:** *Ermənistan-Azərbaycan münaqişəsi,*

*atəşkəs, sülhə cağıran Lider, veto qarşıdurması, Minsk qrupu, Böyük Qələbə.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Xalqımızın ümummilli lideri Heydər Əliyevin şərəfli ömür yolu gələcək nəsillər üçün örnəkdir. https://azertag.az/xeber/Xalqimizin_umummilli_lideri_Heyder_Aliyevin_serefli_omur_yolu_gelecek_nesiller_uchun_ornekdir-1664821*

*2. Q.Çaxmaqlı. Qarabağ işğaldan əvvəl və... sonra, 788 s. Bakı, 2009*

*3. Milli Məclisin 23 fevral tarixli iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi. "Bakı fəhləsi" qəzeti, 24 fevral 2001-ci il.*

*4. Бишкекский протокол. http://www.hrono.info/dokum/199_dok/19940505bish.php*

*5. Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт. Президентская библиотека. http://files.preslib.az/projects/azerbaijan/rus/gl7.pdf*

*6. 1994-1996-cı illərdə Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət və hökümət başçılarının Lissabon Zirvə görüşü (2-9 dekabr 1996-cı il). https://lib.aliyevheritage.org/az/5718479.html*

*7. İ.Hüseynova. Heydər Əliyev və Qafqazda sülh prosesi, 670 s, Bakı, 2008*

*8. İ.Hüseynova. Təcavüzkar Ermənistan dövləti layiqli cəzasını almaqdadır işğal olunmuş torpaqlarımız rəşadətli ordumuz tərəfindən azad edilir. Xalq qəzeti, 24 oktyabr 2020-ci il,12 s.*

*9. ATƏT-in Lissabon sammiti (2-4 dekabr 1996-cı il). http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/atet(lissabon-sammiti).pdf*

*10. Из беседы Президента Азербайджанской Республики Гейдара Алиева с группой писателей и поэтов Азербайджана. Президентский дворец, 10 ноября 1999 года. https://lib.aliyev-heritage.org/ru/4106418.html*

*11. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatların Prezidenti zati-aliləri cəbab Uilyam C.Klintona – Bakı şəhəri, 8 fevral 1999-cu il. https://lib.aliyevheritage.org/az/4100780.html*

*12. İ.Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. 472 s.,Bakı, 2004*

*13. İ.Hüseynova. Tarix.Zaman.Düşüncələr, I cild, 511 s., Bakı, 2016*

*14. Ulu öndər Heydər Əliyev müasir Azərbaycan ordusunun qurucusudur. https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyev_muasir_Azerbaycan_ordusunun_qurucusudur-212785*

*15. Газ."Xalq qəzeti" от 4 октября 2003 г.,И. Гусейнова. Гейдар Алиев – от политического руководителя к общенациональному лидера. 512 с., «Тахсил», 2005.*

*16. "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" 10 noyabr 2020-ci il, https://president.az/articles/45924*



**СЕВДА ШАРИФОВА**

**Докторант кафедры «Истории народов Кавказа» Бакинского государственного университета**


## Карабахская победа – торжество наследия Гейдара Алиева

### РЕЗЮМЕ


В статье анализируется напряженная политическая борьба незабываемого Великого Лидера Азербайджанской Республики с богатым опытом государственной деятельности Гейдара Алиева на 30-летнем сложнейшем пути, ведущем к Великой Победе 10 ноября 2020 года, изучается суть его беспрецедентных заслуг по восстановлению суверенных прав азербайджанского народа над древней азербайджанской землей Нагорного Карабаха. В то же время автор на основе исторических фактов излагает в хронологическом порядке важнейшие моменты осуществляемой с большим дипломатическим мастерством целенаправленной и продуманной политической борьбы Общенационального лидера Гейдара Алиева за урегулирование Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта. Согласно выводам автора, Карабахская победа, как наиболее важное историческое событие на территории современного Кавказа, оценивается как

торжество своевременной напряженной работы и успешной политической борьбы, завещанного народу Азербайджана богатейшего и неисчерпаемого кладезя наследия Гейдара Алиева. Продолжая идеи и путь школы государственного управления Гейдара Алиева, Президент Азербайджанской Республики, Победоносный Верховный Главнокомандующий Ильхам Алиев одержал Великую победу в 44-дневной Второй Карабахской войне и положил конец 30-летней оккупации Азербайджанских земель.

**Ключевые слова:** *Армяно-Азербайджанский конфликт, перемирие, призывающий к миру Лидер, Минская группа, противостояние вето, Великая Победа.*

**Doctoral student at the Department of History of the Peoples of the Caucasus**

**Baku State University**

**Karabakh Victory - Triumph of Heydar Aliyev's Legacy**

**SUMMARY**

The article analyzes the tense political struggle of the unforgettable Great Leader of the Republic of Azerbaijan with the rich experience of state activities of Heydar Aliyev on the 30-year most difficult path leading to the Great Victory on November 10, 2020, the essence of his unprecedented merits in restoring the sovereign rights of the Azerbaijani people over the ancient Azerbaijani land of Nagorno-Karabakh is being studied. At the same time, the author, on the basis of historical facts, sets out in chronological order the most important moments of the purposeful and thoughtful political struggle of the National Leader Heydar Aliyev, carried out with great diplomatic skill, for the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. According to the author's conclusions, the Karabakh victory, as the most important historical event on the territory of the modern Caucasus, is assessed as a triumph of timely hard work and successful political struggle, bequeathed to the people of Azerbaijan by the richest and inexhaustible treasure of Heydar Aliyev's legacy. Continuing the ideas and path of the Heydar Aliyev School of Public Administration, the President of the Republic of Azerbaijan, the Victorious Supreme Commander-in-Chief Ilham Aliyev won the Great Victory in the 44-day Second Karabakh War and put an end to the 30-year occupation of the Azerbaijani lands.

**Key words:** *Armenian-Azerbaijani conflict, ceasefire, Leader calling for peace, veto confrontation, Minsk Group, Great Victory.*

UOT 94(479.24)

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN ETNİK KİMLİYİ (PYETRO DELLA VALLENİN "SƏYAHƏTNAMƏ" Sİ ƏSASINDA)

**HƏCƏR ƏHMƏDOVA**
*Bakı Dövlət Universitetinin Tarix fakültəsinin doktorantı*

*Email: hecerehmed95@gmail.com*

Azərbaycan Səfəvi dövlətinin mənşəyi Azərbaycan və dünya tarixşünaslığında müzakirə obyektinə çevrilən məsələlərdən biridir. Dövlətin etnik mənsubiyyəti müxtəlif amillərə əsasən müəyyənləşdirilmişdir. Lakin bu amillərin bəziləri hər hansı dövlətin etnik kimliyini dəqiq müəyyənləşdirməkdə ziddiyyətlər ortaya qoyur. Bəzi tədqiqatçılar ərazi məsələlərinə görə Səfəvilər dövlətini İran dövləti kimi göstərməyə çalışırlar. Xüsusilə farspərəst tarixçilər və onların davamçıları bu problemə qeyri-obyektiv yanaşırlar. Ona görə də Azərbaycan Səfəvi dövlətinin etnik mənşəyini müəyyənləşdirmək üçün bir sıra xarici mənbələrə və tarixşünaslıq əsərlərinə, xüsusən Avropa səyyahları və onların şahidi olduğu hadisələri qələmə aldıqları nəticəsində ərsəyə gətirdikləri səyahətnamə və gündəlik qeydlərə müraciət etməyi lazım bilirik. Avropa səyyahlarından Engelbert Kempfer, Adam Oleari, Jan Batist Tavernye, Pyetro Della Valle və başqaları qeyd etdiyimiz məsələyə daha obyektiv yanaşmaları ilə diqqəti cəlb edirlər. Məqalə əsas etibarilə Pyetro Della Vallenin "Səyahətnamə" si əsasında yazılmışdır. Səyyah XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətində səyahətdə olmuş və öz gözü ilə gördüklərini məktublar şəklində qeydə almışdır. Adı çəkilən mənbədə qeyd olunan qiymətli məlumatlar məhz Azərbaycan Səfəvi dövlətinin sosial-iqtisadi və siyasi həyatını öyrənmək baxımından olduqca dəyərlidir. Məqalədə Pyetro Della Valle ilə yanaşı qeyd olunan məsələyə münasibət bildirmək üçün türk müəlliflərinə də müraciət olunmuşdur və mənbələr bu baxımdan daha çox əhəmiyyətlidir.

Vətən tarixşünaslığında Səfəvilər sülaləsinin və onları müdafiə edən tayfaların türk (Azərbaycan) mənşəli olduğunu ilk dəfə olaraq göstərənlər rus şərqşünasları V.V.Bartold və A.Y.Krımski olmuşlar. Azərbaycan feodal əyanlarının Səfəvilər dövlətinin yaranmasında həlledici rol oynadığı faktı 1941-ci ildə Bakı tarixçilərinin hazırladığı Azərbaycan tarixinə dair ilk kollektiv əsərdə qeyd olunmuşdur. 1946-cı ildə buna bənzər nəşrdə həmin baxış daha da inkişaf etdirilmişdir. Qırxıncı illərin əvvəllərində Azərbaycan tarixçisi, akademik İ.A.Hüseynov I Şah İsmayılın dövlətini Azərbaycan dövləti kimi səciyyələndirmişdir. Həmin səciyyələndirmə bu sətirlər müəllifinin əsərlərində elmi dəlillər və mənbəşünaslıq məlumatları ilə əsaslandırılmışdır. (Əfəndiyev, 2007:34)

Səfəvilərin etnik mənsubiyyəti ilə bağlı üç konsepsiya daha geniş yayılmışdır. Bəzi tədqiqatçılar onların fars, bəziləri türk mənşəli olması iddiasını irəli sürdükləri halda, Səfəvi tarixşünaslığında Səfəvi şeyxlərinin ərəb mənşəli olması da göstərilmişdir. Ə.Kəsrəvi, S.Rəhimzadə, N.Şeybani, Z.V.Toğan və s. kimi tədqiqatçılar ciddi bir dəlil gətirmədən Səfəvi şeyxləri və onların varislərinin kürd mənşəli olmasını israr etməyə çalışırlar. Səfəvilərin ulu əcdadlarının tarixi haqqında məlumatların əksini tapdığı XIV əsr müəllifi Təvəkkül ibn İsmayıl ibn Bəzzazın "Səfvət əs-səfa" əsərini ətraflı araşdıran Əhməd Kəsrəvi Səfəvilərin əcdadlarının seyidlər nəslindən olmadığını müəyyənləşdirərək yazır ki, Səfəvi tarixşünasları sonradan onların nəsil şəcərəsinin Məhəmməd peyğəmbərlə bağlı olması versiyasını uyduraraq "Səfvət əs-səfa" əsərinin mətninə daxil etmişlər. Çox maraqlıdır ki, Səfəvilərin ərəb mənşəli olmasını rədd edən Əhməd Kəsrəvi "Səfvət əs-səfa"da Şeyx Səfinin türk olması haqqındakı çoxsaylı faktlara rəğmən onun kürd mənşəli olması fikrini ortaya atmış və bu mülahizə bir çox İran

müəllifləri tərəfindən də dəstəklənmişdir. Dolayısı ilə bu fikri dəstəkləyən Z.V.Toğan qeyd edir ki, Ərdəbilin kürd mənşəli şeyxləri artıq XVI əsrin əvvəllərində tamamilə türkləşmişdilər. Müəllifin fikrinə görə, I Şah İsmayıl, I Şah Təhmasib özlərinin kürd mənşəyini tarixdən silmək, kürd Firuzşahı peyğəmbərin nəslinə aid etmək, Şeyx Səfiəddinin türk şeyxi olmasını göstərmək üçün əllərindən gələni etmişdilər. Əvvəla, Z.V.Toğan və digərləri hansı səbəbdən Səfəvilərin kürd mənşələrini gizlətməyə çalışdıqlarını açıqlamırlar. Görünür onlar bunu isbatlamaq üçün tutarlı bir dəlil tapmağa müvəffəq olmamışdılar. Digər tərəfdən, Z.V.Toğanın iddiasına rəğmən, I Şah İsmayıl və I Şah Təhmasibin dövründə Şeyx Səfinin türk deyil, daha çox ərəb mənşəli olması ön plana çəkilmiş, Səfəvi salnaməçiləri də məhz bu zamandan etibarən Şeyx Səfi və əcdadlarının Məhəmməd peyğəmbərin nəslindən olması konsepsiyasını ortaya çıxarmışdılar. Yuxarıda adı çəkilən tədqiqatçıların hamısı Təvəkkül ibn Bəzzazın əsərində Şeyx Səfinin türk olması haqqındakı faktlara yumşaq desək göz yummuşlar (Bayramlı, Şabiyev, 2016:18).

"Səfvət əs-səfa" salnaməsində Şeyx Səfi dəfələrlə "pir-i türk" (türkün piri) adlandırılmışdır. Əsərdə Şeyx Səfinin Ərdəbildəki iqamətgahında digər etnoslarla müqayisədə türklərə daha böyük ehtiram göstərilməsi xüsusi olaraq vurğulanmışdır. Mövlana Əhməd və Mövlana İbrahim Səravi qeyd edir ki, biz Ərdəbildə Şeyx Səfinin evində olarkən bizim üçün süfrəyə qara çörək və su gətirdilər. Qəflətən daxil olan bir neçə türk üçün isə ağ çörək və bal gətirdilər. Təvəkkül ibn Bəzzazın Şeyx Səfinin türkcə şeirlər yazması, türkcə " Qara məcmuə" adlı əsərin müəllifi olması və s. kimi faktları Şeyx Səfinin heç şübhəsiz türk olmasına dəlalət edir ( Bayramlı, Şabiyev, 2016:19).

Görkəmli şərqşünas V.F.Minorski İranda türkmən ağalığının üç dövrünün, Səlcuqilər dövrü, Qaraqoyunlu və Ağqoyunlu dövrü, onlarla qohum olan Səfəvilər dövrünü xüsusi olaraq vurğulamışdır ( Bayramlı, Şabiyev, 2016:20).

XVI əsrdən etibarən Səfəvi tarixşünaslığında Səfəvi sülaləsinin nəsil şəcərəsinin ərəb mənşəli olması göstərilsə də, türkçülük bütün Səfəvi hökmdarlarının etnik kimliyində, həyat və yaradıcılıqlarında, siyasi fəaliyyətlərində qırmızı xətt kimi keçmişdir ( Bayramlı, Şabiyev, 2016:20).

İ.P.Petruşevski özünün ilkin mənbələrinə əsaslanan tədqiqatlarında Səfəvilər dövlətinin yaranmasında və onun tarixinin birinci yüzilliyində Azərbaycanın və Azərbaycan etnik feodal ünsürünün aparıcı, müəyyənedici sosial-iqtisadi və siyasi rol oynadığını təkzibolunmaz şəkildə sübut etmişdir. O, göstərmişdir ki, Azərbaycan əyanları bu dövlətdə müstəsna hüquq və imtiyazlardan istifadə etmişdir. Sarayda yüksək vəzifələr, vilayət canişinlikləri, hərbi iş və s. Azərbaycan feodallarının əlində olduğu halda, dövlət işlərində fars feodallarının rolu maliyyə, dəftərxana və qismən də məhkəmə məsələləri ilə məhdudlaşırdı (Əfəndiyev, 2007:34).

İran tarixşünaslığının millətçi, paniranist baxışlarını, habelə Qərbin mürtəce tarixçilərinin oxşar konsepsiyalarını tənqid edən N.D.Mikluxo Maklay qeyd edirdi ki, Şeybanilər Səfəviləri bütün İranın hökmdarları kimi tanımırdılar. Onlar Səfəviləri Ağqoyunlular sülaləsinin xələfləri və varisləri hesab edərək onların yalnız Azərbaycan və Qərbi İran üzərində 35 hakimiyyətini tanıyırdılar. O yazırdı: "Bütün deyilənlər belə bir nəticəyə gəlməyə imkan verir ki, XVI əsrdə yaranmış Səfəvilər dövləti XV əsr Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətlərinin xələfi kimi təşəkkül tapmışdır. Həm də real əsaslara istinad edirdi, yəni Səfəvilər dövləti İran dövləti deyildi və ona heç elə də baxılmırdı" ( Əfəndiyev, 2007:34).

B.N.Zaxoder Səfəvilər dövlətinin yaranmasında Azərbaycanın roluna dair yazırdı: "Sosial-iqtisadi inkişafın nisbətən yüksək pilləsində duran Azərbaycan XVI əsrin əvvəlində Cənubi Qafqazda və İranda yaranan həmin böyük dövlətin özəyini təşkil edirdi. Bu dövlət çoxlu tayfa və xalqları öz tərkibinə daxil etmişdir. Lakin uzun müddət bu dövlətdə onun hərbi qüvvələrində ilk Səfəvilərin arxalandığı Azərbaycan feodalları üstünlük təşkil etmişdilər ( Əfəndiyev, 2007:34).

Hal-hazırda tarix elmində XVI əsr Səfəvilər dövlətinə Azərbaycan dövləti kimi baxmaq meyli tədricən özünə yol tapır.

Müasir İran tarixşünaslığının görkəmli nümayəndələri də aşkar faktlarla hesablaşmaq məcburiyyəti qarşısında qalaraq Səfəvilər dövlətində türkdilli (Azərbaycan) etnosun rəhbər rolunu,hakim mövqeyini təsdiq edirlər. Məsələn, I Şah Abbasa həsr olunmuş çoxcildli əsərin müəllifi Nəsrulla Fəlsəfi Şah İsmayıl və onun yaratdığı

dövlət haqqında yazır: "Şah İsmayıl ata tərəfdən özünü seyid (yəni Məhəmməd Peyğəmbərin nəslindən olan – O.Ə.) Əli nəsli sayır və bu nəsil şəcərəsi ilə fəxr edirdi. Ana tərəfdən isə o, Türkman Həsən bəy Ağqoyunlunun (yəni Uzun Həsənin – O.Ə.) nəvəsi idi və haqlı olaraq özünü bu sülalənin qanuni varisi hesab edirdi... Dövrün bütün tarixlərindən məlum olduğu kimi, onun tərəfdarları da əsasən türkman və tatar tayfalarından olanlar idi. Hətta taxta çıxdıqdan sonra belə o, İran mənşəyinə və dilinə - millətin iki başlıca əsasına xor baxırdı. O, İranın yerli əhalisini tabe etmiş və onları mənşəcə türkman olan qızılbaş tayfalarının hakimiyyəti altına salmışdı. Fars dili Osmanlı imperiyasında və Hindistanda siyasət və ədəbiyyat dili olduğu bir dövrdə Şah İsmayıl türk dilini İran sarayının rəsmi dili etmişdi. Hətta o özü də yalnız türk dilində şeirlər yazırdı. Nəticədə türk dili Səfəvilər sarayında elə geniş yayıldı ki, bu sülalənin hakimiyyətinin sonunadək sarayın rəsmi dili olaraq qaldı. Buna görə də türk siyasi qurumlarını yıxan və vahid dövlət yaradan I Şah İsmayılın İranın milli və siyasi birliyini bərpa etməyi qarşısına məqsəd qoymaması şübhəsizdir". Başqa bir yerdən iqtibas gətirək: "Şah İsmayıl hər bir vilayəti tutduqdan sonra ələ keçirilmiş qənimətləri, əsirləri və torpaqları Qızılbaş sərkərdələri arasında bölüşdürürdü. Beləliklə,mənşəyi və dili etibarilə türk olan tayfalar İranın hər yerində yerli farsdilli iranlılar üzərində ağalıq etməyə başladılar. İranda imtiyazlı və qüdrətli zümrə əmələ gəldi və bütün hərbi və mülki mövqeləri, vəzifələri ələ keçirərək İran xalqını tam ixtiyarla və əzəmətlə idarə etdi. Buna görə də Səfəvilər dövründə şahı İran şahənşahı adlandırdıqlarına baxmayaraq, İran ölkəsinə Qızılbaş dövləti (Məmləkət-i Qızılbaş) adını verdilər. İran sarayında türk dilində danışırdılar. Şah İsmayıl türk dilində şeirlər yazırdı. Qızılbaşlar özlərini türk mənşələrinə, əsil – nəcabət və ad – sanlarına görə İranın yerli əhalisindən yüksəkdə durur, onları (iranlıları –O.Ə.) həqarətlə tatlar və taciklər adlandırırdılar" ( Əfəndiyev, 2007:34).

Müasir türk tarix elminin ən böyük nümayəndələrindən biri olan Faruk Sümer də özünün sonuncu monoqrafiyasında Səfəvilər dövlətinə "İran milli dövləti" kimi baxmaq istəyənlərə qarşı çıxmışdır. O, düzgün olaraq göstərir ki, "ciddi alimlər" arasında bu cəfəng baxışın artıq tərəfdarları yoxdur. F.Sümerin əsərində Səfəvilər dövlətinin yaranmasında və yüksəlişində türkdilli etnosun həlledici və birinci dərəcəli rol oynadığını təsdiq edən çoxlu material toplanmışdır və sistemləşdirilmişdir.Fikrimizcə, onun əsərinin qiymətli cəhəti də elə bundadır (Əfəndiyev, 2007:34).

Dünya tarixşünaslığına nəzər salsaq, dövlətin mənşəyi haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Bu mövzuda kifayət qədər təzadlılıq özünü biruzə verir. Azərbaycan Səfəvi dövlətinin etnik kimliyi məsələsinə aydınlıq gətirmək üçün bir sıra mənbələrə və bu məsələni araşdırmaq üçün ortaya qoyulmuş elmi əsərlərə və tarixşünaslığa diqqət yetirək.

XVI-XVII əsrlər ərzində Azərbaycan Səfəvi dövləti ərazisinə səyahət etmiş və müşahidələri əsasında səyahətnamələr ərsəyə gətirmiş bir sıra dünya səyyahlarının əsərlərinə müraciət etsək, qeyd etdiyimiz müzakirə obyektinə aydınlıq gətirmək mümkün olur. 1617-1627-ci illər arasında Azərbaycan Səfəvi dövlətində olmuş italyan səyyah Pyetro Della Valle şahidi olduğu hadisələri qələmə alaraq, dövlət haqqında çox qiymətli məlumatlar vermişdir. O, yazır: "müxtəlif millətlərdən olan qulamlar var ki, öz aralarında türkcə danışırlar və farsdan bir şey bilmirlər" (Bayramlı, 2015:71).

Azərbaycan türk dili I Şah Abbasın da doğma dili idi və onun sarayında da əcnəbi ölkələrdən gəlmiş elçilərlə rəsmi diplomatik danışıqlar bu dildə aparılırdı. Bu barədə Pyetro Della Valle aydın məlumat verir. Bir müddət ispan donanmasında hərbi xidmətdə olmuş Pyetro Della Valle dövrünün bilim adamı olan dostu Mario Skipanonun məsləhəti əsasında xüsusi tapşırıqla 1614-cü ildə İtaliyadan Fələstinə göndərilən diplomatik heyətlə yola düşüb İstanbul, Qüds, Dəməşq, Bağdad şəhərlərində olmuş, oradan isə Səfəvi dövlətinə gəlmişdi. 1617-ci ildə Səfəvi sərhədini keçən Pyetro Della Valle Qızılbaş dəstəsi ilə qarşılaşdığını və onlara Qəsri-şirin nahiyəsinin hakimi Kazım Sultanın başçılıq etdiyini göstərir. Yazır ki, bir müddət süvarilərlə yol getdik. Onların hamısı bir-biri ilə türk dilində danışırdı. Bu dil Səfəvi dövlətində fars dilindən daha çox işlənir, dövlət və hərb dilidir. O, bunun əsas səbəbini ordunun, əyanların, dövlət məmurlarının türk soyundan olmaları, aralarında bu dildə danışmaları, türk dilinin hərbi dil olması ilə izah edir. I Şah Abbas haqqında səyyah yazır ki, təbəələri ona çox inanır, başına and içir, Həmədanda

bir nəfər digərinə müəyyən bir şey diləmək arzusunda olanda türk dilində “Şah Abbas muradını versin” deyirlər. İsfahan şəhərində olarkən türk dili məsələsi onu yenidən maraqlandırır. Yazır ki, burada türk dilində daha çox danışırlar, bu dil dövlət və başçıların dilidir. Səyyah türk dilinin bu üstünlüyünün başqa səbəblərini də göstərir. O yazır ki, Qızılbaş əsgərlərinin təmiz türk olması, qeyri- millətlərin çoxluq təşkil etdiyi qulamların türkdən başqa dil bilməməsi, zabitlər və Şahın orduda göstərişi, əmrləri bu dildə verməsi türk dilini dövlət, saray, hərbi dil səviyyəsinə qaldırıb. I Şah Abbasın səyyahı türk dilində “xoş gəldin”, “səfa gəldin” deyə qarşılaması, divanxanada danışıqların türk dilində getməsi, I Şah Abbasın sarayında türk dilinin əsas danışıq dili olmasının gerçək göstəricisi idi. Şahın özü də Pyetronun yazdığına görə, doğma türk dilini mükəmməl bilməsi ilə fəxr edirdi. Türk dili dövlət və saray dilidir (Bayramlı, 2015:71) .

Şah I Abbasın və onun varislərinin hakimiyyəti dövründə Səfəvi dövlətində fars dilinin aparıcı rol oynaması, başqa sözlə dövlətin farslaşmasını mənbələrin məlumatları təsdiq etmir. Əksinə, dövrün qaynaqlarında bəhs olunan dövrdə fars dili ilə müqayisədə Azərbaycan türkcəsinə daha böyük önəm verilməsi ilə bağlı kifayət qədər faktlara rast gəlmək mümükündür. 1618-ci ildə Rusiya çarının Şah I Abbasa türk dilində yazdığı məktub, Şah I Səfinin Avstriya imperatoru və Macarıstan kralı II Ferdinanda ( 1619-1639), Şah II Abbasın Şirvan bəylərbəyi Hacı Mənuçöhr xana h.1070 ( 1659-1660) tarixli, Şah Sultan Hüseynin Saksoniya şahzadəsi və Polşa kralı Fridrix Avqusta ( 1694-1733), Səfəvi elçisi Məmmədrza bəyin 1714-cü ildə Fransa naziri Markiz de Torsiya, Fransanın baş naziri Kolberə türk dilində ünvanladığı məktublar XVII-XVIII əsrlərdə Səfəvi dövlətində Azərbaycan türkcəsinin rəsmi-diplomatik dil kimi geniş şəkildə istifadə olunmasından xəbər verir ( Bayramlı, Şabıyev, 2016:42).

İtalyan səyyah Pyetro Della Valle qeyd etmişdir ki, Şah I Abbasın türk dilini mükəmməl bilməsi, bu dildə daha çox danışması, divanxanada danışıqların türkcə aparılması faktlarının Pyetro Della Valle tərəfindən qeydə alınması Səfəvi dövlətində türk dilinə verilən yüksək dəyərin bariz nümunəsidir. Türkcənin Səfəvi dövlətində geniş yayıldığını nəzərə alan Pyetro Della Valle İsfahanda türk dilinin qrammatikası və türkcə-farsca-italyanca lüğətin hazırlanmasında da iştirak etmişdi. Bu kitabların əlyazmaları hazırda Vatikan kitabxanasında saxlanılır ( Bayramlı, Şabıyev, 2016:43).

1587-ci ildə Şah I Abbas özbəklərlə müharibənin qızğın vaxtında atasının şəhərdə olmamasından istifadə edərək qızılbaş və fars əyanlarının köməyilə Qəzvini tutdu. O, qızılbaş bürokratiyasını özünə sadiq dayaq elədi. Pyetro Della Valle yazır:” Şahda Şeyxavənd və qızılbaş tayfalarına qarşı gizli soyuq münasibət vardı. Bütün gücü ilə bu tayfaların qüdrətini sarsıtmağa çalışırdı, şah tatlardan tutmuş muşketyorlara, xüsusilə qulamlara daha çox arxalanır və onları daha yüksək vəzifələrə irəli çəkirdi”. Şah Abbas hər şeydən əvvəl orduya xüsusi əhəmiyyət verirdi. İtaətsiz feodallara qarşı mübarizə aparmaq, xalq hərəkatını boğmaq və yürüşlər üçün qüdrətli nizami orduya ehtiyac vardı. Ona görə də Şah I Abbas hakimiyyətə gələndən sonra ( 1587-1629) Səfəvilərin itirilmiş ərazilərini geri qaytarmaq və sarsılmış qüdrətini bərpa etmək üçün hərbi və inzibati islahat keçirdi ( Bünyadov, 2011:484).

Azərbaycan qızılbaş dövlətinin mahiyyətinin dəyişdirilməsindən sonra da, qızılbaşlar Səfəvi imperiyasının idarə olunmasında xüsusi yer tuturdular. Azərbaycan imperiyanın tərkibində mühüm vilayət olaraq qalırdı. Azərbaycan türkcəsi orduda və şah sarayında üstünlük təşkil edirdi. Səfəvi şahları və saray xidmətçiləri bu dildə danışırdılar. Hələ XVII əsrin sonu-XVIII əsrin əvvəllərində bir sıra dövlət və diplomatik sənədlər bu dildə yazılırdı. Şah I Abbas Səfəvilər dövlətinin keçmiş qüdrətini bərpa edə bildi. Azərbaycan bu dövlətin aparıcı qüvvələrindən birinə çevrildi ( Bünyadov, Yusifov, 2011:484).

Tarixi mənbələr və səyyah gündəlikləri Səfəvi dövlətində nəinki XVI əsrdə, XVII əsrdə də Azərbaycan türk dilinin dövlət səviyyəsində geniş şəkildə işləndiyini göstərir. Böyük alman alimi Adam Oleari XVII əsrin 30-cu illərində İsfahanda şah sarayında əcnəbi elçilərin qəbulu zamanı Azərbaycan türk dilində danışıldığını qeyd etmişdir. Fransız səyyahı Jan Batist Tavernye yazırdı:” Səfəvi saray adamlarının dili türk dilidir”. Tavernyedən 20 il sonra Səfəvi ölkəsində olmuş alman alimi Engelbert Kempfer ( 1685-1694) isə yazmışdı:” Səfəvi sülaləsinin ana dili olan türk dili sarayda yayılmış dildir”. Türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazan-

maq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan hər kəs üçün türk dilini bilməmək günah sayılır. Türk dili bütün Şərq dillərindən asandır. Türkcə danışıq tərzindəki vüqar və səslənmə əzəməti onun sarayda ( mərkəzi dövlət idarəsində) və səltənət qəsrində yeganə danışıq dili olmasına gətirib çıxarmışdır" (Abdullayev, 2015:143).

1647-1654-cü illərdə Azərbaycanda səyahətdə olmuş Osmanlı səyyahı Evliya Çələbi Azərbaycan Səfəvi dövlətinin şəhərləri, sosial-iqtisadi, siyasi və mədəni həyatı haqqında qiymətli məlumatlar vermişdir. Düzdür, Evliya Çələbi Səyahətnaməsində bəzi təhrif və ziddiyyətlərə rast gəlinir, amma Səfəvi dövlətində şahidi olduğu hadisələri qələmə alması baxımından unikal əsərdir. Səyyah qeyd etmişdir: " Ərdəbil İraq tərəfdə yerləşir. Azərbaycan ərazisində Əcəm şahlarının paytaxtı, Şeyx Səfinin vətənidir" ( Çələbi, 1997:42).

Şeyx Səfiəddinin ata-babası çox qədim zamanlardan Ərdəbil sakinləri idilər. Şeyx Səfiəddin İshaqın atası Şeyx Əminəddin Cəbrayılın altıncı babası Qızılbörk Firuz şahın, on doqquzuncu babası Əbülqasım Həmzənin qəbirləri Ərdəbil şəhəri yaxınlığında İsfərəncan və Kəhrəlan ( Kəlxoran) kəndlərində olub, müqəddəs ziyarətgahlardır. Qızılbörk Firuzşah və onun Əvəz əl-Xəvass, Məhəmməd əl-Hafiz, Səlahəddin Rəşid, Qütbəddin, Saleh və Cəbrayıl adlı xələfləri Ərdəbildə ruhani həyat tərzində yaşamışlar. Orta əsrin "Tarix-i aləmara-yi Şah İsmayıl" adlı qaynağında göstərilir ki, xalqı doğru yola dəvət edən ruhani-dərviş Seyid Cəbrayıl Şiraza getmiş və burada "Dərvişlərin gözü ona sataşdıqda bir türk dərvişini gördülər". Şeyx Səfiəddin də 1252-ci ildə Ərdəbildə anadan olmuşdur. O, atası tez vəfat etdiyinə görə anası Dövlət xanımın himayəsində böyüyüb təlim və tərbiyə almışdı. Gənc yaşında mənəvi aləmin çətinliklərini mükəmməl dərk etmək üçün zamanın böyük arifi Şeyx Nəcibəddin Bozquşdan dərs almaq üçün Şiraza gedir. Ancaq Səfiəddin Şiraza çatdıqda artıq Şeyx Nəcibəddin Bozquş vəfat etmişdi. Şeyx Səfiəddinə Şirazın məşhur üləmalarından Mövlana Abdulla Şirazinin dəfələrlə türk gənci, türk oğlu deyə müraciət etməsi onun əcdadlarının türk olmasına heç bir şübhə yeri qoymur. Şeyx Səfiəddinin təhsilini davam etdirmək üçün Gilana Şeyx Zahidin yanına getməsini də Mövlana Abdulla Şirazi məsləhət görür. Ərdəbilə qayıtdıqdan bir müddət sonra Gilana gedən Şeyx Səfiəddinə burada "Zahidiyyə" adlı sufi təriqətinin başçısı Şeyx Zahid Gilani də türk gənci deyə müraciət etmiş və o burada bir türk arifi kimi tanınmışdır. Adı çəkilən qaynaqda göstərilir ki, Şeyx Zahid Gilani Şeyx Səfinin gəldiyini bildikdə böyük oğlu Şeyx Cəmaləddinə deyir:" ey oğul, get büqün daxilində.. gənc türk namaz qılır, ona de ki, ağam Şeyx Zahid səni çağırır…" Sonralar, yəni mükəmməl təhsil aldıqdan sonra Şeyx Səfiəddin doğma dilindətürkcə şeirlər və aqioqrafik məzmunda türkcə "Qara məcmuə" adlı əsər də yazmışdı ( Bayramlı, Şabıyev, 2016:8).

Yazılanlardan aydın olur ki, Səfəvilər sülaləsinin əsasını qoyan Şeyx Səfiəddin türk oğlu türk olmuşdur. Osmanlı səyyahı Evliya Çələbi öz qeydlərində Azərbaycan şəhərlərinin əksəriyyətinin adlarını çəkir.

Səfəvilərin etnik kimliyi məsələsinə münasibət bildirmək üçün müxtəlif mənbələrə müraciət edilməsi nəticəsində müzakirə obyekti haqqında fikirlər formalaşır. Səfəvilərin etnik mənsubiyyətinin türk olması nəinki yerli qaynaqlarda, eyni zamanda əksər xarici müəlliflərin qeydlərində də öz əksini tapmışdır.

Azərbaycan Səfəvi dövləti və onun etnik mənsubiyyəti məsələsini araşdırarkən məlum olur ki, Səfəvilər sülaləsinin yaradıcısı və onun davamçıları türk mənşəli soykökə malik olmuşlar. Səfəvilər sülaləsinin yaradıcı Şeyx Səfiəddin İshaq dəfələrlə əksər mənbələrdə və tarixşünaslıq əsərlərində türk oğlu adlandırılır və bu şəxsin etnik mənşəyinin türk olması şübhəsizdir. Şeyx Səfiəddin İshaqdan sonra onun davamçıları və Səfəvi dövlətinin yaradıcıları da məhz özlərinin türksoylu olması haqqında daim özlərindən sonra bir nişanə buraxmış və türkçülüklə fəxr etmişlər.

Azərbaycan Səfəvi dövlətinin əsasını qoymuş türk sərkərdəsi Şah I İsmayıl dəfələrlə öz divanında türk mənşəli olmasını vurğulamışdır. Nəinki Şah I İsmayıl, ondan sonra hakimiyyətə gələn Səfəvi hökmdarları da sarayda, diplomatik yazışmalarda türk dilindən daim istifadə etmiş, hər kəs məhz ana dilinə-Azərbaycan türkcəsinə ehtiramla yanaşmışlar. Dövlət işlərində, müxtəlif vəzifələrdə türk mənşəli qızılbaşlar daim irəli çəkilmiş və onlar daim ön sıralarda Azərbaycan Səfəvi dövlətinin xidmətində olmuşlar. Məqalədə istifadə olunan mənbə və tarixşünaslıq əsərlərindən

də məlum olur ki, Azərbaycan Səfəvi dövlətinin etnik mənşəyinin türksoylu olması məsələsi təkcə dövlətin yarandığı dönəmlərdə deyil, eyni zamanda XVII-XVIII əsrlərdə də qüvvədə qalmışdır. Əgər bu məsələyə, italyan səyyah Pyetro Della Vallenin "Səyahətnamə" si prizmasından yanaşsaq, Azərbaycan Səfəvi dövlətinin məhz türk mənşəli olduğunu yenidən təsdiqləyə bilərik. Məqalədə Pyetro Della Vallenin dostu Mario Eskipanoya yazdığı məktublardan istinadlar gətirilmişdir və bu istinadlar qeyd etdiyimiz məsələni sübut etmiş olur.

## ƏDƏBİYYAT SİYAHISI

1. *Azərbaycan tarixi. Əfəndiyev O, Bakı, 2007, 407 s*

2. *Azərbaycan Səfəvi dövləti ( XVI-XVII əsrlər). Bayramlı Z, Şabıyev B, Bakı, 2016, 342 s*

3. *Səfəvi dövlətinin etnik mənsubiyyətinə dair. Bayramlı Z, Bakı, 2015, 71 s*

4. *Azərbaycan tarixi. Bünyadov Z, Yusifov Y, Bakı, 2011, 719 s*

5. *Azərbaycan tarixi. Abdullayev M, Bakı, 2015, 407 s*

6. *Səyahətnamə. Çələbi E, İstanbul 1997, 87 s*

**Azərbaycan Səfəvi dövlətinin etnik kimliyi (Pyetro Della Vallenin "Səyahətnamə"si əsasında)**

## XÜLASƏ

Bu məqalə Azərbaycan Səfəvi dövlətinin etnik kimliyi haqqındadır. Məqalədə XVI-XVII əsrlərdə Azərbaycan Səfəvi dövlətinə səyahət etmiş səyyahlar və 1617-1627-ci illər arasında Azərbaycan Səfəvi dövlətinə səyahət etmiş italyan səyyah Pyetro Della Vallenin məktublarından əldə edilmiş məlumatlar əsasında dövlətin etnik kimliyi məsələsinə aydınlıq gətirilir. Məqalədə əsas etibarilə Avropa səyyahlarının səyahətnamələrindən bəhs olunur. Məqalənin əsas informasiya qaynağı italyan səyyah Pyetro Della Vallenin " Səyahətnamə" si və elmi tədqiqatların hesabatlarıdır.

**Açar sözlər:** *etnik kimlik məsələsi, Pyetro Della Valle, Avropa səyyahları, məktublar, səyahətnamələr.*

**Ключевые слова:** *этническая идентичность, Пьетро делла Валле, европейские путешественники, письма, путевые заметки.*

**Ethnic identity of the Safavid state of Azerbaijan (based on Pietro Della Valle's "travelogue")**

## SUMMARY

This article is about the ethnic identity of the Safavid state of Azerbaijan. The article clarifies the issue of ethnic identity of the state on the basis of information obtained from travelers to the Safavid state of Azerbaijan in the XVI-XVII centuries and the Italian traveler Pietro Della Valle, who traveled to the Safavid state of Azerbaijan between 1617-1627. The article is mainly about the travelogues of European travelers. The main source of information is the "Travelogue" of the Italian traveler Pietro Della Valle and reports on scientific research in the article.

**Keywords:** *ethnic identity, Pietro Della Valle, European travelers, letters, travelogues.*

UOT 94

# XXI ƏSRDƏ TÜRKİYƏ - NATO MÜNASİBƏTLƏRİ VƏ ABŞ-IN BU MÜNASİBƏTLƏRDƏ ROLU

**NURDAN ƏSƏDOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: nurdan_asadova@mail.ru*

## GİRİŞ

Şimali Atlantika İttifaqı mövcudluğunun başlanğıcından etibarən Sovet İttifaqına və sosialist düşərgəsinə qarşı yönəlmişdir. Əvvəlcə, 1949-cu ildə Şimali Atlantika Müqaviləsinə üzvlüyü ABŞ, Böyük Britaniya, Kanada, Fransa, İtaliya, Portuqaliya, Danimarka və b. imzaladılar. Türkiyə isə NATO-ya bir müddət sonra, 1952-ci ildə blokun "Birinci genişləndirilməsi" zamanı qoşuldu. Nəticədə NATO Aralıq və Qara dənizə birbaşa çıxışı olan, Bosfor və Dardanel boğazlarına nəzarət edən, SSR-nin cənub sərhədlərində yerləşən, böyük bir orduya malik, qüdrətli bir ölkə ilə müttəfiq oldu. Qeyd etmək lazımdır ki, NATO daha yaranma ərəfəsindəykən Türkiyənin diqqətini çəkmiş və bu təşkilata daxil olmaq üçün mühüm cəhdlər etmişdir. Bunun əsas səbəblərindən biri isə NATO təsis olunarkən imzalanan müqavilənin 5-ci maddəsi olmuşdur. Beləki, bu maddədə göstərilirdi ki, üzv dövlətlərə hər hansı bir hücum olarsa köməklik ediləcəkdir. [3]

SSR-in 1949-cu ildə ilk atom silahına sahib olması ilə Türkiyədə təhlükəsizlik məsələsi yenidən gündəmə gəlmiş, Türkiyə bir tərəfdən NATO üzvlüyü üçün cəhdlər edərkən, digər tərəfdən isə təhlükəsizliyi üçün müvafiq yollar axtarmağa başlamışdır. Türkiyə ilk öncə İtaliya vasitəsi ilə NATO-nun Aralıq dənizində qurulacaq olan köməkçi təşkilatına daxil olmağa, daha sonra isə 1939-cu il tarixli Türk - Fransız - İngilis İttifaqına ABŞ-ın da ortaq olması istiqamətində fəaliyyət göstərmişdir. Lakin, bütün bu cəhdlərə baxmayaraq, Türkiyə bir müddət sonra, 1952-ci il fevral ayının 19-da Yunanıstanla birlikdə NATO-ya üzv olmuşdur. Əslində, burada əsas vacib olan məqamlardan biri ABŞ-ın bu məsələdə Türkiyəni dəstəkləməsi idi. ABŞ üçün Türkiyənin üzvlüyünün əhəmiyyəti özünün təhlükəsizliyi və strategiyası baxımından bölgədə geosiyasi baxımdan mühüm rol oynayan bir ölkəni öz blokuna daxil etmək olmuşdur. [7; 12]

XXI əsrin əvvəllərindən etibarən Türkiyə - NATO - ABŞ münasibətlərində mühüm hadisələr baş vermişdir. Eyni zamanda, bu dövrdə Türkiyənin NATO-da həm hərbi, həm siyasi rolu və əhəmiyyəti daha da artmışdır.

Qeyd etmək lazımdır ki, bu dövrdəki hadisələrə 2001-ci ilin sentyabr ayının 11-də ABŞ-da baş verən terror aktı da böyük təsir göstərmişdir. Belə ki, bu terror hücumundan sonra ABŞ NATO-dan 5-ci maddənin həyata keçirilməsini istəmişdir. Bununla da bir və ya bir neçə üzvə qarşı hücumun hamıya qarşı edilmiş hücum olduğu təsdiq olunmuşdur. Dərhal sonra isə ABŞ repressiv Taliban rejimini devirən Əfqanıstanda terrorçuluğa qarşı - "Azadlığa Dəstək Əməliyyatı" na başlamışdır. [9; 10,14]

Əfqanıstana qarşı ABŞ əməliyyatı dövründə NATO-nun bu ölkədə "sülh və sabitliyin qorunması missiyası"a hazırlaşması onun hərbi ehtiyacını artırmışdır. Türkiyə isə əsgər sayının çoxluğu səbəbi ilə daha çox hərbi kömək gözlənilən üzv ölkələrdən biri olmuşdur. "Ucuz əsgər" məsələsi Türkiyənin NATO daxilində üstünlüyü sayılmışdır. Türkiyə mətbuatında əks olunan məlumatlara görə, bir ABŞ əsgərinin illik dəyəri 81.235 ABŞ dolları, Kanada əsgərinin 62.903 ABŞ dolları, Portuqaliya 7.692 ABŞ dolları, Türkiyə əsgərinin 3.148 ABŞ dolları olmuşdur. Türkiyədən bu gözləntilər olduğu bir zamanda isə ölkə tarixinin ən ağır iqtisadi böhranını yaşamışdır. Türkiyə əsgərini xaricə göndərmə məsələsində siyasi bir qərara gəlsə də, maddi çətinlik səbəbindən bunun icra edilməsi çətinləşmişdi. Bu səbəbdən, "USA Today" də dərc olunan bir məqalədə xərclərin ABŞ tərəfindən ödənilməklə, İngiltərə rəhbərliyi ilə 25.000 nəfərlik

Türkiyə əsgərinin Əfqanıstana göndərilə biləcəyi qeyd olunmuşdur. Bir neçə ay sonra Türkiyə Əfqanıstanda "sülh və sabitliyin qorunması hərəkatı" na əsgərlərini göndərməyə başlamışdır. Lakin, yerləşdirilən əsgər sayı "USA Today" də qeyd olunandan daha az idi. Bundan əlavə, 1400 Türkiyə əsgəri İngiltərə rəhbərliyində deyil, artıq rəhbərliyi ingilislərdən geri alınmış ölkəyə göndərilmişdir. İstanbulun Maslak məhəlləsində yerləşən 3-cü Ordu Korpusu 2002-ci ilin iyun ayından 2003-cü ilin fevral ayına qədər Kabil Komandanlığını icra etmişdir. Dəqiq məlumatlar ictimaiyyətə açıqlanmasa da, bu hərbi əməliyyat üçün ABŞ-ın 228 milyon dollarlıq hərbi təchizat yardımı ayırdığı bildirilmişdir.

Əfqanıstandan sonra isə ABŞ-ın diqqətinin İraqa yönəlməsi, Transatlantik cəmiyyətdə böyük bir parçalanmaya səbəb olmuşdur. İttifaq daxilində parçalanma 2003-2009-cu illər arasında NATO-nun mexanizmini və təsirini zəiflətmişdir. [2; 113-114]

Eyni zamanda, ABŞ 2003-cü ilin yanvar ayının 15-də NATO-ya müraciətində əgər Türkiyəyə qarşı İraqın hücumu olarsa NATO-nun Türkiyəni qorumasını tələb etmişdir. ABŞ-ın bu müraciətləri NATO daxilində ətraflı şəkildə müzakirə olunmuş, lakin dərhal bir nəticəyə gəlinməmişdir. ABŞ-ın NATO-ya kömək üçün müraciət etməsindən bir ay keçdikdən sonra belə dəqiq qərar verilməmiş, bu məsələ NATO daxilində böhrana səbəb olmuşdur. Eyni zamanda, NATO-nun baş katibi G.Robertson ABŞ-ın tələblərinin Türkiyənin təhlükəsizliyi ilə bağlı irəli sürülən tələblə məhdudlaşdırmış və bir həftəlik "sükut dövrü" qərarını almışdır. Lakin, bir müddət sonra bu tələblə bağlı veto qərarı alınmışdır. Bu qərarının alınmasından sonra isə Fransa, Almaniya və Belçika ortaq açıqlamalarında bu qərarın Türkiyəyə deyil, lakin ABŞ-a qarşı olduğunu bildirmişdilər. Həmçinin, Türkiyəyə hər hansı bir hücum və ya təhdid olunarsa, NATO tərəfindən hər bir yardım ediləcəyi elan edilmişdir. NATO-nun 53 illik tarixində yaşadığı ən dərin böhran olaraq adlandırılan bu hadisədən sonra, Türkiyə NATO-nun təsis müqaviləsinin 4-cü maddəsini irəli sürərək özünün təhdid edildiyini bildirmiş və hərbi hazırlıq planlarına başlanmasını istəmişdir. ABŞ-ın təklifi ilə bu məsələ Fransanın daxil olmadığı NATO-nun hərbi quruluşuna aid olan Müdafiə Planlaşdırma Komitəsində baxılması gündəmə gətirilmişdir. Bu tələb uzun müzakirələrdən sonra nəhayət qəbul edilmişdir. Bu qərarda NATO-nun Türkiyəyə Patriot raketlərinə, kütləvi qırğın silahlarına və s. qarşı qoruma metodları verməsi öz əksini tapmışdır. Lakin, Türkiyə bu dövr ərzində ön planda olmamağa çalışmış və NATO daxilində baş verən bu müzakirələrin nəticələnməsini gözləmişdir. Eyni zamanda, bu böhran zamanı ABŞ-ı ön planda tutaraq Avropalı müttəfiqlərlə birbaşa qarşılaşmamağa çalışmışdır. NATO üzvlərindən Fransa, Almaniya və Belçikanın müxalifət olmasına baxmayaraq, sayca çox olan digər NATO üzvləri ABŞ-a dəstək olduğlarını açıq şəkildə bildirmişdilər. İraq müharibəsi dövründə Türkiyəyə kömək məsələsi ətrafında baş verən müzakirələr NATO daxilində ABŞ-Avropa qarşıdurmasını üzə çıxarmaqla bərabər, avropalı üzvlər arasında da bölünmə olduğunu göstərmişdir. [8; 42-43] 2010-cu ilin 19-20 noyabr tarixlərində NATO-nun Lissabon Zirvə Görüşündə qəbul edilən "Raketdən Müdafiə Sistemi"nin bir hissəsinin Türkiyəyə yerləşdirilməsi qərara alınmış və Türkiyə bu məsələyə dəstək vermişdir. Bu hadisə isə Türkiyə - ABŞ münasibətlərində yeni bir dövrün başlanmasının əsas səbəblərindən biri olmuşdur. Belə ki, bir tərəfdən Türkiyə və ABŞ bir-birlərini təhdid olaraq görərkən (xüsusilə, Suriya mövzusunda), digər tərəfdən iki ölkə münasibətlərində "Ortaqlıq Modeli"nin canlanması öz əksini tapmışdır. [1; 25] Lissabon Zirvə Görüşündə qəbul edilən qərara Türkiyə tərəfindən razılıq verilməsinə baxmayaraq, ölkə daxilində müəyyən narahatlığa da səbəb olmuşdur.

2012-ci il may ayının 22-də isə ABŞ-ın Çikaqo şəhərində NATO-nun ən böyük Zirvə Görüşlərindən biri başa çatmışdır. İkigünlük forumda alyansın üzvü olan 28 dövlətin və 13 tərəfdaş ölkənin birinci şəxsləri iştirak etmişdir. Zirvə Görüşünün əsas mövzularından biri isə Lissabon Zirvə Görüşündə qərara alınan raketdən müdafiə məsələsi olmuşdur. Bu Zirvə Görüşündə fəaliyyətə başlaması təsdiqlənən Raket Qalxanının Türkiyəyə qurulan hissəsi isə Malatyada (Kürəcikdə) radar sistemi (bazası) olmuşdur. [6; 14]

"Ərəb Baharı" isə dövrün ABŞ prezidenti B.Obamanın fəlsəfəsinə və "Ortaqlıq Modeli"nin məzmununa uyğun olaraq davam etmədi. Birincisi, Liviyada BMT Təhlükəsizlik Şurasının 1970 və 1973 saylı qərarlarının əksinə hərəkət edən İngiltərə, Fransa və İtaliyanın başlatdığı, daha

sonra Xarici İşlər Naziri Klintonun ifadəsinə görə "geridən liderlik (leading from behind)" strategiyası ilə ABŞ-ın, NATO-nun, Türkiyənin iştirak etdiyi və beynəlxalq hüquqi cəhətdən qanuniliyi mübahisəli olan xarici hərbi əməliyyat həyata keçirilmişdir.

İkincisi isə Liviya əməliyyatı olmuşdur. Bu əməliyyatın sonrakı dövrlərdə "Ərəb Baharı"nın mövcud olduğu ölkələri də "zəhərləməsini" iddia edə bilərik. Həmçinin, Ədalət və İnkişaf Partiyası (AKP) hökuməti (xüsusilə, dövrün Baş Naziri R.T.Ərdoğan) Liviyada istənilən xarici / NATO hərbi əməliyyatına qarşı olduğunu elan etməsinə baxmayaraq, əməliyyat başladıqdan dərhal sonra bu siyasətini dəyişərək logistik və siyasi dəstək vermişdir. Bu dövrdə R.T.Ərdoğan ilə B.Obamanın tez-tez telefon danışıqları edərək NATO-nun İzmir mərkəzini hərəkətə keçirməsinə, Türkiyə dəniz qüvvələrinin Liviyadakı türk və digər xarici işçilərin təxliyəsində iştirak etməsinə baxmayaraq, ancaq heç bir Türkiyə qüvvəsinin Liviyanın bombalanmasında iştirak etmədiyini qeyd etmək lazımdır. [1; 27-28]

XX əsrin ikinci onilliyinin sonlarına yaxın isə Türkiyə - NATO münasibətlərində müəyyən narahatlıq və fikir ayrılıqları öz əksini tapmışdır. Bunun əsas səbəbi isə 2017-ci ilin sentyabr ayında Türkiyə ilə Rusiya arasında S-400 raketlərinə dair müqavilə imzalanması olmuşdur. Nəticədə, Türkiyənin bu qərarı NATO müttəfiqləri ilə münasibətləri gərginləşdirmişdir. ABŞ isə Türkiyəni bu məsələni bir daha nəzərdən keçirməyə çağırmışdır. Eyni zamanda, ABŞ bildirmişdir ki, Ankara bu sövdələşmədən imtina etməsə Türkiyə Amerikanın istehsal etdiyi qabaqcıl F-35 hərbi təyyarə proqramından xaric ediləcək.

Qeyd edək ki, Türkiyənin S-400 raketlərini alması ilə bağlı ABŞ-ın narahatlığının praktiki və təhlükəsizlik tərəfləri var idi. Problem ondadır ki, Rusiyanın S-400 raket müdafiə sistemini NATO-nın regiondakı hava hücumundan müdafiə sisteminə uyğunlaşdırmaq asan deyil. Həmçinin, Rusiya həmin sistemlərin Türkiyədə qurulmasına kömək edərkən əldə edə biləcəyi məlumatlarda ABŞ-ı narahat edən məsələlərdən biri olmuşdur. ABŞ ehtiyat edirdi ki, Türkiyənin F-35 təyyarələrini də əhatə edən hava müdafiəsində Rusiyanın iştirakı NATO-nun hava hücumundan müdafiə sistemi barədə Moskvaya hər cür kəşfiyyat xarakterli məlumatların toplamasına imkan verə bilər. Bütün bunlara cavab olaraq, Türkiyə təkidlə bildirmişdir ki, Rusiya raketlərinin və F-35 təyyarələrinin bazaları coğrafi baxımdan bir-birindən təcrid olunacaqdır. Türkiyə Respublikasının bu mövqeyi Atlantik alyansdakı vəziyyətinə dair müəyyən suallar yaratmışdır. Lakin, Türkiyənin NATO-dakı mövqeyinə kölgə salan təkcə bu məsələ deyildi. Digər tərəfdən, Ankaranın getdikcə güclənən avtoritar üsul-idarəsi Türkiyə ilə Qərb dəyərlərini qoruyan NATO-nun bir çox üzvləri arasında digər növ qarşıdurma yaratmışdır. Suriyada aparıcı oyunçulardan biri olan Rusiya ilə Türkiyənin taktiki yaxınlaşması bütün bu vəziyyətə daha bir gərginlik xətti əlavə etmişdir. [4]

17 oktyabr 2019-cu il tarixində, "Barış Pınarı" əməliyyatının 8-ci günündə Ankarada Türkiyə prezidenti R.T.Ərdoğanın rəhbərlik etdiyi heyətlə ABŞ-ın vitse-prezidenti M.Pens və digər amerikalı rəsmilər arasında Suriyanın şimal-şərqindəki vəziyyətlə bağlı razılaşma əldə olunmuşdur. 4 saatdan çox davam edən görüşün sonunda açıqlanan 13 maddəlik razılaşmanın ilk 3 maddəsində NATO üzvü iki ölkə arasında münasibətlərin əhəmiyyəti və daha yaxın koordinasiyasının vacibliyi vurğulanmışdır.

Ekspertlər hesab edirlər ki, razılaşmada NATO müqaviləsinin 5-ci maddəsini təşkil edən "kollektiv müdafiə" anlayışına istinad edilməsi son dövrdə Türkiyə - NATO əlaqələriylə bağlı ortaya çıxmış suallara dolayısıyla da olsa cavab vermək məqsədi güdür.

2020-ci ildə Türkiyənin NATO-ya daxil olmasının 68-ci ili tamam olmuşdur. Türkiyənin NATO-ya üzvlüyünün ildönümü münasibətilə Anadolu xəbər agentliyinə açıqlama verən alyansın baş katibi Yens Stoltenberq "Türkiyə transatlantik ailənin 68 ildir çox əhəmiyyətli üzvüdür" deyə bildirib. Həmçinin, o, Türkiyənin NATO-nun Əfqanıstan, Kosova və İraq missiya və əməliyyatlarına ən çox töhfə verən üzvlərdən biri olduğuna diqqət çəkərək deyib: "Orta Şərqdəki sabitsizlik, zorakılıq və qarışıqlıqdan ən çox təsirlənən və terror hücumlarına məruz qalan müttəfiq ölkə Türkiyə olub. NATO üzvlüyünün ildönümündə Türkiyəyə alyansa olan qiymətli və davam edən dəstəyi üçün təşəkkür edirəm. Türkiyə NATO-nun güclü və əhəmiyyətli üzvü olmaqdadır". [5]

## NƏTİCƏ

Türkiyə 70 ilə yaxındır ki, NATO-ya üzv

ölkədir. Bu müddət ərzində Türkiyənin NATO-nun kollektiv təhlükəsizlik sisteminə təsiri keyfiyyət və kəmiyyət baxımından müxtəlif olmuşdur. Xüsusilə, 21-ci əsrdən başlayaraq Türkiyənin NATO-da rolu daha da artmışdır. Həmçinin, Türkiyə iqtisadi cəhətdən güclənərkən NATO-ya maddi dəstəyi də artmışdır. Belə ki, 2012-ci ildə Türkiyə NATO büdcəsinə ən yüksək töhfə verən 10 üzvdən biri olmuşdur. NATO-ya maddi dəstəyinə görə, ABŞ istisna olmaqla üzvlər arasında Türkiyənin payı 15% idi.

2020-ci ilin sonunda isə Türkiyənin NATO üzvləri ilə münasibətlərində gərginlik yaranmışdır. Belə ki, Türkiyənin Rusiyadan S-400 almasına cavab olaraq, ABŞ Türkiyəyə qarşı sanksiyalar tətbiq etmişdir. NATO-nun baş katibi Y.Stoltenberq isə mövcud vəziyyətdən məyus olduğunu bildirmiş, eyni zamanda həm Türkiyəni, həm də ABŞ-ı bu məsələnin həll yollarını tapmaqlarını istəmişdir.

**Açar sözlər:** *Türkiyə, NATO, ABŞ, Zirvə Görüşü münasibətlər.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Gözen R. Türkiye ve ABD: çıkarlar-değerler çatışmasında asimetrik ittifak. TYB Akademi, 2017, 9-34 s.*

*2. Güvenç S. NATO-nun evrimi ve Türkiyenin transatlantik güvenliğe katkıları. Uluslararası İlişkiler, 2015. Cilt 12, №45, 101-119 s.*

*3. https://ordu.az/az/news/135861/sevgi-ve-nifret--turkiye-nato-munasibetlerinde-abs-faktoru-—herbi-ekspert-arasdirma*

*4. https://www.bbc.com/azeri/vert-fut-48681833*

*5. https://www.trt.net.tr/azerbaycan/turkiy/2020/02/17/turkiy-transatlantik-ail-nin-68-ildir-cox-h-miyy-tli-uzvu-olmusdur-y-stoltenberq-1361101*

*6. Kibaroğlu M. Türkiye-NATO ilişkileri. SETA, 2017-mart, №195, 24 s.*

*7. Molla A. NATO savunma poltikaları çerçevesinde Türk-Amerikan ilişkilerinin analizi. İstanbul, 2008, 268 s.*

*8. Molla A. Soğuk savaş sonrası Körfez krizleri ve Türkiye-ABD-NATO ilişkileri. Ankara, 2009. 29-45 s.*

*9. Təhlükəsizlik Naminə Birlikdə. NATO-nun təqdimatı, 2009 iyun, 36 s.*

## SUMMARY

### Turkey – NATO relations in the XXI century and the role of the United States in this relations

The article examines Turkey-NATO relations in the 21st century and the role of the United States in these relations. Also, the difficulties that Turkey experienced when joining NATO, albeit briefly, are given in the introduction.

Turkey has been a member of NATO since 1952. During this time, he played a very important role in the union. Especially, Turkey has been a leading member of NATO operations in Afghanistan, Iraq and others. However, there have been recent tensions in Turkey's relations with NATO members. All this is reflected in detail in the article.

**Key words:** *Turkey, NATO, USA, summit, relations.*

## РЕЗЮМЕ

### Отношения Турция - НАТО в XXI веке и роль США в этих отношениях

В статье исследуются отношения Турции и НАТО в XXI веке и влияние США в этих отношениях. Кроме того, во введении описаны трудности, с которыми Турция столкнулась при вступлении в НАТО, в кратке. Турция является членом НАТО с 1952 года. За это время он сыграл очень важную роль в союзе. В частности, Турция была одним из ведущих участников операций НАТО в Афганистане, Ираке и других странах. Однако в последнее время в отношениях Турции с членами НАТО наблюдалась напряженность. Все это подробно отражено в статье.

**Ключевые слова:** *Турция, НАТО, США, саммит, отношения.*

UOT 94
94(479.24)

# TÜRKİYƏ MİLLƏTÇİLƏRİNİN ARAŞDIRMALARINDA İRAN TÜRKLƏRİ VƏ GÜNEY AZƏRBAYCAN MƏSƏLƏSİ

**ASİM CƏNNƏTOV**
*Azərbaycan Milli Elmlər Akademiyası Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun doktorantı*

*E-mail: aze.asim93@gmail.com*

Türkiyə ictima-fikir tarixində İran türkləri anlayışının formalaşmasında Azərbaycan Xalq Cümhuriyyəti qurucuları ilə yanaşı, Türkçülük hərəkatının ön sıralarında yer almış Türkiyə millətçiləri də önəmli rol oynamışlar. Təbii ki, ilk olaraq İran türkləri anlayışını Türkiyədə elmi dövriyyəyə və ictimai-fikir tarixinə Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadə gətirmişdir [5, 7]. Sonralar İran türkləri məsələsi digər cümhuriyyətçilərin yazılarında da geniş şəkildə araşdırılmışdır. İranda böyük bir türk varlığının mövcud olması və Güney Azərbaycan haqqında dəyərli fikirlər məhz onların da araşdrımalarında mühüm bir yer tutmuşdur. Həmin istiqlalçı türk araşdırmaçılarından Yusuf Akçuranı və Ziya Göyalpı göstərə bilərik.

Türkiyə ictimai-fikrində İran türkləri və Güney Azərbaycan məsələsinin formalaşmasında Azərbaycan Xalq Cümhuriyyəti qurucularından sonra ən böyük pay sahibi Türk istiqlalçıları olmuşdur. Təbii ki, bu ziyalıların bir qismi Azərbaycan kökənli milli düşüncə sahibləri idi. Hətta Azərbaycan Xalq Cümhuriyyəti qurucularından öncə İran türkləri məsələsinə az da olsa mərhum Yusuf Akçura məşhur olan “Üç Tarzı Siyasət” əsərində toxunmuşdur. Türk istiqlalçılarının bu sahədə göstərdikləri misilsiz xidmətlər Türkiyə Cümhuriyyəti ictimai fikir tarixində İran türkləri anlayışının və Güney Azərbaycan məsələsinin formalaşmasında böyük rol oynamışdır. Mövzu ilə bağlı istiqlalçı araşdırmaçıların fəaliyyətini iki qismə ayırmaq olar.

Türkiyə millətçilərinin araşdırmalarında İran, Azərbaycan, Azərbaycan türkləri, İran türkləri, Azərbaycanın Türk Birliyində yeri, İran İnqilabı, Güney Azərbaycan, onun coğrafi yerləşməsi, əhalinin etnik kökü və başqa bu kimi məsələləri yazmaqla Türkiyənin ictimai fikir tarixində ümumilikdə quzeyli-güneyli Azərbaycan məsələsinin hər zaman yaşamasına xidmət etmişlər. Bunun nəticəsində gələcək araşdırmaçılar məhz bu istiqlalçılara istinad edərək İran türkləri və Güney Azərbaycan məsələsini yenidən işləmişlər.

Volqaboyu tatarlarından biri olan, uzun müddət Kazanda, İstanbulda, Misirdə, Parisdə fəaliyyət göstərmiş, Əbdülhəmid istibdad rejiminə qarşı olan və Türkçülük hərəkatının ön sıralarında yer almış Yusuf Akçura Atatürk dönəmində Türkiyə Cümhuriyyətində yüksək vəzifələrdə çalışmaqla bərabər bir müddət Türk Tarix Qurumuna da rəhbərlik etmişdir. 1912-ci ildə yaradılmış Türk Ocağının ilk qurucularından olan Y.Akçuranın “Türkçülük” və “Üç Tarzı Siyasət” əsərləri mövzu ilə bağlı olaraq çox böyük önəm kəsb edir.

İlk olaraq vurğulamaq lazımdır ki, müəllifin mövzu ilə bağlı əsas fikirləri türkçülük müstəvisində yer almışdır. Belə ki, Türkçülük adlı əsərində bir çox məsələlərə toxunan Yusuf bəy türkləri fərqli qrupla bölmüş və onlarda türkçülüyün hansı səviyyədə olduğuna aydınlıq gətirmişdir. Qərb türklərindən öncə, dil, tarix və siyasət sahəsində türkçülük fikri başqa türklərdə vardırmı sualına Yusuf bəyin verdiyi cavab çox maraqlıdır. Müəllif bununla bağlı olaraq yazır ki, Quzey, Şərq və Kırım türkləri arasında 1870-ci ildən əvvəl bu fikirlərə rastlanmadığı halda, Qafqazda yerləşən Azərbaycan türklərindən Mirzə Fətəli Axundzadənin yaradıcılığında rast gəlmək mümkündür və hətta mərhum Ziya Göyalpın da Axundzadədən bəhrələndiyi məlumdur [1, 55-56]. Təsadüfi deyildir ki, Quzey Azərbaycan, xüsusilə də Bakı ədəbi mühiti o zaman milli düşüncəyə sahib olan ziyalıların yetişdiyi bir məkan idi. İranda yaşayan və Güney Azərbaycandan olan bir çox işçi qüvvəsi Bakıya çörək dalınca gələrək burda özlərinə həyat qurur. Təbii ki, onlar güneylə əlaqələrini

kəsmirlər və Güney Azərbaycana, bütövlükdə İrana yeni ideya axınını məhz buradan aparırdılar. Mühüm bir məqamı da söyləməliyik ki, Məşrutə inqilabına təsir göstəmiş mənəvi amillər arasında Quzey Azərbaycan da pay sahibi olmuşdur. Sözsüz ki, bu maarifçilik hərəkatı M.F.Axundzadə ilə başlamışdır və bütün bunlar Yusuf bəyin bu araşdırmasında özünəməxsus yer tutmuşdur.

"Üç Tarzı Siyasət" Yusuf Akçuranın diqqəti çəkən ən önəmli əsəridir və bu əsərdə türk xalqlarının birliyi məsələsi nəzəri səviyyədə işıqlandırılmışdır. Müəllifin hələ Rusiyada olarkən 1904-cü ildə yazdığı bu məqalə eyni ildə Qahirədə Əbdülhəmid istibdadına qarşı savaşaraq yayınlanan Türk qəzetinin 24-34-cü saylarında işıq üzü görmüşdür. Bu məqalədə müəllifin siyasi görüşləri nəzəri səviyyədə göstərilmişdir.

Tarixdən bizə məlum olduğu kimi XVIII yüzildən başlayaraq İslamda gerilik başlayır və müsəlman ölkələri Qərb qarşısında məğlub duruma düşür. Bu gerilik və məğlubiyyət XIX yüzildə özünü daha da dərindən göstərirdi. O zaman Osmanlı xaricində demək olar ki, bütün müsəlman ölkələri xrsitianlığın əsarətinə çevirilmişdir. Müəllif, bütün bunları təhlil etmiş və Üç Tarzı Siyasət əsərində İslamda yaranmış bu geriliyin aradan qaldırılması üçün üç siyasi və nəzəri yolu müəyyən edir:

1. Osmanlıçılıq – Osmanlı milləti vücuda gətirmək;
2. İslamçılıq – bütün müsəlmanları Osmanlı daxilində siyasi cəhətdən birləşdirmək;
3. Türkçülük – irqə dayanan siyasi bir Türk milləti təşkil etmək.

Əsərdə hər üç siyasi xəttin geniş izahatı, faydaları və zərərləri haqqında fikir mübadiləsi aparılmışdır. Osmanlı milləti məsələsi əslində illər öncə də mövcud olmuşdur və bu əsərdə nəzəri cəhətdən əsaslandırılmışdır. Müəllifin fikrincə, Osmanlı milləti Amerika Birləşmiş Ştatlarındakı Amerikan milləti anlayışı ilə eyniyyət təşkil etməli, əksəriyyəti türk və müsəlman olan Osmanlı daxiləndə fərqli din və millətdən olan insanları birləşdirməli idi [2, 17]. Millət yaradılmasına göstərilən bənzər təşəbbüslər bəzi ölkələrdə uğurlu olsa da, Osmanlıda uğurla sona çatmadı. Belə ki, Sultan II Mahmudun zamanında başlanmış bu siyasi xətt həm daxili, həm də xarici səbəblərdən o qədər də uğurlu alınmadı və Midhət paşanın dövründə tamamilə iflasa uğradı.

Osmanlı milləti ideyasının iflasa uğraması eyni zamanda İslam Birliyi, yəni islamçılıq fikrinin doğmasına təkan verirdi. Bu siyasi xətt Sultan II Əbdülhəmidin dövründa başlamış və Gənc osmanlıların bu siyasətin formalaşmasında müəyyən rolu olmuşdur. Ancaq həmin tarixi dönəmi nəzərə alsaq görərik ki, Osmanlı, fəth etdiyi ərazilərinin bəzi hissəsini itirmişdir və Avropanın bəlli gücləri Müsəlman torpaqlarına ayaq açmışdır. Bunları nəzər alan müəllif, bu siyasi xətti müsəlmanların birləşməsi və Osmanlının özünü qurtarması üçün da vacib bilmişdir [2, 20]. Hətta Birinci Dünya Savaşında Osmanlı dövləti bu ideyadan bəhrələnərək İran və Əfqanıstanla birgə İslam Birliyi qurulmasına təşəbbüs göstərmişdir. İranın quzeyində, daha doğrusu Güney Azərbaycanda yerli əhalinin Osmanlıya rəğbət bəsləməsi buna şərait yaradırdı. Fəqət Osmanlının müharibədəki məğlubiyyəti və ingilis qüvvələrinin İranı və Əfqanıstanı nəzarət altında saxlaması buna imkan verməmişdir.

Müəllifin müəyyən etdiyi üçüncü siyasi xətt isə türkçülük olmuşdur və bu məsələ əsərdə geniş şəkildə şərh edilmişdir. Belə ki, türkçülük ideologiyası siyasi müstəvidə indiyə qədər nə Osmanlı dövlətində, nə də başqa türk dövlətində mövcud olmuşdur. Azərbaycanın aydınlarından olan M.F.Axundzadənin ideoloji təsiri ilə fəaliyyətə başlamış türkçülük ideologiyası demək olar ki, türklərin məskunlaşdığı böyük bir coğrafiyada yeni bir siyasi xətti formalaşdırmışdır. Əsərdə türkçülük siyasəti ilə İslam siyasəti ümumiləşdirilir və Osmanlı dövlətinin təkcə öz sərhədləri daxilində deyil, sərhədləri xaricində yaşayan türklərə də qayğı göstərməsi vurğulanır [2, 23]. Burada mühüm bir məqamı vurğulamaq lazımdır ki, təsir gücü və müstəqil olması o zaman Osmanlını, xüsusilə İstanbul ədəbi mühitini bütün türk aydınlarının siyasi mərkəzinə çevirmişdir. Təsadüfi deyildir ki, sovet işğalı türk xalqlarını əsarətinə aldıqdan sonra Azərbaycan, Qafqaz və Krımdan türkçülük ideologiyasının tərəfdarı olmuş bir çox türk aydınları qaçaraq Türkiyəyə sığınmışdır. Türklərin birləşməsi məsələsinə diqqəti çəkən Yusuf bəy Quzey İran türklərinin (müəllif, Güney Azərbaycanı nəzərdə tutur) bu məsələyə tərəfdar olub-olmadıqlarını ifadə etmişdir [2, 24]. Lakin vacib bir məsələni də qeyd etməliyik ki, o zaman İstanbul Sultaniyyə məktəbinin təsiri ilə bəzi şəxslər İranın açıq

şəkildə Osmanlıya birləşməsini ifadə etməkdən çəkinmirdilər. İranda Pəhləvilərin hakimiyyətə gələrək türklərə, xüsusilə azərbaycanlılara qarşı Pan-İranizm siyasətini başlatması və Kommunizm ideologiyasının geniş vüsət almasından sonra Qafqaz, Türküstan, Volqaboyu və Krım türklərinin Sovet Rusiyasının işğalında qalması türk xalqlarının milli özünüdərkində və türkçülük ideologiyasının inkişafında bir durğunluq yaratdı.

Y.Akçura üçlü siyasi görüşünü nəzəri şəkildə əsaslandırdıqdan sonra bunlardan hansının yararlı olmasını araşdırmış və daha çox islamçılıq və türkçülük üzərində dayanmışdır. Müəllif tərəfindən Osmanlı milləti ideyasının mümkünsüzlüyü bir çox səbəblərlə izah edilmişdir. Bunun da məlum səbəbləri vardır. Tərkibində müsəlman və qeyri-müsəlman xalqları birləşdirən Osmanlı imperiyası çox geniş bir coğrafi ərazini əhatə edirdi və başqa dinlərə də etiqad göstərirdi. Buna baxmayaraq, Balkanlarda Osmanlıya qarşı nifrət dərinləşirdi. Osmanlı eyni zamanda XIX yüzildə Avropada geniş ərazilərini itirdi və Müttəfiq dövlətlər Afrikanın quzeyində Osmanlıya məxsus müsəlman torpaqlarına soxularaq onlar arasında nifaq yaratmağa çalışırdı. Təbii ki, Osmanlının rəqibləri də Osmanlı milləti siyasətinə qarşı idi. Həmin tarixi dönəmdə Osmanlı bu yükün altından çıxacaq gücdə deyildi. Bu səbəbdən də müəllif daha çox islamçılıq və türkçülük siyasi görüşləri üzərində dayanırdı. İslamçılıq yaxşı halda müsəlmanların özlərini qurtarması üçün bir zərurət idi. Ancaq Qərbin təsiri ilə müsəlmanlar arasında da mövcud ziddiyyətlər dərinləşirdi. Müsəlman xalqların böyük bir hissəsinin Xristian güclərin təsiri altında olması isə İslam Birliyinə ciddi əngəl törədirdi. Bu baxımdan gerçəkləməsi mümkün olan daha çox türk birliyi idi. Türk Birliyi gerçəkləşmiş olarsa, böyük bir coğrafi məkanda yaşayan türk xalqları üçün yararlı olacaqdır və bu birlikdə İran türkləri də yer alacaqdır. Bu səbəbdən də Y.Akçura daha çox Türk Birliyini önə çəkirdi.

Elmi dəyəri çox yüksək olan bu əsərdə qeyd olunanlardan görürük ki, Yusuf Akçura, İran türklərini İslam və Türk Birliyi çərçivəsində təsvir edirdi. Müəllif, İran türklüyünün mərkəzi Azərbaycan olduğundan Quzey İran türkləri dedikdə məhz Güney Azərbaycanı nəzərdə tuturdu.

Türkiyənin görkəmli fikir adamlarından biri olan və Azərbaycan maarifçilik hərəkatının öndəri Axundzadənin ideoloji təsiri altında olmuş Ziya Göyalp təkcə Türkiyənin deyil, eləcə də bütün Türk dünyasının sayılıb seçilən şəxsiyyətlərindən biri olmuşdur. Z.Göyalp günümüzdə də türkçülük ideologiyasının önəmli simalarından biri sayılır və müəllifin 1923-cü ildə yayınlanmış "Türkçülüyün əsasları" əsəri bu sahədə yazılmış qiymətli bir qaynaqdır. Həyatını demək olar ki, bütünlüklə Türkiyənin və o cümlədən, fərqli coğrafi məkanlarda yayılmış başqa türk xalqlarının milli oyanışına həsr etmiş görkəmli ictimai-siyasi xadim yazmış olduğu əsərlərlə tarixdə dərin iz buraxmışdır. Millət anlayışı, türkçülük və turançılıq, onların yerləşdiyi məkan və başqa bu kimi məsələlər siyasi və fəlsəfi səpkidə məhz Türkçülüyün əsaslarında öz əksini tapmışdır.

Əsərdə mövzumuzla bağlı məsələlər də məhz türkçülük çərçivəsində yer almışdır. Belə ki, müəllif ilk olaraq türkçülüyün tarixinə qısa bir giriş edərək bu sahədə indiyədək xidməti olan fikir adamlarının rolunu xüsusi vurğulayır. Bunlar arasında M.F.Axundzadəni, Ə.Hüseynzadəni, Ə.Ağaoğlunu və Ə.Topçubaşovu da qeyd etmək olar. Adları qeyd olunmuş ziyalıların İrana və Güney Azərbaycana ideoloji təsirinin olduğu da tarixdən bizə məlumdur. Ziya bəy "Türkçülük nədir?" başlığı altında millət anlayışına verilmiş fərqli yanaşmaları sadaladıqdan sonra öz fikrini bu şəkildə bəyan edir: "millət dilcə, dincə, əxlaqca və gözəllik duyğusu baxımından ortaq olan, yəni eyni tərbiyəni almış fərdlərdən formalaşan bir topluluqdur." [3, 25] Təbii ki, türk milləti dedikdə böyük bir coğrafi məkanda yaşayan xalqlar nəzərdə tutulurdu. Şübhəsiz ki, Azərbaycan xalqı da bu millətin içində yer alırdı.

Əsərin türkçülük və turançılıqdan bəhs edən bölümündə Z.Göyalp tatarların, qırğız və özbəklərin bu məsələ ilə bağlı hansı görüşlərə sahib olmasına diqqəti çəkərək türkçülükdə başlıca ideallarının nə olduğunu göstərir. Adları keçən türk xalqlarında fərqli siyasi görüşlərin olması təbii bir hal hesab edilməli idi. Çünki həmin türk xalqları uzun illər Çar Rusiyasının işğalı altında qalmışdır. Məsələni ciddi analiz etdikdən sonra Ziya bəy türkçülükdə yaxın idealımız dedikdə Oğuz və yaxud Türkmən birliyi qurulmasını nəzərdə tuturdu və Azərbaycan türklərini bu birlikdə görürdü [3, 27]. Azərbaycan türkləri dedikdə həm Quzey Azərbaycanda, həm də Güney Azərbaycanda yaşayan türklər nəzərdə tutulurdu. Buna görə də müəllif Oğuz türklərindən

bəhs edərkən onların bir-birinə qonşu olan Türkiyə, Azərbaycan, İran və Xarəzm kimi ölkələrdə yaşadıqlarına diqqəti çəkmiş və Oğuz türklərinin siyasi deyil, mədəni birliyini təsvir etmişdir.

Tarixdən bizə məlumdur ki, türk boyları yüzillər boyunca eyni adlarla Xəzərin həm sağ, həm də sol sahilində mövcud olmuşlar. Bu gün də mövcud olan yer adları bunun gerçək olduğunu göstərir. Eyni zamanda eyniadlı boylar bir-birinə qonşu olan türk dövlətlərində dillərini, adətlərini və yaşayış tərzlərini eyni şəkildə qoruyurlar. Örnək olaraq qaraqalpaqları, əfşarları və bayatları göstərə bilərik. Günümüzdə də bu türk boyları eyni adlarla Azərbaycanda, Türkiyədə və İranda yaşamaqdadırlar. Oğuz dastanı olan Kitabi-Dədə Qorqudda əksər yer adları və hadisələrin daha çox quzeyli-güneyli Azərbaycanda baş verməsi bir gerçəkdir. Təbii ki, bu kimi məsələlər Ziya bəyin araşdırmasında özünəməxsus şəkildə işıqlandırılmışdır.

Z.Göyalp Oğuz türklərinin birliyini nəzəri əsaslandırdıqdan sonra Turan məsələsini şərh edir və türkçülükdə uzaq idealımız dedikdə məhz Turan Birliyinin qurulmasını nəzərdə tuturdu [3, 28]. Oğuz adı yalnız Oğuz türklərinə aid edilə bilər və türklərin Oğuz boyundan gəlməyənlərin Oğuz birliyində birləşməsi əlbəttə ki, inandırıcı deyil. Bu baxımdan Ziya bəy Turan adını ortaya qoyur və türklərin Turan birliyində birləşməsinin mümkünlüyünü ifadə edir. Müəllif, Turan və ya Türk Birliyi dedikdə yalnız türkləri buraya daxil edir, monqolları, tunqusları, finləri, macarları isə bu birliyə daxil etmir və onların Ural-Altay xalqları olaraq göstərilməsinə qarşı çıxır. Əsərdə maraq doğuran başqa bir məqam isə günümüzdə də aktual olan bir məsələdir. Belə ki, Z.Göyalpa görə, bu gün türk adı elə bir səviyyə gəlib çatıb ki, sanki türk dedikdə Türkiyə türkləri nəzərdə tutulur [3, 29]. Təəssüflər olsun ki, bu gün də türk kökənli dövlətlərdə bəzi insanlar türk dedikdə Türkiyə türkü olmasından qorxaraq bu addan qaçmağa çalışırlar. Halbuki türk böyük bir coğrafi məkanda yayılmış insanların ümumi etnik adıdır. Bütün türk xalqlarının özlərini türk olaraq dərk etmədiyi müddətdə Turanın və ya Türk Birliyinin qurulması da o qədər gerçək görsənmir. Bu gerçəyi nəzərə alan Ziya bəy ilk olaraq məhz oğuzların birliyinə inanırdı.

Millət anlayışı, türkçülük və turançılıq anlayışları nəzəri şəkildə əsaslandırıldıqdan sonra ümumilikdə türkçülük "türkiyəçilik", "Oğuzlar və ya türkmənçilik" və "turançılıq" kimi üç fəal dövrə bölünürdü [3, 30]. Müəllifin qeyd etdiyi kimi bu gün yalnız türkiyəçilik vardır və Türk Birliyinin qurulması isə ilk olaraq Oğuz türklərinin mədəni birliyindən asılıdır. Bundan sonra Oğuz türkləri xaricindəki başqa türk toplumları da öz istiqlalını təmin edərək bu birliyə qoşulmalı və gələcək Turan da bu şəkildə qurulmalıdır. Hunların, avarların, göytürklərin, oğuzların, qırğız-qazaxların və teymurilərin timsalında tarixdən örnəklər gətirərək keçmişdə bu birliyin gerçək olduğunu göstərən Ziya bəy gələcəkdə də Turanın qurulacağına inanırdı. Əlbəttə ki, gerçəkləşmiş olarsa, bütövlükdə Azərbaycan bu birlikdə mərkəzi bir yer tutmalı idi. Bunları nəzərə alan Z.Göyalp araşdırmasında Azərbaycan məsələsinə və Azərbaycan türklərinə çox ciddi önəm verirdi.

Z.Göyalpın əsərində diqqəti çəkən ən mühüm məqamlardan biri də Firdovsinin Şahnamə əsərindəki Ferudin əfsanəsinə münasibət bildirməsidir. Bəzi anti-türk araşdırmaçılar Firdovsinin Şahnaməsindən bəhrələnərək Turanı İranın bir parçası hesab edirdilər. İfrat rus millətçiləri bu ideyanın təsiri altında türklərin Ön Asiya torpaqlarına (İran, Azərbaycan, Qafqaz və Türkiyə) gəlmə olduğunu isbatlamağa çalışaraq Altay nəzəriyyəsini ortaya atdılar. Sonralar erməni və fars şovonistləri də Şahnamədən və Altay nəzəriyyəsindən bəhrələnərək türkləri gəlmə və vəhşi kimi göstərməyə çalışdılar. Z.Göyalp Şahnaməni təhlil edərək göstərməyə çalışır ki, Turan İranın bir parçası deyil, türk ellərinin hamısını özünə daxil edən türk toplumlarından ibarətdir [3, 31].

İlk 1000 beytinin şair Dəqiqiyə məxsus olduğu və fars ədəbi dilinin ən yüksək zirvəyə çatdığı Firdovsinin Şahnamə peomasında Ferudinin Səlm, Tur və İrəc adlı üç oğlunun olduğu qeyd olunmuşdur. Rəvayətə görə Səlmdən samilər (ərəb və yəhudilər), Turdan türklər və İrəcdən irandillilər (farslar, əfqanlar, taciklər) törəmişdir. Əfsanədə yazılanlardan belə nəticə hasil olur ki, Ferudin İrəcə bərəkətli torpaqlar hesab olunan İranı və Tura isə quzeydə və şərqdə yerləşən Türküstanı vəsiyyət etmişdir [4, 103]. Bəlkə də şair bununla Türküstan adını almış çağdaş Orta Asiya torpaqlarını nəzərdə tuturdu. Bu bölgüdən razı qalmayan Tur yenidən İrana dönüş etmiş və beləcə Turan-İran qarşıdurması başlamışdır. Şahnaməyə görə bundan sonra türklərin yaşadığı ölkə Turan adını və farsların yaşadığı ölkə

isə İran adını almağa başlamışdır.

Tarixi əsaslar üzərində yazılmış bu möhtəşəm əsərdə olduqca maraqlı məqamlar diqqəti cəlb edir. Şahnamədən Turun (yəni türklərin) əzəldən bu torpaqlarda yaşayıb sonradan quzeyə üz tutmasının və İrana təkrar dönüş etməsinin şahidi oluruq. Təsadüfi deyildir ki, Şahnamənin yazıya alındığı dövrdən başlayaraq 1000 il boyunca İran türklər tərəfindən idarə olunmuşdur və günümüzdə də türklər (azərbaycanlılar, qaşqaylar, türkmənlər) İranda böyük say çoxluğuna malikdirlər.

Türkçülüyün əsasları bir daha onu göstərir ki, türklərin gələcək hədəfi Türk Birliyinin və yaxud Turanın qurulması olmalıdır. Ziya Göyalpın məsələyə yanaşmasından isə görürük ki, İran türkləri və Güney Azərbaycan olmadan Turanı təsəvvür belə etmək olmaz.

Beləliklə, İranda yaşayan türk xalqlarının öyrənilməsi və Güney Azərbaycan məsələsinin elmi müstəvidə araşdırılması hələ ötən yüzildə türk istiqlalçılarının diqqət mərkəzində olmuşdur. İstiqlalçı araşdırmaçılar türk xalqlarından bəhs edərkən Türkiyənin xaricində də böyük bir türk varlığının olduğunu insanların diqqətinə çatdırmış və eyni zamanda ictimai fikir tarixində İran türkləri anlayışının və Güney Azərbaycan məsələsinin formalaşmasına çalışmışlar. Y.Akçura və Z.Göyalp kimi türkçülərin araşdrımalarına diqqət etdikdə görürük ki, görkəmli araşdrımaçılar Türk Birliyi çərçivəsində İran türklərinə də geniş yer ayırmış və bu birlikdə bütövlükdə quzeyli-güneyli Azərbaycanı da təsvir etmişlər.

**Açar sözlər:** *Türkiyə millətçiləri, İran türkləri, Güney Azərbaycan*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Akçura Y. Türkçülük, Türkçülüğün Tarihi Gelişimi. İstanbul: İlgi Kültür Sanat, 2015, 248 səh.*

*2. Akçura Y. Üç Tarz-ı Siyaset. Ankara: Türk Tarih Kurumu Yayınları, 2019, 66 səh.*

*3. Gökalp Z. Türkçülüğün Esasları. İstanbul: Kamer Yayınları, 2019, 160 səh.*

*4. Konuksever, S.K. Çine aid İmge ve Motiflerin Şahnameye göre tahlili. Doğu Araştırmaları, Sayı: 16, 2016/2, səh. 101-112*

*5. Resulzade M.E. İran Türkleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1993, 142 s.*

## Вопрос иранских турков и Южном Азербайджане

## РЕЗЮМЕ

В исследовании турецких националистов

Наряду с основателями Азербайджанской Демократической Республики, турецкие националисты, которые были в авангарде тюркского движения, также сыграли важную роль в формировании концепции иранских турок в истории турецкого общественного мнения. Первым представил концепцию иранских турок научному распространению и общественному мнению в Турции, основатель Азербайджанской Демократической Республики М.А Расулзаде. Позднее проблема иранских турок широко изучалась в трудах других республиканцев. Существование большой турецкой силы в Иране и ценная информация о Южном Азербайджане сыграли важную роль в также и в их исследованиях. Мы можем представить этих независимых турецких исследователей: Юсуфа Акчуру и Зию Гоялпа.

**Ключевые слова:** *турецкие националисты, иранские турки, южный Азербайджан*

## The Issue of Iranian Turks and South Azerbaijan in the Research of Turkish Nationalists

## SUMMARY

Along with the founders of the Azerbaijan Democratic Republic, Turkish nationalists, who were at the forefront of the Turkism movement, also played an important role in the formation of the concept of Iranian Turks in the history of Turkish public opinion. Of course, the founder of the Azerbaijan Democratic Republic M.A.Rasulzadeh was the first person to bring the concept of Iranian Turks to the scientific circulation and history of public opinion in Turkey. Later, the issue of Iranian Turks was widely studied in the writings of other Republicans. The existence of a large Turkic presence in Iran and valuable ideas about South Azerbaijan also played an important role in their research. We can show Yusuf Akchura and Ziya Goyalp among those republican Turkish researchers.

**Keywords:** *Turkish nationalists, Iranian Turks, South Azerbaijan.*

UOT 94

# BAKI NEFTİNƏ XARİCİ KAPİTALIN CƏLB EDİLMƏSİNDƏ ÇAR RUSİYASININ ƏKS MÖVQEYİ

**NUBAR BƏŞİRLİ**
*AMEA-nın Tarix İnstitutunun doktorantı*

*E-mail: nubar.besirli@mail.ru*

Azərbaycan sahibkarlarının formalaşmasının və inkişafının başlıca mərkəzi Bakı şəhəri idi. XIX əsrin axırlarında - XX əsrin əvvəllərində sahibkarların ən iri nümayəndələri, Azərbaycan ziyalıları Bakıda cəmləşmişdi. İslahatlardan sonrakı dövrdə Rusiyada sənayenin inkişafı, neftə artan tələbat, 1872-ci ildə neft sənayesində icarə sisteminin ləğv olunması ona gətirib çıxardı ki, əsrin axırlarında Bakı dünyanın ən iri neft mərkəzinə çevrildi (Seyidzadə, 2004: 15).

İlk dövrlərdə əsas sərmayəçilər Rusiyanın Zaqafqaziya və bəzi daxili quberniyalarının nümayəndələrindən ibarət idi. 70-ci illərin ortalarından isə Qərbin işgüzar dairələri də Azərbaycan neft sənayesinə xüsusi maraq göstərməyə başlayırlar (Mehdiyev, 2000: 46).

Əvvəllər neft sənayesində aparıcı qüvvə yerli kapital idi. Tezliklə, neft sənayesinə rus və xarici kapital axını başlandı. Neft hasilatına iri kapital qoyuluşları, bu sahədə sənaye-texniki çevrilişin baş verməsinə gətirib çıxartmışdı. 70-ci illərdə neft quyularının yeni buruq və zərbə üsulları ilə qazılmasına başlanılmışdı. 1873-cü ildən qazma işində əl əməyini buxar mühərrikləri əvəz etməyə başladı. Bu texniki yeniliklər neft sənayesində manufaktura mərhələsinin fabrik- zavod mərhələsi ilə əvəz olunması demək idi. (Abdullayev, 2014:200). 1873-cü ildə milliyətcə isveç olan Robert Nobel Bakıya gəlir, neftlə əlaqədar iqtisadi yüksəlişin şahidi olur.1879-cu ildə Nobel qardaşları “Nobel qardaşları birliyi”nin əsasını qoydular. 80-ci illərdə Bakıya Rotşildin simasında fransız kapitalı nüfuz etdi. Neft sahəsinə kapital axını neftin çıxarılması, emalı texnikasının yaxşılaşdırılmasına, neft məhsullarının daşınma vasitələrinin təkmilləşdirilməsinə gətirib çıxardı. Neft istehsalının inkişafı onunla bağlı neft emalı, neftayırma sənayesinin sürətli inkişafına səbəb oldu. Neft və neft məhsullarının ixracında da irəlləyiş var idi. Bakıdan Rusiyaya daşınan neft məhsullarının keyfiyyəti dəyişirdi, daşınan məhsullar içərisində ağ neftlə bərabər benzin, sürtkü yağları və s. də vardı. Bakı ağ nefti Amerika ağ neftini rusiya bazarlarından sıxışdırıb çıxardı (Həsəsov, 2018:174).

1879-cu ildə Lianozov şirkəti tərəfindən Balaxanı-Qara şəhər ikinci ağ neft kəmərinin çəkilişinə başlanıldı. Əcnəbi kapitalistlər neft kəmərlərinin əhəmiyyətini tez bir zamanda qiymətləndirmiş və səmərə dalınca qaçaraq, magistral neft kəmərlərinin tikintisinə icazə almağa çalışırdılar. Fransız kapitalının nümayəndəsi Rotşild Bakı-Batum neft kəmərinin tikintisinə icazə verilməsi üçün hökumətə xüsusi xahişlə müraciət etmişdi. Rotşilddən sonra ABŞ təbəəsi olan Herbert Tvidl kamerqer (saray xadimi) H.Bodinsko ilə birlikdə çar hökumətindən neft kəmərinin tikintisi üçün icazə almağa cəhd göstərmişdi. Hətta Tvidl tərəfindən 1877-ci ildə Rusiya imperiyasının Maliyyə Nazirliyinə layihə də təqdim edilmişdi. Lakin hökumət onun təkliflərindən imtina etmişdi. 1887-ci ilin avqustunda Dövlət Əmlak Nazirliyi yanında Bakı-Batum və yaxud Xəzər-Qara dəniz neft kəmərinin çəkilişi ilə bağlı xüsusi şəxslərin təkliflərinə qabaqcadan baxılması üçün müşavirə təşkil olundu. Təqdim olunmuş layihələrin müqayisəsi nəticəsində konsessiya haqqında məsələ dağ-mədən mühəndisi İ.P.İlimovun xeyrinə həll olundu (Kərimov, 2015: 16).

XIX əsrin 80-ci illərinin əvvəlində “Nobel Qardaşları” şirkəti Rusiyanın daxili bazarında neft məhsulları ilə ticarət sahəsində üstünlüyü ələ

aldı. Birliyin kapitalının böyük hissəsi nəqliyyat və satışın təşkilinə yönəldildi. Qüdrətli çoxsahəli istehsal-nəqliyyat-satış kombinatına çevrilmək istiqamətində inkişaf edən "Nobel Qardaşları" şirkətində neft anbarları, gəmilər, sistemlər və neft kəmərləri 80-ci illərdə əmlakın 75%-ni təşkil edirdi. 1882-1883-cü illərdə "Nobel Qardaşları" şirkəti Rusiyada ağ neftlə ticarəti bütünlüklə özünə ram etmək üçün ilk dəfə cəhd göstərdi və bu məqsədlə ağ neft ticarəti sindikatının layihəsini irəli sürdü. Elə həmin vaxt şirkət Bakı ağ neftini Qərbi Avropada satmaq üçün özünün xüsusi təşkilatını yaratmağa başladı. 1898-ci ildə Bakı neft hasilatına görə ABŞ-ı ötüb keçdiyi bir dövrdə, Neft istehsalının inhisarlaşması uğranda başlanmış mübarizənin qızğın çağında 1884-cü ildə Bakı Neft Sənayeçilərinin Qurultayı Təşkilatı təşəkkül tapdı (Hüseynova A, Abbasova N, Melikova A, 2009: 53).

Qərb sahibkarlarının öz fəaliyyət dairələrini genişləndirmələri Rusiya hökümətinin narahatlığına səbəb olurdu. Nəhayət, bu narahatlığın ilk ciddi əlaməti kimi 1887-ci ildə Xəzər-Qara dəniz neft kəmərinin tikintisinə dair layihələrlə əlaqədar qərb sahibkarlarının neft sənayesində iştirakının məhdudlaşdırılması haqqında məsələ Rusiyanın hakim dairələrində ilk dəfə müzakirə edilməyə başladı Torpaq və Dövlət Əmlak Nazirliyinin layihə ilə bağlı təklifini öyrənən Nazirlər Komitəsi 1887-ci il aprelin 8-də bu planın yalnız Rusiya kapitalının gücü ilə həyata keçirilməsinin qeyri mümkünlüyü qənaətinə gəldi. Ona görə də qərb kapitalının bu işə cəlb edilməsini nəzərdə tutan Nazirlər komitəsi "Qafqazda neftli torpaqların əcnəbilərin mülkiyyətinə keçməsini məhdudlaşdırmağın nə qədər mümkün olmasını" aydınlaşdırmaq barədə qərar verdi. Dağ- mədən departementinin 1 may 1887-ci il tarixli məxfi məktubuna cavab olaraq, Qafqaz dağ-mədən işləri üzrə idarə rəisi may ayının sonunda "Sahiblərinin adı və vətəndaşlığı göstərilməklə, Qafqazda əcnəbilərə məxsus və ya onlar tərəfindən icarəyə götürülmüş neftli sahələr və neft emalı zavodlarının sayı haqqında" məlumatı Peterburqa göndərdi.

Azərbaycan neft sənayesinin təşəkkül tapmağa başladığı dövrün ilkin mərhələsində neft hasilatı və emalı sahələrinə böyük vəsait sərf etmiş Rusiya kapitalının nümayəndələri daxili və xarici bazarlara birbaşa çıxışın təşkil edilməsi məqsədilə zəruri olan nəqletmə vasitələrini əldə etmək üçün kifayət qədər kapitala malik deyildilər.1890-cı illərin əvvəlində meydana gəlmiş, ilk inhisar birlikləri Rusiya kapitalını təmsil edən neft şirkətlərinin fəal iştirakı ilə yaradılmışdı. Rotşildin və "Nobel qardaşları" cəmiyyətinin bu proseslərdə aparıcı rol oynamalarına baxmayaraq, onlar öz mənafelərini kifayət qədər ardıcıllıqla və müəyyən dərəcədə uğurla müdafiyə edən digər neft sənayeçilərinin mövqelərini nəzərə almağa məcbur olurdular.

Xarici kapitalın Azərbaycan neft sənayesinə cəlb olunmasının şərtləri haqqında XIX əsrin 80-90-cı illərində hökumət dairələrində qızğın müzakirə edilən məsələ, nəhayət, xarici sərmayeçilərin bu sahədə geniş fəaliyyətinin zəruriliyinin etiraf edilməsi və müvafiq qanunların qəbulu ilə öz həllini tapdı.

Neft sənayesi inkişaf etdikcə, kapital axını artdıqca, sənayedə təmərküzləşmə, inhisarın yaranması prosesi də sürətlənirdi. Rusiya sənayesinin bir çox sahələrində olduğu kimi, neft sahəsində də səhmdar cəmiyyətlər yaranır, bu cəmiyyətlər neft istehsalı və ticarətini öz əllərində cəmləşdirirdilər. (Bünyadov, 2007: 635).

1893-cü ildə neft sənayeçilərinin Peterburq müşavirəsində hökumətin himayəsi ilə yaradılan "Bakı ağ neft zavod sahibləri ittifaqı" 92 iri və xırda şirkəti birləşdirirdi. Bakı ağ neft sahibkarlarının demək olar ki, 90%-i həmin ittifaqa daxil idi və Bakıda emal edilən neft məhsullarının 97%-i onların zavodlarının payına düşürdü. İttifaqda aparıcı rol oynayan "Nobel qardaşları" şirkəti 1894-1895-ci illərdə ABŞ-ın neft maqnatı Rokfellerin "Standart oyl" neft şirkəti ilə dünyadakı ağ neft satışı bazarlaının bölüşdürülməsi üzrə saziş bağlamışdı (Abdullayev, 2014:200). 90-cı illərin ikinci yarısında qərb kapitalının Azərbaycan neft sənayesinə axını güclənir. Tarixən Rusiya üçün xroniki hal olan sərbəst kapitalın azlığı, müəyyən tarixi dövrdə isə ümumiyyətlə olmaması xarici kapitalın Rusiya sənayesinə nüfuz etməsinə əlverişli şərait yaradırdı. Qərb kapitalistləri neft sənayesində fəaliyyət göstərmək üçün ciddi maneə ilə üzləşmədən çar nazirlərinin razılığını alırdılar. Neft sənayesinə daha çox kapital cəlb etməyə çalışan

çar hökuməti, eyni zamanda, neftli torpaqların hərracı gedişində sahibkarlar arasında rəqabəti gücləndirmək yolu ilə xəzinənin gəlirini artırmağa səy göstərirdi. Amma hökumətin bu addımları müəyyən dairələrdə, o cümlədən Qafqaz idarəsinin məmurları arasında narazılıq doğururdu. Təsadüfü deyil ki, Qafqazda mülki işlər üzrə baş rəis 1897-ci ilin aprelində dövlət əmlak nazirinə yazdığı məktubda qeyd edirdi ki, neft sənayesinin xarici kapitalistlərin əlinə keçməsini məhdudlaşdırmaq məqsədilə qəbul edilmiş qanun əcnəbilərə çox tez-tez icazələrin verilməsi nəticəsində öz əhəmiyyətini itirməyə başlayır. Ona görə də bu qanunun səmərəliliyini artırmaq üçün Qafqazda mülki işlər üzrə baş rəis knyaz Qolitsın artıq fəaliyyətdə olan neft mədənlərinin əcnəbilər tərəfindən alınmasını qadağan etməyi və neft sənayesinin daha da inkişaf etməsinə imkan yaratmaq məqsədilə həmin kapitalın yalnız yeni neft yataqlarının kəşfiyyatına və istismarına yönəltməyi təklif edirdi. İki il sonra isə Qafqazda mülki işlər üzrə baş rəis bir qədər də sərt mövqe tutaraq təklif edirdi ki, neft sənayesində fəaliyyət göstrəmək istəyən səhmdar cəmiyyətlərinin yaranmasına “onlara idarə heyətinə yalnız xristian dininə sitayiş edən rus tələbələrinin seçilməsi şərti ilə icazə verilsin.

1898-ci ilin martında böyük knyaz Aleksandr Mixayloviç imperatora məktyub göndərərək, neftli torpaqların bir hissəsini hərracsız, “hökümətin icazəsi olmadan torpaqları heç kimə verməmək öhdəliyi götürmək şərti ilə öz mövqeyi, şöhrəti və s. İlə tanınmış rus təbəələrinə” verməyin zəruriliyini qeyd edirdi. Eyni məzmunlu çoxsaylı müraciətlərdən sonra imperatorun fərmanı ilə 1898-ci ilin mart ayında “Xüsusi müşavirə” yaradıldı. Dövlət şurası Qanunlar departementinin sədri, maliyyə, daxili işlər, dövlət əmlak nazirlərinin və Qafqazda mülki işlər üzrə baş rəisin daxil olduğu müşavirə qüvvədə olan 1892-ci il neft mədənləri haqqında qanuna yenidən baxmalı və zəruri hesab edilərsə, yeni qanunun hazırlanması barədə qərar çıxarmalı idi (Mehdiyev, 2000: 185).

“Xüsusi müşavirə” torpaq və dövlət əmlak naziri A.Yermolov tərəfindən təqdim olunmuş “Bakı neft mədənlərinin istismar şərtləri haqqında” qeydləri müzakirə etdi. Nazir göstərirdi ki, “neft mədənləri haqqında 1892-ci il qanunlardan əsaslı şəkildə kənara çıxmaq” neft sənayesinin mənafeyinə cavab vermir və neft sahələrinin hərracsız istifadəyə verilməsi məqsədəuyğun deyil. Bununla yanaşı, Azərbaycandakı neftli torpaqların qərb kapitalistləri tərəfinfən ələ keçirilməsinin qarşısını almaq məqsədilə təklif edilirdi ki, neftli torpaqların hərracında yalnız yalnız Rusiya təbəələri iştirak etsinlər və bu torpaqlar gələcəkdə digər şəxslərin istifadəsinə “ancaq daxili işlər və maliyyə nazirləri, eləcə də Qafqazda mülki işlər üzrə baş rəis ilə razılaşdırıldıqdan sonra torpaq və dövlət əmlak nazirinin xüsusi icazəsi əsasında” verilsin. Qanunun pozulacağı təqdirdə bütün torpaqlar əvəzsiz olaraq dövlətin xeyrinə müsadirə edilməli idi.

Müzakirələrin gedişində qeyd edilirdi ki, neft sənayesində qərb kapitalının müstəsna təsirə malik olması məqəsəduyğun deyil ki, “sənayenin bu sahəsi artıq formalaşmışdır və əcnəbi pionerlərin yardımına ehtiyacı yoxdur”. Amma onların fəaliyyətinin tamamilə qadağan olunması da arzuolunmaz hesab edilirdi.

Məsələnin müzakirəsinə yekun vuran “ Xüsusi müşavirə” belə nəticəyə gəldi ki, qərb kapitalının neft sənayesində iştirakı onun inkişafı üçün “nəinki zərərlidir, hətta faydalı və arzuolunandır”. Buna görə də 1898-ci il iyunun 3-də qərara alındı ki, “hazırda qüvvədə olan Dağ-mədən nizamnaməsinin neft hasil etmək üçün neftli dövlət torpaqlarının fərdi şəxslərə verilməsi və eləcə də əcnəbilərin Qafqazın neft mədənlərinə buraxılması qaydasına heç bir dəyişiklik edilməsin” (Azərbaycan tarixi, 2008:38).

“Xüsusi müşavirənin bu qərarı 1899-cu il mayın 1-də imperator tərəfindən təsdiq edildi. Beləliklə, qərb kapitalının Azərbaycan neft sənayesinə kütləvi surətdə nüfuz etməsi və Rusiya kapitalı ilə çulğalaşması ilə səciyyələnən dövr-XIX əsrin 80-ci illərinin ikinci yarısı-90-cı illərin sonu hakim dairələrdə qərb sahibkarlarının neft sənayesində iştirakı şərtlərinin qızğın müzakirəsi ilə müşayiət olunmuşdur. Müzakirələr zamanı Rusiyanın ayrı-ayrı hökumət qurumlarının müxtəlif fikirləri toqquşurdu. Qanunun hazırlanmasında iştirak edən hökumət məmurları öz mövqelərini müvafiq qərarların qəbul edilməsinin mümkün iqtisadi və siyasi nəticələrinə istinad etməklə əsaslandırırdılar. Əgər səlahiyyət dairəsinə bilavasitə Azərbaycan

neft sənayesinin daxil olduğu Qafqaz idarəsi və Torpaq və Dövlət Əmlak Nazirliyi fəal surətdə qərb kapitalının neft sənayesində iştirakını məhdudlaşdırmağa çalışırdılarsa, Maliyyə Nazirliyi bu təkliflərin əleyhinə çıxır və narahatlıqla qeyd edirdi ki, bu addımın atılması bir tərəfdən, Rusiyanın Avropa ölkələri ilə mövcud iqtisadi və siyasi əlaqələrinin, digər tərəfdən isə ölkə daxilində iqtisadi vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Qərb kapitalının Azərbaycan neft sənayesinə nüfuz etməsinin tamamilə qadağan olunmasını təkid edən bir sıra çar məmurlarının səylərinə baxmayaraq, uzun müzakirədən sonra qərb sərmayəsinin neft sənayesinə cəlb edilməsinin tərəfdarları üstünlük qazandılar. Bu isə 1890-cı illərin sonunda Azərbaycan neft sənayesinə qərb, xüsusilə ingilis kapitalı axınının güclənməsinə təkan verdi. Nəticədə XIX əsrin sonunda Azərbaycan neft sənayesində rus və Avropa kapitalının mövqeləri daha da möhkəmləndi. Bununla yanaşı, avropa kapitalının neft sənayesində geniş iştirakı bu sahənin texniki cəhətdən yüksək inkişaf səviyyəsinin inkişafı digər sənaye sahələrinin də yüksəlişinə güclü təsir göstərirdi. XX əsrin əvvəllərində Bakı iri sənaye mərkəzlərindən birinə çevrildi (Mehdiyev, 2000: 188).

Cənubi Qafqaz dəmir yolu əsasən xaricə daşımaları həyata keçirdiyindən və Xəzər-Volqa su yolu ilə naviqasiyanın qış aylarında kəsilməsi üzündən Rusiyanın mərkəzi quberniyalarının neftə getdikcə artan tələbatının ödənilməməsi Bakıdan şimal istiqamətində dəmir yolunun çəkilməsini zəruri etmişdi. Digər tərəfdən Rusiya kapitalistləri Cənubi Qafqaza fabrik və zavod məhsullarının kütləvi şəkildə gətirilməsi imkanına yiyələnmək üçün Şimali Qafqazdan Bakıya dəmir yolunun çəkilməsini təkidlə tələb edirdilər. Bu xətt üzrə inşaat işlərini həyata keçirmək hüququ verən konsessiyanı “Vladiqafqaz Dəmir Yolu Cəmiyyəti” əldə etdi. 1894-cü ildə Petrovsk limanınadək dəmir yolu rəsmən istifadəyə verildi. Hökumət dairələrində belə hesab edirdilər ki, Petrovsk limanı ilin bütün aylarında açıq olduğu üçün Bakıdan gəmilər müntəzəm olaraq bura neft və neft məhsulları daşıya bilər və bu neft Petrovsk limanından dəmir yolu vasitəsilə lazımi istehlak məntəqələrinə çatdırılar. Lakin dəmir yolunda vaqonçənlərin xeyli az olması, texniki qüsurlar, lazım olan infrastrukturun yoxluğu və daşıma tariflərinin kifayət qədər baha olması yeni - Petrovsk-Bakı xəttinin çəkilməsini zəruri edirdi (Kərimov, 2015: 21). Məhz bunun nəticəsi idi ki, Azərbaycanda formalaşmış sahibkarlar öz tərkibinə görə çoxmillətli idi. Azərbaycanlılardan başqa onların arasında rus, erməni və əcnəbi kapitalının nümayəndələri də var idi. Sahibkarların ayrı-ayrı dəstələri arasında rəqabət şəraitində ziddiyyətlər yaranırdı. Bir tərəfdən Azərbaycan sahibkarlan, digər tərəfdən isə rus və əcnəbi sahibkarlar arasında iqtisadi bəhsləşmə yalnız iqtisadiyyatın bəzi sahələrində təzahür edirdi. XX əsrin əvvəllərində rus sahibkarlarına münasibətdə milli sahibkarların hüquqlarının məhdudluğu onlarda narazılıq doğururdu. Bu narazılıq hələ kəskin xarakter daşımasa da, onun artması istisna edilmirdi. Azərbaycanlı və erməni sahibkarlan arasında əks-cəbhələşmə getdikcə güclənirdi. Azərbaycanda məskən salmış rus sahibkarlan kimi erməni sahibkarları da çarizmin himayədarlığı sayəsində diyarın bir sıra təsərrüfat sahələrində mühüm mövqe tuta bilmişdilər. Sahibkarların bu dəstələri arasında iqtisadiyyat sahəsindəki rəqabət getdikcə daha çox ictimai-siyasi həyatda öz əksini tapırdı. Bundan da tez-tez çar mütləqiyyəti istifadə edərək Rusiyada yaşayan xalqları bir-birinə qarşı salışdırmaq kimi sevimli və sınaqdan çıxmış siyasətini işə salır, bəzilərinə müstəsna hüquqlar verir, digərlərini isə ən adi hüquq normalarından məhrum edirdi. Azərbaycan sahibkarlarının çar mütləqiyyətinə münasibəti mürəkkəb və ziddiyyətli idi. Ən mütərəqqi siyasi dairələr çarizmin müstəmləkə siyasətinin Azərbaycan sahibkarlarının mənafelərini məhdudlaşdıran aspektlərindən narazılığını bildirirdilər. Bu narazılıq, məsələn, aşağıdakılardan irəli gəlirdi: emal sənayesi sahəsində azərbaycanlıların sahibkarlıq fəaliyyətinə əngəllər törədilirdi; şəhər özünüidarəsi orqanlarında onların təmsil olunması məhdudlaşdırılmışdı ki, bu da öz növbəsində şəhərin təsərrüfat həyatı məsələlərinin həllinə milli sahibkarların təsir dairəsini azaltmışdı; din, dil, mədəniyyət və s. sahəsində sıxışdırmalar var idi (Seyidzadə, 2004: 51-52).

**Açar sözlər:** *neft sənayesi, " Nobel qardaşları" cəmiyyəti, Rotşildlər, "Standart oyl", Bakı nefti, Çar Rusiyası, xarici kapital.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Abdullayev M. Azərbaycan tarixi-Bakı 2014, 379 səh.*

*2. Azərbaycan tarixi, VII cilddə V cild, Bakı, 2008*

*3. Bünyadov Z. Azərbaycan tarixi-Bakı 2007, 719 səh.*

*4. Həsənov M ; Nobellər, neft, milyonçular və qoçular şəhərində. TEAS Press Nəşriyyat evi, Bakı, 2018, 168 s.*

*5. Hüseynova A, Abbasova N, Melikova A; Nobellər və Bakı nefti, Bakı, 2009, 188 s.*

*6. Həsənov M ; Nobellər, neft, milyonçular və qoçular şəhərində. TEAS Press Nəşriyyat evi, Bakı, 2018, 168 s.*

*7. Kərimov N, XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Azərbaycanda Çar Rusiyasının neft siyasəti, Bakı , 2015.*

*8. Mehdiyev Ə, Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə, Bakı 2000,126 s*

*9. Seyidzadə D- Azərbaycan X X əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı 2004.*

## РЕЗЮМЕ

### Противоположная позиция царской России в привлечении иностранного капитала в бакинскую нефть

В этой статье представлена информация о политике России по привлечению иностранного капитала в бакинскую нефть в конце XIX века и попытках правящих кругов выдвинуть свои интересы на первый план. В статье отражена деятельность «Союза нобелевских братьев» в Азербайджане, в том числе в Баку, и вопрос привлечения французского капитала в лице Ротшильдов. В основе статьи лежат усилия России по блокированию потока западного капитала в сложившейся ситуации, а также политика царского режима, препятствующая расширению многих крупных нефтяных компаний, в том числе американского нефтяного магната Рокфеллера «Стандард ойл». Основным источником информации в статье являются исследовательские отчеты.

**Ключевые слова:** *нефтяная промышленность, Общество братьев Нобелей, Ротшильды, «Стандард ойл», Бакинская нефть, Царская Россия, иностранный капитал*

## SUMMARY

### The opposite position of Tsarist Russia in attracting foreign capital to Baku oil

This article provides information on Russia's policy in attracting foreign capital to Baku oil in the late 19th century and the attempts of the ruling circles to bring their interests to the fore. The activity of the "Union of Nobel Brothers" in Azerbaijan, including Baku, and the issue of attracting French capital in the person of the Rothschilds are reflected in the article. Russia's efforts to block the flow of Western capital in the current situation, as well as the Tsarist regime's policy of obstructing the expansion of many major oil companies, including US oil tycoon Rockefeller's Standard Oil, are at the heart of the article. The main source of information in the article is research reports.

**Keywords:** *oil industry, Nobel Brothers Society, Rothschilds, Standard Oil, Baku oil, Tsarist Russia, foreign capital.*

UOT 94

# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ CƏNUBİ QAFQAZ VƏ ŞƏRQİ ANADOLU UĞRUNDA OSMANLI-RUS HƏRBİ QARŞIDURMASININ TARİXİNDƏN (Türkiyə tarixşünaslığının məlumatları əsasında)

**EMİN HÜMBƏTOV**
*Gəncə Dövlət Universitetinin doktorantı*

*E-mail: amz2005@rambler.ru*

XVIII-əsrin sonu - XIX əsrin əvvəllərində Avropada baş verən hadisələr və böyük dövlətlərin Yaxın və Orta Şərq siyasəti, həyata keçirilən hərbi-siyasi addımlar və diplomatik manevrlər Osmanlı – Rus qarşıdurmasını bir növ qaçılmaz edirdi. Ümumilikdə Qara dəniz hövzəsi və Qafqaz bölgəsində hər iki dövlətin siyasi və strateji maraqları, həmçinin Qacarlar dövlətinin regiona yönəlik siyasəti, bölgəni gərginlikdə saxlamaqla yanaşı, həmçinin tərəflər arasında ciddi hərbi toqquşmaları gündəmə gətirirdi. Nəzərdən keçirdiyimiz dövrdə Avropada və Qafqaz bölgəsində mövcud olan geosiyasi vəziyyət 1806-1812-ci illərdə bölgə uğrunda Osmanlı-rus savaşına səbəb oldu.

Bu savaş böyük bir ərazini əhatə etmiş və fasilələrlə uzun müddət davam etmişdir. Hərçənd ki, bu müharibə Napoleon Bonapart Fransasının Avropada həyata keçirdiyi savaşların fonunda arxa planda görünsə də, lakin hərbi-siyasi və doğurduğu siyasi nəticələrə görə çox ciddi hərbi siyasi qarşıdurma olmuşdur.

Məlumdur ki, Osmanlı dövləti Misiri işğal edən Fransya qarşı Rusiya və İngiltərə ilə ittifaq bağlamışdır. Bu ittifaq nəticəsində Fransanın nəzarətində olan Egey dənizindəki adalarda Osmanlı hakimiyyəti öz siyasi nəzarətini bərpa edə bilmişdir. Əslində Rusiya ənənəvi siyasətinə uyğun olaraq Misirin işğalı ərəfəsində Şərqi Aralıq dənizində Fransa kimi güclü bir dövlət görmək istəmədiyindən, habelə Aralıq dənizi kimi geniş arenaya rahat çıxış əldə etmək imkanı baxımından Osmanlı hakimiyyəti ilə taktiki siyasi əməkdaşlığı Pavel rəhbərliyi caiz bilmişdir. Napoleonun 1798-ci ildə Misri işğal etməsi nəticəsində çətin vəziyyətdə qalan Osmanlı hakimiyyətini 1798-ci ildə səkkizillik ittifaq sazişi imzalamışdır. 1805-ci ilin 24 sentyabrında Osmanlı hakimiyyəti bu müqaviləni yeniləmək məcburiyyətində qalmışdır. Rusiya bu müqavilə nəticəsində boğazlardan sərbəst hərəkət imkanı əldə etmişdir. Lakin Napleonun Austerlis döyüşündə rus və Avstriya ordularını məğlub etməsi hərbi-siyasi şəraiti dəyişmiş, həmçinin fransız elçisi general Sebastianın diplomatık fəallığı, habelə Pavelin qətlindən sonra Rusiyada hakimiyyət dəyişikliyi nəticəsində İstanbulda ruslara qarşı münasibət də əks məcraya yönəlmişdi(8, s. 50).

Qeyd edək ki, Osmanlı dövləti Rusiya gəmilərinin boğazlardan keçməsini öz təhlükəsizliyi baxımından təhdid hesab edir, buna mane olmağa çalışırdı. Osmanlı dövlətinin bu niyyətini duyan rus hökuməti İstanbuldakı elçisi İtalinskiyə göndərdiyi təlimatda“Osmanlı imperiyasının Rusiya ilə bağladığı ittifaq sazişinə hörmətlə yanaşmasını, bu tələb yerinə yetirilmədiyi təqdirdə elçilik heyətinin İstanbuldan ayrılmasını” tələb edirdi. (14, s. 109-111).

Rus hökumətinin kəskin mövqeyinə baxmayaraq Osmanlı dövləti 1806-cı ilin yazında rus gəmilərinin boğazlardan keçməsini qadağan etdi. (13, s. 47).

Buna cavab olaraq Rusiya Boğdan (Moldova) və Eflakda Osmanlıların həyata keçirtdikləri tədbirlərə İngiltərə ilə birlikdə qəti etiraz etdi və İstanbul höküməti bu ölkələrin ciddi təzyiqinə məruz qaldı. 1806-cı ilin sentyabr ayında Rusiya ültimatum verərək voyevodaların vəzifələrinə geri qaytarılması tələb edildi. Üç böyük gücün arasında çətin vəziyyətdə qalan Osmanlı hakimiyyəti rusların Qara dənizdən, ingilislərin Çanaqqaladan hücuma keçəcəklərindən narahat olaraq vəzifəsindən uzaqlaşdırdığı hər iki ruspərəst bəyi 1806-cı ilin 15 sentyabrında vəzifələrinə geri qaytardı. Buna

baxmayaraq 16 oktyabr 1806-cı ildə rus hökuməti general İvan Mikelsona Boğdana girməsini əmr etdi. Bu əmrə uyğun olaraq 40 min nəfərlik rus qoşunu noyabr ayının 11-də Dnestr çayını keçərək Boğdan və Eflaka daxil oldu. Rus hakimiyyəti öz işğalçılıq siyasətini pərdələmək üçün "Osmanlı dövləti ilə Rusiya arasında imzalanan sazişin türklər tərəfindən pozulmasının qarşısını almaq üçün bu addımın atıldığını elan etdi" (13, s. 47).

Fahir Armaoğlu qeyd edir ki, "Fransa bu ərəfədə Osmanlı dövlətini Rusiyaya qarşı dirənməyə təşviq etmişdi. Fransanın istəyi Osmanlı dövləti ilə Rusiya arasında müharibənin başlaması və Osmanlı dövlətinin rus hərbi qüvvətlərinin bir hissəsini öz üzərinə çəkərək Fransanın Rusiya ilə savaşdakı yükünü yüngülləşdirmək olmuşdur. Lakin III Səlim dövlətin hərbi və maliyyə vəziyyətinə görə müharibəyə tərəfdar deyildi. Bu səbəbdən Eflak və Boğdan bəyləri öz vəzifələrinə geri qaytarıldı. Bu, Fransa üçün böyük bir fəlakət, Ruslar və İngilislər üçün isə bir diplomatiya zəfəri idi" (4, s. 91).

Rusiyanın bu hərəkətinə qarşı Osmanlı hakimiyyəti əks tədbirlərdə tərəddüd etsə də, fransız Sebastian təkidlə Osmanlı hakimiyyətini Rusiyaya qarşı müharibəyə başlamağa çağırırdı. 1806-cı ilin oktyabr ayının 23-də Rusiyanın Osmanlı dövlətinə müharibə elan etməsi, iki ay sonra 27 dekabr 1806-cı ildə Osmanlı hakimiyyətinin Rusiyaya müharibə elan etməsi ilə nəticələndi. Beləliklə, bir il əvvəl ittifaq bağlayan hər iki dövlət yeni bir müharibəyə başladı (3, s. 119).

Rusiya donanmasına boğazları bağlayan Osmanlı dövləti 1807-ci il yanvarın 3-də Avropa dövlətlərinə verdiyi notalarda Rusiyaya müharibə elan etdiyini bildirir, həmçinin Osmanlı dövlətinə tabe olan Yeddi Ada Cümhuriyyətinin (1800-ci ilin 21 martında İoniya adalarında qurulmuş dövlət) Rusiya tərəfindən himayəsini qəbul etmədiyini bildirirdi (4, s. 91; 13, s. 47).

Osmanlı dövlətinin Rusiyaya qarşı müharibəyə başlaması İngiltərənin ciddi narahatlığına səbəb oldu. Çünki Fransaya qarşı müharibə aparan Rusiyanın iki cəbhədə döyüşməsi Rusiyaya ciddi problemlər yarada bilərdi .Bu da Rusiya ilə müttəfiq olan ingilis hakimiyyətinin siyasətinə zidd idi. Bu səbəblə Rusiya ilə müharibəni dayandırmaq üçün osmanlı hakimiyyətinə təzyiq göstərməyə başladı. İngilis hakimiyyəti Osmanlı dövlətindən Rusiya ilə ittifaq müqaviləsini yenilənməsini, Osmanlı donanmasının və boğazların İngiltərəyə təslim edilməsini, razılaşma əldə olunana qədər Eflak və Boğdanın Rusiyada qalmasını tələb etdi. İngiltərə hökuməti bunun əvəzində Bəndər və Xotin qalalarının Rusiyadan geri alınmasına zəmanət verirdi. Osmanlı dövləti bu şərtləri qəbul etməyəcəyi təqdirdə Bozca Ada yaxınlarında gözləyən İngilis donanmasının Çanaqqala boğazına daxil olacağını bildirilirdi (4, s. 92).

1807-ci il yanvarın 25-də Osmanlı dövləti Sebastianın da təşviqi ilə İngiltərənin tələblərini rədd etdi. İngilis elçisi İstanbulu tərk edərək Bocza Ada yaxınlığında mövqe tutan ingilis donanmasına getdi. 1807-ci il fevralın 18-də 11 gəmidən ibarət ingilis donanması Çanaqqala boğazına daxil oldu və Nara burnunda mövqe tutan 6 gəmidən ibarət osmanlı donanmasının 4 gəmisini məhv edib 2gəmisini ələ keçirdi. İngilis donanması 19 fevralda Yedikule yaxınlarında lövbər saldı. İngilis donanmasının İstanbul yaxınlarında görünməsi osmanlı hakimiyyətini və əhalini təşvişə saldı. Bu vəziyyət Sebastianı da ciddi narahat etməyə başladı. Çünki İngiltərə ilə Osmanlı dövləti arasında müharibə başlayacağı təqdirdə osmanlılar iki cəbhədə vuruşmaq məcburiyyətində qalacaqdılar (4, s. 92).

Belə vəziyyətdə Osmanlı hakimiyyəti həm dənizdə, həm də sahilboyu ciddi tədbirlər görməyə başladı. Osmanlı dövlətinin bu tədbirləri qarşısında ingilis elçisi tələblərinin bir az yumşaldaraq İstanbul hökumətinə çatdırdı. Lakin bu tələblər də birmənalı şəkildə rədd edildi. Belə vəziyyətdə İstanbul yaxınlığında qalmağın təhlükəli olduğunu başa düşən ingilis donanması mart ayının 2-də Çanaqqala boğazını tərk etdi. Boğazı keçərkən Osmanlı dəniz qüvvələri iki ingilis freqatını batırdı və digərlərini isə zədələdi. Beləliklə, ingilis hökumətinin Osmanlı hakimiyyətinə hərbi və siyasi təzyiqi uğursuzluğa düçar oldu (4, s. 93).

Rusiya ilə savaş əsasən iki cəbhədə - Eflak-Boğdan (Dunay) və Qafqaz cəbhələrində aparılırdı. Həmçinin tərəflər arasında dəniz döyüşləri də gedirdi. Rus hərbi birləşmələri əvvəlcə qərb cəbhəsində hərəkətə keçdi. Rus generalı Mikelson Dunay istiqamətində sürətlə irəliləyərək Buxarestə qədər çatmış, Xotin (26 noyabr/1806), Bəndər, Akkerman və Kili (6 dekabr 1806) qalalarını işğal etmişdir. Lakin ruslar İsmayıl, İbrail və Yergögü qalalarında ciddi müqavimətə rast gəldilər. İsmayıl qalasında Qasım paşa və Pəhləvan İbrahim ağa ruslara ciddi tələfat verdilər (10, s. 146; 3, s. 120). Osmanlı ordusunun cəbhənin bu sahəsində ciddi müqaviməti nəicəsində bir müddət rusların irəliləməsinə imkan verilmədi.

1807-ci ilin mart ayında admiral Sepyagin Limni dəniz döyüşündə Osmanlı donanmasını ağır məğlubiyyətə uğratmış, nəticədə rus donanması Egey dənizində hərəkət sərbəstliyi əldə etmişdir. Lakin Tilzit sazişindən sonra rus donanması bu əraziləri tərk etmişdir (16, s. 70).

Qeyd edək ki, rus-fransız danışıqları zamanı Napoleon rus çarından Osmanlı dövləti ilə davam edən müharibənin dayandırılmasını istəmişdir. Bu səbəbdən rus donanması ələ keçirdiyi əraziləri tərk etmişdir (15, s. 468).

Bu dövrdə Osmanlı dövləti ilə Rusiya arasında Qafqaz cəbhəsində və Şərqi Anadoluda da ciddi hərbi-siyasi qarşıdurmalar davam etmişdir.

Rus-Osmanlı savaşının başlaması ilə Qafqaz cəbhəsində hücuma keçən rus ordusu 1807-ci ildə Poti və Anakara arasındakı Şamxal boğazını işğal etdilər və Ahalkələk tərəfdən Osmanlı torpaqlarına soxuldular. Az sonra Anakara da ruslar tərəfindən işğal olundu. Rus ordusunun bu yürüşlərinin qarşısını almaq üçün Osmanlı hökuməti Sinop, Trabzon, və Potini qorumaq üçün bu ərazilərdə hərbi mövqelərini gücləndirməyə başladı (13, s. 49).

Tiflisdəki rus ordusunun Ahıska-Çıldır-Qars istiqamətində hücum xəbəri alındıqdan sonra keçmiş sədrəzəm Yusif Ziya paşa Osmanlı ordusunun Şərq bölgələri üzrə komandanı təyin olundu. Bu bölgədə Osmanlı dövlətinin ciddi nizami ordusu yox idi. Həmçinin bölgədəki osmanlı komandanları arasında baş verən ixtilaflar ruslara qarşı müqaviməti ciddi şəkildə zəiflədirdi. Trabzon valisi və Qara dənizin Anadolu sahillərinin komandanı Şərif Mustafa paşa ilə Çıldır valisi Səlim paşa arasında baş verən qarşıdurmalar, bir-birlərinə kömək etməmələri nəticədə Poti qalasının ruslar tərəfindən işğalına səbəb oldu (1, s. 146-147.).

Poti qalasının işğalı Trabzon, Batum və Suxumi sahillərinin donanma tərəfindən müdafiə olunması zərurətini yaratdı. Osmanlı hərbi birlikləri ruslar tərəfindən işğal olunmuş Redut qalasını geri qaytarmaq üçün 1807-ci il fevralın 20-də hücum təçkil etsələr də bu cəhd nəticəsiz qaldı (2, s . 538 ).

Osmanlı ordusunun 1807-ci ilin may ayında Ahalkələk qalasına rus-gürcü birliklərinin hücumunun qarşısını alması bu ərazilərdə hərbi əməliyyatları nisbətən səngitdi.

Qacar dövləti ilə müharibənin (1804-1813-cü illər) davam etməsinə baxmayaraq, bəzi rus generalları Balkanlarda başlamış rus-türk döyüşlərini ermənilərin təhriki ilə Anadoluya da keçirməyə, bununla da Qafqazda ikinci cəbhə xəttinin açılmasına cəhd etmiş və buna nail olmuşdular. Böyük bir hərbi birləşməyə başçılıq edən general P.Nesvetayev Gürcüstan və Dağıstanda baş komandan təyin edilmiş qraf İ.Qudoviçə 1807-ci ilin başlarında yazdığı raportunda Qars ermənilərinin rus qoşunlarının yolunu səbirsizliklə gözlədiklərini vurğulayıb, onu Osmanlı torpaqlarına daxil olmağın zəruriliyinə inandırmağa çalışırdı. Qudoviçin razılığını aldıqdan sonra isə öncə öz nümayəndələrini Qars paşası Məhəmməd Paşanın hüzuruna göndərib, ona könüllü surətdə Rusiyanın himayəsi altına keçməyi təklif edir. İstədiyi cavabı ala bilməyən Nesvetayev 23 fevral 1807-ci ildə Məmməd Paşaya və onun qardaşı, Qars qarapapaqlarının başçısı Qara Mahmud bəyin hərəsinə ayrı-ayrılıqda məktub göndərib onları rus qoşunlarının sərhədi keçəcəyi təqdirdə müqavimət göstərməməyə razı salmağa səy göstərdi (2, s. 598-599).

Bu təklifləri rədd edən Məhəmməd Paşa rusların gözlənilən hücumundan müdafiə olunmaq üçün İrəvan hökmdarı Hüseynqulu xandan kömək istədi. Qara bəy isə qardaşı Təkəl ağa ilə birlikdə 400 piyada və 300 süvarinin müşayiətində Şörəyelin sərhədə yaxın kəndlərinə gəldi və bu kəndlərin əhalisini təhlükəsizlik məqsədilə Qarsın iç bölgələrinə köçürdü (18, s. 38).

Nesvetayev 5 mart 1807-ci ildə Məhəmməd paşa və Qara Mahmud bəyə daha bir məktub göndərib, bəlli təklifini onlara bu dəfə artıq hədə-qorxu gələrək qəbul etdirmək istədi. Cavab məktubunda Qara bəy savaşa hazır olduğunu bildirdi. Rus qoşunları sərhədə düzüldü. Şərqi Anadolu istiqamətində hərəkət edəcək Saratov muşketyor alayı, Qafqaz qrenadyor alayının batalyonları (qraf Simoniçin rəhbərliyində), Troitsk muşketyor alayı, Qafqaz artilleriya briqadası və 2 kazak alayına ümumi komandanlıq general Nesvetayevə həvalə olundu (18, s. 38).

Rus qoşunları 1807-ci il martın 16-da Şərqi Anadolu istiqamətində Osmanlı sərhədini keçirlər. Qarapapaq Qara bəy həmin gün 1000 nəfər piyada ilə Baş Şörəyel kəndinin qalasında və kənd ətrafındakı istehkamlarda mövqe tutdu. Rus qoşunları Baş Şörəyeli mühasirəyə aldı. Kəndi döyüşsüz təhvil vermək təklifinə qəti rədd cavabı aldıqdan sonra ruslar dörd bir tərəfdən hücum edərək onu zəbt etdilər. Qara bəy öz dəstəsiylə sahibi olduğu Mağazberd kəndinə çəkildi.

Həmin il martın 25-26-da rus ordu birlikləri birbaşa Qarsa doğru istiqamət götürərkən, Qara

bəyin min nəfərlik dəstəsi ilə döyüşə girdi. Bu döyüşlərdə rus əsgərlərindən 32-si öldürülür, 27-si isə yaralanır (2, s. 604).

Bu dövrdə umumilikdə Şərqi Anadoluda Osmanlı ordusunun 20000 nəfərlik süvari və piyada hərbi qüvvəsii movcud idi. Nesvetayev Qarsın 10000 silahlı şəhər sakini tərəfindən 60 topla qorunduğunu və qala divarları ikiqat olduğu üçün rusların şəhərə girmək istəyəcəyi təqdirdə çox itki ilə üzləşəcəyini öncədən bilirdi. Buna baxmayaraq, o, Ərzurumdan şəhər sakinlərinə hərbi yardım yetişənə kimi Qarsı tutmaqda israrlı idi. Ruslar Qarsa etdikləri hücumda, əvvəlcədən gözlənildiyi kimi, böyük itkilər verərək elə şəhərin kənar məhəllələrindəncə geri atıldılar (9, s. 145).

1807-ci ilin iyun ayında Qacar şahzadəsi Abbas Mirzə ilə Yusif Ziya paşa arasında əldə olunan razılaşmaya görə, 20 minlik ordu ilə Arpaçay istiqamətində hərəkətə keçdilər. Həmçinin bu yürüşdə İrəvan xanı Hüseyinqulu xanın 10 minlik ordusu da Ərzurum paşasının ordusu ilə birləşməli idi. Qafqazdakı rus qoşunlarının baş komandanı Qudoviç bu plandan xəbərdar olaraq Arpaçay yaxınlığına hərbi birliklər yerləşdirdi və osmanlı, qacar və İrəvan hərbi birliklərinin birləşməsinə imkan vermədi (17, s. 90).

Abbas Mirzənin qoşunu vaxtında köməyə gələ bilmədiyi üçün osmanlı qoşunu rus həmləleri qarşısında geri çəkilmək məcburiyyətində qaldı. Rus birlikləri ilə təkbaşına qalan Osmanlı ordusu say üstünlüyünə baxmayaraq (rus birlikləri 6 min, osmanlı ordusu 20 min nəfər idi) 1807-ci il iyunun 18-də Arpaçay sahilində, Gümrü qalası yaxınlığındakı baş verən döyüşdə məğlub oldu (11, s. 94-95).

Rusiya ilə müharibənin davam etdiyi bir vaxtda Osmanlı sarayında taxt davasının başlanması dövləti olduqca çətin vəziyyətə saldı. 1807-ci ilin may ayında yeniçərilərin üsyan qaldırması nəticəsində sultan III Səlim taxtdan endirildi. Hakimiyyətə gələn II Mustafa III Səlimin Avropa üsulunda modern ordu quruculuğunun qarşısını alaraq Nizami – cədid ordu təşkilatını ləğv etdi. Lakin 1808-ci ilin iyul ayında II Mustafa da taxtdan uzaqlaşdırıldı və taxta II Mahmud çıxdı (1808-1839) (8, s. 61).

Qafqaz cəbhəsində hərbi əməliyyatlar 1809-cu ilin yazında yenidən qızışmışdır. Qafqaz döyüşlərində ruslar xüsusilə Poti qalasının (Faş) ələ keçirilməsi üçün ciddi cəhdlər etmişdilər. Strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bu qalanın ələ keçirilməsi rusların Qafqazdakı hakimiyyəti üçün böyük əhəmiyyət kəsb edirdi. Tərəflər arasında uzunmüddətli şiddətli döyüşlərdən sonra rus ordusu 1809-cu ilin noyabrın 27-də qalanı aldılar (5, s. 96).

Poti qalasının geri qaytarılması ilə bağlı Osmanlı hakimiyyəti müəyyən tədbirlər görsə də bu, bir nəticə verməmişdir. Bu dövrdə Poti qalası ilə yanaşı Ahalkələk və Ahısqa qalalarında da şiddətli döyüşlər baş vermişdir.

Əməliyyatlar zamanı ruslar Akçaqala və Polatxana (Akçaabad) ərazilərinə də hərbi qüvvələr yeritmişlər.

Bu dövrdə Osmanlı və İranda fəallaşan İngiltərə onların Qafqaz bölgəsində Rusiyaya qarşı birgə mübarizə aparmalarına çalışırdı. 1810-cu ildə İngiltərənin təhriki ilə bağlanan Osmanlı-Qacar ittifaq müqaviləsinə görə, Qacar və Osmanlı orduları Qafqazda İngilislərin hazırladığı plan əsasnda birgə hərəkət etməli idilər (6, s. 185).

Qacar və Osmanlı ordularının Rusiyaya qarşı birgə döyüşləri 1810-cu ilin 5-8 noyabrında Ahalkələk qalasında baş verdi. Lakin bu döyüşdə Şərif paşanın rəhbərliyində olan türk birliklərinin köməyinə baxmayaraq Qacarlar tərəfindən döyüşən Hüseynqulu xan məğlub oldu (6, s. 185).

1810-cu il noyabrın 16-19-da Ahalsıx qalası ətrafındakı yüksəklikləri tutan rus qüvvələri Qacar-Osmanlı ordularının təzyiqi nəticəsində geri çəkilmək məcburiyyətində qaldılar (11, 129).

Qacar və Osmanlıların Cənubi Qafqazda ittifaq qurması və əməliyyatlara hazırlaşması xəbəri alan general Tormasovun müraciəti əsasında rus hakimiyyəti 1811-ci ilin əvvəllərində Cənubi Qafqaza 4 alay əsgər göndərdi (7, s. 416).

Birgə fəaliyyətlə bağlı bəzi məsələləri müzakirə etmək üçün 1811-ci ilin avqust ayında Abbas Mirzə Osmanlı dövlətinin Şərq komandanı Emin paşa ilə görüşmək üçün Arpaçay sahillərinə doğru hərəkət etdi. Emin paşa İrəvan xanı Hüseynqulu xanla görüşdə sui-qəsd nəticəsində öldürüldü (13, s. 56).

Emin paşanın öldürülməsi nəticəsində Cənubi Qafqazda Rusiyaya qarşı hazırlanan Qacar-Osmanlı və Azərbaycan, Dağıstan hakimlərinin ortaq hərbi əməliyyat planı baş tutmadı. Belə bir vəziyyətdə Osmanlı və Qacar sərhəd hakimləri arasında müəyyən anlaşılmazlıqlar yaşandı. Həmçinin 1811-ci ilin yazında rus hərbi birliklərinin Balkan cəbhəsində Osmanlı ordularına qarşı uğurlu hərbi əməliyyatlar keçirməsi Cənubi Qafqazdakı hərbi-siyasi vəziyyətə mənfi təsirini göstərdi. Bu səbəblərdən 1811-ci ilin yazında Cənubi Qafqazda Rusiyaya qarşı nəzərdə tutulmuş hərbi əməliyyat

planı uğursuzluğa düçar oldu (11, s. 132 ).

Belə bir hərbi-siyasi şəraitdə istər Balkanlarda, istərsə də Cənubi Qafqazda bütün cəbhə boyu üstünlük Rusiyanın tərəfinə keçdi. Çətin vəziyyətdə qalan və böyük dövlətlərin siyasi mövqesizliyi səbəbindən Osmanlı hakimiyyəti sülh danışıqlarına başlamaq məcburiyyətində qaldı.

Bu vəziyyətdə 1811-ci il oktyabrın 28-də Osmanlının qərb cəbhəsində ruslarla atəşkəs elan edilmiş, 28 noyabrda isə rus generalı Kutuzov ilə Qalib bəy arasında ilk razılaşma əldə olunmuşdur. Fransa ilə gərgin münasibətlər vəziyyətində olan Rusiya hakimiyyəti çar Aleksandrın direktivi ilə Osmanlı dövlətinə "müdafiə və hücum" ("tedafüi ve tecavüzi") ittifaqı təklif etmiş və razılaşma əldə etmək üçün bütün mümkün təzyiqlərdən istifadə etmişdir. Bu vəziyyətdə Fransa hakimiyyəti də Osmanlı dövləti ilə ittifaq təşəbbüsünə cəhd etmiş,osmanlı hakimiyyətinin 100 min nəfərlik ordu göndərəcəyi təqdirdə Krımın Osmanlı dövlətinə geri qaytarılması vədini vermişdir. Beynəlxalq şəraiti və dövlətin daxili siyasi və hərbi vəziyyətini dəyərləndirən Osmanlı dövləti 1812-ci ilin may ayının 16-da Buxarestdə Rusiya ilə sülh sazişi imzalamışdır (5, s.101).

Buxarest müqaviləsi 16 maddədən ibarət idi. Birinci maddədə tərəflər arasında sülhün bərqərar olunması, traktatda təsbit olunan şərtlərin pozulmayacağına çalışacaqları göstərilirdi. İkinci maddədə öz hökmdarları və dövlətlərinin əleyhinə müharibədə iştirak edənlərə əfv verilir, onların təqib edilməyəcəyi bildirilirdi. Üçüncü maddə müəyyən vaxtlarda dəyişiklik edilmiş maddələr istina olmaqla, hər iki dövlət arasında indiyədək bağlanılmış bütün traktat, konvensiya və qərarları bir daha təsdiq edirdi. Dördüncü maddə ilə sərhədlər təsbit olunurdu. Prut çayının sol sahilindəki torpaqlar Rusiyaya keçir, Prutun ortası hər iki dövlət arasında sərhəd olurdu. Beşinci maddə ilə Rusiya Prut çayının sağ sahilində yerləşən Moldava torpaqlarını, həmçinin böyük və kiçik Valaxiyanı, bu müqavilənin IV maddəsində göstərilən Dunay çayı adaları ilə birlikdə Osmanlı dövlətinə qaytarırdı. Moldaviya və Valaxiyanın bu müharibəyədək mövcud olan imtiyazları təsdiq olunurdu. Yassı müqaviləsinin dördüncü maddəsi dəqiq şəkildə həyata keçirilməli idi. Altıncı maddəyə görə Prut çayı sərhədlərindən başqa, Asiya və digər yerlər tərəfdən sərhədlər müharibəyədək olan vəziyyətdə bərpa edilir və tutulmuş torpaqlar Rusiya tərəfdən Osmanlı dövlətinə qaytarılırdı. Yeddinci maddə əhalinin bir dövlətdən digərinə keçməsi haqqında idi. Səkkizinci maddə Rusiya tərəfdən müharibədə iştirak etmiş serblərdən bəhs edirdi. Doqquzuncu maddə əsirlərin dəyişdirilməsi barədə idi. Onuncu maddə hər iki dövlətin təbəələrinin müharibə üzündən təxirə salınmış iş və tələblərinin sülh bağlanmasından sonra baxılmasını tənzimləməli idi. On birinci maddə ratifikasiyaların mübadiləsindən sonra Rusiya qoşunlarının işğal olunmuş Osmanlı torpaqlarından çıxarılması haqqında idi. On ikinci maddə ilə tərəflərin təbəələri və tacirlərinə vurulan zərərlərin ödənilməsi tənzimlənməli idi. On üçüncü maddədə göstərilirdi ki, Rusiya bu sülh müqaviləsinin bağlanması ilə İranla eyni etiqaddan olan Osmanlı dövlətinin Rusiya ilə İran arasında müharibənin başa çatmasına xeyirxah xidmət etməsinə və onlar arasında qarşılıqlı razılıq əsasında sülhün bərqərar olunmasına razılaşır. On dördüncü maddə bu müqavilə üzrə ratifikasiyalar mübadiləsindən sonra tərəflər arasındakı düşmənçilik hərəkətlərinin dayandırılması və münasibətlərin qaydaya salınması haqqında idi. On beş və on altıncı maddələr müqavilənin təsdiqi və ratifikasiyası barədə idi (12, s. 413-428).

Qeyd edək ki, Rusiya Buxarest müqaviləsi ilə Balkanların xristian əhalisi kimi, Osmanlı imperiyasındakı ermənilərin də mənafeyinin müdafiəçisi kimi çıxış etmişdir.

Ümumiyyətlə, Buxarest müqaviləsi Osmanlı dövlətinin hərbi-siyasi mövqelərinin nəzərəçarpacaq dərəcədə zəiflədiyinin ifadəsi idi. Bu müqavilə ilə Osmanlı dövlətinin Cənubi Qafqazda siyasi nüfuzu daha da zəifləmiş, Rusiyanın bölgə üçün strateji planlarına geniş imkanlar yaranmışdır.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Ahmet Cevdet Paşa. Tarih-i Cevdet. İstanbul, C. IX. 1976.*

*2. Акты, собранные Кавказской археографической комиссией, под ред. А.А.Берже (АКАК), т. III, Тифлис, 1869.*

*3. Akçura Y. Osmanlı Devletinin Dağılma Devri, Ankara, 2010.*

*4. Armaoğlu F. 19. Yüzyıl Siyasi Tarihi (1789-1914), Ankara, 1999.*

*5. Aydın M. Üç Büyük Gücün Çatışma Alanı Kafkaslar. İstanbul, 2008.*

*6. Davudov G. XIX esrin əvvəllərində İran-Osmanlı münasibətləri və Avropa dövlətləri // "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika Elmi Konfransının Materialları, Bakı, 2009.*

7. *Dubrovin N.F. İstoriya Voynı i Vladıçestva Russkix na Kavkaze . T. 5. SPb., 1887.*

8. *Karal E. Osmanlı Tarihi, Nizam-ı Cedid ve Tanzimat Devirleri (1789-1856), C. V, Ankara, 1988.*

9. *Fadeev A.F. Rossiya i Kafkaz. Moskva, 1960.*

10. *Jorga N. Osmanlı İmparatorluğu Tarihi, C: V, Çev. Nilüfer Epçeli, İstanbul, 2005.*

11. *İbraqimbeyli H.M. Rossiya i Azerbaydjan v Pervoy Treti XIX veka . Moskva, 1969.*

12. *Mahmudov Y. Şükürov K. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları 1639-1828. Dörd cilddə Birinci cild, Bakı, 2009.*

13. *Teymurova G. 1806-1812 osmanlı-rusya savaşı ve Azerbaycan. Osmanlı Medeniyeti Araştırmaları Dergisi – Journal of Ottoman Civilization Studies Cilt 2, Sayı 2, Ocak 2016. S.45-59.*

14. *Tukin C. Osmanlı İmperatorluğu Devrinde Boğazlar Meselesi. İstanbul, 1947.*

15. *Yılmaz Ö. 1806-1812 Osmanlı-rus savaşı'nda rusların Trabzon ve Akçaabat saldırılarına dair bazı yeni bilgiler. Karadeniz İncelemeleri Dergisi, Bahar 2019 (26), 461-490.*

16. *Yeşil F. Trajik Zafer. Büyük Güçlerin Doğu Akdeniz'de Siyasi ve Askeri Mücadelesi (1806-1807), İstanbul, 2017.*

17. *Sadıqov H. Rusiya-Türkiyə münasibələrində Cənubi Qafqas problemi (1787-1829 –cu illər). Bakı, Elm, 1991.*

18. *Valehoğlu F. 1806-1812-cı illər Türk-Rus müharibəsi və Qarapapaqlar. /Tarix və onun problemləri, № 3, Bakı, 2013, s.38 - 43.*


**Açar sözlər:** *Rusiya, Osmanlı imperiyası, Şərqi Anadolu, Cənubi Qafqaz, Buxarest*

**Гумбатов Е. Н.**
**Докторант Гянджинского Государственного Университета**

**РЕЗЮМÉ**

**Из Истории Османо-Русского Военного Противостояния из-за Южного Кавказа и Восточной Анатолии в начале XIX в. (на основе материалов Турецкой историографии)**

В данной статье автором предпринята серьезная попытка осветить причины, ход и последствия Османо-Российского военного противостояния в начале XIX в. за господство в вышеназванных регионах. Автор, опираясь на сведения как Турецкой историографии так и различных достоверных русскоязычных источников а также данных Азербайджанской историографии убедительно и последовательно рассматривает причины, ход и последствия Русско-Османской войны 1806-1812 годов. Здесь также в кратце излагается основная суть Бухарестского мирного договора, кратко, но достаточно чётко основные итоги этой войны как для России так и для Османской Империи.

**Ключевые слова:** Россия, Османская Империя, Восточная Анатолия, Южный Кавказ, Бухарест.

**Humbatov E.N.**
**PhD Student, Ganja State University**

**SUMMARY**

**Regarding the History of Ottoman-Russian Confrontation for South Caucasus and Eastern Anatolia in the beginning of XIX century (Based on references of Turkish historiography)**

In present article, the author has made a serious attempt to enlighten the reasons, the process and the consequences of Ottoman-Russian military confrontation in the beginning of XIX century, for the sake of obtaining power in the regions enlisted above. The author deducts on the reasons, the process and the consequences of Russian-Ottoman war of 1806-1812 in a very precise and sequential manner, whilst referring to Turkish historiography, Russian language published sources, as well as Azerbaijani historiography. Article also includes a brief explanation of the main aspects of Bucharest peace agreement and a brief, however very concise enlightenment regarding the major outcomes of this was for Ottoman Empire as well as for Russia.

**Keywords:** *Russia, Ottoman Empire, Eastern Anatolia, South Caucasus, Bucharest.*

# İqtisadiyyat

UOT 33:007, 33:002, 330:002.6

# "RƏQƏMSAL" TRANSFORMASİYANIN DÜNYA İQTİSADİYYATI ÜZƏRİNDƏ PROYEKSİYASI:QLOBAL "VAHİDLƏŞMƏ" KABUSU

**ƏVƏZ BAYRAMOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti.*
*İqtisad elmləri doktoru, professor*

*E-mail:A.Bayramov610@hotmail.com*
*avazbayramov61@gmail.com*

## GİRİŞ

"Dünya – sistem" nəzəriyyəsinin təməl müddəalarına adekvat şəkildə formalaşmış qlobal iqtisadi düzən, yaxud dünyanın geoiqtisadi arxitekturası yeni keyfiyyət məzmunlu dəyişikliyə məruz qalır: Geoiqtisadiyyat – rəqəmsal transformasiyaya uğrayır.

Dünya gəlirinə çıxış imkanları baxımından xüsusi əhəmiyyət kəsb edən geoiqtisadi təkrar istehsal tsiklləri "rəqəmsal tsikllərə" transfer edir. Ənənəvi (qeyri – rəqəmsal) iqtisadi fəaliyyətlə məşğul olan transmilli korporasiyalar İKT sektorunda fəaliyyət göstərən qlobal şirtkətlərlə əməkdaşlığa başlayırlar. Məsələn, "Baidu" şirkəti "Ford"la birlikdə "Apollo" rəqəmsal platformasını, "Google" "YolMart"la "Google assistent" xidmət platformasını eləcə də "Volvo" və "Audi" şirtkərləri ilə "Android automotive" platformasını yaratmışdır.

"General Motors" – "Microsoft" la "Azur" platformasından istifadə ilə bağlı əməkdaşlığa başlamışdır.

Və bu proses artıq kütləvi hal almaqdadır. Görünən o ki, transmilli kapital rəqəmsal transformasiyanı bütün parametrləri üzrə dəstəkləyir. İKT sferasındakı qlobal şirkətlərlə əməkdaşlıq formasında həyata keçirdikləri qarşılıqlı əlaqələr daha çox inteqrativ məzmun kəsb etməyə başlamışdır. Bu bağlılıq, hansı ki, daha yüksək effekt əldə etməyə imkan verir, transmilli şirkətlərin real iqtisadi fəaliyyətini rəqəmsal müstəviyə keçməsini məntiqi zərurət halına gətirməkdədir. Baş verməkdə olan qovuşmanın yönümündən (qlobal şirkətlər tərəfindən TMK –ların "udulması" yoxsa TMK – ların sistemli şəkildə rəqəmsal transformasiyaya uğraması) asılı olmayaraq təmərgüzləşmə baş verir. Və bu proses getdikcə intensivləşməkdədir.

Rəqəmsal iqtisadiyyatın neqativ təmayülləri sırasında ən təhlükəli olanı təmərgüzləşmə meylinin ifrat dərəcədə yüksək sürətliliyidir. Belə ki, "Əlibaba" (Çin) şirkəti ölkənin tədiyyə - ödəniş bazarına bütövlükdə nəzarət etməklə yanaşı, elektron ticarətin 60% - nə sahibdir. Eləcə də, internet üçün axtarış sistemləri bazarının 90% - i (dünya üzrə) "Google" şirkətinə, sosial şəbəkələr bazarının 2/3 – i "Facebook" şirkətinə, dünya üzrə onlayn pərakəndə ticarətin 40%-i"Amazon" şirkətinə məxsusdur [2,səh.8].

Güclü təmərgüzləşmə meylinin olması, rəqəmsal iqtisadiyyatın funksional məzmunu və fəaliyyətinin məntiqi əsasları ilə struktur bağlılığındadır. Başqa sözlə, təmərgüzləşmənin olmaması "təəccüb" doğura bilərdi. BMT – nin mütəxəssisləri bu situasiyanı əsasən şəbəkə effekti ilə izah edirlər. Yəni, rəqəmsal platformadan istifadə edənlərin sayı artdıqca, onun (platformanın) hamı üçün dəyərliliyi adekvat olaraq yüksəlir. Başqa ifadə ilə, təmərgüzləşmə - "özündə hərəkət", özü – özlüyündə daha da "sıxlaşan" bir proses kimi meydana çıxır. Rəqəmsal transformasiyanın özəl spesifikası bu sferada da analoji davranış tərzi sərgiləməkdədir. Və hər halda intellektual kapitalın təmərgüzləşməsi, dinamik proses və nəticə olaraq tarixi analoqlardan əsaslı surətdə fərqlənir. Məlumdur ki, ilkin olaraq, kapitalın "piramida" quruculuğu formasında gedən təmərgüzləşməsi 1929-33 – cü illər Böyük Depressiya dövründə dayandı yaxud yeni modifikasiyaya uğradı.

"Piramida" zamanla "demokratikləşmə" ilə, sonrakı dövrdə (1990-cı illərdən başlayaraq) "şəbəkə" təmərgüzləşməsi ilə "əvəz olunmuş" və son dövrlərdə, yenidən "piramida" quruculuğu formasını almışdır. Amma... 100 illik tarixin qeyd

edilən sferada təkrarlanması, “piramidanın” keçmişi və indisinin identik məzmun daşımasına dəlalət etmir. Bunlar fərqli “primadalardır” ifadə tərzinin eyniliyi funksional müstəvidə hər hansı bir məna daşımır.

Yaxud, başqa bir baxış bucağından yanaşsaq, kapitalın “davranış tərzinin” zaman – zaman fərqli formada təzahür etdiyini müşahidə edə bilərik. Belə ki, ilkin başlanğıcda, klassik bazarın sosio – iqtisadi məzmunu və dövrün texnoloji səviyyəsinə adekvat olaraq kapital – öz-özünə artan dəyər olmaqla ölkədaxili müstəvidə təmərgüzləşməklə inhisarçılığın meydana çıxmasına səbəb olmuşdur. 1960 – cı illərdən sonra transmillilləşmə prosesi başlamışdır, dünya iqtisadiyyatınıa sistemli çıxış start götürmüş, geoiqtisadi paradiqma çərçivəsində şəbəkə sistemi formalaşmış və şəbəkə xarakterli təmərgüzləşmə baş vermiş, lakin inhisarçı mövqe geoiqtisadi qütb yaxud geoiqtisadi güc mərkəzi ilə əvəz olunmuşdur. XXI əsrin əvvəllərindən başlayaraq transmilli kapitalın rəqəmsal müstəviyə tədrici keçidi baş vermiş, şəbəkə təmərgüzləşməsi inhisarçı yaranışa gətirib çıxarmış, dünya bazarı (ələlxüsus, yüksək texnologiyalar seqmenti) yenidən “satıcı” bazarına transfer etmişdir.

Bu prizmadan formalaşan inhisarçılıq – özünün klassik forması kimi ölkədaxili deyil, qlobal miqyas kəsb etməkdədir.

**Rəqəmsal transformasiya:müasir vəziyyət**

Rəqəmsallaşmanı - sözün həm dar, həm də geniş mənasında şərh edən yanaşmalar mövcuddur: “... Sözün dar mənasında rəqəmsallaşma - informasiyanın rəqəmsal formaya salınmasıdır. Sözün geniş mənasında isə, rəqəmsallaşma – informasiyanın rəqəmsal formaya salınmasına istinadla formalaşan cəmiyyətin və iqtisadiyyatın inkişafının ümumdünya təmayüllü olmaqla effektivlik və həyat keyfiyyətinin yüksəlişini təmin edir” [6]. “Rəqəmsal iqtisadiyyat–rəqabət–qabiliyyətliliyin (iqtisadi) və effektivliyin yüksəldilməsinə yönəlmiş sosio–iqtisadi münasibətlər sistemidir”.Və bu yüksəliş “həyati zərurətə çevrilir”. Rusiyanın 2017- ci ildə qəbul etdiyi “İnformasiya cəmiyyətinin strateji inkişafı (2017-2030) “Dövlət proqramında rəqəmsal iqtisadiyyat – təsəffürat fəaliyyəti kontekstində şərh edilir: rəqəmsal informasiya istehsalın əsas amili kimi çıxış edir ki, bu da ənənəvi təsərrüfatçılıqla müqayisədə məcmu effektivliyin daha sürətli şəkildə yüksəlməsinə təsir göstərir [8].

Göründüyü kimi, Rusiya hökuməti rəqəmsal transformasiyanı nəzəri – konseptual deyil, sırf praqmatik rakursdan qiymətləndirir: yəni, empirik – faktoloji səviyyədə gerçək təzahür formasına adekvat şəkildə sərh verir. Bu baxış bucağından yanaşdıqda, rəqəmsal transformasiyanın iqtisadiyyat üzərindəki proyeksiyası “rəqəmsal iqtisadiyyat” deyil, konkret təsərrüfatçılıq modeli kimi ortalığa qoyulur: Əlahiddə, əlahiddələşmiş təsərrüfatçılıq modeli (digər modellərlə paralel olaraq) kimi deyil, ənənəvi iqtisadiyyatın sahə və sferalarına az və ya çox dərəcədə müdaxilə edən, yeni yaranmış (transformasiyanın yaratdığı) fəaliyyət sferalarını isə tam şəkildə ehtiva edən model keyfiyyətində interpretasiya olunmuşdur.

Qeyd etdiyimiz yanaşma tərzinin, əsasən abstraksiya yolu ilə verilən nəzəri – konseptual interpretasiyalardan əsas üstünlüyü

Konkret məzmunluluqda; 2)Praqmatik yanaşmanın prioritetliyində; 3)Fenomenin struktur aspektdən yerinin anlaqlı şəkildə təsvirində təzahür edir.

Sosio–iqtisadi münasibətlər sistemi – iqtisadi effektivlik və rəqabət qabiliyyətliliyin yüksəldilməsinin reallaşmasına imkan verə bilən əlverişli situasiya formalaşdırır: onu özü birbaşa həyata keçirmir.Əgər, rəqəmsallaşma–münasibətlər sistemidirsə, onda belə alınır ki, onun intellektual kapitalın meydana çıxması ilə birbaşa bağlılığı yoxdur. Amma, məlumdur ki, bizim “intellektual kapital” adlandırdığımız yeni yaranışı yaradan elə rəqəmsallaşma prosesidir... Göründüyü kimi, ifadə tərzinin ziddiyytəliliyi şübhəsizdir. Digər tərəfdən, rəqəmsal transformasiyanı “ümumdünya təmayülü” kimi səciyyələndirmək nə dərəcədə doğrudur? Onlarla ölkə adı çəkmək olar ki, rəqəmsallıq fenomeninə heç bir formada çıxışları yoxdur.

Postsovet avrasiyasında rəqəmsal paradiqmanın ən çox populyar olduğu ölkə Rusiya Federasiyadır. Elə, rus tədqiqatçılar iddia edirlər ki: “... Rəqəmsal iqtisadiyyat ətrafındakı ajiotaj – adi bir “kompaniyadır”. Növbəti “əyləncədir”. Rəqəmsal iqtisadiyyat – Rusiyada deyil, ABŞ – da yaradılıb... Bu layihədə təkcə iqtisadi futuroloqların deyil, həmçinin amerika xüsusi xidmət orqanlarının da əli vardır... Və bu eyforiyanın Rusiyanı sistem böhranından xilas etməsi ehtimalının ciddi əsasları

yoxdur” [4,səh.44]. [10,səh.48] Aİ–nin strateji yanaşması çərçivəsində, rəqəmsallaşmanın başlıca məqsədi “...Dayanıqlı, “ağıllı” və inklüziv iqtisadi artımın formalaşdırılmasından” ibarətdir. 2015-ci ildə qəbul edilmiş “Avropa-2020” strategiyası rəqəmsallaşmanın hər il Aİ-na 415 mlrd. evro gətirəcəyini və minlərlə yeni iş yeri yaradacağını nəzərdə tuturdu. Amma, Böyük Britaniya xaric, inteqrasiya bloku əsaslı hesab edilə biləcək bir irəliləyişə nail ola bilməmişdir. Avrasiya iqtisadi ittifaqında isə rəqəmsal iqtisadiyyatın ÜDM – da xüsusi çəkisi 3,0% təşkil etmişdir [7].

Aydındır ki, rəqəmsal transformasiyanın gerçəkləşməsi prosesində əsas tələblərdən biri – geniş əhatəli internetə çıxış imkanının olmasıdır. YUNKTAD – ın hesablamalarına görə, internet protokol əsasında qlobal trafik son dövrlərdə sürətlə artmaqdadır: “...2020 – ci ildə gün ərzində 100gb\s, 2017 – ci ildə 45000 gb\s təşkil etmiş, 2002 – ci ilə isə 150700 gb\s-yə çatacağı proqnozlaşdırılır [2,səh.1]. Amma, bu artım kəskin şəkildə qeyri – bərabər (dünya üzrə) bölünmüşdür. Hesablamalar göstərir ki, bu gün “... Dünya əhalisinin 4 mlrd. nəfərinin internetə çıxışı yoxdur. 2 mlrd.insan mobil rabitədən istifadə etmir. 0,5 mlrd. insanın yaşadığı ərazilər mobil rabitə ilə təmin olunmayıbdır”[3,səh.68]. Digər tərəfdən, bəşəriyyətin yarıdan çoxunun rəqəmsal transformasiyanın yaratdığı yeni istehlak məhsulları və xidmətlərindən istifadə etmə imkanları ya yoxdur, ya da çox məhdud çərçivədədir. Yaxud, bugün dünya əhalisinin 800-900 mln. nəfəri aclığın mütləq forması, 1,5 mlrd. insan isə nisbi aclıqla üz-üzədir. Rəqəmsal transformasiyanı bir çox problemlərdən çıxış yolu hesab edən müəlliflər nədənsə bu nüansa diqqət yetirmirlər. Həmçinin, rəqəmsal transformasiyaya keçid üçün ən azı effektiv sənaye siyasəti və onun doğurduğu effektiv strukturlar mövcud olmalı, institutsional təminat qeyd etdiyimiz,“sərhəd situasiyasına” adekvatlıq nümayiş etdirməlidir. Həm də, sadaladıqlarımız minimal kafi şərtlərdir... Dünyanın ən azı 60 ölkəsində bu “kafilik” mövcud deyildir. Və belə bir situasiyada rəqəmsal transformasiyanı “ümumdünya təmayülü” kimi səciyyələndirmək yalnız nəzəri məzmun daşıyır: nəzəri “rəqəmsallıq” gerçək “rəqəmsallığı” - əsaslandırma tipinin naməlum olduğu bir prizmadan-daşıya biləcəyindən artıq “yükləməkdədir”.

Rəqəmsal iqtisadiyyatın artım tempi yüksək olaraq qalmaqdadır. Məsələn, Böyük Britaniyada bu rəqəm 5,4% təşkil edir (ÜDM – un artımı 2 %); Çində müvafiq olaraq: 16,6% və 6,7%, [11,səh.9-10] ümumiyyətlə, Çində rəqəmsal iqtisadiyyat ÜDM – un 30,6%-ni təşkil edir. Və bu səviyyə yüksəlməkdədir. Belə ki, 2018 – ci [13] ildə sözügedən göstərici 38,2% (ÜDM-un) çatmışdır (2,32 trln.dol.). Müqayisə üçün, qeyd edək ki, ABŞ-da 7% (1,35 trln.dol.), Avropa ittifaqında isə 4% civarında olmuşdur.

YUNKTAD – ın [2]məlumatlarına görə, rəqəmsal iqtisadiyyatın yeri və rolu baxımından şimal→cənub münasibətlərindəki ənənəvi uçurum müşahidə edilmir. Bu aspektdən ABŞ və Çin əsas aparıcı rol oynayırlar... Belə ki, bütün dünya üzrə blokçeyn texnologiyaları ilə bağlı patentlərin 75% - i, əşyaların internetinə çəkilən xərclərin 50% - i, “Bulud hesablamarı” texnologiyalarının bazar kapitallaşmasının 90%-i bu iki ölkənin payına düşür. Müqayisə üçün qeyd edək ki, Avropanın payı 4%, Afrika və Latın Amerikasının birlikdə payı isə 1,0% civarındadır.

Təxmini hesablamalara görə, rəqəmsal iqtisadiyyatın QMM – da (qlobal məcmu məhsul) xüsusi çəkisi 4,5→15,5% arasında qərarlaşmışdır. Qlobal səviyyədə informasiya – kommunikasiya sektorunda yaradılan əlavə dəyərin 40% - i ABŞ-la Çinin paylna düşür.

Fenomenin, miqyas genişlənməsi (məşğulluq sferasında) prosesi sabit templərlə baş verməkdədir. Belə ki, dünya İKT sektorunda işləyənlərin sayı 2010-cu ildə 34 mln.nəfərdən 2015 – ci ildə 39 mln. nəfərə çatmışdır ki, bunun da 38%-i kompüter xidmətləri sferasının payına düşmüşdür. Və bu zaman sürəci ərzində İKT sektorunun ümum (qlobal) məşğulluqda xüsusi çəkisi 1,8% - dən 2,0% - ə qədər yüksəlmişdir. Digər tərəfdən, İKT sektorunun xidmət ixracı dünya üzrə məcmu xidmət ixracının 50% -ni təşkil etmişdir (2,9 trln.dollar) Yeni sənaye ölkələrində, son 13 il (2005-2018) ərzində bu qəbildən olan xidmət ixracının həcmi 3 dəfə artmışdır.

Rəqəmsal iqtisadiyyatla bağlı dünya ölkərində bugünə formalaşmış situasiyanı iki indeksin (cəmiyyət və rəqəmsal iqtisadiyyat indeksi; qlobal İKT – nin inkişaf indeksi) köməyi ilə təsvir etmək mümkündür. (bax:şəkil 1; şəkil 2)




**Şəkil.1. Dünya ölkələri üzrə beynəlxalq cəmiyyət və rəqəmsal iqtisadiyyat indeksi**




**Şəkil.2. Dünya ölkələri üzrə İKT-nin inkişaf indeksi**

**Dünyanın rəqəmsal arxitekturası...**

Müasir dünya – homogenlikdən çox uzaqdır. Müasir dünya əslində, “müxtəlif” dünyaların rezervuarı kimi çıxış edir.

Və bu müxtəlifliyi doğuran amillər çoxluğu mövcuddur;

İnkişaf səviyyələri arasındakı kəskin “uçurum”;

Müxtəlif sosial zamanlarda yaşama (Cəmiyyətlərin tip müxtəlifliyi: ənənəvi (arxaik, dini), modern (arxeomodern) və postmodern cəmiyyətlər;

Təsərrüfat tiplərinin müxtəlifliyi:ənənəvi–aqrar; industrial, postindustrial təsərrüfatlar.

Təsərrüfat formalarının müxtəlifliyi:“İstehsal iqtisadiyyatı;“xidmət” iqtisadiyyatı; “informasiya (rəqəmsal) iqtisadiyyatı.

Sivilizasiya müxtəlifliyi:“İslam dünyası, “Qərb” (katolik, protestant) dünyası, “Şərq” dünyası və sözün müəyyən mənasında “Rus” dünyası yaxud postsovet avrasiyası! Konkret şəkildə isə, 8 sivilizasiya mövcuddur.

Nəhayət, milli – spesifikanın doğurduğu müxtəliflik! Son 30 ildə gedən qloballaşma prosesi dünyanın heterogen məzmununu nəinki aradan qaldırmamış, tam əksinə, inkişaf kontekstində mövcud olan qlobal assimmetrikliyi daha da dərinləşdirmişdir. Başqa ifadə ilə, qloballaşma – qlobal “vahidləşmə” ilə deyil, ölkələri “boy sırasına” düzməklə məşğul olmuşdur. Digər tərəfdən, qloballaşmanın sonucda güddüyü hədəf də dəyişmişdir. Belə ki, industrial qloballaşmanın əsas hədəfi rifah və onun yüksəlişi olmuşdur. Postindustrial qloballaşmada isə azadlıq və onun daha da “dərinləşməsi” əsas hədəfə çevrilmişdir. Məhz bu aspekt rəqəmsal transformasiya üçün əlverişli situasiyanın formalaşmasında həlledici rol oynamış və oynamaqdadır.

“Rəqəmsal iqtisadiyyat” – qlobal universum keyfiyyətindən çox uzaqdır. Hal – hazırda dünya ölkələri arasında rəqəmsal “uçurum” mövcuddur. İnkişaf etməkdə olan ölkələrin çox hissəsi, eləcə də iqtisadi cəhətdən geri qalmış (ənənəvi və arxeomodern cəmiyyət tipləri) ölkələrin (60 ölkə) hamısı rəqəmsal transformasiyadan kənarda qalmaqdadırlar. YUNKTAD – ın qiymətləndirməsinə görə sözügedən ölkələr qrupunda hər 5 nəfərdən birinin internetə çıxışı (orta hesabla) vardır. İnkişaf etmiş ölkələrdə isə bu göstərici 4/5 – dür. Digər göstəricilər – rəqəmsal məlumatlardan, qabaqcıl texnologiyalardan istifadə - üzrə “uçurum” daha dərindir. Haşiyəyə çıxaraq, ədalət naminə qeyd edək ki, dünya iqtisadiyyatının “əyaləti və qismən “yarıməyalətində” olan ölkərin yeni texnologiyalara çıxışı, onların özlərindən daha çox geoiqtisadi güc mərkəzlərindən asılıdır. Aparıcı, yeni keyfiyyətli texnologiyalar üzərində, sözün bütün mənlarında, inhisarçı diktatı mövcuddur. Yenə YUNKTAD-a müraciət edək! 88 ölkənin yerləşdiyi Latın Amerikası və Afrika dünya üzrə rəqəmsal məlumatların analiz mərkəzlərinin cəmi 5 %-nə (birlikdə) sahibdirlər. Bu fakt, onu göstərir ki, sözügedən ölkələr qrupuna münasibətdə nəinki rəqəmsal gəlirlərin qeyri – bərabər bölgüsü mövcuddur, bu ölkələr, ümumiyyətlə, həmin gəlirlərin yaranması və bölgüsündən kənardadırlar. Yeri gəlmişkən, qeyd edək ki, postsovet avrasiyasında, o cümlədən Azərbaycanda da identik situasiya qərarlaşmışdır.




**Şəkil 3. Qloballaşmanın "rəqəmsal" dalğası: dəyişən parametrlər**

Eyni zamanda, artıq qloballaşmanın üçüncü dalqası-rəqəmsal transformasiya prosesi başlamışdır.

"Rəqəmsal qloballaşma"–bütün parametrləri və təfərrüatı ilə qloballaşmanın əvvəlki iki dalğasından (industrial və postindustrial) əhəmiyyətli dərəcədə fərqlənir. (şək.3)

Göründüyü kimi, qloballaşmanın son iki dalğası eyni cəmiyyət tipinin dominantlığı çərçivəsində getsə də, fərqli məzmun və mahiyyət kəsb etməkdədir. Prosesin hərəkətverici qüvvəsinin dəyişməsi, intellektual kapitalın prioritet mövqeyə keçidi, sözün bütün mənalarında keyfiyyətcə yeni qlobal situasiya qərarlaşdırmaqdadır. Bununla belə, dünya ölkələri arasındakı fərqliliklər, rəqəmsal transformasiya şəraitində, daha da dərinləşir və rəqəmsal "uçurum" meydana çıxır.

Transmilli kapitalın qlobal "vahidləşmə" istəyi – bir meqaproses olmaq etibari ilə rəqəmsal transformasiyanın kütləvi müdaxiləsinə məruz qalır və ... virtuallaşır. Prosesin virtual məkana transferi "vahidləşməyə" aparan yolu\yolları "görünməz" hala gətirsə də, ölkələrarası rəqəmsal "uçurumun" qabarıq şəkildə təzahürünə əngəl törətmir.

Yəni, dünya iqtisadiyyatının heterogen məzmununda homogenliyə doğru pozitiv irəliləyişlər müşahidə edilmir: Tam əks-proses-müxtəliflik, natarzlıq və assimmetriklik daha da dərinləşməyə doğru gedir. Prosesin, hələ yeni başladığına və hələ ki, ümumdünya miqyası almadığına (praktiki nöqteyi – nəzərdən) baxmayaraq, dünya iqtisadiyyatının "rəqəmsal" arxitekturasının hər halda ümumi konturlarını görmək olar.

Sxemdən göründüyü kimi, Dünya – sistem nəzəriyyəsinin təməl müddəaları bazasında tərtib edilmiş dünya iqtisadiyyatının geoiqtisadi arxitekturası rəqəmsal müstəvidə əhəmiyyətli fərqliliklər nümayiş etdirir:

1) Rəqəmsal arxitekturada dünya iqtisadiyyatının "qərargahı" informasiya – kommunikasiya

texnologiyalardan təşkil olunmuşdur. Geoiqtisadi arxitekturadan fərqli olaraq həm inkişaf etmiş iri iqtisadiyyatlar, həm də ənənəvi transmilli kapital yeni situasiyada arxa plana keçirlər. Qlobal İKT korporasiyalar hər hansı bir formada milli çərçivəyə sığmırlar. Onlar – yaranışdan qlobaldırlar. Qloballıq – bu tipli korporasiyaların mövcudluq və inkişafının əsas şərti, fundamental xarakteristikasıdır. Ənənəvi transmilli kapital isə, nə qədər qlobal səciyyə daşısa da, milli mənsubiyyəti inkar edilməzdir. Bu aspektdən də, qlobal səviyyəli "oyun qayda"larının formalaşmasında milli mənafelər (selektiv formada) transmilli kapital tərəfindən istinsa edilmirdi. Həm də, inkişaf etmiş iri milli iqtisadiyyatların öz təsir gücü (geosiyasi, hərbi və s.) və aparıcı rol oynadıqları beynəlxalq təşkilatlar vasitəsilə "oyun qayda"larının formalaşmasında aktiv iştirak edirdilər. Amma, gerçəkdən qlobal olan İKT korporasiyalarının qlobal iqtisadi düzənin formalaşmasında nə ənənəvi transmilli kapitala, nə milli dövlətlərə, nə də onların yaratdıqları Beynəlxalq təşkilatlara ehtiyacı yoxdur. Bu korporasiyalar "köhnə" dünyanın əsas güc qaynağı olan maliyyə sferasını virtuallaşdırmaqla, elektron pul, elektron tədiyyə vasitələrini dövriyyəyə buraxmaqla formalaşmaqda olan yeni dünya düzəninin "sahibinin" kim olduğunu ortalığa qoymaqdır. Son 50 ildə dünyanın gələcəyini müəyyənləşdirən inkişaf etmiş iri milli dövlətlərin və transmilli kapitalın üçüncü qüvvəyə - qlobal intellektual kapitala qarşı qoymaq imkanları – rəqəmsal transformasiyanın sürətinə adekvat olaraq – azalmaqdadır.

Bəri başdan qeyd edək ki, "rəqəmsal" arxitekturanın ierarxiyasının ölkələr üzrə ifadə etməyimiz şərti xarakter daşıyır. Rəqəmsal transformasiya – hələ ki, dinamikada olan proses halındadır. Prosesin başa çatmasının (qlobal miqyasda) gözlənən zaman sürəci heç də qısa deyildir. Amma, prosesin yekunlaşdığı anda dünya iqtisadiyyatının arxitekturasının ölkələr bölümündə tərtibinə ehtiyac qalmayacaqdır.

Rəqəmsal müstəvidə, göründüyü kimi, iqtisadi inkişaf səviyyəsindən daha çox iqtisadi gücün böyüklüyü prioritet mövqedədir. Bu aspektdən Çinin rəqəmsal "nüvə"də yer alması təəccüblü qarşılanmamalıdır. Eyni zamanda, dövlətin siyasi quruluşu da (o cümlədən demokratiya "tutumu") elə bir rol oynamır.




**Şəkil 4. Dünya iqtisadiyyatının rəqəmsal kriteriya üzrə tipologiyası**

Məsələn, həmin Çində - kommunist partiyasının idarə etdiyi ölkə - makroiqtisadi tənzimləmə ilə yanaşı makroiqtisadi nəzarətin (iqtisadiyyata partiya nəzarəti) mövcudluğu "rəqəmsal" transformasiyaya nəinki maneə yaratmır, əksinə prosesin stimullaşdırılmasında əhəmiyyətli rol oynayır: Dövlət – bazarı, bazar – iqtisadi subyektlərin fəaliyyətini "tənzimləyir".

Qərbin inkişaf etmiş ölkələrini, eləcə də yeni sənaye ölkələrini, rəqəmsal arxitekturanın "yarım əyalətinə" aid etməyimizin əsas səbəbi – rəqəmsal texnologiyanın "köçürmə" səciyyəsi daşımasıdır. Başqa sözlə, milli "mənsubiyyətli" yüksək texnologiyalar geniş miqyaslı deyildir. Bu xüsusiyyət Avropanın 27 ölkəsini birləşdirən Avropa ittifaqı üzrə də identikdir. Həmçinin, rəqəmsal texnologiyalardan (ölkələr bölümündə) istifadə sferasında da əhəmiyyətli fərqliliklər mövcud deyildir. Məlumdur ki, rəqəmsal transformasiyanın əsas üstünlükləri sırasında yer alan aparıcı cəhət – rəqəmsal iqtisadiyyatın artımıdır. Tədqiqatçıların böyük əksəriyyəti qeyd olan məsələdə yekdil mövqe sərgiləyirlər. Sürətli artım – sürətlə yeniləşməkdə olan informasiya – kommunikasiya texnologiyalarının hesabına baş verir. Aparılan araşdırmalar göstərir ki; "... informasiya – kommunikasiya sektoru Aİ iqtisadiyyatının 5% - ni, bütün biznes-xərclərin isə 25% -i təşkil edir. Bu sektora qoyulan investisiya məhsuldarlığın artımının 50% civarındadır" [12,səh.35].

Bununla belə, Avropa ittifaqında, eləcə də, Yeni Sənaye ölkərində rəqəmsal transformasiyanın iqtisadiyyata müdaxilə intensivliyi güclənməkdədir. Artım tempinin sabitliyinin davam edəcəyi təqdirdə

sözügedən ölkələr qrupunun "yarım əyalət" statusundan yuxarı qalxacaqlarını mümkün ehtimallardan biri kimi qəbul etmək olar.

Latın Amerikası və postsovet avrasiyası ölkələrinin dünyanın yeni arxitekturasında "əyalət" statusunda olmaları, heç də bu qrupa daxil olan ölkələr arasında əsaslı fərqlərin mövcudluğunu inkar etmir. Məsələn, rəqəmsal transformasiyaya keçidin potensial imkanları nöqteyi – nəzərindən Azərbaycan postsovet avrasiyası ölkələrinin bir çoxundan daha üstün durumdadır. Amma, digər bir faktı da inkar etmək olmaz ki, sözügedən ölkələr qrupu "köhnə" dünya iqtisadiyyatında da "əyalət" statusunda olmuş və olmaqda da davam edirlər.

Nəhayət ənənəvi "bataqlıq" ölkələri; Afrika, ələlxüsus Saxaradan cənubda yerləşən ölkələr, cənubi Asiya ölkələri və s. Bu ölkələrin böyük əksəriyyətində ənənəvi cəmiyyət tipi hakimdir. Eyni zamanda, əhalinin böyük hissəsi yoxsulluq həddində yaşayır və internetə çıxış imkanları çox aşağı səviyyədədir. Ümumi sayı 60 civarında olan bu ölkələrin 44-ü dünyanın ən yoxsul ölkələri kateqoriyasına aiddir. Yəni, müasir çağırışlara adekvat reaksiya vermə imkanları – iqtisadi potensialın ifrat aşağı səviyyəliliyi ucbatından – yox dərəcəsindədir.

Beləliklə, dünya iqtisadiyyatı kontekstində rəqəmsal transformasiyanın məkanca assimmetrikliyi, dünya ölkələrinin təxminən 30% - nin bu prosesdən kənarda qalması qlobal "vahidləşmənin" baş tuta bilmə ehtimalının əhəmiyyətli dərəcədə aşağı olduğunu ortalığa qoyur. Yəni, vaxtilə imperiyaların, onun ardınca transmilli Kapitalın öhtəsindən gələ bilmədiyi bir problemin yeni – yeni formalaşmaqda olan intellektual kapitalın aradan qaldıracağına bəslənən ümidlər çağdaş gerçəklik kontekstində heç də inandırıcı təsir bağışlamır. Hesab edirik ki, yaxın gələcək ərzində hədəflənən məqsədə ("rəqəmsal dünya") çatmanın yeganə yolu dünyanın geosiyasi düzəninin dəyişməsi, modernin dəyər – konseptlərindən, o cümlədən milli bölgüdən (dövlət) uzaqlaşma və imperialar ("rəqəmsal imperiya") dövrünün bərpasına nail olmaqdır.

"Rəqəmsal İmperialar"–hansısa bir fantastik ssenari deyil, "rəqəmsal" bazarın inkişafı prosesinin məntiqi nəticəsi ola biləcək dərəcədə realdır.

Rəqəmsal bazar–məhdud çərçivəli milli bazarların vahid ümumdünya bazarına sürətli keçidini təmin edən müasir mexanizmdir [1,səh.25].

Fikrimizcə, deyimdə məntiqi ziddiyyət olmasada da, instrumental kontekstdə milli→qlobal transformasiyanın xarakteri ilə bağlı bəzi nüansları gözardına vurmaq məqsədəuyğun olmazdır. Belə ki, ayrı – ayrı milli bazarların qlobal ümumilliyə inteqrasiyasının sistemliliyi problemi möcuddur. Əgər, bu qovuşma yalnız istehlak sferasını əhatə edirsə, onda sözügedən milli bazarların "istehsalçıları" – rəqəmsal fəaliyyət göstərmə imkanında olmadıqlarına görə - iflasla üzləşəcəklər. Bu tipli qovuşma – aparıcı rəqəmsal bazarın digərlərini "istehlak" xətti üzrə özünə birləşdirməsidir.

Milli mənafelər konteksində, belə bir "vahidləşmə" yaxud "ümumiləşmə" – daha çox "rəqəmsal iqtisadi imperialarn" formalaşması kimi təzahür edir. Elə, paradoks da ondadır ki, rəqəmsal transformasiya – öz daxilində məntiqi nöqteyi – nəzərindən – milli bazarları məhz təsvir etdiyimiz anlamda ümumiləşməyə "təhrik" edir. Yəni, bu, kənar təsirlə (geosiyası və s.) deyil, daxildən qaynayan istəklə baş verir: "millinin" könüllü olaraq özündən imtinası reallaşır.

**Rəqəmsal dəyişikliyin xarakteri**




**Şəkil 5. Konseptual yanaşmaların keyfiyyət yeniləşməsi prosesi: anatomik təsvir**

Bu yanaşmalar arasındakı fərqlilik paradiqmal səciyyə daşıyır. Bununla belə, rəqəmsal transformasiya geoiqtisadi paradiqmanı inkar etmir. Əksinə, geoiqtisadi effektin daha da yüksəldilməsi yönümündə mühüm rol oynamaq iqtidarındadır. Amma, rəqəmsal iqtisadiyyat – geoiqtisadi paradiqmaya "sığmır". Əhatə dairəsi, funksional

xarakteristikası və məna “yükü” prizmasından daha böyükdür.

Geoiqtisadi paradiqma – iqtisadiyyatdan, onunla bu və ya digər dərəcədə struktur bağlılıqda olan geoiqtisadiyyatdan qeyri əksər konsept-dəyərlərə (ələlxüsus sosio-mədəni rakursdan) münasibətdə antoloji neytrallıq nümayiş etdirir.

Rəqəmsal transformasiya – dünyanın geoiqtisadi arxitekturasını dəyişir. Geoiqtisadi makroregionaların əvvəlki dövrə xas olan “hakimiyyəti” zəifləyir. Dünya ölkələrinin tipoloji kriteriyaları əsaslı dəyişikliyə məruz qalır. Rəqəmsal transformasiya kontekstində - sırf tipoloji anlamda–ölkə qrupları olmur. Söhbət, yalnız yüksək rəqəmsal texnologiyalara sahib olan ayrı–ayrı ölkələrdən gedə bilər.

Anlaşıldığı kimi, informasiya–kommunikasiya texnologiyalarının inkişafının müasir səviyyəsi funksional münasibətlər prizmasından qlobal “vahidləşməyə” yönəlsə də, struktur–subyekt nöqteyi–nəzərindən çağdaş heterogen durumu daha da kəskinləşdirməkdədir. Görünən odur ki, sonuncu istiqamət hələ uzunmüddət ərzində davam edəcəkdir. Əsas səbəb, təkcə, ölkələrarası fərqliliklərdə (inkişaf səviyyəsi, cəmiyyət tipi, milli spesifika və s.) deyil, həm də və başlıca olaraq rəqəmsal texnologiyaların əlçatanlığı problemindədir. Əlbəttə, texnologiyanın determinik başlanğıcı yoxdur. Amma, bu qlobal assimetrikliyin daha da dərinləşməsi təmayülünə “bəraət” qazandıra bilməz.

Eyni zamanda, xüsusi əhəmiyyət kəsb edən (yanaşmalar arası fərqlilik nöqteyi–nəzərindən) dəyişikliklərdən biri də iqtisadi məkanla baş verən transformasiyadır:

Klassik iqtisadi məkan→çoxölçülü kommunikativ məkan→virtual məkan xətti üzrə baş verən yeniləşmə prosesi paradiqmalar arası fərqliliyin nə qədər dərin olduğunu ortalığa qoyur.

Belə ki, milli iqtisadi sərhədlər, sahə və sferalar arası kommunikativ “sərhədlərlə”, bu da öz növbəsində virtual “sərhədsizliklə” əvəz olunur. Və belə bir transformasiya proqnozlaşdırılması yaxud önlənməsi mümkünsüz olan risk və təhlükələri toplu şəkilində ortalığa qoya bilmə iqtidarındadır.

Problemin əsas ağır mərkəzi isə iqtisadi gücün disbalansının daha da dərinləşməsi və mənafe tarazlığının ziddiyyətli bir formada pozulmasının üzərinə düşür. Bu halda ən böyük zərbə də milli mənafelərə dəyir. İndustrial təəssərüfat tipində fəaliyyət konkret sərhədləri (milli) olan iqtisadi məkanda həyata keçirilir və bu fəaliyyət, bütün təfərrüfatı ilə milli dövlətin nəzarəti altında baş verir. Milli rifahın daha da yüksəlməsi və milli mənafelərin tam və dolğun şəkildə ödənilməsi prosesi milli məqsədyönülülük keyfiyyətinə sahib olur, həmçinin sözügedən makroproses milli dövlət tərəfindən mühafizə olunur. Postindustrial təsərrüfat tipinə keçid klassik məkanı çoxölçülü kommunikativ məkana transferinə səbəb olmaqla mənafe tarazlığı ilə bağlı təhdidlərin meydana çıxmasına yol açır. Və bu sferada milli dövlətin “mühafizə gücü” zəifləyir, milli sərhədlər (iqtisadi) əvvəlki əhəmiyyətini itirir və kommunikativ “sərhədlərin” dominantlığı başlayır, “sərhəd energetikası” geoiqtisadi paradiqmanın əsas komponentlərindən birinə çevrilir və yekunda transmilli kapitalın gerçək məzmunlu “hakimiyyəti” başlayır. Milli rifah, milli mənafelər korporativ mənafelərin “törəməsi” keyfiyyətində arxa plana keçirlər. Milli dövlət/transmilli kapital arasında, hansısa bir formada konvensional tənasüblük formalaşır. Yəni, baş verən keyfiyyət dəyişikliyinin dərinliyinə və geniş əhatəliyinə baxmayaraq transmilli kapitalın “mütləq hakimiyyətə” keçidi baş tutmur, milli varlıq (milli dövlət şəklində) rifah və mənafelər müstəvisində nəzarəti (az və ya çox dərəcədə) qoruyub saxlaya bilir. Virtuallaşma prosesinin intensiv şəkildə qlobal miqyas alması ilə hər şey, o cümlədən iqtisadi məkanın postmodern – geoiqtisadi törəməsi olan çoxölçülü kommunikativ məkan... virtuallaşır və tam təbii olaraq kommunikativ “sərhədlər” aradan qalxır yaxud sözün tam mənasında sərhədsizlik situasiyası formalaşır. Rəqəmsal transformasiya bu situasiyanı “özəlləşdərməklə” sosio-iqtisadi və sosio-mədəni sferalara müvazinət “pozucu” təsir göstərir. İqtisadi gücün təmərgüzləşməsi, gəlirlərin qeyi – bərabər bölgüsünün daha da kəskinləşməsi, sosio təbəqələşmənin dərinləşməsi və s. tipli neqativ təmayüllər ortalığa qoyur. İqtisadi “hakimiyyət” milli dövlət→transmilli kapital→süni intellekt üçlüyündə sonuncunun sərəncamına keçir. Söz yox ki, belə bir situasiyanın formalaşdığı şəraitdə “milli rifah”,“milli mənafe” anlayışları anaxronizmə çevrilir.

Fenomeni tədqiq edənlərin böyük əksəriyyəti rəqəmsal iqtisadiyyatın–dayanıqlı inkişafa xidmət edən iqtisadiyyatdır – fikrində yekdildirlər. Yüksək

iqtisadi effektivlik və yüksək gəlirlilik nöqteyi – nəzərindən iqtisadiyyatın bu formasının böyük üstünlükləri olması şübhəsizdir. Lakin, iqtisadi gücün təmərgüzləşməsi və gəlirlərin qeyri-bərabər bölgüsü sosial həmrəylik və sosial əməkdaşlığın formalaşması imkanlarını aradan qaldırmaqla dayanıqlılığın (inkişafın) sosial bazasını "məhv edir". Süni intellekt – iqtisadi effektin ekotutumunu da optimallaşdıra bilər. Lakin, sosial və bütövlükdə sosio-mədəni sferaya "etinasız" münasibət, inkişaf kontekstində yalnız neqativ rol oynaya bilər.

Əgər, dayanıqlı inkişafı – milli iqtisadi inkişafın təhlükəsizlik sərhədləri çərçivəsində (uzunmüddətli dövr ərzində) baş verən keyfiyyət yüksəlişi kimi səciyyələndirsək, onda süni intellektin "yarımçıqlığını" qəbul etmək lazım gələcəkdir. "Yarımçıqlıq" - əslində, təbii xarakterlidir və onun nə vaxtsa aradan qaldırılacağına ümid bəsləmək yalnışlıq olardı. Süni intellektə - "iqtisadi insan" ın təfəkkürünü "yükləmək" problem deyil. Lakin, o, mental dəyərləri anlamaq qüdrətində deyildir. Məsələn, sosial ədalət prinsipi! F.Xayek yazırdı ki: "... Mən 10 il .. sosial ədalət" ifadəsinin mənasını aşkarlamaq istədim... uğur qazanmadım... və belə bir nəticəyə gəldim ki, azad cəmiyyətdə... bu ifadənin heç bir mənası yoxdur [5] Əgər, süni intellekt də F.Xayek kimi "düşünürsə", onda dayanıqlılıq... ola bilməz.

**Konseptual ümumiləşdirmə...**

Dünya iqtisadiyyatı üzərində "hakimiyyətin" konsepsiyası dəyişir: Son 50 il ərzində "hakimiyyət" transmilli kapitala, yəni Qlobal kapitala mənsub idi. XXI əsrin başlanğıcından etibarən trans-milliləşmənin (klassik kapitalın) dayanıqlı effektivliyə nail olma (əvvəlki dövrdə olduğu kimi) imkanları əhəmiyyətli dərəcədə məhdudlaşmağa başladı. Proses – özünün fiziki sərhədlərinə yaxınlaşırdı. Təbii ki, qlobal (klassik) kapital problemin kəskinlik dərəcəsini aşağı salmaq, əvvəlki yanaşma tərzinin "ömrünü" hər vasitə ilə uzatmaq məqsədilə müxtəlif məzmunlu və elmtutumlu dəyişikliklərə start verdi: Məhz həmin dövrdə virtuallaşmanın geniş miqyas alması, virtual pulların (maliyyə alətlərinin) kütləviləşməsi, xüsusi çəkisinin görünməmiş həcmdə ( QMM-un real dəyərinin 10 qatı nisbətində) artması baş verdi. Sərvət toplamanın ucuz kredit modeli meydana çıxdı ki, bu da 2008-ci il qlobal maliyyə böhranı ilə sonuclandı. Böhranı doğuran səbəb qeyd etdiyimiz praqmatik modellə dünya maliyyə düzəni arasında yaranan kəskin uyğunsuzluq olmuşdur. Böhran – qlobal kapitala yeni ideya verdi: rəqəmsal transformasiya!

Böhran təzahürlərinin kəskinliyinin azaldığı və meqasituasiyada – nisbi sabitlik qərarlaşdığı andan (2010-cu il) etibarən, rəqəmsal transformasiya qlobal elmi və siyasi gündəmə çevrildi...

Qlobal (klassik) kapitalın "hakimiyyətdə" qalması üçün, dünyanın yeni iqtisadi düzəninin formalaşması ilə yanaşı, kapitalın – mahiyyətcə, yeni mənatutumlu modifikasiyası tələb olunurdu.

Başqa sözlə, "klassik" kapital→intellektual kapitala transfer etməklə transmilli kapitalın üzləşdiyi problemlər kompleksini (məsələn, milli dövlətlərin mövqeyi ilə bağlı) bütün təfərrüatı ilə aradan qaldırılması imkanlarının gerçək olduğu ortalığa çıxdı. Artıq, qlobal kapitalın (intellektual), "rəqəmsal" dünyada nüfuz edə bilməyəcəyi heç nə qalmır. Hətta daha böyük irəliləyişə nail olunur: dünya ölkələri, prosesin sonunda, qlobal kapital və onun davranış tərzindən mütləq asılılığa düşürlər. Beləliklə də, son 100 – 150 ildə milli dövlətlər→qlobal kapital arasında gedən barışmaz mübarizə ikincinin qələbəsi ilə başa çatır. Haşiyəyə çıxaraq, qeyd edək ki, göstərilən zaman sürəcində baş verən bütün müharibələrin, o cümlədən I və II dünya müharibələrinin, bütün konfliktlərin kökündə dayanan əsas mənbə məhz milli dövlət→qlobal kapital arasındakı ziddiyyət olmuşdur. "Rəqəmsal" dünya qurulduqdan sonra sadaladıqlarımız (müharibələr) olmayacaq, lakin milli "siması" olmayan qlobal (intellektual) kapitalın ümumbəşəri yaranış tərzini necə formalaşdıracağı haqqında ən ümumi qənaətlər belə mövcud deyildir. Və nəhayət, qeyri – dəqiq ölçmə prosedurunun nəticələrini gerçəklik kimi qəbul etmək, qlobal kapitalın mənafeyinə uyğundur və bu yolla dünya ölkələrində motivasiya formalaşdırır.

Müşahidələr göstərir ki, milli dövlətlər bu prosesdən kənarda qalmaq istəmirlər: əvvəla, ən azı ona görə ki, dünya elmi camiəsi "bir ağızdan" və qəti inamla təsbit edirlər ki, rəqəmsal transformasiya – məhsuldarlıq və effektivliyi "sıçrayışla" yüksəltmək gücündədir, eləcə də dayanıqlı inkişafın fundamental platforması kimi çıxış edir; ikincisi, inkişafın yeni paradiqmasına (rəqəmsallaşma) keçid və gerçəkləşməsi ictimai şüurda "inkişaf

edirik" təsəvvürü formalaşdırır ki, bundan da, siyasi kontekstdə (yeni gələndə) yararlanmaq olar. Məsələn, Hindistan - əhalisinin 40% - dən çoxu yoxsulluq həddindən aşağı səviyyədə yaşamaqdadır, lakin "rəqəmsal" iqtisadiyyatın ÜDM – da payı 6 il ərzində (2010-2016) 4,7% - dən 5,6% - ə qədər, yəni 0,9% yüksəlmişdir. Həmçinin, bu yüksəlişin yerli şirkətlərə yoxsa ingilis şirtkətlərinə aid olması haqqında məlumat verilmir. Təfərrüata varmadan da, aydındır ki, qeyd edilən göstəricinin gerçəkliyi əks etdirməsi böyük şübhə altındadır; Və üçüncüsü, investisiya cəlbediciyi aspektindən açıq şəkildə yalan olan informasiyalar da məqsədəuyğun ola bilir (bir ehtimal olaraq).

Ölçmə problemi ilə bağlı, əslində ilkin olaraq ortalığa çıxan sual – ölçülən nədir? sualıdır. Yəni, "rəqəmsal iqtisadiyyatın" ölkə miqyasında yeri, rolu, dəyəri nədir və nə qədərdir sualıdır. Hal – hazırda tətbiq edilən ölçmə metodikaları, rəqəmsal iqtisadiyyatı deyil, rəqəmsal cəmiyyəti ehtiva etməkdədirlər.

Məsələn, Avropa İttifaqı 2014 – cü ildən başlayaraq rəqəmsal transformasiyanın üzv – ölkələrdə yayılması prosesini və əldə edilən nəticələri qiymətləndirmək üçün cəmiyyət və rəqəmsal iqtisadiyyat indeksini hesablamağa başlamışdır. İndeks – 5 sferanı əhatə edir: rabitə, insan kapitalı, internetdən istifadə, rəqəmsal texnologiyaların inteqrasiyası, rəqəmsal dövlət xidmətləri.

Eyni zamanda, qeyd edək ki, mövcud ölçmə metodikaları arasında ən mükəmməli məhz Avropa İttifaqının tətbiq etdiyi "Cəmiyyət və rəqəmsal indeksin əhatə etdiyi indeksidir.

İndeksin əhatə etdiyi sferalara nəzər salmaq kifayətdir ki, ölçünün əslində rəqəmsal transformasiyaya keçid prosesini əhatə etdiyini görəsən. Sadalananlar içərisində yeganə sfera-rəqəmsal texnologiyaların inteqrasiyası sferasıdır ki, onun da əhatə dairəsi çox genişdir, yəni təkcə iqtisadiyyat üzərində qurulmayıb (ölçü prosesi).

Doğrudur, bir sıra ölkələrin siyasi dairələri [9] hesab edir ki, rəqəmsallıq – həyat tərzidir və buna görə də, rəqəmsal iqtisadiyyat əlahiddə bir fəaliyyət sferası kimi götürülməməli, ona rəqəmsal cəmiyyət çərçivəsində və onun "tabeçiliyində" qiymət verilməlidir. Başqa sözlə, ictimai həyatın sahə və sferaları arasındakı təbii zərurətlə formalaşmış izomorfluq prinsipi daha böyük məna kəsb etməyə başlayır: uyğunluq→birliyə çevrilir.

Belə bir "birlik" (üzvi xarakterli) yaranarsa, onda bəşəriyyət, bütün tarixi boyu arzuladığı "mütləq ədalətli" cəmiyyətlə üzləşə bilər... Tezisin səsləndiyi mənbə (Rusiya) də "maraqlıdır"... 100 il bundan əvvəl həmin mənbə kommunist ideologiyası altında "mütləq ədalətli" cəmiyyət qurmağa cəhd etmiş və 70 ildən çox bir müddət ərzində böyük bir coğrafiyada – sovet avrasiyasında – kütləvi qırğınlar törətmiş və dünyanın ən totalitar sistemini formalaşdırmışdır...

Populist yanaşmadır. Belə bir metamorfozanın baş tutması ehtimalı sıfıra yaxındır.

Amma, rəqəmsal transformasiya prosesinin bir komponenti kimi yanaşmaq, təbii ki, qaçılmazdır. Rəqəmsallaşma – yekunlaşmayıbdır. Hələ proses halındadır və belə bir situasiyada iqtisadiyyatın "rəqəmsal" hissəsini dəqiq şəkildə qiymətləndirmək çox problematik məsələdir.

Həmçinin, rəqəmsal cəmiyyətin formalaşması iqtisadiyyatın rəqəmsallaşmasının əsas bazasıdır. Ən azı istehlakçıların bu "iqtisadiyyatın" məhsul və xidmətlərinə çıxışı təmin edilməlidir ki, bu da internetə qoşulmanın kütləviləşməsini tələb edir. Yəni, bu anlamda irad tutulası bir nüans yoxdur. Lakin, bütün bunlar transformasiya prosesinə aiddir. Heç də o anlamı vermir ki, iqtisadiyyata (rəqəmsal) əlahiddə yanaşmağa ehtiyac yoxdur. Bir sözlə, mühüm əhəmiyyət kəsb edən keyfiyyət yeniləşməsi prosesi populist formada siyasiləşdirilir.

**Yekun mülahizələr.**

Rəqəmsal transformasiya və onun iqtisadi sferaya proyeksiyası – daha konkret ifadə ilə - rəqəmsal iqtisadiyyatın təşəkkülü nədən başlanır "yaxud "nə etməli" sualına bu gün verilən cavab, nə qədər paradoksal səslənsə də, fenomenə münasibətdə mahiyyət anlaşılmazlığını ifadə edir: Yeni keyfiyyətli texnologiyaların əldə edilməsi (o da əgər mümkün olarsa) öz-özlüyündə rəqəmsal iqtisadiyyatı formalaşdırmır:

Tarixi – təkamül prosesində yeniləşməyə (oxu:inkişafa, cəmiyyətin tip dəyişikliyinə və s.) aparan yolun konseptual məzmunluluğu ilə bağlı araşdırmalarımız da göstərir ki, texnologiya ilə əlaqədar baş verən yeniləşmə prosesi birdəfəlik akt deyildir: Yeni texnologiyaya qədərki dövr (sözün bütün mənalarında "əlverişli-situasiya")→yeni texnologiyanın tətbiqi→yeniləşmənin, yaxud,

"əlverişli situasiyanın" (başlanğıcda olan) yeni keyfiyyətdə sistemli şəkildə qərarlaşması! Başqa sözlə, texnoloji yeniliyi yaradan amil... texnologiyanın özü deyil, onu yeniləşməyə "təhrik" edəın makrosituasiyadır. Başqa sözlə, texnoloji yeniləşmənin, bir proses olmaq etibarı ilə, ilkin başlanğıcında olan səbəbiyyət onun özü ilə (texnologiya) bağlı olan səbəbiyyət deyildir. Yəni, çəki daşlarının çəkisini çəki daşları ilə ölçmə proseduru bu prosesdə tətbiq edilə bilməz. Amma, yeni texnologiya sonrakı mərhələdə sistem yeniləşməsinin əsas hərəkətverici qüvvəsinə və yaradıcı mənbəyinə çevrilir.

2) Müasir dünya təcrübəsi heç bir şübhə yeri qoymur ki, bu gün rəqəmsal transformasiyanı həyata keçirə bilən, rəqəmsal iqtisadiyyat quruculuğunda müəyyən uğurlar qazanan ölkələr dünyanın geoiqtisadi kontruktsiyasında yer alan, geoiqtisadi təkrar istehsal tsikllərində aktiv iştirak edən və dünya gəlirində payı olan ölkələrdir.

Yəni, ənənəvi iqtisadi fəaliyyətin geoiqtisadi yanaşma ilə əvəzlənməsi, geoqitisadi təkrar istehsal tsikllərinə qoşulma yüksək keyfiyyətli texnologiyalardan istifadə imkanlarının yaranmasında həlledici əhəmiyyət kəsb edir. Məhz bu yolla rəqəmsal transformasiyaya daha effektiv formada çıxış əldə edilə bilər. Transformasiyanın inklüziv səciyyə daşıması heç də onun konrket "çərçivədə" olması anlamına gəlmir. Rəqəmsal iqtisadiyyat – sərhəd (dövlət, milli, sivilizasiya və s. "sərhədlər") tanımayan iqtisadiyyatdır. Hətta, o dərədəcə ki, çoxölçülü kommunikativ məkanın daxili sərhədləri (iqtisadi, siyasi,sosial və s.) belə yararsızlaşır. Buna görə də rəqəmsal iqtisadiyyat- özünün istənilən təzahür formasında millidən daha çox geoiqtisadi xarakter daşıyır. Yəni, milli iqtisadiyyatın "qloballaşması" baş verir.

Bu cür dəyişmə milli→qlobal qarşılıqlı münasibətlərində yeni keyfiyyət səviyyəsidir. Başqa sözlə, söhbət milli iqtisadiyyatın dünya təsərrüfatına inteqrasiyasından (effektiv, strateji→fərq etməz) getmir. Məlumdur ki, industrial eraya aid olan inteqrasiya rasional çərçivəli təhlükəsizlik sərhədləri çərçivəsində məqsədyönlü şəkildə aparılır. Və istənilən halda milli iqtisadiyyat öz varlığını qoruyub saxlayır, yaxud milli varlığın qorunması strateji hədəf keyfiyyətində ortalığa qoyulur. Düzdür, geoiqtisadi anlamda klassik ölkə "ölkə - sistemə" transfer edir, lakin bu metamorfoza millilik anlayışını aradan qaldırmır. Rəqəmsal transformasiyada isə millinin "qloballaşması" baş verir. Və geoiqtisadi çevrilmə daha geniş miqyas alır: ölkə "ölkə-qlobal sistemə" transfer olunur. Yəni, ölkə "dünyalaşır"! Artıq, anlaşıldığı kimi, milli varlığın iqtisadi komponenti qlobal miqyas alır yaxud qlobal səviyyəli iqtisadi proseslərin üzvi tərkib ünsürlərindən birinə çevrilir.

Beləliklə, rəqəmsal iqtisadiyyat – milli çərçivədə formalaşıdırlsa da, real məzmunlu, effektiv fəaliyyəti yalnız qlobal məkanda (ən azı makroregioanda) gerçəkləşə bilir.

Deməli, rəqəmsal iqtisadiyyat: əvvəla, milli→regional→qlobal səviyyələr arasında məqsədyönlü razılaşmaların olmasını; ikincisi, məhz rəqəmsallığın aparıcı roluna istinadla hamı üçün keçərli ola biləcək qlobal səviyyəli "oyun qayda"larının formalaşdırılmasını tələb edir. Başqa sözlə, söhbət dünyanın yeni iqtisadi düzəninin qərarlaşmasından gedir: "Rəqəmsal düzən"! Amma... sərhədsiz azadlığın yaxud seçim və fəaliyyət sərbəstliyinin mövcud olduğu virtual məkanda formalaşan yeni iqtisadi konstruktsiyanın real zaman rejimində tənzimlənməsi mümkündürmü? sualı problemin nəzəri dərkində diskomfort yaradan əsas məsələlərdən biridir. Belə ki, virtual iqtisadi fəaliyyətin real gerçəkliyə proyeksiyası yalnız onun verə biləcəyi effekt qədərdir. Yəni, reallığa transfer edən şey – nəticədir, prosesin özü deyildir. Əgər, proses – bütövlükdə tənzimlənmirsə yaxud tənzimlənmənin konkret kriteriyaları müəyyən deyilsə, konseptual aspektdən qiymətləndirmə yalnız və yalnız nəticəyə istinadla aparılırsa, onda nəinki qlobal, heç makroregional məkanda belə iqtisadi düzəni formalaşdırmaq imkansız olacaqdır. Təbii ki, bu qənaət milli iqtisadiyyatın rəqəmsallaşması və onun normal effektivliyinin təminatı rakursundan gəlinən nəticədir. Lakin, dünya iqtisadiyyatının 2/3 – nə nəzarət edən transmilli kapitala münasibətdə gəldiyimiz qənaət heç bir konseptual məna yükü daşımır. Sadəcə olaraq, klassik transmilli kapital rəqəmsal transmilli kapitala transfer edir. Və bu prosesdə transmilli kapital transmilliləşmə prosesinə daxil olan intellektual kapitalın artması, çoxalması və təmərgüzləşməsi yönümündə bütün potensial imkanlarını gerçəkləşdirməyə başlayır.

Göründüyü kimi, gerçəkliyin mahiyyət çalarlarını nəzərə aldığımız təqdirdə, ayrıca

götürülmüş bir ölkə iqtisadiyyatının rəqəmsal transformasiyanın gözlənilən effektivliyinin təmin edilməsi kapitalın transmilliləşməsi prosesindən səbəbiyyət asılılığındadır. Əks – təqdirdə, ölkə çərçivəsində formalaşdırılan rəqəmsal iqtisadiyyat, əgər baş tutarsa, ən yaxşı halda imitasiya səciyyəsi daşıyacaqdır. Ona görə ki, əvvəla, belə bir situasiyada şəbəkə effekti alınmayacaqdır. Hər bir ölkənin istifadəçi\istehlakçı nüfuzu məhdud çərçivədədir. Şəbəkə sistemi bu məhdudluq şəraitində inkişaf edə bilməz. Bu, rəqəmsallığın mahiyyət spesifikası ilə ziddiyyətdədir; ikincisi, ayrıca götürülmüş bir ölkə iqtisadiyyatı çərçivəsində intellektual kapitalın təmərgüzləşməsi (ki, bunun alternativi yoxdur) inhisarçı yaranışın formalaşması ilə sonuclanacaqdır ki, bunun da, istənilən təzahür formasında şər olduğu şübhəsizdir. Bu halda paradoksal situasiya meydana çıxır: intellektual kapital... özü – özünün inkişafına maneə yaratmağa başlayır. Yəni, intellektual kapitalın subyekt kimliyi onun özündən önə keçir: klassik kapitala xas olan spesifikaya (mənsubiyyət baxımından) “yiyələnmə” prosesi start götürür; üçüncüsü, milli çərçivədə fəaliyyət birmənalı olaraq (ən azı sosial problemlərlə bağlı) milli hökumətin ciddi nəzarətinə/müdaxiləsinə məruz qalır. Müdaxilənin məqsədyönlülük dərəcəsi milli dövlətin “demokratiya tutumu” dərəcəsindən asılı olaraq dəyişir. Nəzərə alsaq ki, müasir dövrün inkişaf etməkdə ölkələrinin böyük əksəriyyətində etatizm aparıcı yer tutur, onda özəl sektorun qeyd edilən sferada maksimum effektivlik əldə etməsi imkanları çox dar bir çərçivə ilə məhdudlaşır.

Beləliklə, rəqəmsal transformasiya – qlobal səviyyəni ehtiva edən keyfiyyətcə yüksəliş prosesidir. Amma, qlobal səviyyədə - subyekt müəyyənliyi olmayan yaxud abstrakt subyektlərin formalaşdırdığı meqasituasiyadır. Belə bir şəraitdə, həm inkişafın dayanıqlılıq, həm də təhlükəsizlik sərhədləri “görünməz” hala gəlir. Məhz bu aspektdən, kapitalın transmilliləşməsi çərçivəsində həyata keçirilən rəqəmsal transformasiya proqnozlaşdırılması mümkün olan iqtisadi “gələcək” quruculuğu nöqteyi – nəzərindən daha etibarlı və daha təlükəsizdir.

**Açar sözlər:** *rəqəmsallıq, transformasiya, arxitektura, paradiqma, müxtəliflik,assimetriklik*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Алексеенко О.А. Цифровизация глобального мира и роль государства в цифровой экономике // Информ. общество. – 2018:№2, с.25.*
2. *Доклад о цифровой экономике 2019. ООН, Женева, 2019,стр.8*
3. *Назипов Д. А. ИТ позволяют банкам наращивать прибыль /Банковское дело. №12, 2007, с.68*
4. *Прасолов В.И. Цифровая экономика как ответ на вызовы XXI века. Экономика и общество. 2017. № 2. С. 44*
5. *Хайек Ф.А. фон, Дорога к рабству: Пер. с англ. / Предисл. Н.Я. Петракова. -- М.: “Экономика”, 1992*
6. *Халин В.Г., ЧерноваГ.В. Цифровизация и ее влияние на российскую экономику и общество: преимущества, вызовы, угрозы и риски.Управленческое консультирование.2018,Санкт-Петербург, elekt.resurs.\v.halinospbu.ru*
7. *Цифровой потенциал стран – участниц ЕАБР. Центр интеграционных исследований 06/2019. М.*
8. *Электронный ресурс\http.\\kremlin.ru\docs\bank*
9. *Стратегия научно-технологического развития Российской Федерации на долгосрочный период\элект.ресурс\http\\sntr-rf.ru\2018*
10. *Atalay E. Sotelo S.New technologies and the labor market. Journal of Monetary Economics 97, 2018, p.48*
11. *Autor D. Why are there still so many jobs?\\ Journal of economic perspectives.2015;T.29(3) .P.9-10*
12. *Abeliansky A., Hilbert M.Digital technology and international trade\\ Telecom. Policy;2017;41(1);p.35*
13. *China Academy of Information And Communications Technology (CAICT).\elekt.resurs\B сайте:xinhau. http\\www.xinhaunet.com*

**PROJECT OF "DIGITAL" TRANSFORMATION ON THE WORLD ECONOMY: GLOBAL "UNITY" DREAM**

**Doctor of Economics, Professor A.I. Bayramov**
**Azerbaijan State Economic University**

**SUMMARY**

The transition of the world's leading economies to the digital paradigm has already become systemic. Digital renewal is accompanied by fundamental changes in the world's economic architecture.

The purpose of this article is to explain the "updated" content of the asymmetry that has given rise to the globalization trend of the digitalization trend and to identify the type of justification for the paradigm shift.

The methodology of the research consists of systematic, systematic-structural and historical-genetic approaches.

The results of the study show that the digital "capacity" of global asymmetry creates a systemic "inequality" and makes this process more sustainable.

**Keywords:** *digital, transformation, architecture, paradigm, diversity, asymmetry.*

**ПРОЕКТ «ЦИФРОВОЙ» ТРАНСФОРМАЦИИ МИРОВОЙ ЭКОНОМИКИ: ГЛОБАЛЬНАЯ МЕЧТА «ЕДИНСТВА»**

**Доктор экономических наук, профессор Байрамов А.И.**
**Азербайджанский Государственный Экономический Университет**

**РЕЗЮМЕ**

Переход ведущих экономик мира к цифровой парадигме уже стал системным. Цифровое обновление сопровождается фундаментальными изменениями в мировой экономической архитектуре.

Цель данной статьи - объяснить «обновленное» содержание асимметрии, которая породила тенденцию глобализации тенденции цифровизации, и определить тип оправдания смены парадигмы.

Методология исследования состоит из системного, систематико-структурного и историко-генетического подходов.

Результаты исследования показывают, что цифровая «емкость» глобальной асимметрии создает системное «неравенство» и делает этот процесс более устойчивым.

**Ключевые слова:** *цифровая трансформация, архитектура, парадигма, разнообразие, асимметрия.*

UOT: 001:167.7:338.28:378.4

**HƏSƏN RƏHİMLİ**
*Lənkəran Dövlət Universitetinin dissertantı*

*E-mail: rahimli.h@hotmail.com*

# ELM İQTİSADİYYATININ AKTUAL MƏSƏLƏLƏRİ: ÜÇÜNCÜ NƏSİL UNİVERSİTETLƏRİN MALİYYƏLƏŞMƏSİ VƏ ELMİN KOMMERSİYALAŞMASI PROBLEMİ

Elm iqtisadiyyatı həm nəzəri tədqiqat sahəsi, həm də praktiki sahəvi fəaliyyət istiqaməti olaraq XX əsrin sonu XXI əsrin əvvəllərində ciddi dəyişikliklərlə üz-üzədir. Bu dəyişikliklərin səbəbi isə lokal deyil, qlobal amillərlə şərtlənir. İqtisadiyyatın sahəvi strukturunda köklü dəyişikliklərə səbəb olan sözü gedən qlobal amillər cəmiyyətin bütün sferalarında baş vermiş ciddi keyfiyyət dəyişikliyi yaratmışdır. Bu yeni keyfiyyət dəyişikliyi nəticəsində meydana çıxan ictimai-iqtisadi vəziyyəti "postindustrial (postsənaye) cəmiyyət", "informasiya cəmiyyəti", "bilik cəmiyyəti", "elektron cəmiyyət", "postmodern cəmiyyəti" kimi bir çox terminlərlə ifadə etmək olar. Postsənaye cəmiyyəti xidmətlər üzərində qurulmuşdur. Texniki tələbatların və peşəkar bacarıqların artması təhsilə və xüsusilə də ali təhsilə yiyələnməni postsənaye cəmiyyətinə daxil olmanın əsas şərtinə çevirir. Bu cəmiyyətdə bilik və informasiya əsas iqtisadi resursdur. Sənaye cəmiyyəti məhsul istehsal edən cəmiyyət olduğu kimi, postsənaye cəmiyyəti də informasiya cəmiyyəti kimi çıxış edir. Universitetlər və ali məktəblər postsənaye cəmiyyətinin əsas sosial və iqtisadi təsisatlarına çevrilmişdir. İntellektual mülkiyyət və innovasiya fəaliyyəti ilə bağlı problemlərə toxunan məşhur iqtisadçı C.Stiqlits bildirirdi ki: *"innovasiya yönümlü fundamental kəşf və ixtiraların əksəriyyəti elmi-tədqiqat müəssisələrində, universitetlər və institutlarda baş verir" [2, s.143].*

Elmi məhsul fundamental tədqiqatlardan başlayaraq kommersiya mərhələsinədək davam edən uzun bir prosesin nəticəsidir. Texnoloji, iqtisadi və sosial ekspertlər, onların "ölçmə fəaliyyəti" yalnız elmi-texniki ideyanın tətbiq olunub-olunmaması haqqında qərar verilməsi ilə məhdudlaşmır; bu fəaliyyət yaradıcı xarakter daşıyarsa ideyadan istismara gedən bütün mərhələlərin təşkilinə düzəlişlər vermək, əgər müəyyən bir yol, metod, üsul səmərəli deyilsə yenisini təklif etmək, ümumi iş istiqamətini düzgün müəyyənləşdirmək üçün xüsusi əhəmiyyətə malikdir. Beləliklə, ideyadan istismara qədər olan mərhələlər bu ardıcıllıqla əvəzlənməlidir: 1) elmi ideya (fundamental elmlər və ya daha çox bilavasitə praktik elm sahəsindən götürülmüş yeni ideyalar), 2) elmi-praktik və ya elmi-texniki fəaliyyət (hər bir yeni elmi ideyanın praktik tətbiq imkanlarının araşdırılması), 3) mühəndis ideyası (yaradıcı konstruktor fəaliyyəti, elmi ideyanın mümkün tətbiq variantının reallaşdırılmasına xidmət edən texniki qurğunun konkret obrazının yaradılması – layihə, sxem, çertyoj, şəkil və s. konkret hesablamalar toplusu), 4) sınaq nümunəsinin yaradılması (bu, əslində maşınqayırma sənayesinin imkanlarından istifadə olunmasını tələb etsə də, unikal haldır və kütləvi istehsaldan tamamilə fərqli hadisədir), 5) texnoloji tədqiqat – burada yaradıcı mühəndis-konstruktor fəaliyyəti hesabına yeni texnikanın kütləvi istehsalının ən optimal yolla təşkil olunması nəzərdə tutulur; bu mərhələ özü iki pilləyə ayrıla bilər; a) real surətdə kütləvi istehsala başlamazdan əvvəl bu prosesin modelini yaratmaq və iqtisadi və sosial proqnoz üçün zəruri olan əsas parametrləri qabaqcadan hesablamaq; b) yeni texnikanın kütləvi

istehsalı – lakin iqtisadi və sosial proqnoz xüsusi mərhələ kimi daxil edildikdə kütləvi istehsal sonraya keçirilməlidir, yəni 6) iqtisadi və sosial ekspertin fəaliyyəti – kütləvi istehsal və istismar proseslərinin texnoloji modellərinə əsasən yeni texnikanın verə biləcəyi iqtisadi və sosial səmərənin hesablanması və yalnız bundan sonra 7) yeni texnikanın kütləvi istehsalı, 8) istehsal müəssisəsinin texnoloji cəhətdən yeni texnika üçün hazırlanması və nəhayət, 9) yeni texnikanın istismarı [4, s.553].

Bu mərhələlər elm-istehsal zəncirinin əsas mərhələləri sayılır və müasir innovasiyalı iqtisadiyyatın prosessual təsvirini verir (bax: şək. 1).




**Şəkil 1. İnnovativ iqtisadiyyatın prosessual təsviri (müəllif tərəfindən hazırlanmışdır).**

Qeyd edək ki, dünya iqtisadiyyatındakı institusional və struktur dəyişikliklər eyni zamanda universitetlərin də dəyişən dünya ilə birlikdə dəyişmə prosesinə daxil olması ilə nəticələnmişdir. XIX əsrdə meydana çıxan bu dəyişikliklər ənənəvi universitet modelini kökündən sarsıtmış və yeni modelin yaranması üçün geniş imkanlar yaratmışdır. Bu proses unversitetlərin yenidən təşkili və müstəqilliyinə (muxtariyyatına) səbəb olmuşdur. J.G.Vissema qeyd edirdi ki: "Tarixi prosesə nəzər etdikdə ilk nəsil (orta əsrlər dövrü) universitetlərin təhsil əsaslı, ikinci nəsil universitetlərin (Humboldt tipli universitetlər) təhsil və tədqiqat əsaslı və üçüncü nəsil universitetlərin isə cəmiyyətə inteqrasiya etmiş sahibkarlıq universiteti olduğunu görə bilərik" [15, s.15]. Orta əsrlərdəki birinci nəsil universitetlər xüsusi peşələr üzrə kadrlar hazırlamaq məqsədi daşıyan təhsil yönümlü universitetlərdir. Humboldt və ya ikinci nəsil universitetlər təhsil funksiyası ilə bərabər, həm də tədqiqat funksiyasını icra edirdi. Üçüncü nəsil universitetləri isə sahibkarlıq universiteti olaraq cəmiyyətə inteqrasiya etmiş, iş dünyası ilə sıx əlaqə yaratmış və öz elmi məhsulları ilə innovasiya bazarının əsas iştirakçısına çevrilmişdir. Müasir universitetlər postmodern inkişaf anlayışının təməl ünsürlərindən olan biliyin istehsalı üzrə ixtisaslaşmış institutdur. Üçüncü nəsil universitetlərin hədəfi təhsilin keyfiyyəti, təhsil alanların əmək bazarına uyğunluğu və iş dünyasının tələblərinə cavab verməsi ilə yekunlaşmır. Bundan əlavə, universitetlər akademik kadr seçimində universitet tərəfindən aparılan tədqiqat və inkişaf (innovasiya) fəaliyyətlərində səmərəliliyin artırılmasına töhfə verəcək tədqiqatçılara üstünlük verir. Üçüncü nəsil universitetlər bilik iqtisadiyyatının əsas atributları olmaqla bərabər, həmçinin sahibkarlıq fəaliyyətinin də əsas subyektləri sayılır. Yeni nəsil universitetlər akademik heyətini formalaşdırarkən daha çox sahibkarlıq universiteti modelini yaratmağı hədəfləyir və məhz elə tədqiqatçı alimlər seçilir ki, onların istehsal etdikləri bilik məhsulu bazar iştirakçıları üçün cəlbedici olsun və son nəticədə universitet öz məhsulunun kommersiya realizasiyasını həyata keçirsin. Bununla da üçüncü nəsil universitetlər təhsil, tədqiqat və innovativ fəaliyyətin əsas institutuna çevrilir. Beləliklə, müasir dövrdə universitetlər postindustrial cəmiyyətin çağırışlarına cavab vermək üçün sənaye ilə işbirliyinə daxil olmalı, cəmiyyət ilə bütünləşməli, güclü akademik heyətə sahiblənməli və ən uğurlu məzunlara malik olmalıdır.

Biliklərə əsaslanan iqtisadiyyatda universitetlər korporativ subyektlərə çevrilərək, "Universitet 3.0" adını əldə etmişlər və bu onların rəqəm şəklində adındakı informasiyalı metaforanın məntiqi universitetin missiyalarının sayını nəzərdə tutur: 1.0 – yalnız təhsil, 2.0 – təhsil və tədqiqatlar, 3.0 – təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması [6, s.4]. Universitetlər bu gün bazar üçün bilik istehsal edən qurumlar olaraq bilik bazarında ticarətlə məşğul olub gündən günə bir şirkət kimi düşünməyə, institusionallaşmağa, obrazlar, brendlər və markalar dünyasına girməyin yollarını axtarmağa çalışırlar [8, s.45]. Universitetlərin innovasiya və bilik bazarındakı səmərəliliyi bir neçə amildən asılıdır ki, onların da ən əsasları biliyin kommersiyalaşması və universitetlərin iş dünyası ilə sıx əlaqə yaratmasıdır. Məhz bu özəllikləri daşıyan universitet üçüncü nəsil universitet sayıla bilər. "Türkiyə Elmi və Texnoloji Araşdırma Təşkilatı" (TÜBİTAK) tərəfindən hazırlanmış [3, s.150]. 5 subindeks, 23 göstəricidən ibarət olan "Sahibkarlıq və İnnovativ Univer-

sitet İndeksi" (Girişimci ve Yenilikçi Üniversite Endeksi) əsas kəmiyyət və keyfiyyət əlamətlərini özündə birləşdirərək üçüncü nəsil universitetlərin özəlliklərini nümayiş etdirir (bax şək. 2).

| Sahibkarlıq və İnnovativ Universitet İndeksi: | |
|---|---|
| **Subindekslər** | **Əsas meyarlar** |
| Elmi və texnoloji tədqiqat | elmi yayın sayı, doktorantların sayı və s. |
| Əqli mülkiyyət | patent sayı, səmərəli təkliflərin sayı və s. |
| Əməkdaşlıq və birgə fəaliyyət | sənaye ilə birgə layihələrin sayı, tələbə sayı və s. |
| Sahibkarlıq və innovativ mədəniyyət | texnoloji transfer mərkəzi, texnoparkların sayı və s. |
| İqtisadi fayda və kommersiyalaşma | – akademik heyətin texnoparklarda, biznes inkubasiya mərkəzlərində ortaq olduqları və ya sahib olduqları aktiv şirkətlərin sayı;<br>– akademik heyətin texnoparklarda, biznes inkubasiya mərkəzlərində ortaq olduqları və ya sahib olduqları aktiv şirkətlərdə çalışanların sayı;<br>– faydalı model və sənaye nümunələrinin sayı və s. |

**Şəkil 2. Sahibkarlıq və İnnovativ Universitet İndeksi.**

Müasir universitet modeli ilə birlikdə dəyərləndirilən və onun fəaliyyəti ilə sıx bağlı olan elmin kommersiyalaşması, idari və maliyyə azadlığı (muxtariyyəti) anlayışları da meydana çıxmaqdadır. Karnegi komissiyası universitetlərin institusional müstəqilliyini üç sahədə təsnifləşdirirdi: 1) intellektual sahə: akademik ifadə azadlıq, araşdırma layihələrinin və sahələrinin akademik heyət və tələbələr tərəfindən sərbəst seçə bilmə azadlığı; 2) akademik sahə: tədrisin məzmunu, tədris formaları və vəsaitləri kimi mütəxəssis rəyi tələb edən işlərdə azadlıq və 3) idarəetmə sahəsi: xüsusilə şəxsi heyət və maliyyə məsələlərinə aid qərarların müstəqil qəbul edilmə azadlığı [13, s.17]. Müasir universitet modelində tədqiqatlar və inkişaf fəaliyyətinin getdikcə daha maliyyə tutumlu xarakterə malik olması bu fəaliyyətlərin maliyyələşməsi üçün ənənəvi maliyyə mənbələrindən kənar fondların, büdcələrin və mənbələrin axtarışını zərurətə çevirir. Bütün bunlar isə universitetlərin iş dünyasına yaxınlaşdırır və hətta universitetlərdəki tədqiqatlar da iş dünyasının tələblərinə yönəlir. Şəkil 3-də üçüncü nəsil universitetlərin formalaşmasının əsas amilləri verilmişdir.




**Şəkil 3. Üçüncü nəsil universitetlərin formalaşmasının əsas amilləri (müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 3-dən göründüyü kimi üçüncü nəsil post-modern universitetlərin yaranmasında həlledici amillərdən biri əlavə maliyyə resurslarına artan ehtiyacdır. Qloballaşan dünyada öz funksiyalarını icra etməyə çalışan universitetlərin akademik tədqiqatlarının maliyyələşməsi dövlətlərin ayırdığı büdcə vəsaitləri ilə tam təmin edilmədiyində universitetlərin qeyri-ənənəvi maliyyə mənbələrinə müraciət etmək zəruriyyəti yaranır. Bir daha qeyd edək ki, maliyyələşdirməni tam dövlət işi hesab edənlər böyük azlıqda qalacaqlarına şübhə etməsinlər. Amerika Birləşmiş Ştatlarında maliyyə qaynaqlarının 25 %-i federal ştatdan, 20%-i mərkəzi dövlətdən, 55%-i isə özəl bölmədən (təhsil haqqı, korporasiyalar və xeyriyyəçilikdən) gəlir. Bu balans özəl bölməyə doğru dəyişməkdədir. Bir çox iri tədqiqat yönlü ictimai (public) universitələrinin dövlətdən aldığı cəmi kömək onun maliyyəsinin 20-25 faizini təşkil edir (və ya daha aşağıdır) [7, s.86].

Dünya bankı universitetlərin müstəqilliyi içərisində maliyyə müstəqilliyini ön plana çəkir. Beynəlxalq yanaşmaya əsasən bir universitetin müstəqil (muxtar) ola bilməsi üçün onun ənənənəvi olmayan maliyyə qaynaqlarından səmərəli şəkildə istifadə etmək imkanı olmalıdır. Universitetlərin maliyyə muxtariyyətinin əsas məqsədi universitetlərin maliyyə mənbələrinin təşkilatın ehtiyaclarına uyğun olaraq daha səmərəli bölgüsünü təmin etməkdir. Məsələn, İndoneziya və ya Braziliya kimi ölkələrdə təhsil haqqı və tələbələrdən hər hansı bir maliyyə vəsaitinin alınması qadağan

olunduğundan və ali təhsildəki bütün xərcləri dövlət öz üzərinə götürdüyündən, Dünya Bankı bu cür ölkələrdə maliyyə idarəetmə sistemində çevikliyin (mobilliyin) əksinə olaraq sərtlik, inzibatilik və səmərəsizlik olduğunu dəfələrlə qeyd edib. Bu səbəbdən maliyyə qaynaqlarının müxtəlifliyinə dair bir strategiyaya sahib olmaq ən yaxşı muxtariyyət qarantıdır [1, s.55]. Klassik yanaşmada universitetlərin gəlir mənbələri əsasən tələbələrin təhsil haqqı və dövlətin büdcə vəsaitlərindən ibarət idi. Dəyişən bir anlayışda universitetlər tədricən öz qaynaqlarını yaradacaq bir quruluşa (instituta) doğru irəliləyirlər [17, s.90]. Bu çərçivədə universitetlər iş dünyasında qeyri-dövlət fondları və kommersiya layihələri üçün rəqabət aparır və maliyyə müstəqilliyini əldə etməyə çalışırlar. Əslində adı çəkilən müsabiqənin inkişaf etmiş bir nöqtəsi tələbələrin təhsil haqqını gəlir mənbəyi kimi görmək və bunun üçün digər universitetlərlə rəqabət aparmaqdır.

Ümumiyyətlə, müasir universitetlərin gəlir mənbələri üç başlıq altında qruplaşdırıla bilər [17, s.90]. İlk iki ənənəvi gəlir mənbələrindən fərqli olaraq üçüncü gəlir mənbələrinə milli və ya regional nazirliklər, regional inkişaf agentlikləri, iri şirkətlər, kiçik, orta və yeni sahibkarlıq subyektləri, böyük və kiçik xeyriyyə təşkilatları, peşəkar institutlar, ianələr, məzunlar və könüllülərin dəstəyi, tələbə təhsil haqları, tələbə şəhərciklərindəki fəaliyyətlərdən, patent və lisenziyalardan gəlir olaraq göstərilə bilər (bax: şək. 4).




**Şəkil 4. Üçüncü nəsil universitetlərin maliyyələşmə mənbələri (müəllif tərəfindən hazırlanmışdır).**

Üçüncü nəsil universitetlərin maliyyələşməsinin müasir dövrdə ən geniş yayılmış forması universitetlərlə sənayenin, iş dünyasının birgə tədqiqatları və universitet məhsulunun (elmin) kommersiyalaşmasıdır. Elmin kommersiyalaşması akademik inqilabla bağlıdır. İlk akademik inqilab XIX əsrin sonunda ABŞ-da, universitetlərdə tədqiqatlar və tədris inteqrasiya olunanda baş vermişdi. İkinci akademik inqilab isə akademik və sahibkarlıq sahələrinin inteqrasiyasını və elmi biliklərin kommersiyalaşmasını şərtləndirdi. Bu inqilab üç mərhələdən keçir: birinci mərhələdə patentləşdirmə mexanizmi meydana gəlir, amma intellektual mülkiyyətin yaradılması tədqiqat prosesinin əlavə məhsulu kimi çıxış edir. İkinci mərhələdə ideyaların sonrakı satışı barədəki düşüncələr elmi tədqiqatlar prosesinə get-gedə daha çox nüfuz edir, universitet professorları vençur firmaları yaratmalı olurlar [5, s.790]. İkinci akademik inqilab nəticəsində mənfəətin əldə edilməsi elmi fəaliyyətin əsas məqsədinə çevrilir. Hazırda, elmə gələn maliyyə resurslarının həcmi azaldığı, lakin alimlərin yüksək gəlir əldə etmək istəyi azalmadığı bir vaxtda tədqiqatların aparılmasının maya dəyəri yüksək olaraq qalır, resursların get-gedə daha çox hissəsi rəqabət əsasında bölüşdürülür. Elm tədricən kommersiya müəssisəsi forması alır, alimlər ideyalar bazarında sahibkar olurlar. Dünyanın bütün ölkələrində, o cümlədən Rusiyada baş verən bu proses Amerika sosioloqu Q.Etskovets tərəfindən "ikinci akademik inqilab" adlandırılmışdır və bu, "akademik kapitalizm" dövrünün gəldiyindən xəbər verir [5, s.791]. Akademik kapitalizmin göstəriciləri kimi dövlət subsidiyalarının, müxtəlif dövlət proqramları və qrant layihələrinin azalması, bazara yönəlik ixtisasların artması və tətbiqi ixtisasların (fundamentala nisbətdə) tədqiqatına yönəlmiş milli siyasətlərin inkişafı kimi sadalana bilər [12, s.94]. Amma elmə yalnız iqtisadi resurs kimi baxmaq onun digər vacib funksiyalarını kölgədə qoyur. A.N.Muradov yazır ki: *"Elm təkcə iqtisadi potensialla deyil, cəmiyyətin inkişafında mühüm rol oynayan bir çox potensiallarla (təhsil, sənaye, texniki, intellektual və s.) sıx bağlıdır və onların ayrı-ayrılıqda inkişaf etməsi qeyri-mümkündür. İkincisi isə, elmə təkcə iqtisadi münasibətlər sistemini əks etdirən göstərici kimi deyil, sosial, mədəni və siyasi münasibətlər sistemini əks etdirən göstərici kimi baxılmalıdır. Bütün bunlar elmin çox geniş sahəni əhatə etdiyini bir daha sübut*

*edir"* [9, s.19]. İngilis filosofu F.Bekondan sonrakı dövrdə, xüsusən postmodernist alimlər elmin inkişafına kommersiya və maddi inkişaf nöqteyi-nəzərdən yanaşmaqla bəşəriyyətə iqtisadi-maddi-texnoloji cəhətdən çox böyük xidmət edib. Çünki elm insanın təbiətə hökmranlığı və ondan daha çox bəhrələnməsi üçün təbiəti-texnikanı kəşf etmək yoluna düşdü və həmin nəzəriyyə bu baxımdan yaxşıdır. Amma bununla yanaşı, postmodern dünyada elm, kommersiyalaşaraq bir növ əvvəllər malik olduğu müqəddəslik, ucalıq və paklığını da itirib.

## YEKUN

Akademik kapitalizmin güclənməsi eyni zamanda həm anqlosakson, həm də sovet elminin təşkil modelinin böhranıdır. Bəşəriyyətin F.Bekondan qabaqkı böyük filosof və şəxsiyyətləri, xüsusilə dini alimlər elmdən güc və qüdrət deyil, həqiqət yolunda istifadə ediblər. Belə ki, onlar insanları elm öyrənməyə təşviq edəndə, elmin insanı həqiqətə çatdırmasına əsaslanaraq elmi müqəddəs, yəni insanın mənafeyindən və maddi məsələlərdən üstün müqəddəsliyə malik bir həqiqət hesab edirdilər.

Yaxın perspektivdə elm iqtisadiyyatının aktual məsələlərinin daha konseptual baxılması, üçüncü nəsil universitetlərin maliyyələşdirilməsi və elmin kommersiyalaşması problemlərinin həlli baxımından bir qrup məsələlərə daha çox diqqət yetirilməsi tələb olunur:

– elm iqtisadiyyatının – bilik iqtisadiyyatının müasir aktual aspektlərinə konseptual yanaşmalar təmin edilməli və hər bir ölkənin elm-texnologiyalar potensialına adekvat siyasət formalaşdırılmalı və hədəflər müəyyənləşdirilməlidir;

– üçüncü nəsil universitetlərin maliyyələşdirilməsi mənbələrinin diversifikasiyalaşdırılması və əlçatan maliyyə mənbələri hesabına tədqiqatların genişləndirilməsi və əldə olunan nəticələrin sınaq-təcrübə proseslərindən tutmuş tətbiq mərhələsinə qədər çatdırılmasının maliyyə təminatı mexanizmləri yaradılmalıdır;

– elmin kommersiyalaşdırılması və elmi-tədqiqatlar hesabına alınan nəticələrin daha səmərəli formada tətbiq edilməsi problemlərinin həllinə kompleks və sistemli yanaşmalar təmin edilməlidir və s.

**Açar sözlər:** *elmin iqtisadiyyatı, akademik kapitalizm, postindustrial cəmiyyət, üçüncü nəsil universitetlər, universitet-sənaye işbirliyi, elmin kommersiyalaşması, akademik inqilab, sahibkarlıq universiteti*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Bilge Bingöl. Üniversite Özerkliğinin Değişen Tanımı ve Üniversitelerin Yeniden Yapılandırılması. Bingöl / Hacettepe Hukuk Fak. Derg., 2(2) 2012, 39–75.*

*2. Əliyev, Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafi Fondu, 2012. - 360 s.*

*3. Ferhat Ağçay. Üçüncü nesil üniversiteler: kolaylaştirici ve engelleyici faktörler ile başari unsurlarinin belirlenmesine yönelik üniversite paydaşlari üzerinde bir araştirma. İzmir – 2019.*

*4. Xəlilov, S.S. Elm haqqında elm. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2011, 752 s.*

*5. İqtisadi nəzəriyyə: mikroiqtisadiyyat 1,2 (rus-cadan tərcümə). / Q.P.Juravlyovanın redaktorluğu ilə. Bakı-2010.*

*6. İmanov, K.S. 3.0 yaranan Universitetlərin əsasında düşünülmüş əqli mülkiyyət siyasəti durur. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi. Bakı, 2019.*

*7. İsaxanlı, H.A. Müasir dünyada ali təhsil sistemində nələr baş verir və "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Programı" necə olsa yaxşıdır?. Xəzər Universiteti Nəşriyyatı. 2008.*

*8. Mesut Yücebaş. İdeolojik Bir Süreç Olarak Operasyonel Üniversiteden Girişimci Üniversiteye: Yeni Üniversitenin Reklam İmgeleri. İletişim araştırmaları. 2007. 5(1): 39-74.*

*9. Muradov, A.N. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. Bakı - 2005 "Elm", 321 s.*

*10. Musayev, G.C. "Üçüncü nəsil" universitetlərdə maliyyələşmə məsələləri. Azərbaycan Vergi Jurnalı. 1 (136) / 2018.*

*11. Süleyman Kevük. Bilgi ekonomisi (Knowledge economy) // Journal of Yasar University, 1(4), 2006, – s. 319-350.*

*12. Süreyya Sakınç, Sibel Aybarç Bursalıoğlu. Yükseköğretimde Küresel Bir Değişim: Girişimci Üniversite Modeli. Cilt/Volume 2, Sayı/Number 2, Ağustos/August 2012; Sayfa/Pages 92-99.*

*13. The Carnegie Commision on Higher Educa-*

*tion, Governance of Higher Education: Six Priority Problems, New York, MacGraw-Hill Book Company, New York, 1973.*

*14. Wissema, J.G. (2009). Üçüncü Kuşak Üniversitelere Doğru, Çev.:Özyeğin Üniversitesi, Özyeğin Üniversitesi Yayınları, İstanbul, 2009.*

*15. Wissema, J.G. (2014). Threat or Opportunity? From the Humboldt University to a Third Generation University Model. University Prospects.*

*16. Yenal Ünal. Bilgi toplumunun tarihçesi // Tarih Okulu. Sonbahar 2009. Sayı V, – s. 123-144.*

*17. Yunus Emre Özer. Girişimci üniversite modeli ve Türkiye. Uludağ üniversitesi İktisadi ve idari bilimler fakültesi dergisi. Cilt/vol. Xxx, sayı/no. 2, 2011, pp. 85-100.*

**РЕЗЮМЕ**

**Актуальные вопросы научной экономики: финансирование университетов третьего поколения и проблема торговли науки**

В статье исследуются проблемы реорганизации университетов в постиндустриальный период, их финансовой независимости и коммерциализации знаний. Постиндустриальное общество характеризуется переходом от экономики, производящей товары, к экономике, которая обслуживает. На этом этапе экономического развития знания и информация становятся основными ресурсами. Университеты и колледжи становятся основными социальными и экономическими институтами общества. Основная проблема в постиндустриальном обществе - это организация науки, а важным институтом является университет или исследовательская лаборатория. Таким образом, в наше время университеты должны сотрудничать с промышленностью, интегрироваться в общество, иметь сильный преподавательский состав и иметь наиболее успешных выпускников для решения задач постиндустриального общества. Эффективность университетов на рынке инноваций и знаний зависит от нескольких факторов, наиболее важными из которых являются коммерциализация науки и тесная связь университетов с миром бизнеса. Университет с такими характеристиками можно считать университетом третьего поколения. Однако коммерциализация науки сопряжена с серьезными этическими проблемами. Это еще раз доказывает, что социально-экономическое развитие противоречиво.

**Ключевые слова:** *экономика науки, академический капитализм, постиндустриальное общество, университеты третьего поколения, университетско-промышленное сотрудничество, коммерциализация науки, академическая революция, университет предпринимательства.*

**SUMMARY**

**Current issues of science economy: financing of third generation universities and the problem of commerce of science**

The article examines the problems of reorganization of universities in the post-industrial period, their financial independence and the commercialization of knowledge. Post-industrial society is characterized by the transition from an economy that produces goods to an economy that serves. At this stage of economic development, knowledge and information become the main resources. Universities and colleges are becoming the main social and economic institutions of society. The main problem in a post-industrial society is the organization of science, and an important institute is a university or research laboratory. Thus, in modern times, universities must cooperate with industry, integrate with society, have a strong academic staff and have the most successful graduates to meet the challenges of a post-industrial society. The effectiveness of universities in the market of innovation and knowledge depends on several factors, the most important of which are the commercialization of science and the close connection of universities with the business world. A university with these features can be considered a third generation university. However, there are serious ethical problems with the commercialization of science. This proves once again that socio-economic development is contradictory.

**Key words:** *economics of science, academic capitalism, post-industrial society, third generation universities, university-industrial cooperation, commercialization of science, academic revolution, university of entrepreneurship.*

UOT: 338.1; 330.34/.35; 338.26/.27; 338.12;330.34; 330.35;

# İQTİSADİ ARTIMIN KONSEPTUAL MƏZMUNU: SİSTEMLİ BAXIŞ

**VÜQAR BAYRAMOV**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent.*
*Azərbaycan Milli Elmlər Akademiyası*
*İqtisadiyyat İnstitutu.*
*Aparıcı elmi işçi*

*E-mail: bayramov.vuqar@gmail.com*

**Giriş**

İnkişaf kontekstində ən çox diqqət çəkən məqam iqtisadi artımla bağlıdır. Aydındır ki, iqtisadi inkişafın gerçəkləşmə mexanizminin əsas hərəkətverici amilləri sırasında iqtisadi artım mühüm yer tutur. İqtisadi artım problematikası, əslində modern dövrünün törəməsidir. Bazar prinsipləri bazasında formalaşan industrial təsərrüfat tipi sabit-qədəmli və kompleks səciyyə daşıyan iqtisadi artımsız nəinki gələcək planda inkişaf edə, həmçinin mövcud ola bilməz. Zaman axıcılığının tərəqqi yönümlülüyü, başqa sözlə daima yaxud periodik olaraq yüksələn xəttli artım – industrial təsərrüfat tipinin əsas konseptləri arasında xüsusi yer tutur. Postindustrial təsərrüfat sistemində isə (iqtisadi artımla bağlı) dayanıqlıq və keyfiyyətlilik aspektləri ön plana çıxır. Daha konkret ifadə ilə desək, iqtisadi artımın necəliyi ilə cəmiyyətin təsərrüfat tipi arasında sıx məntiqi bağlılıq mövcuddur. Bu aspektdən iqtisadi artıma münasibətdə əksər dünya ölkələri üçün keçərli ola biləcək "universal" müddəaların sayı kifayət qədər azdır. Yəni, iqtisadi artım – onun davamlılığı, dayanıqlılığı və keyfiyyət səviyyəsi, eləcə də digər aspektləri, həm konkret məzmunludur, həm də, bu və ya digər formada milli spesifika ilə funksional bağlılıqdır.

**İqtisadi artım anlayışına sistemli yanaşma**

İqtisadi fikir tarixinin konseptual ümumiləşdirilməsinə istinadla iqtisadi artım probleminə ikili yanaşmanın olduğu qənaətinə gəlinmişdir:

1) Təkrar istehsal yanaşması
2) Funksional – makroiqtisadi yanaşma

Müqayisəli təhlilin nəticələri göstərir ki, hər iki yanaşma sistemlilik keyfiyyətindən xali deyildir. Bununla belə, yanaşmalar arasında həm metodoloji, həm də praqmatik anlamda əsaslı fərqlər mövcuddur. Əsas fərq ondan ibarətdir ki, təkrar-istehsal yanaşması, birmənalı olaraq industrial təsərrüfat tipə aiddir: Milli dövlətlərin öncüllüyü, geniş təkrar istehsal prosesinin ölkə çərçivəsində yaxud milli bütövlüyü, maddi istehsalatın primatlığı və s. ön planda tutulur. Eyni zamanda, bütövlükdə iqtisadi dinamikaya həm sistemli yanaşılır, həm də əsas diqqət mahiyyətə yönəldilir. Bir sözlə, təkrar-istehsal yanaşması – siyasi-iqtisadi prizmadan formalaşan yanaşmadır. Ikinci yanaşma isə (funksional-makroiqtisadi) əsasən funksional bağlılıqlardan çıxış etməklə iqtisadi dinamikaya, prosesə deyil, nəticəyə istiqamətlənir. Daha çox postindustrial təssərüfat tipi üçün xarakterik olan funksional yanaşma metodoloji aspektdən ziddiyətli məqamlarla kifayətqədər zəngindir.(Bax şəkil 1)

Müqayisəli təhlilin nəticələri göstərir ki, qeyd edilən formalı yanaşma üsulları yalnız o halda gözlənilən effekti verə bilər ki, hər ikisi birlikdə tətbiq olunsun. Yəni, nəzəri-metodoloji aspekt xaric, sırf praqmatik müstəvidə qeyd etdiyimiz birlik qaçılmazdır, əks təqdirdə iqtisadi reallığın adekvat təsvirindən tutmuş iqtisadi artımın gerçəkləşmə imkanları da daxil olmaqla effektiv nəticə gözləməyə dəyməz.

Bu amillər arasında son dərəcə mürəkkəb qarşılıqlı asılılıq və qarşılıqlı bağlılıq mövcuddur. O dərəcədə ki, qarşılıqlı təsirin nəticəsi olaraq prosesin hansı yönümdə gedəcəyini bəri başdan verifikasiyasını aparmaq mümkün deyildir… Mümkünlülük bir sıra amillərin məna tutumunun birmənalılıq dərəcəsindən birbaşa funksional asılılıqda və səbəbiyyət bağlılığındadır:

1) Cəmiyyətin tipi – qərarlaşmış dəyərlər sistemi, yaxud yeni tipə keçid prosesinin hal-hazırda olduğu mərhələ;

2) İnstitutsional mühit – formal və qeyri-formal institutların keyfiyyət dəyişikliyi, yaxud yeni keyfiyyət halına keçid prosesinə adekvatlıq dərəcəsi;

3) Milli təsərrüfat sisteminin dünya iqtisadiyyatına açıqlıq (həm funksional, həm də institutsional aspektdən) dərəcəsi;

4) İqtisadi azadlığın qərarlaşma dərəcəsi və s.

İqtisadi artım – tarixi kateqoriyadır. Bəşəriyyətin iqtisadi inkişaf tarixinin ayrı-ayrı mərhələlərində fərqli məzmun daşımış, eyni zamanda artımla bağlı əksər kriteriyalar üzrə fərqli şəkildə təzahür etmişdir (şəkil 3)




**Şəkil 1. İqtisadi artıma yanaşma üsullarının müqayisəli qiymətləndirilməsi**




**Şəkil 2. İqtisadi artım amillərinin təsnifatı**




**Şəkil 3. İqtisadi artımın tarixi tipləri: təkamül prosesi**

İqtisadi artımın xarakteri ilə bağlı problematikanın xüsusi əhəmiyyət kəsb etməsi, keyfiyyət aspektləri baxımından qiymətləndirmənin zəruriliyi, müəyyən kriteriyalar əsasında onun (iqtisadi artımın) təsnifləşdirilməsini qaçılmaz edir. (şəkil 4)




**Şəkil 4. İqtisadi artımın təsnifat kriteriyaları**

## İqtisadi artımın keyfiyyətliliyi

İqtisadi artımın keyfiyyətliliyi probleminin araşdırılması yönümündə bir sıra yanaşma üsulları formalaşmışdır:

1) Struktur yanaşma: V.Kamayev(1;) əminliklə göstərir ki, iqtisadi artımın keyfiyyətlilik dərəcəsi sosio-iqtisadi məkanda baş verən struktur yeniləşməsinin, yaxud təkmilləşməsinin məzmunu ilə müəyyən edilə, yaxud ölçülə bilər;

2) Məhsulun (son) keyfiyyəti və rəqabətqabiliyyətliliyi aspektindən yanaşma (V.Zubov və b.)(2;). Nəticənin məhz deyilən aspektdə təzahürü iqtisadi artımın keyfiyyətliliyindən xəbər verir.

3) Resursların keyfiyyətliliyi aspektindən yanaşma (Y.Yaremenko)(3;): ilkin başlanğıcın (istehsal prosesi prizmasından) həllediciliyi, birmənalı olaraq nəticənin adekvatlığını təmin etmək iqtidarındadır.

4) Sosial yanaşma (T.Kuznetsova və b.)(4;): əsas hədəf prosesin sosial müstəvidəki proyeksiyasıdır. Artımın keyfiyyətliliyi sosial sferada mövcud olan situasiyanın keyfiyyətcə yaxşılaşma tezliyi əsasında qiymətləndirilməlidir.

Sadalanan yanaşmaların birtərəfliliyi adi gözlə müşahidə edilir.

Keyfiyyətli iqtisadi artımın əsas komponentləri sırasına aşağıdakıları aid etmək olar (şəkil 5).




**Şəkil 5. Keyfiyyətli iqtisadi artımın əsas komponentləri**

"Keyfiyyətli iqtisadi artım - potensial ÜDM-in intensiv artım və istehsal amillərinin keyfiyyətinin yüksəldilməsi əsasında faktiki ÜDM-in artımıdır". (5;13)

Bizim fikrimizcə, keyfiyyətlilik fenomeninin qeyd edilən tərzdə interpretasiyasını vermək prosesin özündən çıxış edərək özünə qiymət vermək

deməkdir. Ona görə ki, əvvəla, əgər söhbət milli iqtisadi inkişafın amilindən gedirsə, onda keyfiyyətlilik fenomeni yalnız iqtisadi məzmun daşıya bilməz. Milli iqtisadiyyat – sistemli yaranışdır və eyni zamanda daha böyük sistemin (milli varlığın) üzvi xarakter daşıyan alt-sistemlərindən biridir. Bu anlamda:

1) İqtisadi artımın keyfiyyətliliyi təkcə iqtisadi deyil, həm də sosio-mədəni sferada formalaşan münasibətlər kompleksinə mahiyyət uyğunluğu aspektindən adekvat olmalıdır;

2) Artımın keyfiyyətliliyi – onun sistemlilik dərəcəsi ilə müəyyənləşə bilər. Yəni bu halda, keyfiyyətlilik ictimai həyatın bütün sferalarında keyfiyyət dəyişikliyini dəstəkləyən, sözün müstəqim mənasında inkişafa keçidi təmin etmək gücündə olan əsas təkanverici qüvvə kimi çıxış etməlidir.

Hesab edirik ki, sadalananların gerçəkləşmədiyi bir şəraitdə iqtisadi artımın keyfiyyətindən danışmağın mənası yoxdur.

İkincisi, iqtisadi artımın keyfiyyəti bir çox tədqiqatlarda keyfiyyətli iqtisadi artımla iqtisadi inkişaf eyniləşdirilir.

Aydındır ki, keyfiyyətli iqtisadi artım iqtisadi inkişafın həlledici amilidir, lakin onun özü deyildir.

İqtisadi artım modelləri (Kobb-Duqlas, R.Solou və s.) nəinki universal xarakterli deyildirlər, həm də konkret ölkə iqtisadiyyatının hansı tsikli hansı fazasında olmasından birbaşa asılılıqdadırlar. Ələlxüsus, cəmiyyətin tip dəyişkənliyi prosesində bu qəbildən olan ölçü prosedurları əks-istiqamətli təsir də göstərə bilərlər. Belə ki, sözügedən modellər tam şəkildə qərarlaşmış industrial dəyərlər sisteminin sabitliyinə istinadla hansısa bir məna kəsb edirlər. Digər tərəfdən, daimi olaraq işçi qüvvəsinin artması immiqrasiya proseslərini doğurur və bu proses ölkədəki sosial-siyasi situasiyanı gərginləşdirə bilir. Eynilə kapitala olan tələbatın artması – iqtisadi artımı təmin etmək prizmasından – yekun etibarı ilə xarici borcun artımına səbəb olur. Və nəhayət, bu qəbildən olan modellər iqtisadi strukturun təkmilləşdirilməsi zəruriliyi, yeni texnologiyalardan istifadə etmə hesabına əmək və material resurslarına qənaət etmə vacibliyi kimi mühüm əhəmiyyət kəsb edən məsələlərə, ümumiyyətlə, "diqqət" yetirmirlər.

İqtisadi artım nəzəriyyələri gələcəyi nəzərə almadan, yalnız "indi"ki zaman intervalında tarazlığın, dayanıqlılığın, böhransızlığın axtarışını yalnız iqtisadiyyatda aparmış və hesab etmişlər ki, tarazlığın əldə edilməsinin əsas vasitəsi dövlət tərəfindən tənzimlənən bazardır.

Gələcəyə diqqət yetirməmək və iqtisadiyyatı "xalis" formada – ictimai həyatın digər sferalarından təcrid edilmiş, şəkildə nəzərə almağın yanlış olduğunun sistemli tənqidi ilk dəfə C.Helbreyt tərəfindən həyata keçirilmişdir. O, haqlı olaraq qeyd edirdi ki, siyasi sferadan, sosial institutlar və mədəniyyətdən təcrid olunmuş iqtisadi nəzəriyyə – öz-özlüyündə yetərsizlik keyfiyyəti nümayiş etdirir. Və, buna görə də iqtisadi nəzəriyyə və sosiologiyanı birləşdirməklə daha böyük tutumlu nəzəriyyə – məsələn, "iqtisadi sistemin ümumi nəzəriyyəsi", yaxud "yüksək səviyyəli iqtisadi inkişaf" adında nəzəriyyə formalaşdırılmalıdır. Onun konseptual baxışlarının əsas müddəaları kimi aşağıdakılar çıxış edirdi:

– Müasir iqtisadiyyat – sosial institutlar, iri şirkətlər, həmkarlar ittifaqı və dövlətin həlledici təsiri altında fəaliyyət göstərir;

– Əsas təsərrüfat subyekti – iri şirkətdir; Və məhz bu şirkətlər bazar qaydalarını diktə edirlər. Bu qaydalardan hər hansı bir asılılıqda deyildirlər (klassik yanaşmanın əksi).

– Ətraf mühitin effektiv mühafizəsi aydın şəkildə formalaşdırılmış ciddi hüquqi qaydaların tətbiqini tələb edir.(6;362)

**İnkişaf = artım eyniyyəti yoxdur.**

Sırf metodoloji rakursdan artım və inkişaf anlayışlarına münasibətdə iki əsas yanaşma mövcuddur:

1) İqtisadi artım – sənaye sisteminin fəaliyyətinin, yəni getdikcə artan miqyasda müasir elmi biliklərə əsaslanan sənaye istehsalının nəticəsidir. Eyni zamanda, o, həm də də struktur dəyişiklikləri ehtiva edir (yeni sənaye sahələrinin yaranması cəmiyyəti dəyişikliklərə təhrik edir).(7;74)

2) Neoklassika (ekonomiks), əsasən, iqtisadi artım proseslərinə diqqət yetirir. İnkişafın dinamikasına isə adekvat nəzər yetirilmir. Nəticədə müasir iqtisadi problemlərin adekvat dərki və qiymətləndirilməsində yanlışlığa yol verilir. Və yekun olaraq, yaranmaqda olan böhranlı situasiyalar cəmiyyət tərəfindən adekvat reaksiya ilə qarşılaşmırlar. Böhran – "qəflətən" baş verir.(8;)

İnkişaf – qanunauyğun dəyişmə prosesi, bir vəziyyətdən daha təkmil olan digər vəziyyətə keçiddir; köhnə keyfiyyət səviyyəsindən yenisinə, sadədən mürəkkəbə, ibtidaidən aliyə keçid prosesidir.(9;37)

Artım isə inkişaf prosesində orqanizmin, yaxud onun ayrı-ayrı orqanlarının böyüməsi, kəmiyyətcə və ölçülər baxımından çoxalmadır.




**Şəkil 6. İqtisadi artım və inkişaf anlayışları arasında spesifik fərqlər**

Müasir interpretasiyalarda iqtisadi artım – ölkədə makro-iqtisadi göstəricilərlə (ÜDM, MD, MMM) xarakterizə olunan məcmu istehsal və istehlakın miqyasca artımıdır.(10;)

İqtisadi inkişaf – iqtisadi sistemin fəaliyyətinin konkret mərhələsində baş verən keyfiyyət dəyişiklikləri, sistemin təşkilinin, təsərrüfat və texnoloji ukladın elementləri arasında əlaqələrin mürəkkəbləşməsi, idarəetmə mexanizmləri, təsərrüfat subyektlərinin davranışı və s. ilə xarakterizə olunur.

İnkişaf – mürəkkəb quruluşla və mürəkkəb qarşılıqlı bağlılıqlarla xarakterizə olunur. Onun ölçü prosedurası da mürəkkəbdir. Göstəricilər çoxluğu, rəqəmlərlə ifadə oluna bilməyən dəyişikliklərin ziddiyyətli xarakterə malik olması, zaman amilinin mühüm əhəmiyyət kəsb etməsi, kəmiyyət→keyfiyyət çevrilmələrindəki assimetriklik və s. inkişafın bir proses kimi qiymətləndirilməsində problemli situasiya yaradırlar. Ona görə də inkişaf – bir qayda olaraq, nəticə aspektindən dəyərləndirilir (yəni proses başa çatdıqdan sonra!). Beləliklə, hər iki anlayış arasında sıx qarşılıqlı bağlılıq mövcuddur. Bununla belə, konkret sərhədlər də olmamış deyildir. Belə ki, artım – dəyişikliyin kəmiyyət, inkişaf isə keyfiyyət xarakteristikasını özündə ehtiva edir.

Bir sıra araşdırmalarda qeyd olunur ki, artım və inkişaf hadisənin (prosesin) müxtəlif aspektlərini əks etdirirlər. Belə ki, artım sistemdə əhəmiyyətli dəyişikliklərin getmədiyi bir situasiyada kəmiyyətcə çoxalmanı özündə ehtiva edir və zamanca geridönəndir. İnkişaf isə ziddiyyətli dəyişiklikləri, sistemin təşkilinin dəyişməsini, bir sözlə, keyfiyyət dəyişikliklərini təcəssüm etdirir.(11;25)

İnkişaf – milli varlığın sistemli xarakter daşıyan keyfiyyətcə yeniləşməsi prosesi, yeni keyfiyyət mərhələsinə keçididir. Onun zamanca geridönümü, yaxud tənəzzülə uğraması mümkün deyildir.(12;8)

Həmçinin o da məlumdur ki, inkişaf düzxətli deyil, sıçrayışlar formasında baş verir. İnkişaf prosesi tsiklik xarakter daşıyır. Tsiklin müəyyən fazalarında həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri müşahidə edilə bilər. Eyni zamanda kəmiyyət→keyfiyyət çevrilmələri arasında da xətti bağlılıq yoxdur. Yaxud yeni keyfiyyət səviyyəsinə keçid müəyyən sayda sırf kəmiyyət çoxalmalarından sonra baş verir tipli məntiqi bağlılıq da mövcud deyildir. Bu mənada, birmənalı şəkildə təsbit etmək olar ki, məsələn, uzunmüddətli anklav xarakaterli artım keyfiyyətin (yeni keyfiyyətin) sistemli qərarlaşması prosesinə hər hansı bir təsir göstərmir. O yalnız (ən yaxşı halda) aid olduğu sahədə müəyyən keyfiyyət yeniləşməsinə şərait yarada bilər.

“İqtisadi inkişaf prosesi – öz-özünü dəstəkləyən, özünü doğuran, təkrar istehsal edən prosesdir” deyimində məntiqi ziddiyyət yoxdur. Lakin endogen mühit amillərin təsiri altında baş verən inkişaf prosesini – özü-özünü yaradan proses kimi, ekzogen mühitin dominant olduğu hallarda isə “təşkil” olunan proses kimi səciyyələndirmək yanlışlıq olardı. Ona görə ki, əvvəla, müasir dövrdə ekzogen→endogen tipli bölünmə sırf şərti xarakter daşıyır. Qloballaşmanın müasir mərhələsində “endogen” deyilən və birmənalı qiymətləndirilməsi mümkün olmayan heç nə yoxdur. Digər tərəfdən, əvvəlki tsikldə ekzogen olan prosesin sonrakı gedişində endogenə çevrilir. Ekzogen→endogen çevrilmələrin intensivliyi o qədər yüksəkdir ki, onun bir sıra hal-

larda verifikasiyasını da aparmaq mümkün olmur; ikincisi, inkişaf – keyfiyyət xarakteristikasıdır (iqtisadiyyatın, yaxud bütövlükdə cəmiyyətin), onun spontan şəkildə yaranma ehtimalı sıfıra yaxındır. Kəmiyyət→keyfiyyət çevrilmələri “idarəolunan” prosesdir. Spontan xarakterli çevrilmələr prinsipcə, mümkün deyildir. İnkişaf zamanın funksiyasıdır və məqsədlə sıx determinoloji bağlılığı mövcuddur. Düzdür, iqtisadiyyatın – bir fəaliyyət sferası kimi öz-özlüyündə məqsədli olmur. Amma bu sferada baş verən proseslərin (əsasən, əsas proseslərin) yaradıcı “mexanizmi” məhz məqsədlə, seçilmiş hədəflərlə determinasiya olunur.

**Açar sözlər:** *iqtisadi artım, inkişaf, mühit, cəmiyyət tipləri, keyfiyyət, struktur.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. В.Д.Камаев. Экономическая теория. 2002. ВУЗ: СГЭУ*

*2. В.М.Зубов. Качество экономического роста: (Теоретические и методологические аспекты статистической оценки). — Красноярск: Изд-во Краснояр. ун-та, 1991. — 138 с.*

*3. Ю.В.Яременко. Об экономике. — М.: МАКС Пресс, 2015. — 272 с.*

*4. М.П.Кузнецова.*

*5. И.М.Теняков. Качество экономического роста как фактор национального развития \\ автореферат. М.; 2007, стр.13*

*6. Дж.Гелбрейт. Экономические теории и цели общества. М.; 1979, с.362*

*7. S.Kuznets. Six Lectures on Economic Growth. 1966*

*8. R.Brinkman. Economic growth versus Economic development: Towards a conceptual clariqication // Journal of Economic issues, Vol XXIX, № 4. December, 1995*

*9. С.И.Ожегов; Н.Ю.Шведова. Толковый словарь русского языка. М., 1994*

*10. А.Б.Борисов. Большой экономический словарь. М., 2001*

*11. Т.П.Черкасова. Категориальлная определенность понятий «Экономического развитие» и «экономический рост» \\ Наука и образование. 2011, №6, с.25*

*12. Ə.Bayramov. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı, 2016, səh.8*


## CONCEPTUAL CONTENT OF ECONOMIC GROWTH: A SYSTEMATIC VIEW.

**Bayramov Vugar Avtandil oglu,**
**Doctor of Philosophy in Economics,**
**Associate Professor.**
**Institute of Economics of the Azerbaijan National Academy of Sciences,**
**Leading researcher**

## SUMMARY

The article examines the conceptual interpretation of economic growth in the context of development, classifies a set of factors, performs a comparative analysis of approaches and explains the content of the qualitative property of growth. The purpose of the article is to conduct a systematic analysis of the phenomenon of “economic growth” from both theoretical and methodological and pragmatic perspectives, and to justify the need for a systematic approach to the problem.

**Keywords:** *economic growth, development, environment, types of society, quality, structure.*

## КОНЦЕПТУАЛЬНОЕ СОДЕРЖАНИЕ ЭКОНОМИЧЕСКОГО РОСТА: СИСТЕМАТИЧЕСКИЙ ВЗГЛЯД.

**Байрамов Вугар Автандил оглы,**
**Доктор философских наук, доцент.**
**Институт экономики Национальной Академии Наук Азербайджана,**
**Ведущий исследователь**

## РЕЗЮМЕ

В статье исследуется концептуальная трактовка экономического роста в контексте развития, классифицируется набор факторов, проводится сравнительный анализ подходов и разъясняется содержание качественного свойства роста. Цель статьи - провести системный анализ феномена «экономический рост» как с теоретической, так и с методологической и прагматической точек зрения и обосновать необходимость системного подхода к проблеме.

**Ключевые слова:** *экономический рост, развитие, окружающая среда, типы общества, качество, структура.*

**UOT: 378.33:001.892:001.895: 334.75**

# ELMİ-TƏDQİQAT XİDMƏTLƏRİNİN KOMMERSİYALAŞDIRILMASININ İNTENSİVLƏŞDİRİLMƏSİ YOLLARI

**LEYLA ƏHMƏDOVA**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: leyla.ehmedova.aku@gmail.com*

Müasir şəraitdə elmi-tədqiqat xidmətlərinin optimallığının və səmərəliliyinin təmin edilməsi məsələləri aktual olaraq diqqət çəkməkdədir. Xüsusilə praktiki əhəmiyyət kəsb edən elmi-tədqiqat nəticələrinin gecikdirilmədən tətbiq edilməsi, məhsul istehsalının və ya xidmətlərin göstərilməsinin təşkili, son nəticədə isə elmtutumlu əlavə dəyər mənbələrinin formalaşdırılması vacib şərtlərdəndir. Bu, eyni zamanda, bilik iqtisadiyyatının inkişaf etdirilməsi, rəqəmsal texnolologiyaların fəal şəkildə reallaşdırdığı bir dövrdə çağırışların nəzərə alınması kimi də qiymətləndirilə bilər. Başqa sözlə, elmi-tədqiqat xidmətlərinin geniş spektrdə formalaşdırılması biznesin innovativliyinin təmin olunması, işlənmiş innovasiyaların və təsdiqlənmiş ixtiraların, kəşflərin tətbiqi proseslərinin təşkili, ümumilikdə elm və innovasiya tutumlu, rəqabət qabiliyyətli məhsulların alınması və xidmətlərin formalaşdırılması təmin edilmiş olur. Bu tədbirlərin reallaşdırılmasında dünya təcrübəsindən baxdıqda, elmi-tədqiqat müəssisələrinin və universitetlərin üzərində böyük həcmli vəzifələr dayanır. Onların həyata keçirilməsi məqsədilə daha çox səylər göstərilməli, innovatik mərkəzlər və infrastruktur yaradılmalı, universitetlərdə texnoparklar təşkil edilməli, elmi-tədqiqat müəssisələrində sınaq-sazlama sahələri yaradılmalı, maraqlı tərəfdaşlar bu proseslərə cəlb olunmalı, maliyyə mexanizmləri təmin olunmalı, elmi-tədqiqatların nəticələri ilə bağlı pilot layihələr daha ciddi elmi-praktiki arqumentlərlə əsaslandırılmalı və bu işlərin başa çatdırılması imkanları təhlil olunmalı, qiymətləndirilməlidir. Elmi-tədqiqatın təşkili və nəticələrin əldə edilməsi prosesləri nə qədər mürəkkəb və spesifik xarakter daşıyırsa, bu nəticələrin istehsal və xidmət sahələrinə tətbiq edilməsi, biznes proseslərində istifadəsinin təşkili və son nəticədə səmərəliliyinin əldə edilməsi də bir o qədər mürəkkəb məsələlər kimi qiymətləndirilir. Elmi-tədqiqatların son nəticələrinin tətbiqi prosesləri dünya təcrübəsində ən mürəkkəb problemlərdən hesab edilir və bu istiqamətdə dünyanın elm-texnoloji cəhətdən inkişaf etmiş ölkələrində axtarışlar müasir dövrdə də aktual olaraq yüksək səviyyədə qalmaqdadır [1, s. 45.].

Elmi tədqiqatların səmərəliliyinin təmin edilməsi üçün qlobal çağırışlara cavab verən yeni metodlar və maksimum məhsuldar mexanizmlərin işlənib hazırlanması, bu sahədə fəaliyyət göstərən müəssisələrin maddi-texniki bazasının yenilənməsi və tədqiqat proseslərinin maliyyə təminatı problemlərinin uzunmüddətli dövr üçün etibarlı şəkildə həll edilməsi tədbirləri vacib hesab olunur. Biznes–proseslərin cəlbediciliyinin artırılması və elmi nəticələrin ardıcıl şəkildə biznes subyektləri tərəfindən praktiki fəaliyyət proseslərinə tranfer edilməsi mexanizmləri və fəaliyyət strategiyası formalaşdırlmalı, "dövlət – elmi-tədqiqat müəssisələri və biznes subyektləri" sxemi üzrə sıx əməkdaşlıq başlıca şərtlərdəndir [2]. Digər tərəfdən, müasir dövrümüzdə yeni tələblər və qlobal çağrışlar konteksitndə elmi-tədqiqat işlərinin təşkilində ortaya çıxan zəruri halları və obyektiv reallıqları maksimum nəzərə almaq tələb olunur. Məsələn, önəmli olan problemlər sırasında – yeni sənaye inqilabından formalaşan çağırışlar kontekstində universitetlərin elmi-tədqiqat işlərinin təşkilində sistemli və ardıcıl yanaşmaların vacibliyi, həm də innovatik infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, elmi-tədqiqat işlərinin yekunlarından ortaya çıxan nəticələrin, mühüm müddəaların kommersiyalaşdırılması problemlərinə daha çox diqqət yetirilməli, bu problemlərin aradan qaldırılması metodikası hazırlanmalı, praktiki yanaşmalar müəyyənləşdirilməlidir.

Elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması prosesləri daha sistemli yanaşmanı şərtləndirir və bunun üçün maraqlı tərəflərin, o cümlədən ilk növbədə elmi-tədqiqat və ali təhsil müəssisələrinin, sənaye sahələrinin və investorların qarşılıqlı fəaliyyətinin təşkili istiqamətində ciddi addımların atılması tələb olunur. Bunun üçün ilk növbədə mükəmməl qanunvericilik bazası ilə bərabər, dövlətin elmi-texniki yeniliklərin və ümumilikdə elmi–tədqiqat xidmətlərinin kommersiyalaşdırılması istiqamətində əsaslandırılmış siyasəti formalaşdırılmalı və fəaliyyət mexanizmləri müəyyənləşdirilməlidir. Bu proseslərdə bir qrup prinsiplər və meyarlar əsas götürlməlidir: "Elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması prosesləri iştirakçılarının gəlirlilik prinsipi ön plana çıxarılmalı, nəticələrin iqtisadi stimullaşdırılması göstəricilərinə ciddi önəm verilməli, təhsil, elm, istehsal, investisiya, innovasiya və digər maraqlı sahələrin inteqrativ fəaliyyəti təmin olunmalıdır" [3]. Elmi-texniki yeniliklərin nəticələrindən əldə olunan iqtisadi səmərəliliyin hesablanması və bununla əlaqədar görüləcək tədbirlərin ardıcıl şəkildə reallaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdəki dövlət siyasətinin işlək mexanizmlərinin təmin edilməsi hesabına, elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması problemlərinin sahələrarası koordinasiyasının təşkili, həmçinin sınaq-təcrübə sahələrinin və laboratoriyaların yaradılması, zəruri eksperimentlərin aparılması təmin olunmalıdır. Xüsusilə, elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması proseslərinin maliyyə təminatı mexanizmlərinin optimallığı olduqca vacib hesab edilir. Həmin proseslərin təşkilinə və həyata keçirilməsinə zəruri resursların, o cümlədən kadrların cəlb olunması məsələləri və elm-istehsal yaradıcı kollektivlərinin təşkili səmərə verə bilərdi [4]. Hər bir mərhələdə alınan nəticələrin monitorinqinin aparılması, vacib korrektirovkaların edilməsi, yan təsirlərin və əvvəlcədən gözlənilməyən halların diqqətlə öyrənilməsi, əlavə tədbirlərin planlaşıdırılması məsələləri də diqqət mərkəzində saxlanılmalıdır. Əldə olunmuş materialların, elmi-iqtisadi göstəricilərin və praktiki nəticələrin sistemli və müqayisəli şəkildə təhlil olunanraq ümumiləşdirilməsi, elmi-tədqiqat xidmətlərinin daha optimal olaraq formalaşdırılması tələb olunur. Ölkənin müvafiq elm və ali təhsil müəssisələrində məqsədli şəkildə aparılan elmi-tədqiqat proqramlarının son nəticələrinin stimulalşdırılması mexanizmlərinin hazırlanaraq tətbiq edilməsi də müsbət nəticələrin əldə olunmasına əsaslı zəmin yarada bilər [5, s. 21]. Bu zəminin güclü şəkildə formalaşdıırlması üçün elm, təhsil və istehsal prosesləri iştirakçılarının inteqrasiya səviyyəsinin yüksəldilməsi, ölkənin müxtəlif iqtisadiyyat sahələrində korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın təmin edilməsi, ali təhsil səviyyəsinin artırılması tədbirlərinin görülməsi, elm və tədqiqat işlərinə daha çox vəsaitin yönəldilməsi, qeyd olunan istiqamətlər üzrə müvafiq infrastrukturun və maddi-texniki bazanın yaradılması, formalaşmış intellektual resurslardan səmərəli istifadə olunması və onların mülkiyyət hüquqlarının qorunması, bürokratiya hallarının minimuma endirilməsi, əlçatan maliyyə və kredit mexanizmlərinin formalaşdırılması, maliyyə xidmətləri, elm və texnologiyalar bazarlarının intensiv inkişafının təmin edilməsi, milli innovasiya sisteminin və çoxfunksiyalı innovasiya mərkəzlərinin, zonalarının təşkil olunması, bu sahələr üzrə yerli və xarici investisiyaların cəlb edilməsi proseslərinin daha mütəşəkkil olaraq təmin olunması vacib məsələlər və vəzifələr kimi xarakterizə olunurlar. Elm-tədqiqat xidmətlərinin daha tələb olunan çeşidinin formalaşdırılmasında ali təhsil müəssisələrinin innivasiya fəaliyyətinin hansı səviyyədə təşkil olunması mühüm əhəmiyyət kəsb edir [6]. Bunlardan əlavə, univeristetlər müxtəlif kommersiya strukturları, "beyin mərkəzləri", elmi-tədqiqat müəssisələri, investisiya fondları və innovasiya strukturları ilə əlaqələrin gücləndirilməsinə çalışmalıdırlar [7].

Elm və təhsil müəssisələrində elmi-tədqiqatların dərinləşməsinə imkan verən potensialın obyektiv qiymətləndirilməsi aparılmalı, daxili və xarici amillərin təsiri, səmərəliliyi təhlil olunmalı, mövcud intellektual resursların qiymətləndirilməsi təşkil edilməli, marketinq təhlilləri və digər araşdırmaların əhatəsi genişləndirilməli, intellektual innovasiya fəaliyyətinin nəticələri fəal şəkildə kommersiya proseslərinə transfer olunmalıdır. Bunlarla yanaşı, formalaşdırılan intellektual resursların və məhsulların potensial alıcılarının, sifarişçilərinin əhatəsi və maraqları müəyyənləşdirilməli, onlarla əməkdaşlıq gücləndirilməlidir. Qoyulan problemlər üzrə elmi-fundamental araşdırmalar

aparılmalı, göstəricilər sistemi müəyyənləşdirilməli və onların qiymətləndirilməsi metodikası hazırlanmalıdır. Universitetlərdə innovasiya fəaliyyətinin nəticələrinin kommersiyalaşdırılması mexanimzlərinin formalaşdırılması və reallaşdırılması üzrə fəaliyyət planının olması vacibdir [8]. Yeni innovasiyaların hazırlanması, işlənməsi və tətbiqi istiqamətində intellektual resursların, yaradıcı ixtiraçıların mobilizasiyası tədbirləri görülməlidir [9]. İnnovasiya proseslərinə, elmi-tədqiqatların təşkili və tənzimlənməsi tədbirlərinə strateji yanaşmalar ön plana çıxarılmalıdır. Xüsusilə, strateji innovasiya proseslərinin və bu proseslərin idarə olunmasının səmərəlilik problemləri elmi-tədqiqat müəssisələrində və universitetlərdə daha çox diqqət mərkəzində saxlanılmalıdır. Universitetlərin və elmi-tədqiqat mərkəzlərinin fəaliyyətində bu amillərə ciddi önəm verilməlidir [10]. Tədqiqatçı L.F.Mahmudova dövlətin innovasiyalara dəstək sahəsində rolunu araşdırarkən bir sıra məsələləri daha çox aktual hesab etmişdir: 1) dövlət elmin, o cümlədən, tətbiqi elmin inkişafına və innovasiya ideyalarının əsas mənbəyi olan mühəndis və elmi kadrların hazırlanmasına şərait yaradır; 2) dövlət idarələri çərçivəsində biznesin innovasiya fəallığının yüksəldilməsi istiqamətində müxtəlif proqramlar reallaşdırılır; 3) akademik və tətbiqi elm arasında səmərəli qarşılıqlı əlaqənin təşkil edilməsində dövlətin vasitəçi kimi çıxış etməsinin müasir mexanizmlərinin yaradılması, elmi texnoloji tədqiqat layihə işlərinin yerinə yetirilməsində sənaye korporasiyaları və universitetlər arasında kooperasiyanın gücləndirilməsi, "elm-universitet-istehsalat" əməkdaşlığının genişləndirilməsi" [11]. Bu məsələlərin planlı və nizamlı şəkildə koordinasiya edilməsi, elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması problemləri ilə bağlı halların həllinin intensivləşdirilməsi daha yüksək nəticələrin əldə edilməsinə imkan verər.

Azərbaycanda elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması ilə bağlı proseslər başlanğıc səviyyəsindədir və bununla əlaqədar güclü qanunvericilik bazasının formalaşdırılmasına ehtiyac da qalmaqdadır. Ölkədə milli innovasiya sisteminin yaradılması başa çatdırılmamışdır, çoxfunksiyalı innovasiya mərkəzlərinin sayı olduqca aşağı səviyyədədir. Bütün bunlar elmi-tədqiqat işlərinin səviyyəsinə və son nəticədə iqtisadiyyatın müxtəlif sahələrində tələb olunan xidmətlərin formalaşdırılmasında təsirini göstərir, yəni hələ ki, rəqabətqabiliyyətli elmi-tədqiqat xidmətlərinin elm və texnologiyalar bazarlarına çıxarılması məsələsi istənilən səviyyəyə qaldırılmamışdır. Buna görə də ölkə universitetlərinin fəaliyyəti kompleks təhlil olunmalı, elmi-tədqiqat işlərinin zəif təşkil olunduğu universitetlərin birləşdirilməsi məsələləri qabardılmalı, universitetlərdə elmi-tədqiqat mərkəzlərinin fəaliyyətində nəticəlik prinsipləri gücləndirilməli, elmi tədqiqat işlərinin təşkili müasir analoqları ilə müqayisədə daha çox beynəlxalq təcrübə səviyəsinə qaldırılmalı, bunlarla bağlı olaraq, daha çox məqsədli qrantlar müəyyənləşdirilməli, elmi tədbirlər və layihələr həyata keçirilməlidir. Təsadüfi deyildir ki, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə müasir dövrdə İKT məhsullarının geniş çeşidinin hazırlanması, elm və texnolologiya bazarlarına çıxarılması məsələləri aktuallıq təşkil edir [12]. Amma, bunun üçün elmə çəkilən xərclərin, xüsusilə elmi-tədqiqat layihələrinə yönəldilən vəsaitlərin əhəmiyyətli səviyyədə artırılması tələb olunur və son 10-15 il ərzində bu istiqamətdə dövlət büdcəsindən elmə çəkilən xərclərin həcmi bir neçə dəfə artırılsa da, bu xərclərin həcmi aşağı səviyyədədir və ayrılan vəsaitlərin də əhəmiyyətli hissəsi elmi-tədqiqat müəssisələrinin əməkhaqqı və ona bərabər sosial ayırmalarına, vergi ödənişlərinə yönəldilir.

Qeyd edək ki, beynəlxalq təcrübədə elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması məqsədilə İKT-dən istifadəyə böyük üstünlük verilir. Belə ki, İKT-nin inkişafının sürətləndirilməsinin və informasiya cəmiyyətinin inkişaf etdirilməsi əksər dünya ölkələrində prioritet və strateji vəzifələr kimi baxılır. Aqrar sahənin fəaliyyətinin müxtəlif istiqamətlərində İKT mexanizmlərinin və alətlərinin fəal şəkildə istifadə edilməsi hesabına, bu sahədə iqtisadi səmərəliliyin yüksəldilməsi təmin olunur. Digər tərəfdən, ölkə Prezidentinin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda infor-

masiya cəmiyyətinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı hüquqi mexanizmlər və əsaslar müəyyənləşdirilmiş, eyni zamanda geniş şəkildə zəruri tədbirlərin həyata keçirilməsi planlaşdırılmış və İKT xidmətlərinin dairəsinin əhəmiyyətli səviyyədə genişləndirilməsi nəzərdə tutulmuşdur [13]. Eyni zamanda, ölkəmizdə elmin inkişafı, texnologiyalar və innovasiyalar bazarlarının inkişaf etdirilməsi istiqamətində, o cümlədən elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması tədbirlərinin sürətləndirlməsində yeni çağırışlar ortaya çıxmışdır. Bu baxımdan, elmi-tədqiqat müəssisələrində və universitetlərdə əldə olunmuş elmi nəticələrin fəal şəkildə tətbiqinə nail olunması tədbirlərinin sürətləndirilməsi vacib şərtlərdəndir. Elmi fəaliyyətin və elmi-tədqiqatların səmərəliliyin artırılmasının hüquqi bazasının möhkəmləndiyini də qeyd etmək mümkündür. 14 iyun 2016-cı ildə qəbul olunmuş "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin, hüquq və vəzifələrinin, elmin maliyyələşdirilməsi mexanizmləri, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsasları müəyyənləşdirilmiş və beləliklə elmi fəaliyyətin təşkilində yeni imkanlar yaranmışdır [14]. Bunlara misal olaraq fundamental, tətbiqi və eksperimental tədqiqatların təşkili, elmi-tədqiqatların nəticələrinin ekspertizası, tətbiqi, aprobasiyası və yüksək ixtisaslı elmi kadrların hazırlanması tədbirlərinin hüquqi əsaslarının təkmilləşdirilməsi və tənzimlənməsini göstərmək olar.

Yaxın perspektivdə elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılmasının intensivləşdirilməsi məqsədilə bir sıra məqsədli tədbirlərin həyata keçirilməsi tələb olunur:

- ölkənin elmi-tədqiqat müəssisələrində və universitetlərində elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması istiqamətində fəaliyyətin təşkili üzrə konseptual yanaşmalar və fəaliyyət mexanizmləri hazırlanmalıdır;
- elmi-tədqiqat müəssisələri və universitetlərin potensial investorlar, sənaye müəssisələri, texnologiyaların transferi ilə məşğul olan firma və şirkətlərlə əməkdaşlığın dərinləşdirilməsi təmin olunmalıdır;
- ölkədə elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması proseslərinin intensivləşdirilməsi üçün müvafiq infrastruktura malik elmi-texniki parklar və innovasiya mərkəzlərinin yaradılması prosesləri maksimum genişləndirilməlidir və s.

**Açar sözlər:** *elmi-tədqiqat xidmətləri, elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılması, universitetlər, elmi-tədqiqat müəssisələri, elmi sınaq-təcrübə müəssisələri, elmi-tədqiqat laboratoriyaları, elmi-tədqiqatların maliyyə təminatı, elmi-tədqiqatların investisiya təminatı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Caulfield, T., Harmon, S.H. & Joly, Y. Open science versus commercialization: a modern research conflict? // Genome Med 4, 17, 2012. – p. 39-52.*

*2. Баканова, М.В. Анализ бизнес-процессов кафедры вуза как основы разработки стратегии автоматизированного управления кафедрой // Известия ПГУ им. В.Г. Белинского. 2010. №22. – с. 104-109.*

*3. Устинов А.Э. Коммерциализация научной деятельности. – Казань: Изд-во КФУ, 2017. – 102 с.*

*4. Нечепуренко, Ю.В. Коммерциализация результатов научно-технической деятельности: научно-практическое пособие / Ю.В. Нечепуренко. – Минск: НИИ ФХП БГУ, 2012. – 225 с.*

*5. Дежина, И.Г., Салтыков Б.Г. Механизмы стимулирования коммерциализации исследований и разработок. – М.: ИЭПП, 2004. –152 с.*

*6. Дементьева, А.К. Формирование и реализация механизма коммерциализации результатов инновационной деятельности вуза. Дисс. канд. экон. наук. Ульяновск, 2018. –224 с.*

*7. Балыхин М.Г. Исследовательский университет в системе взаимодействия субъектов коммерциализации результатов интеллектуальной деятельности / М.Г.Балыхин // Международный научно-исследовательский журнал. – 2015. – №2 (33) Часть 3. – с. 14-16.*

*8. Дементьева, А.К. Формирование и реализация механизма коммерциализации результатов инновационной деятельности вуза.*

*Дисс. канд. экон. наук. Ульяновск, 2018. – 224 с.*

*9. Пипия Л.К., Дорогокупец В.С. К вопросу об оценке результатов научной деятельности // Инновации, № 1 (219), январь, 2017. С. 39-45.*

*10. Владимиров А.И. О научной деятельности вуза. – М.: ООО «Издательский дом Недра», 2011. – 69 с.*

*11. Mahmudova L.F. Strateji innovasiya proseslərinin və idarə edilməsinin səmərəlilik problemləri // "Geostrategiya" jurnalı №02 (50) Mart-Aprel 2019. – 20.05.2019. https://az.strategiya.az/news.php?id=150921.*

*12. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*13. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2016-cı il Sərəncamı ilə təsdiq edilmişdir.*

*14. Elm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14.06.2016-cı il.*

## РЕЗЮМЕ

## ПУТИ ИНТЕНСИФИКАЦИИ КОММЕРЦИАЛИЗАЦИИ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИХ УСЛУГ

В статье исследованы пути интенсификации коммерциализации научно-исследовательских услуг. С этой целью анализирована сущность и особенности коммерциализации научно-исследовательских работ в нынешних условиях. Рассмотрены возможности и потенциал научно-исследовательских предприятий и университетов в повышении эффективности научно-исследовательских работ и их коммерциализации. Отмечена важность усиления интегративной деятельности университетов и научно-исследовательских организаций с промышленными предприятиями и коммерческими организациями, инвестиционными фондами в Азербайджане. Подготовлены предложения и рекомендации по путям интенсификации коммерциализации научно-исследовательских услуг.

**Ключевые слова:** *научно-исследовательские услуги, коммерциализация научно-исследовательских услуг, университеты, научно-исследовательские предприятия, опытно-конструкторские предприятия, научно-исследовательские лаборатории, финансовое обеспечение научных исследований, инвестиционное обеспечение научных исследований.*

## SUMMARY

## WAYS OF INTENSIFYING THE COMMERCIALIZATION OF RESEARCH SERVICES

The ways of intensifying the commercialization of research services are explored in the article. The essence of commercialization of research work in the current conditions is analyzed for this purpose. Possibilities and potential of research enterprises and universities in increasing the efficiency of research and their commercialization are considered. The importance of strengthening the integration activities of universities and research organizations with industrial enterprises and commercial organizations, investment funds in Azerbaijan is noted. Proposals and recommendations on ways to intensify the commercialization of research services are given in the end of the article.

**Key words:** *research services, commercialization of research services, universities, research enterprises, development enterprises, research laboratories, financial support for scientific research, investment support for scientific research.*

УДК: 331.52: 331.56

# ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ ОТРАСЛЕВОЙ СТРУКТУРЫ ЗАНЯТОСТИ В УСЛОВИЯХ ПАНДЕМИИ И ПОСТПАНДЕМИЧЕСКОГО ПЕРИОДА

**НИЛУФЕР АКПЕРОВА**
*Диссертант кафедры «Общая экономика» Азербайджанского Государственного Экономического Университета*

*E-mail: nilufer_akperova@hotmail.com*

Из-за негативного воздействия пандемии COVİD–19 в современном мире образовалась масса глобальных проблем, которые серьезно влияют на все сферы экономики и существенно снижают экономическую активность населения. Особенно чувствительно отреагировал рынок труда, занятости, который является главным источником доходов большинства людей в мире. По прогнозам, даже если большинство населения планеты переболеют и в течение ближайших 2-3 лет сформируют коллективный иммунитет, социальные последствия пандемии COVİD–19 будут ощутимы еще длительный период [1]. В результате чего, осложнения будут усугубляться и в сфере занятости. Будет затруднено решение социальных проблем во многих развивающихся странах, так как благодаря инвестиционному потоку из развитых стран открывались новые рабочие места, создавались предприятия, развивалась производственная инфраструктура, расширялся сектор услуг, особенно туристические услуги и, одновременно, за счет трудовой миграции поступали деньги извне. Однако в развитых странах мира в результате негативных последствий пандемии существенно снизилась экономическая активность, парализовались многие сферы занятости и инвестиционной активности. Неслучайно, рост и темпы мировой экономики продолжают снижаться. Так, в результате многофакторных негативных воздействий COVİD–19 произошел скачкообразный рост безработицы и спад производства. Данные показатели во многих развитых странах зафиксировались на уровне от 5-ти до 8-ми %. Падение производства в США составило 9,1%, в Японии – 7,9 %. Сокращение числа занятых происходит одновременно с оптимизацией всего процесса производства, уменьшением количества и ликвидацией рабочих мест, в том числе, осуществлении оптимизации штата работников [2].

Отметим, что многие международные организации, специализированные структуры уже бьют тревогу из-за негативного влияния данного глубокого кризиса на сферу труда и обострения проблем занятости населения. В аналитической записке, связанной со сферой труда и COVID-19, проанализирована ситуация 50-ти стран мира относительно регионов Восточной, Южной, Северной и Западной Европы, западных Балканов, Центральной Европы и стран Балтии, Центральной Азии и Южного Кавказа, куда входит, естественно, и Азербайджан. В записке отмечается, что COVİD–19 сильно негативно подействовал на человеческий капитал, на образование людей. Поэтому для восстановления после пандемии потребуются крупные инвестиции. В мире усложнились трудовые отношения, замедлились процессы торговли и, в том числе, процессы привлечения прямых иностранных инвестиций. Обрывается цепь снабжения в региональном масштабе и, впоследствии, останавливаются крупные производственные циклы и предприятия, особенно, как было отмечено, в сфере услуг. В мире 38% существующей рабочей силы – это почти 1,25 млрд. людей, занятых в секторах, связанных с высоким риском. Несмотря на такие условия

труда, работающие ограничиваются низкой заработной платой, например, в сфере отельного бизнеса, общественного питания, торговли, предпринимательства и административной сфере, а так же в ряде обрабатывающих отраслей [3].

Все эти факторы, в конечном итоге, оказывают негативное влияние на создание новых рабочих мест и повышают уровень безработицы. Так, согласно оценкам, потери рабочего времени во втором квартале 2020 года оказались эквивалентными потери почти 500 млн. рабочих мест на условиях полной занятости [4]. Парализация сектора услуг и других секторов экономики, снижение уровня инвестиционных вложений, сокращение объема капитальных вложений в разные отрасли экономики обуславливают разработку и реализацию новых подходов и механизмов по совершенствованию отраслевой структуры занятости с учетом пандемии COVID-19 незамедлительно и в долгосрочной перспективе постпандемического периода. Без оптимизации деятельности структуры работоспособных, так же перспективных секторов экономики страны в нынешних условиях последует осложнение ситуации, связанной с безработицей и трудоустройством людей, которые уже лишились своей работы. Дело в том, что: «с начала пандемии мир потратил на субсидии населению и бизнесу 12 трлн. долл. США и львиная доля пришлась на богатые страны. Деньги стремительно заканчиваются даже в развитых странах, дотации тают и все это обещает всплеск безработицы. А, значит, и новую волну кризиса, поскольку скорость восстановления напрямую зависит от ситуации на рынке труда» [5]. Эти тенденции и ситуация на мировом рынке труда образуют новую реальность, которая еще осложняет уже существующие проблемы безработицы. Правительства мировых государств совместно с международными организациями должны предпринять более решительные и действенные превентивные меры по смягчению данного положения. В 2020 году более половины трудовых ресурсов мира – это почти 1,9 млрд. работающих, прямым и косвенным образом подвергнуться «трудовому шоку», который подразумевает переход на неполную занятость, либо еще хуже – потерю рабочего места. По прогнозам Международной Организации Труда последствие пандемии выразится в потере трудовых доходов, что составит 3,4 трлн. долл. США, и в повышении уровня безработицы в мире на 17%. По мнению международных специалистов и аналитиков, за период 2021-2030 гг. произойдет глубокое изменение структуры занятости. Пандемия уже запустила долгосрочные структурные изменения: от гибких и удаленных схем работы до ускорения автоматизации. Подобные изменения охватят в целом полтора млрд. рабочих мест за вышесказанный период. И еще, к 2030-му году автоматизация может затронуть 12% действующих рабочих мест в мире, в результате почти 30% рабочих мест потребуют от работников новых профессиональных навыков и знаний [6]. Более того, усиливаются новые тенденции и подходы по регулированию отношений между работодателями и работниками. В связи с высокой вероятностью перехода на постоянную работу по удаленным схемам, в ближайшей перспективе, на рынке труда будет расти число краткосрочных контрактов, которые, безусловно, негативно будут воздействовать на настроение, психологическую собранность и профессиональный рост кадров.

Проблемы и вопросы безработицы и дефицита достойного труда за последнее десятилетие постоянно обсуждались в международных организациях ведущих стран мира - по сути, эта проблема не нова. Неслучайно, вопросы безработицы и бедности вошли в число самых наболевших и острых проблем глобального масштаба тысячелетия. Так, в докладе МОТ отмечается, что во многих регионах планеты показатели безработицы и дефицит достойного труда останутся неизменно высокими. Надо учесть, что данный доклад был предоставлен в январе 2018 года, в допандемический период [7]. Одной из важных задач рассматривалось решение проблем,

образовавшихся в результате структурных сдвигов и старения населения, что добавило существенные трудности на рынке труда. В структуре занятости, со временем, усилится роль сектора услуг, отличающегося сезонным фактором и, если учесть нестабильную занятость в сельском хозяйстве и сокращение рабочих мест в промышленности, то, как было отмечено, усиление проблемы неизбежно. Оптимальное сочетание и совершенствование структуры занятости населения во многом зависит и взаимосвязано с отраслевой структурой хозяйства и, в целом, экономики страны. Отраслевая структура хозяйства подразумевает состав хозяйства страны, районов или территорий по формам производственной деятельности, по видам производимой продукции, оказываемым услугам и по соотношению между основными подразделениями хозяйства – отраслями национальной экономики [8]. Применяемая государственная политика и основные ее механизмы должны учитывать взаимосвязь и взаимодействие разных отраслей экономики, эффективное размещение производительных сил, использование трудовых ресурсов в регионах страны, мотивируя и обеспечивая экономическую активность населения. Одним из важных направлений применения эффективных механизмов, на наш взгляд, может быть всестороннее и повсеместное расширение и использование цепочки добавочной стоимости производства, тем самым способствуя созданию конкурентоспособных перерабатывающих предприятий, услуг, фермерских хозяйств, агропарков, агропромышленных комплексов, промышленных зон и технопарков. Т.е. необходимо усилить роль инновационной составляющей трудовых процессов и повысить надежность создаваемых рабочих мест. Более того, все имеющиеся тенденции и закономерности структурных изменений занятости должны системно изучаться с дальнейшим применением адекватных мер по разрешению накопившихся проблем в продвижении положительного опыта развития разных отраслей экономики и усиления занятости. Для успешного решения отраслевых диспропорций спроса и предложения трудовых ресурсов необходимо планомерно обеспечить подготовку требуемой квалифицированной рабочей силы с повышением качества подготовки специалистов, созданием отлаженной системы непрерывного образования, учитывая, в том числе и развитие системы профессионального технического образования. В результате чего сформируются условия и основы обеспечения необходимого количества и качества трудовых ресурсов в соответствии с требованиями разных отраслей экономики страны. Кроме того, особо необходимо дать толчок развитию малого и среднего предпринимательства в разных секторах и отраслях экономики, что обеспечит хорошую базу для структуры экономики, занятости и доходам населения [9].

Исследователь Низова Л.М. рассмотрела проблемы государственного регулирования занятости населения в современной экономической системе и сформулировала ряд теоретических подходов в данном направлении. Так, по мнению автора: «В сфере занятости сформирована институциональная среда: к числу формальных институтов относится система учреждений, т.е. государство, органы службы занятости, рынки, работодатели, профсоюзы и система правовых норм: законы, указы, постановления и пр.» [10]. Считаем, что как раз государство и его политика в сфере занятости должны концентрироваться на эффективном сотрудничестве вышеприведенных институтов, учреждений и организаций для повышения продуктивности и качества проводимых мер. Такие действия предусматривают рост занятости населения, препятствуют усилению разрыва отраслевой структуры занятости, постоянное проведение превентивных и комплексных мер для обеспечения динамичности рынка труда, приоритетности создания достойных рабочих мест, снижение уровня неформальной занятости, мотивации и стимулирования субъектов предпринимательства и бизнеса по созданию новых рабочих мест.

Следует подчеркнуть, что совершенствование отраслевой структуры занятости и связанные с ней проблемы приобретают более актуальность не только в связи с пандемией, но и в контексте новых вызовов постиндустриального общества и требований 4.0 индустрии. Все это обуславливает перестройку существующей отраслевой структуры занятости, развития рынка труда с учетом важных тенденций рынка занятости в целом. Например, сегодня растет число людей, занятых в торговле, управлении, финансовом секторе, образовании, гостиничном деле, здравоохранении и иных сферах и, естественно, требуется учитывать данный фактор в отраслевой структуре занятости [11].

В формировании и реализации государственной политики, разных целевых программ и стратегий в области занятости и труда необходимо учитывать фактор человеческого капитала. Значимость человеческого капитала определяется рядом аргументов, и в том числе, зависит от уровня профессиональной подготовки, производительности труда, владениями новыми научно-техническими знаниями, цифровой технологией и пр. Кроме того, требуется развитие институтов рынка труда в соответствии со стратегией занятости, повышения уровня организации и предоставления услуг, механизмов по содействию занятости работоискателя. Порой государственные структуры в этой сфере не владеют данными качествами и, в основном, ограничиваются регистрацией работоискателя в качестве безработного. Они не в состоянии оказать востребованную помощь и содействие по его трудоустройству. При этом немаловажным фактором является реформирование и перестройка отдельных звеньев и структур государственной службы или Агентства занятости населения, а так же развитие сети частных агентств по занятости. Нужно обеспечить эффективную форму сотрудничества по схеме: «государственные органы занятости – частные агентства занятости – общественные организации, особенно, неправительственные организации – работодатели - работоискатели». Подобные взаимодействия вышеприведенных структур и организаций могут способствовать эффективному структурному преобразованию на рынке занятости населения в современных условиях и в разных отраслях экономики страны. По мнению исследователя В.В.Ольховского для оптимального совершенствования отраслевой структуры занятости необходимо решение ряда важных задач: «Глубокое изучение основных элементов формирования механизма структурных преобразований занятости населения, оптимальное определение закономерных направлений развития занятости в разных отраслях экономики страны, группировка воздействующих факторов на занятость, разработка модели прогноза развития занятости на ближайшие и долгосрочные перспективы, внедрение расчетной методики деятельности институтов управления по политике занятости» [12, с.4]. Поэтому в нынешних условиях особо необходимо учитывать все принципы и сегменты, тенденции и прогнозы рынка труда, занятости, перепланирования трудоустройства с участием государственных и частных структур занятости страны. Актуальным рассматривается обеспечение и оптимизация спроса и предложения по представлению вакансий и подготовленного персонала – работоискателей в разных сферах рынка труда. В условиях интенсивного роста цифровизации экономики и расширения электронных услуг, автоматизации рабочих мест, потребность в немеханизированном человеческом труде, несомненно, снижается, в результате чего идет постоянный отток высвобождении рабочей силы из разных отраслей экономики, который серьезно отражается на социально-экономических процессах. Для сбалансирования данной ситуации необходимо модифицировать структуру занятости путем новых направлений экономической деятельности и видов занятости, в том числе, за счет ускорения развития экономики знаний и эффективного использования интеллектуальных ресурсов с превращением их в реальные идеи, источники добавочной стоимости и рабочих мест.

Вопросы и проблемы совершенствования отраслевой структуры занятости актуален и для Азербайджана, который вследствии пандемии, как и во всем мире, испытывает трудности по компенсации рабочих мест и совершенствованию структуры из-за ограничений или полностью паралича основных видов деятельности сектора услуг, в том числе, туризма. Правда, за последние годы за счет расширения и интенсификации деятельности ряда отраслей ненефтяного сектора страны, например, химия и нефтехимия, металлургия, электроэнергетика, информационно-коммуникационные технологии, пищевая и легкая промышленность, сельскохозяйственный сектор и агрокомплексы создались прочные и устойчивые механизмы, накоплен потенциал по обеспечению населения страны. Повышается уровень образования, которое способствует улучшению человеческого капитала и решения насущных проблем безработицы [13].

## ЗАКЛЮЧЕНИЕ

Новые вызовы и негативные глобальные воздействия обуславливают рост расширения границ и объемов ненефтяных и трудоемких отраслей экономики страны, тем самым создавая больше выбора достойного рабочего места для работоискателей. Таким образом, можно сформулировать ряд приоритетных задач:

- необходимо глубокое изучение происходящих процессов на рынке труда и в сфере занятости в мире с учетом воздействия пандемии COVID – 19 и постпандемического периода;
- целесообразно извлечь уроки из глобальных кризисов за последнее десятилетие – мирового финансового кризиса и пандемии, и изучить их влияние на сферу занятости, разработать многофакторные и многофункциональные антикризисные модели и механизмы обеспечения занятости для совершенствования ее отраслевой структуры;
- требуется создание более тесного взаимодействия и доверительной среды для всех заинтересованных структур и подразделений, организаций и предприятий по объективному раскрытию существующих проблем и причин, замедляющих совершенствование отраслевой структуры занятости и принятие адекватных мер по их решению в современных условиях и в долгосрочной перспективе.

Ключевые слова: пандемия COVID – 19, постпандемический период, занятость, совершенствование отраслевой структуры занятости, занятость в мире, занятость в Азербайджане, рынок труда, государственная политика занятости.

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Балабанюк Ж. Мир после пандемии: каким будет глобальный рынок труда в 2030–2050 годах. 3 Декабря 2020. https://mind.ua/ru/openmind/20219270-mir-posle-pandemii-kakim-budet-globalnyj-rynok-truda-v-20302050-godah.*

*2. Мачавариани Г.И. Мировая экономика в условиях пандемии. 28.09.2020. https://www.imemo.ru/news/events/text/mirovaya-ekonomika-v-usloviyah-pandemii.*

*3. Аналитическая записка: сфера труда и COVID-19. Подготовлена при поддержке ряда структур Организации Объединенных Наций под руководством Международной организации труда. ИЮНЬ – 2020 года. – 135 с. https://www.un.org.*

*4. COVID-19 и человеческий капитал. Международный банк реконструкции и развития / Всемирный банк, Вашингтон, 2020 г.–148 с.*

*5. Калмыков А. Коронавирус оставил миллионы людей без работы. Многие из них об этом еще не знают. 11 октября 2020. https://www.bbc.com/russian/features-54462688.*

*6. Хвостик Е. 4 сценария развития экономики после пандемии коронавируса. 1 июня 2020. https://sia.ru.*

*7. Уровень безработицы и дефицита достойного труда в 2018 году останется высоким, считает МОТ. 22 Январь 2018 г. https://www.ilo.org/moscow/news/WCMS_616001/lang--ru/index.htm.*

*8. Структура занятости населения. Отраслевая структура хозяйства. https://syn-ergy.ru.*

*9. Развитие рынка труда и обеспечение занятости населения. http://www.krskstate.ru/2030/plan/3_3/0/print/yes.*

*10. Низова Л.М., Государственное регулирование занятости населения в современной экономической системе. Дисс. д-ра экон.наук, Йошкар-Ола, 2011.–405.*

*11. Исачкин, В.С. Структурные основы теории постиндустриального общества. http://teoria-practica.ru.*

*12. Ольховский, В.В. Структурные преобразования занятости населения в современной экономике. Авт-т дисс. канд. экон. наук. Москва-2020.– 24 с.*

*13. Muradov, R.Sh. Unemployment And Some Issues Of Use Of Human Capital / Economic And Social Development (ESD 2019): 37th International Scientific Conference On Economic And Social Development - Socio Economic Problems Of Sustainable Development. 2019. – с. 539-546.*

## XÜLASƏ
## PANDEMİYA VƏ POSTPANDEMİYA DÖVRÜNDƏ MƏŞĞULLUĞUN SAHƏ STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

Məqalədə pandemiya və postpandemiya dövründə məşğulluğun sahə strukturunun təkmilləşdirilməsi problemləri tədqiq olunmuşdur. Hazırkı şəraitdə dünya əmək bazarında və məşğulluq sahəsində mövcud vəziyyət baxılmışdır. İşsizliyin artması, iş yerlərinin bağlanması və məşğulluq imkanlarının zəifləməsi ilə bağlı problemlər açıqlanmışdır. İqtisadiyyatın müxtəlif sahələrində yeni iş yerlərinin yaradılması və məşğulluq imkanlarının artırılmasının vacibliyi əsaslandırılmışdır. Pandemiyanın təsiri ilə bağlı Azərbaycanda dünya təcrübəsi nəzərə alınmaqla, qeyri-neft sektoru sahələrinin məşğulluq potensialının yüksəldilməsi problemlərinə toxunulmuşdur. Müasir dövrün çağırışlarından çıxış etməklə, pandemiya və postpandemiya şəraitndə məşğulluğun sahə strukturun təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Açar sözlər:** *COVID – 19 pandemiyası, postpandemiya dövrü, məşğulluq, məşğulluğun sahə strukturunun təkmilləşdirilməsi, dünyada məşğulluq, Azərbaycanda məşğulluq, əmək bazarı, dövlət məşğulluq siyasəti.*

## SUMMARY
## PROBLEMS OF IMPROVING THE SECTORAL STRUCTURE OF EMPLOYMENT IN PANDEMIC AND POSTPANDEMIC PERIOD

The problems of improving the sectoral structure of employment in pandemic and postpandemic period are investigated in the article. The current situation in the world labor market and employment is considered for this purpose. Problems related to strengthening employment opportunities are analyzed then. The importance of creating new jobs in various sectors of the economy is considered. The problems of increasing the employment potential of the non-oil sector in Azerbaijan taking into account the world experience are analyzed too. Recommendations and proposals to improve the sectoral structure of employment in pandemic and postpandemic conditions are given in the end of the article.

**Keywords:** *pandemic COVID - 19, post-pandemic period, employment, improvement of the sectoral structure of employment, employment in the world, employment in Azerbaijan, labor market, state employment policy.*

UOT: 338.48: 379.851

# PANDEMİYA VƏ POSTPANDEMİYA DÖVRÜNDƏ REGİONAL TURİZMİN İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

**NURAN HÜSEYNLİ**
*Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı*

*E-mail: nurangaga@yahoo.com*

Müasir dövrdə turizm sektoru ilə bağlı problemlər kifayət qədər aktualdır və bu sahənin problemlərinin zəmanənin çağırışlarına uyğun həlli yollarının müəyyənləşdirilməsi tələb olunur. Xüsusilə, pandemiya səbəbindən turizm sektoru iflic vəziyyətinə düşmüşdür və onun fəaliyyətinin post-pandemiya dövründə reabilitasiyasına, inkişaf tempinin bərpa olunmasına xeyli vaxt lazım gələcəkdir. Turizmin şaxələndirilməsində regional turizm amili kifayət qədər önəmli yer tutur və istərdik ki, bu sahənin aktual problemlərinə və inkişaf perspektivlərinə daha çox diqqət yetirək.

Regional turizmin inkişafının nəzəri-metodeoloji əsasları və konseptual baxışları ilə bağlı mexanizmilər və müddəalar mürəkkəb bir sistemdir [1]. Burada planlaşdırma, prozqnozlaşdırma, idarəetmə, marketinq, sosial- iqtisadi proseslər və onların təsiri ciddi rol oynayır [2]. Regional turizmin inkişafına təsir edən amillər iş prosesində elmi yanaşmalardan kənarlaşıb, artıq praktiki yanaşma ilə əvəzlənir. Burada müxtəlif yanaşmalar, onların tətbiqi və spesifikliyi ön plana çıxmış olur [3]. Əslində turizmin həm spesifik sadəcə turizmə aid xidmət növləri, həm də dolayı olaraq turizm ilə kəsişən xidmət növlərinin cəmi olaraq qiymətləndirilib, regional turizmə təsirləri ümumiləşdirmək olar. Bu proseslərdə baş verən hadisələrə, spesifik xüsusiyyətlərə və hallara nəzəri-metodoloji baxımdan, buradakı problemlərin mahiyyətini açıqlamaq vacib şərtlərdəndir [4]. Problemlərin mahiyyətini açıqlamaq məqsədilə bir qrup metodlara, o cümlədən bu sahənin - turizmin funksiyaları: mədəni, dərketmə, dünyagörüşü və istehsal funksiyaları ilə bağlı metodlara daha çox üstünlük verilmişdir.

Qeyd edək ki, 4 iyun 1999-cu ildə qəbul olunmuş "Turizm haqqında Azərbaycan Respublikasının Qanunu"nda göstərilir ki: "Turizm - Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir" [5]. Turizm anlayışının ekskursiya anlayışından fərqləri olması, eləcə də turizmin rekreasiya anlayışından fərqlərinin mövcudluğuna baxmayaraq, turistlər üçün kəsişmə nöqtələrindən istifadə edərək, burada çoxfunksiyalı regional turizmə dəstək verməklə, ümumilikdə turizm sektorunun inkişafına daha geniş töhfə verəcək çoxvektorial mühim bir sistem yaratmaq üçün səylərin birləşdirilməsi və dövlət-özəl parntyorluğunun səmərəli inkişaf etdirilməsi istiqamətində sistemli və kompleks tədbirlərin görülməsinin təşkili mümkündür. Bunun üçün ölkə regionlarında füsunkar təbiət, ixtisaslaşmış kadrlar və biznes fəaliyyəti ilə məşğul olmaq üçün münbit şəraitə ehtiyac vardır ki, ölkəmizdə bunların əhəmiyyətli hissəsi vardır və bu istiqamətə fokuslanıb mövcud potensialdan istifadəni təmin etmək lazımdır.

Ölkəmiz üçün regional turizm sadəcə 2020-ci ildə pandemiya ilə əlaqədar olaraq minimum fəaliyyət səviyyəsinə enmişdir. Halbuki, pandemiyaya qədər olan son 5 ildə regional turizm sahəsi davamlı olaraq inkişaf etmişdir və bu sahə ölkəmizin postneft dövründə dinamik inkişaf edən qeyri-neft sahələrindən biri kimi xarakterizə olunur. Ümumilikdə, ölkəmizdə turizm sektoruna dövlət dəstəyi mexanizmlərinin və alətlərinin olması da öz təsirini regional turizimin yeni çeşidlərinin formalaşdırılmasına, xidmətin yüksəldilməsinə, heyətin peşəkarlığının artırılmasına, ən ucqar

regionlarda belə infrastrukturun güclənməsinə müsbət mənada təsir göstərə bilmişdir. Ölkə Prezidentinin 16 mart 2016–cı il tarixli "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilə qədər strateji baxış formalaşdırılmış, 2025-ci ilə qədər və ondan sonrakı dövrü əhatə edən uzunmüddətli hədəflər müəyyənləşdirilmişdir [6].

Turizm – rekreasiya sisteminin mahiyyəti ilə bağlı qeyd etmək olar ki, turizmə təsir edən amillərin müxtəlifliyi, spesifikliyi və stereotiplərdən asılılığı, mentalitetlərdən, ictimai həyat, adət-ənənələrdən, antropagen dəyişikliklərdən, iqtisadi, maliyyə, eləcə də spekulyativ hadisələrin həyatımıza qlobal təsirlərindən çox ciddi şəkildə asılıdır. Baxdığımız problemin aktuallıq səviyyəsi onun pandemiya dövründəki tendensiyalarından əvvəl və sonra özünü təzahür edir. Burada daxili turizmə yönəlmə, kapitalın ölkə ərazisində qalması və ölkənin müxtəlif dövlət proqramları vasitəsi ilə regionların inkişaf planları strategiyalarından əmələ gələn yeni, yüksək texnologiyalar əsaslı infrastruktur, sosial həyat, əhalinin yaşayış səviyyəsində özünü göstərmiş olur.

Azərbaycanda regional turizmə kompleks halında baxılmalı və onun fərqli xüsusiyyətlərindən istifadə edərək, hər regionun özünəməxsusluğundan çıxış etməklə, həmin regionda turizmin potensial inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi vacibdir. Turizm vasitəsi ilə fərqli adətlər və mədəniyyətlərlə tanış olmağın sülhü və beynəlxalq anlayışı möhkəmləndirməkdə vacib bir faktor olduğuna və təhlükəsizliyin turizmin uğurlu şəkildə inkişaf etməsinə inanaraq qəbul edilməyə başlayan bir Osaka deklarasiyasını nəzərə alsaq, beynəlxalq münasibətlərin insanların həyatında səyahət, turizm anlayışlarının inkişafında insanların daha təhlükəsiz bir dünyada yaşamağının iqtisadi mənada da onlara necə də müsbət təsir etdiyini anlamağa bəs edər [7].

Ərazinin rekreasiya cəhətdən dinamikliyi, həmçinin ətraf mühitin antropogen təsirə az məruz qalması turizm ehtiyatlarından istifadənin səmərəliliyini artırır. Bununla yanaşı, turizm ehtiyatlarından istifadənin uzunmüddətliyi onun orijinallığından, yerləşdiyi ərazinin coğrafi mühitindən və ona yönəldilən kapitalla birbaşa əlaqəli olur. Regional turizmin ərazi planlaşdırması və onun idarəedilməsi yanaşmalarına baxarkən, regional turizmin ən böyük problemlərindən birinin-turizm ehtiyatlarından qaynaqlandığını görmək mümkündür. Turizm ehtiyatları deyərkən nəzərdə tutulan, onların istifadə edilə bilmək və ya istifadə edilmək istənməyi mənası ilə intensiv, ekstensiv, az mənimsənilən və ya heç mənimsənilməyən torpaq və ərazi qruplarına bölündüyü nəzərə alınmalıdır. Regional turizmin elmi aspektində nəzəri olaraq bu ərazilərin hamısına eyni baxıla, hamısı üçün ümumiləşdirmə vermək düzgün yanaşma kimi qəbul olunmazdır. Ümumiyyətlə, turizm ehtiyatlarından səmərəli istifadə həm iqtisadi, həm sosial tərəfdən vacib və regional turizmin inkişaf konsepsiyasına uyğun olmalıdır.

Ölkənin yüksək potensiala və investisiya cəlbediciliyi baxımından əksər şərtlərə cavab verən Cənub regionu – Lənkəran iqtisadi rayonu regional turizm imkanları baxımından kifayət qədər ehtiyat mənbələrinə malikdir. Belə ki, bu regionda postpandemiya dövründə zəmanəmizin dünyəvi dəyərlərə və əhəmiyyətə malik olan bir çox xüsusiyyətlərini özündə birləşdirən və çoxsaylı millətlərin mehriban, birgə yaşaması əsasında multikultural turizm – rekreasiya komplekslərinin yaradılması üçün münbit mühit və şərait vardır. Məsələn, Yardımlı rayonunda füsunkar təbiətə malik və rekreasiya imkanları ilə zəngin olan bir ərazi seçilir və orada Xəzər dənizi hövzəsi ölkələrindən olan turizm firmaları ilə birlikdə müştərək regional turizm kompleksləri yaradılır.

Burada bir tərəfdən yerli turizm ehtiyatları dövriyyəyə daxil edilir, infrastruktur inkişaf olunur, daxili və xarici investisiyalar cəlb edilir, regional əməkdaşlıq formalaşdırılır və turizm müəssisələrinə ölkə daxilindən, digər ölkələrdən, ilk növbədə region ölkələrindən gələnlərin sayının əhəmiyyətli artımı üçün əsas yaradılır. Belə unikal turizm-rekreasiya kompleksləri vasitəsi ilə həm qısamüddətli (daha çox daxili turizm), həm də uzunmüddətli turizm fəaliyyəti üçün çox əlverişli innovativ destinasiya olmaqla turizmcəlbediciliyi baxımından çox səmərəli bir investisiya, layiqli iş yerləri və regionların iqtisadi inkişafına ciddi töhfələr verə bilən, insanlara gəlir gətirən qədər təsiredici amillər vasitəsi ilə ölkəmizin turizm sektorunu müəyyən mənada elastikləşdirmiş olar. Daxili turizm potensialı və bir neçə ölkəni gəzmək, onları öyrənmək və bu arada sanitar-gigiyenik çəkinmə riskinidə (qloballaşan dünyada pandemiyaya görə turistlərin ölkələrə gedərkən COVİD - 19 pasportu və psixoloji qorxu nəzərdə tutulur) minimuma endirmiş olacaqdır.

Ölkəmizə xarici valyutanın gəlməsi və eləcə də kapitalın ölkə ərazisindən çıxmaması fikrinin

formalaşdığı davamlı və dayanıqlı iqtisadiyyata kifayət qədər ciddi dəstək fonunda bunu etmək ölkə iqtisadiyyatının differensiallaşması və diversifikasiya edilməsi istiqamətində dövlət və özəl partnyorluq zəminində daha çox səmərə verə bilər.

Bundan əlavə, Azərbaycan Respublikası Meşə Məcəlləsinin birinci fəslində qeyd olunur ki, yaşıllıq zonalarının meşələri – şəhərlərin və digər yaşayış məntəqələrinin sərhədləri xaricində və ya onlara yaxın olan sahələrdə yerləşən, mühüm qoruyucu, sanitariya-gigiyena, sağlamlaşdırma funksiyalarını yerinə yetirən və əhalinin istirahəti üçün istifadə edilən meşələrdir [8]. Yaşıllıq zonalarının meşələri ölkənin turizm-rekreasiya kompleksinin obyektlərindən biri kimi çıxış edir və bu imkanların mühafizəsi və eləcə də səmərəli istifadə olunması üçün təqdim edilməsi çox vacib olan sahələrdən biridir. Digər tərəfdən, əvvəldə bildirdiyimiz kimi, Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi iki əsas məqsəd üzərində qurulmuşdur: sektor üzrə əsas stimullaşdırıcı mexanizmlərə əlavə olaraq, ixtisaslaşmış turizm sahələri üzrə Bakı və regionların inkişaf etdirilməsi. Nəzərdə tutulan məqsədlərə nail olunması və prioritetlərin uğurlu icrası turizm sektorunun inkişafına məqsədyönlü yanaşmadan asılıdır. Bundan əlavə, regionların sürətli inkişafına uyğun olaraq, səmərəli idarəetmənin formalaşdırılması və hər bir regionun coğrafi mövqeyi nəzərə alınmaqla, xüsusi turizm tədbirlərinin həyata keçirilməsi zəruridir. Bu yanaşmalardan biri də turizm potensialı zəngin olan müvafiq ərazilərdə turizm və rekreasiya zonalarının yaradılmasıdır [9, s.28]. Regional turizmin imkanlarının və mövcud problemlərin həlli üçün dərindən təhlillərin aparılması çox vacib məsələlərdəndir. Regional turizmin təhlil edilməsi, onun statistik göstəricilərinin yenilənməsi və təkmilləşdirilməsi, ümumiyyətlə şəffaflığın artırılması və müvafiq strukturun bu işlə məşqul olması ümumi olaraq ölkədə gedən proseslərə öz müsbət təsirini göstərmiş olar. Burada sistemli və kompleks təhlildən, eləcə də analitik təhlildən istifadə etmək səmərəli ola bilərdi. Müəyyən müddətlik statistik məlumatların turizm assosiasiyaları tərəfindən yığılması və bu işin təkcə statistika komitəsinin öhdəsinə saxlanılmaması daha şəffaf göstəricilərin üzə çıxmasına şərait yarada bilər. Regional turizmin spesifikliyi elə onun nəzəri yanaşmalarında özünü büruzə verərək kompleks şəkildə nəzərə alınmaqla həm menecmentə, həm quruluşa, həm də şaquli və üfüqi quruluşun inkişafına özü-özlüyündə təkan verəcək bir sistemin altsistemləri kimi çıxış edirlər. Burada müxtəlif turizm növlərinin, iqlimin, antropogen göstəricilərin, digər mühim daxili və xarici amillərin təsirindən əmələ gələn vəziyyətin analitik informasiyası formalaşır və bu vəziyyətə uyğun olaraq regional turizmin formalaşmasının ilkin inkişaf istiqamələrini və fəaliyyət mexanizmlərini müəyyənləşdirmək mümkündür.

Qeyd edək ki, hazırda bütün dünyada turizm sektorunun, o cümlədən regional turizmin postpandemiya dövründə inkişaf trendlərinin formalaşdırılması və reallaşdırılmasına hazırlıq prosesləri gedir, diskussiyalar aparılır və yeni mexanizmlər müəyyənləşdirilir. Ümumdünya Turizm Təşkilatının mütəxəssisləri postpandemiya dövründə turizmin dirçəlməsi istiqamətində fəaliyyətin gücləndirilməsini, rəqabətqabiliyyətli yeni xidmətlərin göstərilməsini vacib sayırlar [10]. Ölkəmizdə də turizm sektorunun, xüsusilə regional turizmin postpandemiya şəraitində inkişafının imkanları qiymətləndirilməkdədir. Belə hesab olunur ki: “Pandemiya dövründə Azərbaycanda daxili turizmin fəaliyyəti və inkişaf perspektivlərinin dəqiq mexanizmi işlənib hazırlanmalı, müvafiq qurumlara və ictimaiyyətə təqdim edilməlidir” [11]. Eyni zamanda, COVİD – 19 pandemiyası turizm sektoruna və regional turizmin rəqabətqabiliyyətliliyinə mənfi təsiri obyektiv olaraq qiymətləndirilməlidir. Dünya səviyyəsində də bu problemlərə ciddi önəm verilir. Məsələn: “Dünyada turizm iqtisadiyyatının itkisi təxminən 1,2 trilyon ABŞ dollarından çoxdur. Turizm sahəsində 120 milyon iş yeri təhlükə altına düşmüşdür” [12].

Buna görə də, postpandemiya dövründə turizm müəssisələrinin gəlirlilik səviyyələrinin daha tez bərpa olunması vacib şərtlərdəndir. Bunun üçün isə turizm xidmətlərinin əlçatanlığına və keyfiyyət parametrlərinə ciddi önəm verilməlidir. “Postpandemiya dövründə fərqli turizm şəraiti olacaq. İnsanların həm psixoloji durumu fərqlənəcək, həm onların səyahətlərdən çəkinməsi halları olacaq, həm də təhlükəsizlik məsələlərinə daha çox diqqət yetirəcəklər” [13]. Bu amillər baxımından, postpandemiya şəraitində regional turizmin inkişaf istiqamətlərinin və fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə mövcud aktual problemlərin daha səmərəli həlli yollarının müəyyənləşdirilməsi vacib olaraq qalmaqdadır.

## YEKUN

Beləliklə, bu qənaətə gəlmək olur ki regional turizm özünəməxsus modelləri, konseptual sistem və altsistemləri ilə mürəkkəb bir kompleks halında dialektik üsul və digər üsullarla tədqiqata zərurəti olan bir sahədir. Bu baxımdan, hələ də tədqiq edilməyən bir sıra aktual istiqamətlərdən və ya az tədqiq edilən sektorların məcmusundan ibarətdir. Burada bir sıra məsələlərə dair fikirlərimizi və təkliflərimizi ümumimiləşdirməyi vacib hesab etmişik:

- ilk növbədə, postpandemiya şəraitində ölkəmizdə regional turizmin inkişafına və daha tez reabilitasiya edilməsinə dair konseptual yanaşmalar formalaşdırılmalı və qlobal təzyiqlərə adekvat olan fəaliyyət mexanizmləri hazırlanmalı, tətbiq edilməlidir;
- regional turizmin inkişaf istiqamətlərinin şaxələndirilməsi məqsədilə Regional Turizm-Rekreasiya Komplekslərinin təşkilinə ciddi önəm verilməli, bu istiqamətdə region ölkələrinin turizm şirkətləri və potensial investorlarla əməkdaşlıq gücləndirilməlidir;
- regional turizmin dünya standartlarına cavab verən rəqabətqabiliyyətli infrastruktur şəbəkəsinin formalaşdırılması və inkişaf etdirilməsi üzrə daha səmərəli dövlət dəstəyi mexanizmlərinin tətbiq edilməsi vacibdir;
- postpandemiya şəraitində regional turizm subyektlərinin maliyyə sabitliyinin təmin olunması və dövriyyə vəsaitlərinə olan tələbatın ödənilməsi, pandemiyadan yaranan zərərlərin aradan qaldırılmasının tezləşdirilməsi məqsədilə ən azından 5 illik müddətə vergi güzəştlərinin müəyyənləşdirilməsi məqsədəuyğundur;
- regional turizm subyektlərinin fəaliyyətinin elmi-metodiki əsaslarla öyrənilməsi, bu sahədə dövlət siyasətinin təkmilləşdirilməsi üçün obyektiv informasiya bazasının yaradılması məqsədilə regional turizm fəaliyyətinin statistikası dünya təcrübəsi sıviyyəsində təşkil edilməlidir;
- regional turizmin postpandemiya şəraitində inkiaşfının intensivləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə "dövlət-özəl sektor" əməkdaşlığının gücləndirilməsi, özəl turizm subyektlərinin maliyyə-kredit əlçatanlığının təmin olunması tədbirləri görülməlidir;
- postpandemiya şəraitində ölkəmizdə regional turizmin inkişafının modelləşdirilməsi və səmərəliliyinin artırılmasını sürətləndirmək üçün "2021-2025-ci illərdə Azərbaycanda regional turizmin rəqabət qabiliyyətliliyinin və dayanıqlılığının artırılması üzrə Dövlət Proqramı"nın hazırlanması və reallaşdırılması məqsədəmüvafiq hesab olunur və s.

**Açar sözlər:** *turizm, turizm-rekreasiya kompleksi, regional turizm, pandemiya və postpandemiya, turizm ehtiyatları, turizm xidmətləri, turizm sektorunda regional əməkdaşlıq, regional turizmin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Проблемы и перспективы развития туризма в Южном федеральном округе : сб. науч. тр. – Симферополь:ИТ «АРИАЛ», 2017.– 300 с.*

*2. Рубаник А.Н. Технологии въездного туризма. – 2-е изд., исп. / А.Н. Рубаник, Д.С. Ушаков. – Ростов н/Д: Изд. центр «МарТ»; Феникс, 2010. – 384 с.*

*3. Кириллова, С.А. Тенденции и потенциал развития глобального и регионального рынков туристских услуг [Текст] / С. А. Кириллова // Инновационные технологии управления социально-экономическим развитием регионов России. Материалы VII Всероссийской научно-практической конференции с Международным участием в 2-х частях. – 2015. – С. 89-98.*

*4. Кириллова С.А., Чернуха Д.С. Развитие глобального, национального и регионального туризма: состояние, тренды, прогнозы // Интернет-журнал «Науковедение» Том 9, №6 (2017) https://naukovedenie.ru/PDF/92EVN617.pdf.*

*5. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 iyun 1999-cu il, № 674-IQ.*

*6. Azərbaycan Respublikasında iştisaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*7. Осакская декларация тысячелетия. Принята Конференцией лидеров туризма Тысячелетия. Осако (Япония), 30 сентября – 1 октября 2001 года.).*

*8. Azərbaycan Respublikası Meşə Məcəlləsi. 30 dekabr 1997-ci il tarixli N 424-IQ nömrəli "Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.*

*9. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. AzTU, Bakı. – 2015. –475 s.*

*10. BMT-nin Ümumdünya Turizm Təşkilatı postpandemiya dövründə turizmin dirçəlməsi istiqamətində fəaliyyət göstərəcək. 25.08.2020. https://azertag.az/xeber/BMT_nin_Umumdunya_Turizm_Teskilati_postpandemiya_dovrunde_turizmin_dirchelmesi_istiqametinde_fealiyyet_gosterecek-1568781.*

*11. Azərbaycanda turizmin inkişaf perspektivlərinin dəqiq mexanizmi hazırlanacaq. 27 Aprel, 2020. https://report.az/turizm/turizmin-inkisaf-perspektivlerinin-deqiq-mexanizmi-hazirlanacaq/.*

*12. ООН: Потери мирового туризма из-за COVID-19 могут составить $1,2 трлн. https://www.aa.com.tr/ru.*

*13. Dövlət Turizm Agentliyi: Postpandemiya dövründə rəqabətə hazır olmaq üçün yeni turizm məhsullarının yaradılmasını istəyirik. 9 Sentyabr 2020. https://az.trend.az/business/tourism/3296457.html.*

## РЕЗЮМЕ

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ РЕГИОНАЛЬНОГО ТУРИЗМА В УСЛОВИЯХ ПАНДЕМИИ И В ПОСТПАНДЕМИЧЕСКОМ ПЕРИОДЕ

В статье исследованы актуальные проблемы развития регионального туризма в условиях пандемии и в постпандемическом периоде. Раскрыта сущность теоретико-методологических особенностей формирования и развития сферы регионального туризма. Исходя из международного опыта, рассмотрены приоритетные направления развития регионального туризма в Азербайджане. Даны преимущественные факторы создания туристическо-рекреационного комплекса и зон отдыха в Ленкоранском экономическом районе, в частности, в Ярдымлинском районе. Обоснована эффективность усиления взаимодействия и сотрудничества субъектов сектора туризма стран Прикаспийского региона. Отмечена многофункциональность и роль регионального туризма в развитии инфраструктуры, повышении доходов населения, открытии новых рабочих мест и создании добавочной стоимости в экономике страны. Рассмотрена важность применения более эффективных механизмов государственной поддержки сектора регионального туризма в нынешнем периоде. Подготовлены рекомендации и даны предложения по актуальным проблемам развития регионального туризма в условиях пандемии и в постпандемическом периоде.

**Ключевые слова:** *туризм, туристско-рекреационный комплекс, региональный туризм, пандемия и постпандемический период, туристические ресурсы, туристические услуги, региональное сотрудничество в сфере туризма, перспективы развития регионального туризма.*

## SUMMARY

## MAIN ISSUES OF REGIONAL TOURISM DEVELOPMENT IN THE PANDEMIC AND POST-PANDEMIC PERIOD

Main problems of regional tourism development in pandemic and post-pandemic conditions are examined in the article. The essence of theoretical and methodological features of formation and development of the sphere of regional tourism is disclosed. Based on international experience, priority directions of development of regional tourism in Azerbaijan are considered. The factors of creation of tourism and recreation areas in Lankaran economic region, in particular, in Yardimli district are given then. The effectiveness of strengthening cooperation of tourism sector entities of the Caspian countries is justified. The multifunctional nature and the role of regional tourism in the development of infrastructure, increasing incomes of the population, opening new jobs and creating added value in the country's economy are investigated too. The importance of more effective public support mechanisms for the regional tourism sector in the current period is considered. Recommendations and proposals on main problems of regional tourism development in pandemic and post-pandemic conditions are given in the end of the article.

**Key words:** *tourism, tourism and recreational complex, regional tourism, pandemic and post-pandemic period, tourism resources, tourism services, regional cooperation in the field of tourism, prospects for the development of regional tourism.*

УДК: 338.242: 338.242.4: 338.242.46

# УКРЕПЛЕНИЕ СОТРУДНИЧЕСТВА ГОСУДАРСТВЕННОГО И ЧАСТНОГО СЕКТОРА В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

**АСЛАН ИБРАГИМОВ**
*Докторант кафедры «Экономика» Азербайджанского Государственного Экономического Университета*

*E-mail: klamiya@hotmail.com*

Вопросы и проблемы устойчивого развития обуславливают комплексное рассмотрение и решение множественных проблем в той или иной сфере экономики страны, общества, экологии, а так же бережное использование природных ресурсов. Отметим, что актуальные вопросы устойчивого развития уже многие десятилетия находятся под пристальным вниманием международных организаций и ведущих стран мира. Практически все здравомыслящие политики, ученые, экономисты, видные деятели постоянно подчеркивают важность усиления проводимых мероприятий в области устойчивого развития. К тому же, «основные цели в области устойчивого развития считаются своеобразным призывом к действию, исходящим от всех стран - бедных, богатых и среднеразвитых. Он нацелен на улучшение благосостояния и защиту нашей планеты. Государства признают, что меры по ликвидации бедности должны приниматься параллельно усилиям по наращиванию экономического роста и решению целого ряда вопросов в области образования, здравоохранения, социальной защиты и трудоустройства, а также борьбе с изменением климата и защите окружающей среды» [1]. В числе главных целей обеспечения устойчивого развития так же приоритетными являются: содействие неуклонному, всеохватному и устойчивому экономическому росту, полная и производительная занятость и достойная работа для всех, создание прочной инфраструктуры промышленности, отдельных секторов экономики и внедрение инноваций. В этих процессах особое место принадлежит эффективному использованию природных и экономических ресурсов и одновременное всестороннее развитие предпринимательской деятельности. С целью успешного решения основных задач, вытекающих из приоритетных направлений устойчивого развития, немаловажное значение имеет успешное использование потенциала частного сектора и обеспечения тесного сотрудничества государственного и частного сектора во всех сферах общества и экономики [2, с.61]. Кроме того, вовлечение субъектов предпринимательства и бизнеса в экономические процессы продуктивно сказывается на совершенствование действующих механизмов экономической системы и на их прочность, тем самым создавая серьезную почву и потенциал для обеспечения устойчивого развития страны. При этом активность предпринимательских субъектов помогает расширению структуры национальной экономики и способствует динамичности экономического роста [3, с.94]. В соответствии с политической и экономической структурой, страны мира начали уделять больше внимания на появившиеся и усиливающиеся новые парадигмы современности и на определение границ приоритетных направлений действий по усилению стратегической основы устойчивого развития. К таким задачам относятся: повышение роли экономических субъектов и предпринимательских структур в обеспечении полноценной защиты окружающей среды, усиление экономически-экологической системы страны, создание благоприятных

условий динамичности экономического роста и реализация концепций устойчивого развития [4, с.613]. Однако приоритетные вопросы реализации главных целей и задач устойчивого развития требуют учитывать глобальные изменения и прочие факторы. Концепция устойчивого развития претерпела различные изменения и прошла множественные этапы развития с момента ее внедрения. В историческом развитии этой концепции приняли участие различные организации и учреждения, которые в настоящее время активно работают над реализацией ее принципов и целей. «Эти цели объединены в рамках целей в области развития, сформулированных в Декларации тысячелетия 2015 года, в которых изложены задачи, с которыми человечество должно бороться не только для достижения устойчивого развития, но и для выживания на Земле» [5, с.73].

Следует подчеркнуть, что в числе актуальных и сложных проблем тысячелетия один из глобальных вопросов как раз связан с обеспечением устойчивого развития цивилизации и каждой страны. Для этого требуется мобилизация природных и экономических ресурсов с переплетением интеллекта человечества, умений и способностей политиков, управленцев и современного поколения менеджеров. Проблемы устойчивого развития должны охватывать целый ряд приоритетных направлений деятельности:

- у каждого государства должна быть сбалансированная государственная политика по устойчивому развитию страны с учетом глобальных вызовов и трансформаций;
- государство должно иметь концептуальные подходы и механизмы по обеспечению устойчивого развития страны и формировать потенциал для постоянного улучшения жизненного состояния населения;
- экономическая политика государства должна быть нацелена на интенсивное развитие тех перспективных секторов экономики страны, которые отличаются особенностями саморазвития и имеют достаточные сырьевые ресурсы по созданию и развитию сети конкурентоспособных перерабатывающих предприятий;
- в стране необходимо формировать более маневренную модель экономического развития, которая ставит в приоритет стратегические долгосрочные цели, и охватывает потенциальные элементы устойчивого развития страны, тем самым, обеспечив его конкурентоспособность на международном уровне;
- государству необходимо осуществить последовательную политику и усилить законодательную базу с обеспечением расширенной деятельности просветительных работ в сфере мероприятий по удорожанию природных ресурсов, источников воды, лесных запасов, плодотворных участков земель, недр земли, запасов руд и нерудных богатств, углеводородных ресурсов;
- необходимо создать всесторонние возможности и благоприятную среду по развитию человеческого капитала, механизма и инструментария продуктивного использования трудовых ресурсов и производительных сил во всех регионах страны, а так же консолидация и эффективное использование интеллектуальных ресурсов, инновационных начал в стране;
- очень важным рассматривается усиление законодательной базы и механизмов государственно-частного партнерства с целью углубления процессов повышения уровня устойчивости развития общества и страны в целом.

Если исходить из международного опыта по формированию и развитию государственной политики в сфере обеспечения устойчивости страны, то можно отметить ряд принципиальных моментов по повышению продуктивности и рациональности применяемых механизмов и инструментов для усиления сотрудничества в государственно-частном секторе. По мнению группы законодателей и политиков, можно выделить три основных момента, обеспечивающих работоспособность и продуктивность механизмов государственно-частного партнерства в контексте устойчивого развития страны: 1) в процессах разработки и реализации крупных проектов по развитию отдельных отраслей экономики страны необходимо учитывать качественные

элементы и детализацию стратегической направленности намеченных мероприятий; 2) на региональном уровне требуется развитие контрактных моделей, инструментов гарантий и страхования по обеспечению вложенных инвестиций в экономику и общественную инфраструктуру с исполнением своих договорных обязательств сторонами; 3) необходимо более эффективное использование человеческого капитала, кадрового потенциала и существующих трудовых ресурсов во всех регионах страны и тем самым обеспечить общественную и экономическую активность населения, субъектов предпринимательской деятельности и государственных структур [6]. Вопросы усиления основных подходов и механизмов развития государственно-частного сектора обуславливают устранение бюрократических барьеров и преград по эффективности проводимой совместной работы. Сбалансированное развитие сотрудничества государства-предпринимательских субъектов может существенно способствовать обеспечению успешной реализации стратегических целей модели экономического развития страны в контексте устойчивого развития. «Поэтому развитие альянса государства-бизнеса и некоммерческих организаций является одним из важных условий обеспечения устойчивости экономики страны. Устойчивая экономика - это экономика, в которой энергия, вода, земля и другие ресурсы будут использоваться гораздо более эффективно и рационально, чем сегодня. Устойчивое развитие социально ориентировано, предполагает достижение и сохранение в долгосрочной перспективе баланса между экономическими интересами субъектов производственной среды региона и экологическими потребностями населения. Потенциал развития составляют человеческие, биосферные, организационные, финансовые, информационные и образовательные ресурсы» [7, с.107]. Кроме того, при разработке и реализации основных механизмов сотрудничества государственно-частного сектора необходимо учитывать все болезненные факторы и наиболее проблемные вопросы сторон. По мнению исследователя Н.В.Студеникина: «В качестве дальнейших шагов государственно-частного сотрудничества для внедрения принципов устойчивого развития возможно рассмотреть два подхода. Первый — распространение удачного опыта и примеров, где успешно действуют принципы устойчивости.
Второй — совершенствование координации между финансовыми и экономическими министерствами, отвечающими за развитие проектов и программ государственно-частного партнерства и природоохранными ведомствами. В качестве третьего элемента «устойчивости» проектов государственно-частного партнерства должны выступать работающие процедуры контроля над соблюдением экологических аспектов государственно-частного партнерства, содержащихся в контрактах» [8, с.80]. Все эти факторы и подходы требуют рассмотрения и внедрения более эффективных и продуктивных методов и способов сотрудничества государственно-частного сектора во всех сферах общества и экономики страны, тем самым, всесторонне обеспечив направление вектора развития общества и национальной экономики в сторону требований и стандартов устойчивого развития. В международной практике подобные подходы оказались более работоспособными и востребованными. Поэтому неслучайно, что во многих развивающихся странах, в том числе, в постсоветских странах, активно практикуются более динамичные формы и методы государственно-частного партнерства, которые способствуют интенсификации общих усилий по обеспечению устойчивого развития страны [9, с.34]. Необходимо обеспечить прозрачную и здоровую конкурентную среду, в которой могли бы в одинаковых условиях развиваться субъекты предпринимательской деятельности. «Создание развития конкурентных преимуществ на уровне предприятий в совокупности даст мультипликативный экономический и социальный эффект. Развитие и совершенствование конкурентной среды, а также создание предпосылок для эффективного и динамичного развития экономики страны, предполагает наличие в стране благоприятного инвестиционного и политического климата» [10, с.3129].

Отметим, что Азербайджан – часть мирового сообщества, поэтому вопросы и проблемы устойчивого развития имеют стратегическое значение для молодого независимого государства, которое восстановило свой суверенитет сразу после распада бывшего СССР. Получив тяжелое наследие административно-командной системы управления, которая существовала во время бывшего СССР, Азербайджану было необходимо начинать с чистого листа и заново устанавливать конструкции независимого государства, создавать государственные атрибуты, строить важные звенья экономической составляющей части государства и обеспечить устойчивость развития страны в целом. Однако долгие годы, особенно в первые десятилетия после восстановления суверенитета страны – начиная с 1990-х гг. вплоть начала XIX века, потенциал для обеспечения устойчивости страны оказался недостаточным и необходимо было, прежде всего, реализовать ресурсы для создания достаточных материальных благ для улучшения жизненного состояния населения страны и конкурентоспособных производственных мощностей по выработке качественных, в том числе, экспортоориентированных товаров.

За последние годы в Азербайджане проводились целевые работы по совершенствованию модели экономического развития страны и были определены стратегические цели по перспективным секторам экономики [11]. В настоящее время особый акцент делается на развитие предпринимательской деятельности, улучшение бизнес-среды, придание нового облика сотрудничеству государственно-частного сектора с усилением государственной поддержки субъектов предпринимательства во всех сферах экономики страны и в целом, усиление целенаправленных работ по обеспечению устойчивого развития страны в контексте усилившейся глобальной нестабильности.

## ЗАКЛЮЧЕНИЕ

В ближайшей перспективе в Азербайджане будет необходимо существенное совершенствование основных механизмов сотрудничества государственно-частного сектора в обеспечении устойчивого развития страны в связи с усилившимися воздействиями глобальных факторов, в том числе, негативных последствий пандемии COVİD-19. Требуется учесть ряд важных принципов и критериев, факторов по усилению сотрудничества государственно-частного сектора:

- в первую очередь, необходимо ускорить интенсификацию развития ненефтяных секторов экономики с учетом активного привлечения природных и экономических ресурсов регионов и участием субъектов частного сектора, тем самым, обеспечить общественную и экономическую активность в целом в стране в контексте устойчивого развития;
- требуется предпринять действенные меры по созданию более благоприятной инвестиционно-инновационной среды и условий по активизации деятельности субъектов частного сектора и улучшения взаимодействия с государственными структурами в сфере интенсификации развития перспективных секторов экономики страны с обеспечением повышения доходов населения, решения социально-экономических проблем, создания более расширенной инфраструктуры системы образования и здравоохранения, которые могут существенно повлиять на ускорение устойчивого развития страны и т.д.

**Ключевые слова:** *государство, частный сектор, устойчивое развитие, предпринимательство, бизнес-среда, глобальные факторы, глобальные проблемы, эффективность сотрудничества государственно-частного сектора.*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Цели в области устойчивого развития - https://www.un.org/sustainabledevelopment/ru/sustainable-development-goals/.*

*2. Seong C. Kang, Dhanakorn Mulaphong, Eunjin Hwang, Chih-Kai Chang. Public-private partnerships in developing countries: Factors for successful adoption and implementation. International Journal of Public Sector Management 32(2), 2018. P.57-73.*

*3. Busler M. The role of properly structured*

*public-private partnerships in promoting economic development. // World Journal of Entrepreneurship Management and Sustainable Development. 2014. 10(2). C. 90-97.*

*4. Sharachchandra Lele. Sustainable Development: A Critical Review // World Development 19(6):P. 607-621.*

*5. Tomislav Klarin. The Concept of Sustainable Development: From its Beginning to the Contemporary Issues // Zagreb International Review of Economics and Business 21(1). P.67-94.*

*6. Государственно-частное партнерство. Пути совершенствования законодательной базы. Москва, 2009. – 244 с. - https://www.ebrd.com/downloads/legal/concessions/framewk.pdf.*

*7. Савон Д.Ю., Карибжанова Е.Л., Маркер Е.В. Государственно-частное партнерство в решении задач устойчивого развития региона // Государственное и муниципальное управление. Ученые записки . 2013. №2. – С. 107-112.*

*8. Студеникин Н.В. Устойчивое развитие в проектах государственно-частного партнерства: преодолевая конфликт интересов // Сравнительная политика. 2015. №1 (18). –С. 78-81.*

*9. Матаев Т.М. Государственно-частное партнерство как инструмент развития сотрудничества стран ЕАЭС // Сегодня и завтра российской экономики. 70, 2015. – С. 31-37.*

*10. Жердев, Р.А. Государственно отечественного здравоохранения как драйвер развития отечественного здравоохранения // Российское предпринимательство. 16 (18), 2015. –С. 3125-3138.*

*11. Стратегическая дорожная карта по перспективе национальной экономики Азербайджанской Республики. 06 декабря 2016 - https://ru.president.az/articles/21953.*

**XÜLASƏ**

**AZƏRBAYCANIN DAVAMLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA DÖVLƏT-ÖZƏL SEKTOR ƏMƏKDAŞLIĞININ MÖHKƏMLƏNDİRİLMƏSİ**

Məqalədə Azərbaycanın davamlı inkişafının təmin olunmasında dövlət-özəl sektor əməkdaşlığının möhkəmləndirilməsi tədqiq olunmuşdur. Bu məqsədlə davamlı inkişafının təmin olunmasının əsas şərtləri və uzunmüddətli dövr üçün hədəfləri açıqlanmışdır. Dövlət-özəl sektor əməkdaşlığının ölkənin davamlı inkişafında rolu və səmərəliliyi baxılmışdır. İqtisadiyyatın müxtəlif sahələrində özəl sektorun rolunun artırılmasının vacibliyi əsaslandırılmışdır. Qlobal təsirlərdən və amillərdən yanaşmaqla, Azərbaycanın davamlı inkişafının təmin olunmasında dövlət-özəl sektor əməkdaşlığının möhkəmləndirilməsi istiqamətləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Açar sözlər:** *dövlət, özəl sektor, davamlı inkişaf, sahibkarlıq, biznes mühiti, qlobal amillər, qlobal problemlər, dövlət-özəl sektor əməkdaşlığının səmərəliliyi.*

**SUMMARY**

**STRENGTHENING OF PUBLIC-PRIVATE COOPERATION IN ENSURING SUSTAINABLE DEVELOPMENT OF AZERBAIJAN**

The strengthening of public-private partnership in ensuring the sustainable development of Azerbaijan is investigated in the article. The main conditions for ensuring sustainable development and long-term goals are considered for this purpose. The role and effectiveness of public-private partnership in the sustainable development of the country are given then. The importance of increasing the role of the private sector in different sectors of the economy is justified. Approaching from global influences and factors, recommendations and suggestions to strengthen public-private partnership to ensure the sustainable development of Azerbaijan are given in the end of the article.

**Key words:** *state, private sector, sustainable development, entrepreneurship, business environment, global factors, global problems, effectiveness of public-private partnership.*

UOT: 330.356: 661

# AZƏRBAYCANDA NEFT-KİMYA KOMPLEKSİNİN İXRAC POTENSİALININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**MURAD SALMANOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dissertantı*

*E-mail: murad_salman@hotmail.com*

Müasir dövrdə ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gücləndirməsində, makroiqtisadi və makrosabitliyin təmin olunmasında ixrac potensialının böyük rolu vardır. İxrac məhsulları hesabına ölkəyə daxil olan valyuta vəsaitləri maliyyə sabitliyinin təmin olunması baxımından strateji əhəmiyyət kəsb edirlər. Buna görə də neft və qaz məhsullarının ixracı ilə yanaşı, qeyri-neft təyinatlı ixrac potensialının formalaşdırılması və ixracın həcminin artırılması hazırkı şəraitdə ölkəmizin qarşısında duran vacib məsələlərdən hesab olunur. Təsadüfi deyildir ki, son illərdə ölkəmizdə qeyri-neft sektorunun mühüm ixrac potensialına malik olan sahələrindən biri olan neft-kimya kompleksində ixrac potensialının gücləndirilməsi istiqamətində məqsədli işlər aparılır. Məsələn, mühüm ixracyönlü müəssisənin – yüksək sıxlıqlı polietilen zavodunun 2019-cu ildə istismara verilməsi ölkəmizin qeyri-neft ixracının artımına əhəmiyyətli təsir göstərmişdir. Həmin müəssisənin açılışında ölkə Prezidenti İlham Əliyev qeyd etmişdir ki: “Zavodun istehsal gücü 300 min ton olacaqdır. Bu, bizim qeyri-neft ixracımızın 15 % artımı deməkdir. Bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır” [1]. Digər yüksək ixrac potensialına malik olan – “SOCAR Polymer”in polipropilen zavodunu da qeyd etmək lazımdır və bu zavod ölkəmizin neft-kimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk iri şirkət hesab olunur. Müəssisənin yaradılmasına cəlb olunan investisiyaların 60 %-i Rusiyanın “Gazprombank”, yerdə qalan hissəsi isə “SOCAR”, “Vitol”, “Paşa Holdinq”, “Gilan Holdinq” və “Azərsun Holdinq” şirkətləri hesabına təmin olunmuşdur. Bu strateji ixracyönlü neft-kimya müəssisəsinin ümumi investisiya tutumu 816 mln dollar səviyyəsində olmuşdur. Maraqlıdır ki, bu zavodun istismar dövründə 6,3 mlrd dollar məbləğində gəlir əldə olunması gözlənilir və bunun 30 %-i şirkətin xalis mənfəətinə aid ediləcəkdir. Eyni zamanda, məhz bu ixracyönlü iri zavodun fəaliyyəti nəticəsində ölkəmizin qeyri-neft sektorunun ixrac gəlirləri xeyli yüksələcəkdir [2].

Qeyd etmək lazımdır ki, qeyri-neft ixrac potensialına malik olan kimya və neft-kimya kompleksi ölkəmizin iqtisadiyyatının strukturunun təkmilləşdirilməsində böyük əhəmiyyət daşıyır. Həmin sahənin inkişaf tarixi məlumdur ki, neft sənayesinin inkişafı ilə birbaşa əlaqəlidir. Belə ki: “XIX əsrin 60-70-ci illərində neft emalı sahələri inkişaf etmişdir və ilk neft-kimya müəssisələri yaranmışdır. Zaqafqaziyada ilk iri neft-kimya zavodu Sumqayıt sənaye mərkəzində – “Sintez-kauçuk” zavodu 1952-ci ildə istismara verilmişdir. Sonrakı illərdə də bu sənaye sahəsi sürətlə inkişaf etmişdir. [3, s.12]. Xüsusilə, Sumqayıt sənaye mərkəzində 1988-ci ildə istismara verilən “EP-300” qurğusu və 1989-cu ildə tikintisi başa çatdırılan “Polimir 120” qurğusunun ixrac potensiallarını qeyd etmək olar. Həmin qurğuların fəaliyyəti nəticəsində ölkəmizdə neft və qaz emalından alınan yan kimya məhsullarının və xammallarının səmərəli olaraq emal edilməsi və ixracyönlü məhsulların istehsalı mümkün olmuşdur [4, s.196]. Kimya və neft-kimya sənayesinin emalı hesabına iqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının yüksəldilməsi imkanlarından bəhrələnməkdə ölkəmizdə toplanan təcrübənin təkmilləşdirilməsi və daha innovatik yanaşmaların müəyyənləşdirilməsi vacib şərtlərdəndir. Neft-kimya kompleksinin aktual iqtisadi

problemlərinin sistemli şəkildə öyrənilməsi və onun ixrac potensialının daha dərindən qiymətləndirilməsi vacibdir [5]. Eyni zamanda, neft-kimya müəssisələrinin ixrac imkanlarının dəyərləndirilməsi və ixracın həcminin artırılması üçün tələb olunan xammal və materiallarının fasiləsiz təminatının reallaşdırılması məqsədilə bu sahədə logistika sisteminin dünya təcrübəsinə uyğun şəkildə yaradılması və inkişaf etdirilməsi tələb olunur. Çoxfunksiyalı logistika sisteminin təşkili kimya və neft-kimya xammallarının formalaşdırılması, hərəkəti, istifadəsi və hazır məhsulların dünya bazarlarına səmərəli şəkildə çıxarılması proseslərini daha yüksək səviyyədə idarəetməyə imkan verə bilər [6]. Bu baxımdan, ölkəmizin əsas iri dövlət neft-kimya zavodu olan - Sumqayıt “Etilen - Polietilen” zavodunun mühüm qurğularının xammal təminatının gücləndirilməsi tələb olunur. Belə ki, hazırda bu zavodun əsas emal qurğusu olan “EP-300” tam olaraq layihə gücü səviyyəsində işləmir və bu qurğunun xammal təminatının gücləndirilməsi vacibdir. Hesab edirik ki, eyni zamanda, daha müasir emal qurğularının alınması və texnologiyaların ölkəmziə gətirilməsi prosesləri sürətləndirilməlidir. Həm də bu sahənin müəssisələrində ixrac imkanlarının dərindən öyrənilməsi üçün məıqsədli marketinq araşdırmalarını genişləndirmək lazımdır. Məsələn, Sumqayıt “Etilen-Polietilen” zavodunda vacib ixrac təyinatlı məhsulların dünya bazarlarında ixrac qiymətinin kifayət qədər rentabelliliyi əsas götürülməklə, bu məhsulların istehsalının artırılması və yeni bazarların mənimsənilməsi tədbirləri həyata keçirilməlidir [7]. Neft-kimya kompleksi müəssisələrinin dayanıqlı inkişaf etməsi və ixrac potensialının artması ölkəmizin sosial-iqtisadi inkişafına müsbət təsir göstərməkdədir. Ümumilikdə, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılmasında geniş həcmli işlər görülməsi ilə yanaşı, neft-kimya kompleksinin imkanlarının artması, ölkəyə daha çox valyuta resursları gətirilməsi sosial-iqtisadi problemlərin həllində də önəmli rol oynayır. Xüsusilə, Sumqayıt şəhərinin inkişafının sürətləndirilməsində, müasir şəhər kimi formalaşmasında və güclü sənaye mərkəzinə çevrilməsində neft-kimya müəssisələri aparıcı funksiyaları yerinə yetirirlər [8].

Qeyd edək ki, neft-kimya kompleksinin davamlı inkişafı və intensiv olaraq bu proseslərin sürətləndirilməsi dövlətimizin bu sahədə olan iqtisadi siyasətinin əsas tərkib hissələrindən biri kimi formalaşmışdır. Belə ki, ölkə Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi”ndə ixracyönlü neft-kimya məhsullarının strukturunun gücləndirilməsi və ixracın həcminin artırılması strateji hədəflər kimi qarşıya qoyulmuşdur və hazırda bu hədəflərə nail olunması prosesləri gedir [9].

Ölkəmizin qeyri-neft sənayesinin ümumi buraxılışınıda kimya sənayesinin payı daha əyani olaraq şəkil 1-də əks olunmuşdur.




**Şəkil 1. 2019-cu ildə Azərbaycanda qeyri-neft sənayesinin ümumi buraxılışın strukturu, faizlə (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/).**

Şəkil 1-ə nəzər salsaq görərik ki, ölkəmizin qeyri-neft sənayesinin ümumi buraxılışında kimya sənayesi, rezin və plastik kütlə məmulatlarının istehsalı 2019-cu ilin yekununda 8,4 % təşkil etmişdir və bu göstəricinin yaxın perspektivdə artacağını proqnozlaşdırmaq mümkündür.

Şəkil 2-də isə 2011-2019-cu illər ərzində neft-kimya kompleksi müəssisələrində istehsal olunan məhsulların ümumi dəyərinin dinamikası öz əksini tapmışdır.




**Şəkil 2. Azərbaycanın kimya sənayesində məhsul istehsalının dinamikası, mln. manat, 2011-2019-cu illər**

Şəkil 2-də gördüyümüz kimi əgər 2011-ci ildə kimya sənayesində ümumi məhsul istehsalının həcmi cəmisi 189 mln. manat olmuşdursa, bu göstərici 2015-ci ildə 353,2 mln. manat, 2017-ci ildə 513,9 mln. manat, 2018-ci ildə 528 mln. manat, 2019-cu ildə yenə artım davam edərək 599,6 mln. manat səviyyəsində olmuşdur. Bu onu göstərir ki, kimya sənayesi həm də ölkəmizin iqtisadiyyatının gücünü ilbəil artırmaqdadır və qeyri-neft sektoru tərəfindən formalaşdırılan əlavə dəyərdən əsas pay sahibinə malik olan iqtisadiyyat sahələrindən biri kimi qiymətləndirilir.

Şəkil 3-də isə neft və qaz xammal məhsullarının emalı sayəsində istehsal olunan rezin və plastik kütlə məmulatları istehsalının dinamikası verilmişdir.




**Şəkil 3. Azərbaycanda rezin və plastik kütlə məmulatları istehsalının dinamikası, mln. manat, 2015-2019-cu illər**

Şəkil 3-ün təhlilindən baxsaq, görərik ki, əgər 2015-ci ildə rezin və plastik kütlə məmulatları istehsalının həcmi 157,4 mln. manat səviyyəsində olmuşdursa, 2018-ci ildə bu rəqəm 334 mln. manat və 2019-cu ildə isə 391,5 mln. manat həcmində qeydə alınmışdır.

Qeyd edək ki, ixrac potensialının strukturunun genişləndirilməsi və qeyri-neft ixrac məhsullarının payının artırılması məsələləri vacib əhəmiyyət kəsb edir. Ölkəmiz 150-160 dünya ölkələri ilə xarici-iqtisadi əlaqələrə malikdir, amma bu əlaqələrin xeyli istiqamətləri neft və qaz xammalları, həmçinin neft məhsulları ilə əlaqəlidir [10]. Son illərdə ixracın əmtəə strukturunda ayrı-ayrı qeyri-neft ixrac məhsullarının həcminin və dinamikasının təhlili göstərir ki, bu sırada bir sıra malların və məhsulların ixracı sabit şəkildədir və nisbətən artım nümayiş etdirməkdədir. Məhz bu məhsulların sırasında kimya məhsullarına da rast gəlmək mümkündür. 2015-2019-cu illər ərzində ölkəmizdən dünyanın müxtəlif ölkələrinə göndərilən kimya sənayesi məhsullarının ümumi dəyəri 234 mln. ABŞ dolları həcmində olmuşdur. İllər üzrə artım dinamikası da diqqət çəkir, məsələn əgər 2015-ci ildə ixracın həcmi cəmisi 80 mln. dollara yaxın idisə bu göstərici 2019-cu ildə 103 mln. ABŞ dolları təşkil etmişdir. Eyni dövr ərzində plastik kütlələr, rezin və ondan hazırlanan məmulatların 614 mln. ABŞ dolları həcmində olmuşdur, beləliklə ümumilikdə kimya və neft-kimya məhsullarının ixrac həcmi 2015-2019-cu illərdə 848 mln. ABŞ dolları həcmində qeydə alınmışdır. Amma, hesab edirik ki, bu kimya və neft-kimya kompleksinin mövcud ixrac potensialının az bir hissəsidir. Əsas ixrac məhsulları kimi isə qeyri-üzvi kimya məhsulları, xüsusi ilə kimyəvi-üzvi birləşmələr, həmçinin plastik kütlələr və onlardan hazırlanan məmulatlar ixracda daha çox paya malikdirlər. Qeyd etdiyimiz kimi, ümumilikdə kimya və neft-kimya kompleksinin ölkə ixracından xüsusi çəkisi onun istehsal və ixrac imkanlarına nisbətən azdır və bu özünü şəkil 4-də verilmiş strukturda da göstərmişdir. Belə ki, şəkil 4-də Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2019-cu il üçün ixracın quruluşu öz əksini tapmışdır.




**Şəkil 4. 2019-cu ildə Azərbaycanda Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşu, %-lə.**

Şəkil 4-dən göründüyü kimi 2019-cu ilin yekununa görə strukturunda mineral resursların payı, yəni neft və təbii qaz xammalının xüsusi çəkisi 91 %-ə yaxındır. Kimyəvi malların və bu sahənin məhsullarının ixracın strukturunda payı cəmisi 1,4 % səviyyəsindədir. Bu baxımdan yaxın illərdə kimya və neft-kimya məhsullarının ixrac imkanlarından

daha məhsuldar istifadə olunması tədbirləri genişlənməlidir. Əlavə istehsal zənciri üzrə daha rəqabətqabiliyyətli və ixracyönül kimya və neft-kimya məhsullarının istehsalına nail olunmalıdır və bunun üçün mövcud xammal bazasından səmərəli istifadə ön plana çıxarılmalıdır [11]. Digər tərəfdən, güclü potensiala malik neft-kimya kompleksində ixracyönlü məhsulların istehsalının artırılması və xarici bazarlara çıxarılması potensialından istifadəyə diqqət yüksəldilməlidir. "Neft-kimya müəssisələrində istehsal olunan polietilen, izopropil spirti, propilen və digər məhsulların ixrac potensialı yüksək oalraq qalmaqdadır" [12]. Bunlarla bərabər, Sumqayıt Kimya Sənaye Parkında yeni kimya müəssisələrinin təşkili proseslərində ixracyönlü məhsul istehsalı potensialının artırılması üçün yaradılan imkanlardan məhsuldar istifadə olunmalıdır [13]. Belə ki, bu Parkın yaradılması müasir istehsal və ixrac infrastrukturunun formalaşdırılmasına imkan vermişdir, parkdaxili və xarici investisiyalar üçün kifayət qədər cəlbedici şərait yaradılmışdır. Ölkənin neft-kimya kompleksinin inkişafının müasir aspektləri və fəaliyyət istiqamətləri bu sahəyə birbaşa investisiyaların yönəldilməsini vacib hesab edir. Xüsusilə, Sumqayıt şəhərində yerləşən qeyri-neft sənaye müəssisələrinin innovasiyayönümlü inkişafını və strukturunu təkmilləşdirməklə ixrac potensialının artırılması üçün daha əlverişli potensial formalaşdırmaq olar [14]. Əvvəldə qeyd etdiyimiz kimi Sumqayıt kimya sənaye parkının ixrac imkanları artmaqdadır və bu parkda rezidentlərin sayı 23-dür və onlar tərəfindən yönəldilən investisiyaların ümumi həcmi 3,3 mlrd. dollar səviyyəsindədir. Bu parkda ixracyönlü və rəqabətqabiliyyətli müəssisələrin yaradılması sayəsində ixrac potensialını artırmaq imkanları yüksək qiymətləndirilir. Hesab edirik ki, yaxın perspektivdə ölkəmizdə neft-kimya kompleksinin ixrac potensialının daha intensiv artımının şahidi olacağıq.

## YEKUN

Neft-kimya kompleksinin ixrac potensialından səmərəli istifadə olunması, ixrac imkanlarının daha obyektiv təhlil olunması və qiymətləndirilməsi, ölkə ixracında bu sahənin payının artırılması məqsədilə bir qrup amillərin nəzərə alınması və tədbirlərin görülməsini vacib hesab edirik:

–hazırda mövcud olan kimya və neft-kimya istehsal güclərinin əlavə istehsal zənciri üzrə genişləndirilməsi və ixracyönlü emal sahələrinin yaradılması prosesləri daha da dərinləşdirilməlidir;

–neft və təbii qaz xammallarının əsasında yeni və yüksək texnologiyalar əsaslı neft-kimya emal müəssisələrinin yaradılması prosesləri daha intensiv olaraq aparılmalıdır;

–ölkədə və regionda mövcud xammal ehtiyatlarından çıxış etməklə, müasir texnologiyalar əsasında iri ixracyönlü kimya və neft-kimya müəssisələrinin, klasterlərinin yaradılmasına baxılmalıdır;

–kimya və neft-kimya kompleksinin ixractutumlu sahələrinin inkişaf etdirilməsinə texnologiyalarının transferinin və xarici investisiyaların cəlbinin sürətləndirilməsi tədbirləri görülməlidir və s.

**Açar sözlər:** *kimya və neft-kimya kompleksi, ixrac potensialı, ixrac potensialının artırılması, ixrac potensialının təhlili, ixrac potensialının qiymətləndirilməsi, qeyri-neft ixrac məhsulları, kimya və neft-kimya kompleksinin ixrac imkanlarının artırılması perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. İlham Əliyev Sumqayıtda "SOCAR Polymer"in yüksək sıxlıqlı polietilen zavodunun açılışında iştirak edib. 18 fevral 2019. https://president.az/articles/31894.*

*2. İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışında iştirak ediblər. 18 iyul 2018. https://president.az/articles/29502.*

*3. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri. Bakı, "Elm və təhsil", 2012.- 156 s.*

*4. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.-376 s.*

*5. Əliyev T.N., Babayev M.T. Sahənin aktual iqtisadi problemləri: neft emalı və neft-kimya. Bakı, "Elm və təhsil", 2011, 346 s.*

*6. Əmiraslanova, D.Ə. Neft-kimya müəssisələrində logistika siyasətinin müəyyənləşdirilməsi və tətbiqi // AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası- 2016. Region və sahə iqtisadiyyatı. Bakı, 2016.-S. 137-143.*

7. Əliyev T.N. Marketinqin təşkili və idarə olunması: neft emalı və neft-kimya sənayesi müəssisələrində. Bakı, Elm, 2004.-568 s.

8. Şəfa Əliyev. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, "Azəri" nəşriyyatı, 2019, 368 s.

9. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

10. Azərbaycanın Xarici Ticarəti. Statistik məcmuə. Bakı, 2020. - 230 s.

11. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015.-185 s.

12. Əmiraslanova D.Ə. Neft-kimya müəssisələrinin iqtisadi potensialı və ondan istifadənin yaxşılaşdırılması yolları: iqt. üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ol. dis.: 5311.01 D.Ə.Əmiraslanova; Azərb. Resp. Təhsil Nazirliyi, Sumqayıt Dövlət Un-ti.- Sumqayıt, 2017. - 171 s.

13. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 21 dekabr 2011-ci il, № 548.

14. Abdalova, M.Ə. Sumqayıt şəhərində sənayenin innovasiya yönümlü inkişafı və strukturunun təkmilləşməsi istiqamətləri [Mətn]: iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 53.09.01 ; 53.12.01. M. Ə. Abdalova ; AMEA, İqtisadiyyat İn-tu.-B., 2017.- 166 s.

**РЕЗЮМЕ**

**Анализ и оценка экспортного потенциала нефтехимического комплекса в Азербайджане**

В статье анализирован и оценен экспортный потенциал нефтехимического комплекса Азербайджана в современных условиях. Раскрыта сущность и значимость экспортного потенциала химической и нефтехимической промышленности страны. Рассмотрены актуальные проблемы расширения сети конкурентоспособных нефтехимических предприятий и формирование новых источников валютных поступлений в страну, а так же повышение экспортного потенциала экономики. Анализирована деятельность и потенциал нефтехимического комплекса с указанием имеющихся резервов в данной сфере. Отмечена стратегическая значимость создаваемых высокотехнологичных и экспортно-ориентированных нефтехимических предприятий в Сумгаитском Химической Промышленном Парке. Подготовлены рекомендации и даны предложения по повышению экспортного потенциала нефтехимического комплекса страны в ближайшей и долгосрочной перспективе.

**Ключевые слова:** *химический и нефтехимический комплекс, экспортный потенциал, повышение экспортного потенциала, анализ экспортного потенциала, оценка экспортного потенциала, ненефтяная экспортная продукция, перспективы повышения экспортных возможностей химического и нефтехимического комплекса.*

**SUMMARY**

**Analysis and assessment of export potential of petrochemical complex in Azerbaijan**

Analysis and assessment of export potential of Azerbaijan's petrochemical complex in modern conditions is analyzed in the article. Essence and significance of export potential of chemical and petrochemical industry of the country is investigated. Main problems of expansion of the network of competitive petrochemical enterprises and formation of new sources of foreign exchange revenues to the country, as well as increase of export potential of the economy are considered. Activity and potential of petrochemical complex with indication of available reserves in this area is analyzed too. Strategic significance of the created high-tech and export-oriented petrochemical enterprises in Sumgait Chemical Industrial Park is noted then. Recommendations and proposals to increase the export potential of the country's petrochemical complex in the near and long term are given in the end of the article.

**Key words:** *chemical and petrochemical complex, export potential, increase in the export potential, analysis of the export potential, assessment of the export potential, not oil export products, prospects of increase in export opportunities of a chemical and petrochemical complex.*

UOT: 338.23: 339.972

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ И ПУТИ РЕШЕНИЯ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ В КОНТЕКСТЕ СТРАТЕГИЧЕСКОЙ ДОРОЖНОЙ КАРТЫ

**ЗАУР АЗИЗОВ**
*Азербайджанский Технический Университет, диссертант*

*E-mail: zfazizov@gmail.com*

В последние годы экономика Азербайджана выходит на новый этап развития. Перед страной поставлены стратегические цели по формированию более конкурентоспособных и высокотехнологичных секторов экономики. Так, в «Стратегических дорожных картах национальной экономики и основных секторов экономики Азербайджанской Республики» и «Стратегической дорожной карте развития телекоммуникаций и информационных технологий в Азербайджанской Республике», наряду с проблемами, стоящими перед азербайджанской экономикой и их решениями, на очень глубокой, взаимосвязанной и логичной основе была определена стратегия будущего развития. В этих важных стратегических документах развитие национальной экономики рассматривается поэтапно, в зависимости от периода времени, где каждый этап играет базисную роль для следующего этапа. Наибольшее внимание привлекают два важных вопроса, связанных со стратегическими дорожными картами: 1) управление реализацией стратегических дорожных карт и 2) формирование инновационной среды с целью реализации стратегических дорожных карт.

Следует отметить, что в мировой практике для управления реализацией очень сложных проектов создаются специальные структурные органы, которые занимаются только управлением реализации проекта. С этой точки зрения, стратегическая дорожная карта - очень сложный и многогранный проект, поэтому для управления его реализацией необходимо создать специальный орган. На наш взгляд, таким наиболее эффективным органом может быть «Корпорация Управления стратегическими дорожными картами» и эта корпорация, наряду с требованиями, предъявляемыми к осуществлению реализации сложных проектов, должна обладать способностью создавать сильную управленческую команду. С точки зрения функциональных обязанностей основная задача Корпорации должна быть связана с управлением, финансированием и мониторингом деятельности, осуществление которой предусмотрено в Стратегических дорожных картах. С точки зрения стратегических целей и задач, стоящих перед экономикой, в состав Корпорации целесообразно включить следующие функциональные подразделения: 1) подразделение по разработке и совершенствованию монетарной политики национальной экономики; 2) подразделение, осуществляющее повышение эффективности деятельности юридических лиц, контрольный пакет доли акций которых принадлежит государству, и приватизацию некоторых из них; 3) подразделение по формированию и развитию человеческого капитала; 4) подразделение, выполняющее осуществление стратегии, намеченной в каждом из 11 выбранных перспективных секторов национальной экономики в Стратегических дорожных картах.

Кроме того, еще одним важным для нас вопросом является проблема формирования «инновационной среды» в стране, которая играет важную роль в реализации Стратегических дорожных карт. Так, если мы подойдем к этому вопросу с точки

зрения мирового опыта, то можем сказать, что настало время, когда слово «развитие» звучит синонимом слову «инновации» и нет такой области нашей жизни, общества, экономики, развитие которой не связано с инновационными факторами. Мы считаем, что здесь есть определенная закономерность. Как было заявлено на Всемирном экономическом форуме, к 2025 году Азербайджан достигнет стремительного развития и станет одной из самых высокоприбыльных инновационных стран [1]. Одним из важных приоритетов государственной политики нашей страны в современный период является вывод экономики на новый путь развития - инновационную экономику. Основой для этого является развитие наукоемких отраслей экономики и наукоемких технологий. Все это нашло свое отражение в утвержденной Указом Президента от 29 декабря 2012 года Концепции Развития «Азербайджан - 2020: Взгляд в будущее», и в этом направлении заложена прочная основа [2]. В данной концепции определены основные направления инновационной модели экономического развития в Азербайджане. На первый план были выдвинуты такие важные вопросы, как технологическая модернизация национальной экономики, переход на инновационный путь развития за счет качественного роста результатов научной и научно-технической деятельности, повышение эффективности инновационной деятельности. Именно с точки зрения этих факторов, формирование инновационной среды в нашей стране и завершение становления национальной инновационной системы следует оценивать как неизбежный процесс для успешной реализации мер, предусмотренных в Стратегических дорожных картах.

Говоря об инновационной среде, мы имеем в виду такую среду, которая создает и поддерживает все условия и возможности для развития инноваций. Даже развитые страны мира, пройдя длительный период развития, не смогли в полной мере добиться созданий такой среды [3]. Можно сказать, что формирующаяся в настоящее время инновационная экономика является гарантом инновационной среды. Развитые страны мира смогли добиться успешного развития инноваций с помощью выбранных ими различных стратегий еще до того, как инновационная среда в их странах полностью сформировалась. Например, после Второй мировой войны Япония создала в стране такие инновационные институты, что они смогли быстро применить в своем производстве результаты исследований, накопленных в других странах [4]. США, Израиль и Финляндия также отдали наибольший приоритет развитию инновационного предпринимательства [5]. В Китае же технопарки и технополисы, которые являются основными инфраструктурами инноваций, расположены по территории всей страны таким образом, чтобы создавать определенные пояса. Благодаря реализации такого структурного выбора инновации в течение короткого времени распространились и на другие регионы страны [6].

Считаю, что сейчас в нашей стране есть благоприятная основа для формирования инновационной среды, и в этой связи важно и необходимо сформировать национальную инновационную концепцию. В концептуальные основы национальной инновационной системы возможно включение следующих положений (рис. 1).




**Рисунок 1. Блок-схема концептуальные основы национальной инновационной системы (разработано автором).**

Мы считаем, что инновационная политика государства является неотъемлемой частью его социально-экономической политики. С этой точки зрения инновационная политика занимает ключевое место среди концепций создания инновационной среды. Остальные направления концепции должны служить именно реализации инновационной политики. Инновационная политика государства имеет конкретные цели, и их достаточно много. Например, в общем виде можно выделить группу целей:

- эффективное использование научно-технических результатов, обеспечивающих повышение конкурентоспособности местных товаров;
- создание организационных условий для использования инновационной деятельности в целях ускорения решения вопросов социально-экономического развития;
- развитие, эффективное размещение и использование научно-технического потенциала, формирование его структуры;
- повысить обогащение развития экономики страны научно-техническими достижениями;
- проведение прогрессивных структурных изменений в сферах материального производства;
- реализация важных социально-экономических задач, направленных на обеспечение эффективности и конкурентоспособности национальной экономики;
- обеспечить устойчивое развитие страны, укрепить безопасность людей, общества и окружающей среды и т. д.

Наряду с вышеперечисленным, основной целью принято решение вопросов, связанных с развитием 11 направлений материального производства, выбранных в стратегических дорожных картах. Поэтому работа по повышению эффективности принимаемых в этом направлении мер должна быть инновационной и предпочтение следует отдавать инновационным подходам. Инновационная направленность означает возможность использования высоких инновационных технологий для достижения поставленных целей, наряду с выполнением основных функций инновационной экономики.

Следует отметить, что государство несет очень серьезную ответственность за достижение этих целей и задач. Важные задачи и функции, которые выполняет государство по созданию национальной экономики и определению ее концептуальных основ с учетом современных вызовов, глобальных угроз и возникающих требований времени, должны включать в себя следующие аспекты:

- определение приоритетов инновационной политики государства и их реализация;
- обеспечение прогрессивных структурных изменений в экономике;
- создание и развитие инфраструктуры инновационной деятельности;
- защита национальных инновационных товаров на международных рынках;
- обеспечение взаимодействия науки, образования, производства и финансово-кредитной сфер в развитии инновационной деятельности;
- эффективное использование научно-технического потенциала для стабилизации развития экономики по направлениям, обеспечивающим стратегию и темпы развития национальной экономики, ее структурную сбалансированность, и др.

Основы инновационной политики защищены посредством принятия законодательства, соответствующего состоянию экономики, социальной и политической ситуации в стране, а также, как упоминалось ранее, путем принятия законов страны. Именно в этих нормативно-правовых документах определены субъекты и объекты управления в сфере инновационной деятельности, права, обязанности и ответственность участников инновационной деятельности. В настоящее время, в связи с формированием и развитием национальной инновационной системы, важным условием является принятие соответствующих законов об инновационной и инновационно направленной деятельности:

- защита интересов каждого юридического и физического лица, участвующего в разработке и реализации инновационных идей;
- возможность получения кредитов на

гарантированных и льготных условиях для субъектов, занимающихся инновационной деятельностью;

- обеспечение защиты прав интеллектуальной собственности научных коллективов, а также отдельных ученых и специалистов и др.

Как было сказано выше, гарантом инновационной среды является инновационная экономика, которая уже находится в процессе формирования в высокоразвитых странах [7]. В экономически развитых странах мира инновационная экономика в основном сформировалась. Эта экономика практически идентична инновационной среде, а инновационная экономика создает основу для развития всех сфер инновационной деятельности [8]. Несмотря на то, что развитие инноваций связано с разработкой и внедрением высоких технологий, интеграцией между отраслями, особенно между наукой, образованием, производством и рынком, созданием инновационных институтов, инновационной инфраструктуры и их деятельностью, повышением интеллектуального уровня людей, однако определение, данное инновационной экономике, основано на человеческом факторе - формировании человеческого капитала. В связи со становлением инновационной экономики формируется и наука об инновационной экономике [9]. Основываясь на различных подходах и взглядах, можно дать инновациям следующее определение: «Инновационная экономика - это новая область науки, которая включает в себя создание высоких технологий, оборудования, систем управления, изобретенных новатором, подготовку кадров, способных направить эти инновации на решение проблем, стоящих перед обществом». Основной движущей силой процессов, связанных с разработкой, подготовкой и внедрением инноваций, является человеческий капитал и интеллектуальные способности человека. Человеческий капитал - это не только личность, которая характеризует совокупность науки, способностей, поведения и навыков, которыми обладает человек. Это творческий потенциал человека, и именно он в конечном итоге определяет инновационное направление экономики за счет формирования инновационного мышления и инновационной деятельности[8].

Итак, инновационная экономика напрямую связана с обучением людей. А это, в свою очередь, требует создания педагогических инноваций посредством соответствующих реформ в системе образования. Для выполнения этой задачи необходимо реализовать комплекс мероприятий: 1) обеспечение морально-нравственного воспитания; 2) формирование профессионального уровня; 3) способность создавать инновации; 4) развитие инновационной культуры; 5) мотивация инновационной деятельности; 6) формирование способности к предпринимательству и умению вести бизнес, и др. Можно отметить, что в Стратегических дорожных картах было уделено огромное внимание формированию человеческого капитала.

На наш взгляд, одной из основных концепций создания инновационной среды в стране является создание Национальной Инновационной Системы. Создав эту систему, можно сформировать высокоуровневую центральную структуру управления, отвечающую за укрепление и развитие инновационной деятельности в стране. Основные функции Национальной Инновационной Системы должны быть связаны с созданием инноваций, производством инновационных товаров и их внедрением в стране. Основные функции этой системы выступают как критерии ее разделения на подсистемы, а подсистемы подразделяются как системы элементов, существующие в настоящее время.

Структурными подсистемами Национальной Инновационной Системы являются: 1) создание новых знаний; 2) производство инновационной продукции; 3) реализация инновационной продукции и 4) содействие широкой инновационной деятельности. Подсистема создания новых знаний выполняет работы, связанные с генерацией, вторичной обработкой, внедрением новых знаний, генерируемых инноватором из научного,

научно-технологического, образовательного секторов. Подсистема производства инновационной продукции реализуется за счет производства новой продукции, идей, «ноу-хау» для удовлетворения потребностей граждан в производстве новых товаров, услуг, технологий, использования научных знаний в методах управления инновациями. Подсистема внедрения инноваций осуществляет процесс коммерциализации новых знаний в форме покупки и продажи новых товаров и услуг [10]. Подсистема содействия инновациям определяет процесс создания благоприятной среды для инновационной деятельности посредством формирования нормативно-правовой базы, налогового стимулирования, развития инновационной инфраструктуры. Повышение инновационной активности населения занимает особое место в формировании инновационной среды в стране. Инновационная деятельность осуществляется на макро-, микро- и мезоуровнях, а соответствующая им инновационная деятельность проявляется в управлении инновациями на национальном, отраслевом и региональном уровнях [11]. Повышение инновационной активности сотрудников предприятий и широких слоев населения играет важную роль в формировании инновационной среды. На наш взгляд, важно принять следующие меры в этом направлении: 1) широкая пропаганда инноваций в СМИ; 2) организация инновационных кружков на предприятии; 3) проведение на предприятиях на регулярной основе конкурсов по инновациям; 4) поручение победителю конкурса возглавить реализацию на предприятии выбранной на конкурсе высокоуровневой идеи; 5) изучение опыта транснациональных компаний в этой сфере авторами поиска инновационных идей на предприятии и др.

Следует отметить, что одним из ключевых факторов формирования инновационной среды в Азербайджане и создания национальной инновационной концепции является создание в стране инновационных институтов, в том числе инновационной инфраструктуры [12].

В целом, основные элементы и задачи инновационной инфраструктуры даны на рис. 2.




**Рисунок 2. Основные элементы и задачи инновационной инфраструктуры (разработано автором).**

Развитие инновационного предпринимательства может дать мощный толчок формированию инновационной среды в стране, реализации определенных этапов инновационной деятельности, оказанию инфраструктурных услуг. Крупные организационно-правовые формы инновационного предпринимательства, особенно финансово-промышленные группы, консорциумы, глобальные корпорации, сетевые союзы, различные союзы и аналогичные образования, нацеленные на решение научно-технических проблем, создадут комплексную основу для развития инновационной деятельности в стране. Существует ряд малых организационно-правовых форм инновационного предпринимательства, которые в соответствии с выбранной ими самими стратегией участвуют в известном этапе инновационного процесса и играют важную роль в успешном завершении этого этапа.

## ЗАКЛЮЧЕНИЕ

В ближайшей перспективе в Азербайджане в контексте Стратегической дорожной карты необходимо ускорить реализацию группы мер для более глубокого рассмотрения и решения насущных проблем внедрения инноваций в экономику:

- для обеспечения развития инноваций в ближайшей и долгосрочной перспективе наша страна должна присоединиться к совместным проектам с международными организациями, инновационными компаниями и фондами, специализирующимися в этой сфере;

- для создания основы для независимого инновационного развития в ближайшей и долгосрочной перспективе, необходимо добиться формирования в нашей стране технологического уклада 5-й и 6-й волн экономического развития. Это необходимо осуществлять за счет участия в проектах по развитию и внедрению высоких технологий;

- для успешного достижения инновационных целей, вытекающих из стратегических дорожных карт, с учетом глобальных вызовов, современных требований и инновационных трендов, необходимо завершить формирование инновационной среды в нашей стране и обеспечить создание национальной инновационной системы, и т.д.

**Ключевые слова:** *инновационная экономика, стратегические дорожные карты, стратегические цели развития экономики, стратегические приоритеты экономики страны, инновационная деятельность, конкурентоспособность экономики, актуальные проблемы экономики.*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2016-cı il Sərəncamı ilə təsdiq edilmişdir.*

*3. Рукина, Н.А. Информационно-коммуникационные технологии: История вопроса и современные проблемы. // Вестн. Моск. ун-та. сер. 18. Социология и политология. 2013. № 4 – с.187-195.*

*4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*5. Hacızadə M.E. İnformasiya iqtisadiyyatı və onun Azərbaycanda inkişaf meyilləri. İ.ü.f.d. diss-nın Avtoreferatı. Bakı, 2017, 25 s.*

*6. Искендерова Х.А. Роль информационных и коммуникационных технологий в экономическом развитии. Авт-т дисс. д.ф.э. Баку, 2013, 22 с.*

*7. Azərbaycanin yüksək texnologiyalar sektoruna dəstək göstərilməsi üçün effektiv investisiya şərtləri və xüsusi müəssisələrə investisiya yatırılması qaydaları: yüksək texnologiyalara və İKT-yə investisiya yatırılması ilə Azərbaycanın gələcəyinin qurulması BMT-nin İnkişaf Proqramı. Azərbaycan Respublikasinin nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirliyi – 67 s.*

*8. İlyasov R.A. Yeni idarəetmə erası – elektron*

*hökumət. https://modern.az/az/news/43620.*

*9. Guadix J., Carrillo-Castrillo J., Onieva L., Navascués J. Success Variables in Science and Technology Parks // Journal of Business Research. 2016. Vol. 69, № 11. P. 4870–4875.*

*10. Tolga Ozbolat. Industrial parks as an instrument to foster competitiveness of agglomeration economies and to promote local supply chain development / Conference Report of Regional Conference on Industrial Parks, UNIDO, 2012, pp.44-46.*

*11. Челнокова О.Ю. Модели инновационного роста экономики // Изв. Сарат. Ун-та. Сер. Экономика. Управление. Право. 2017, Т.17. С.413-417.*

*12. Тагиев А.Г., Амиров И.Б. Пути повышения инновационной активности на предприятиях Азербайджана // Международный научно-исследовательский журнал, 2015, №11 (42), Часть 1, С.99-104.*

## XÜLASƏ

### STRATEJİ YOL XƏRİTƏSİ KONTEKSTİNDƏ İQTİSADİYYATIN İNNOVASİYALAŞDIRILMASININ AKTUAL PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

Məqalədə strateji yol xəritəsində iqtisadiyyatın innovasiyalaşdırılmasının aktual problemləri və həlli yolları tədqiq olunmuşdur. Strateji yol xəritəsinin başlıca mahiyyəti və hədəfləri açıqlanmışdır. Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiyaların və innovasiya fəaliyyətinin üstünlükləri verilmişdir. Milli innovasiya sisteminin formalaşdırılmasının aktual problemləri göstərilmişdir. İnnovasiya iqtisadiyyatının təşkili və inkişaf etdirilməsinin prioritet vəzifələri baxılmışdır. Dünya təcrübəsindən yanaşmaqla, iqtisadiyyatın yüksək texnologiyalar əsasında inkişaf etdirilməsinin vacibliyi əsaslandırılmışdır. Yaxın perspektivdə strateji yol xəritəsində və qlobal çağırışlardan irəli gələn tələblər nəzərə alınmaqla, ölkə iqtisadiyyatının innovasiyalaşdırılmasının aktual problemlərinin həlli yolları üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Açar sözlər:** *innovasiyalı iqtisadiyyat, strateji yol xəritəsi, iqtisadiyyatın inkişafının strateji məqsədləri, ölkə iqtisadiyyatının strateji prioritetləri, innovasiya fəaliyyəti, iqtisadiyyatın rəqabətqabiliyyəti, iqtisadiyyatın aktual problemləri.*

## SUMMARY

### CURRENT PROBLEMS AND SOLUTIONS OF INNOVATIVE ECONOMY IN THE CONTEXT OF STRATEGIC ROAD MAP

The current problems and solutions of innovative economy in the context of the strategic road map are investigated in the article. The main essence and goals of the strategic road map are considered for this purpose. The advantages of innovations and innovation activities in increasing the competitiveness of the country's economy are analyzed. Actual problems of formation of the national innovation system are given. Priorities for the organization and development of the innovation economy are considered then. Based on the world experience, the importance of developing the economy on the basis of high technologies is considered too. Taking into account the requirements arising from the strategic road map and global challenges, recommendations and suggestions on ways to address pressing issues of innovation in the country's economy are given in the end of the article.

**Keywords:** *innovative economy, strategic road map, strategic goals of economic development, strategic priorities of the country's economy, innovation activity, competitiveness of the economy, current problems of the economy.*

UOT: 338.48: 379.851

# POSTPANDEMİYA ŞƏRAİTİNDƏ DÜNYADA TURİZM SEKTORUNUN VƏ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**NİHAD HÜSEYNOV**
*Sumqayıt Dövlət Universitetinin “Biznesin təşkili və idarə edilməsi” kafedrasının doktorantı*

*E-mail: nihadhuseyn@mail.ru*

Dünyanın bir çox ölkələri özlərinin turizm potensialını reallaşdırmaqla, turizm xidmətlərini bütün ilboyu təmin etməklə, yüksək gəlirlər əldə edirlər və dövlət büdcəsinin formalaşdırılmasında etibarlı, məhsuldar gəlir mənbələri yaradırlar. Dünya əhalisinin yaşayış səviyyəsi artdıqca turizm xidmətlərinə daha çox tələbat yaranır və bunlar müəyyən qanunauyğunluqlar əsasında baş verir [1]. Belə ki, insanlar daha yaxşı istirahət etmək, il ərzində müxtəlif turizm xidmətlərindən bəhrələnmək istəyirlər və özlərinin sağlamlığını təmin etmək üçün turizm-rekreasiya xidmətlərindən istifadəni vacib sayırlar [2]. Digər tərəfdən, turizm sektorunun dünya ölkələrin iqtisadiyyatında böyük əhəmiyyəti vardır [3]. Məsələn, dünya iqtisadiyyatın ön cərgələrində gedən ABŞ-da 2020-ci ildə turizm sektorunda farmalaşan ÜDM 1,74 trln. dollar, Çində - 1,77 trln. dollar, Yaponiyada 405,8 mlrd. dollar təşkil etmişdir [4]. Pandemiya şəraitində belə turizm sektorunun müxtəlif seqmentlərinin fəaliyyəti hesabına ölkə ÜDM-ün formalaşdırılmasına əhəmiyyətli təsir göstərmək mümkündür və bu amil dünyada turizm sektorunun rolunun əhəmiyyətini ifadə edən mühüm göstəricilərdəndir.

2020-ci ilin yekununda bir qrup dünya ölkələrində turizm sektorunun ölkə ÜDM-də həcminin dinamikası Şəkil 1-də verilmişdir və buradan görmək mümkündür ki, qlobal və təhlükəli böhranın - COVID-19 pandemiyasının davam etdiyi bir dövrdə belə turizm sektorunun ölkə ÜDM-nə töhfəsi heç də az deyildir.

Ümumilikdə, dünya səviyyəsində formalaşan ÜDM-də turizm sektorunun payı 10,4 % səviyyəsində qiymətləndirilir və bu isə öz növbəsində 8,3 trln. dollar həcmində ÜDM anlamına gəlir. Turizmin üstün cəhətlərindən biri də bununla əlaqədardır ki, dünyanın bütün regionlarında məşğulluğun gücləndirilməsində, işsizliyin səviyyəsinin aşağı salınmasında önəmli funksiyaları yerinə yetirir [5].




**Şəkil 1. Bir qrup dünya ölkələrində turizm sektorunun ölkə ÜDM-də həcminin dinamikası (müəllif tərəfindən hazırlanmışdır).**

Belə ki, dünya iqtisadiyyatında yaradılan hər 10 iş yerindən biri turizm sektoruna aiddir [6]. Turizm xidmətlərinin strukturunun genişləndirilməsi, ilboyu daha çox tələb olunan turizm xidmətlərinin foirmalaşadırılması və bu sektorun fəaliyyət istiqamətlərinin tələb və təklifə uyğun olaraq modelləşdirilməsi vacib şərtlərdəndir. Turizm dünya səviyyəsində özünəməxsus yeri olan iqtisadiyyat sahəsidir və bilavasitə xidmət sektoru ilə bağlı olduğundan yüksək sosial-iqtisadi əhəmiyyəti də vardır [7]. Az inkişaf etmiş regionlarının və ərazilərin sosial-iqtisadi inkişafının təmin olunmasında və iqtisadi fəallığının artırılmasında turizm xidmətlərini təşkil edən müəssisələrin, turizm-rekreasiya mərkəzlərinin multiplikativ təsiri diqqət çəkir. Turizm sektorunda və onun şaxələndirilmiş şəbəkələrində 2019-cu ilin yekununda dünya üzrə 330 mln. iş yerinin olduğu qeydə alınmışdır. Bundan əlavə, həmin ildə dünya üzrə yatırılan investisiyaların ümumi həcmində turizm müəssisələrin payı 4,3 % təşkil etmişdir və bu isə 948 mlrd. ABŞ dolları deməkdir [8]. Dünya üzrə 2019-cu ildə ÜDM-ün artımına təsir edən sektorların müqayisəli təhlili Şəkil 2-də əks olunmuşdur və buradan görmək mümkündür ki, turizm sektorunun payı yalnız informasiya və kommunikasiya,

maliyyə xidmətləri sektorlarından bir qədər geri qalaraq 3,5 % təşkil etmişdir.




**Şəkil 2. Dünya üzrə 2019-cu ildə ÜDM-ün artımına təsir edən sektorların müqayisəli təhlili (müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 3-də isə 2018-ci ilin yekununda bir çox dünya ölkələrinə gələn turistlərin müqayisəli sayı verilmişdir və pandemiyadan əvvəlki dövr olduğu nəzərə alınmaqla, daha çox turistlərin məhz pandemiyanın ağır keçdiyi, ölüm sayının çox olduğu ölkələrdə qeydə alınmışdır. 2018-ci il ərzində Fransaya gələn turistlərin sayı 89,3 mln. nəfər; İspaniyaya – 82,8; ABŞ-a – 79,7; Türkiyəyə - 45,8 mln. nəfər və s. təşkil etmişdir.




**Şəkil 3. 2018-ci ilin yekununda bir çox dünya ölkələrinə gələn turistlərin müqayisəli sayı (müəllif tərəfindən hazırlanmışdır).**

Turizm müəssisələrinin maksimum səmərəli işləməsi hesabına bu sektorla bağlı digər iqtisadiyyat sahələrinin fəaliyyətinin genişləndirilməsi, əlavə dəyər yaradan yeni mənbələrin formalaşdırılması imkanları da artır [9, s.61]. Turist axınının hər hansı bir bölgəyə və ya ölkəyə intensivləşməsi, turistlərin sayının artması bilavasitə və dolayı olaraq nəqliyyat, kənd təsərrüfatı, aqrar-sənaye kompleksi, mədəniyyət-istirahət sahələrinin və digər istiqamətlərdə fəaliyyətin genişlənməsinə təkan verir. Fərdi təsərrüfatların, hədiyyələr və suvenir hazırlamaqla məşğul olan subyektlərin işi çoxalır, ucqar regionarda belə turistlərin gəlməsi kompleks şəkildə sosial və iqtisadi fəallığa səbəb olur.

Qeyd edək ki, məhz COVID-19 pandemiyasının mənfi təsirinin təhlili və qiymətləndirməsi turizm sektorunun və müəssisələrinin dünya əhalisinin sosial rifahında, gəlirlərin sabit olaraq saxlanılmasında, məşğulluğun təminatında nə dərəcədə böyük əhəmiyyətə və paya sahib olduğunu bir daha qabarıq olaraq göstərmişdir. Turizm sektorunun iflic olması və yaxud maksimum turizm xidmətlərinin məhdudlaşdırılması milyonlarla insanların iş yerlərini itirilməsinə, gəlirlərindən məhrum olmasına, turizm sektoru ilə əlaqəli sahələrdə iş yerlərinin bağlanmasına və işsizlər ordusunun artmasına gətirib çıxarmışdır. 2020-ci il ərzində beynəlxalq turizm marşrutları üzrə hərəkət və turist axını 70-72 % səviyyəsində azalmışdır və COVİD-19 pandemiyası səbəbindən turizm sektorunun fəaliyyəti öz tarixində ən ağır vəziyyətə qədər aşağı düşmüşdür. 2019-cu illə müqayisədə dünya ölkələri demək olar, ki, turizmin bütün seqmentlərində 10 dəfədən çox zərərlə üzləşmişlər və itkilərinin ümumi həcmi 1,1 trln. ABŞ dollarından çox olmuşdur. Bu isə öz növbəsində dünya ÜDM-un 2 trln dollarlan çox azalması deməkdir [10]. Dünya regionları üzrə baxsaq, görmək olar ki, turistlərin axını və səyahəti Asiya-Sakit Okean regionunda 82 %, Yaxın Şərqdə - 73%, Afrikada – 69 %, Avropa və Amerikada isə 68 % azalmışdır. BMT-nin mütəxəssislərinin hesabatlarına görə, pandemiya səbəbindən artıq 120 mln. nəfərdən çox insan turizm sektoru müəssisələrinin fəaliyyətinin məhdudlaşdırılmasına görə işsiz qalmışdır [11].

Son dövrlərdə ölkəmizdə turizmin potensialından səmərəli istifadə edilməsi və turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində davamlı işlər görülməkdədir. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə yaxın və uzaq perpektivdə bu sahədə qarşıda duran hədəflər və inkişaf səmtləri verilmişdir. Belə ki, 2025-ci ilədək ölkəmizin həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevrilməsi əsas hədəf kimi baxılır və 2025-ci ildən sonrakı dövr üzrə perspektivdə dünyada turistlərin daha çox üstünlük verəcəkləri 20 turizm məkanından birinə çevrilməsi əsas hədəflər sırasındadır [12]. Bundan əlavə, strateji hədəflər baxımından ölkə ÜDM-də turizmin payı xeyli artacaqdır.

Şəkil 4-də Azərbaycanda turizm sektorunda yaradılmış əlavə dəyərin ümumi məbləğinin dinamikası əks olunmuşdur, xüsusilə, son illərdə artım diqqət çəkir və 2018-ci ilin yekununda ölkə ÜDM-də bu sektorun payı 4-5 % səviyyəsində olmuşdur.




**Şəkil 4. Azərbaycanda turizm sektorunda yaradılan əlavə dəyərin ümumi məbləğinin dinamikası, 2015-2019-cu illər, mln. manat (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 5-də Azərbaycanda 2010-2019-cu illər üzrə turizm sektorunda fəaliyyət göstərən səyahət agentliklərinin və turoperatorların, mehmanxana və mehmanxana tipli müəssisələrin sayı verilmişdir və göründüyü kimi, son illərdə turizm fəaliyyəti ilə bağlı subyektlərin və müəssisələrin sayı artmaqdadır.




**Şəkil 5. Azərbaycanda 2010-2019-cu illər üzrə turizm sektorunda fəaliyyət göstərən səyahət agentliklərinin və turoperatorların, mehmanxana və mehmanxana tipli müəssisələrin sayı (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır).**

Lakin pandemiyanın təsirindən ölkəmizin turizm sektorunda da vəziyyət tamamilə dəyişilmişdir və hazırda bu sahədə ixtisaslaşan müəssisələr əsasən öz fəaliyyətlərini dayandırmışlar. Təsadüfi deyildir ki, ölkə Prezidenti İlham Əliyevə görə: “Turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə edirik ona görə ki, əvvələn pandemiya dövründə turist axını təbii olaraq çox azalıb, lakin postpandemiya dövründə də bu sahənin bərpa olunması, əlbəttə, müəyyən məhdudiyyətlərlə bağlı olacaq” [13]. Buna görə də, turizm sektorunun və onun müəssisələrinin fəaliyyətinin əsas etibarı ilə həyata keçirilməsi prosesləri postpandemiya dövründə baş tutacaqdır. Postpandemiya dövründə turizm sənayesinin daha çox dəstəyə ehtiyacı olan sahə kimi qiymətləndirilməsi obyektiv reallıqlara söykənmişdir. Ölkəmizdə turizm sahəsində sahibkarlara verilən dəstək proqramlarının və növbəti mərhələlərdə turizmin bərpa edilməsinə hazırlıq işlərinin görülməsi fazası intensiv xarakter daşıyır [14]. 2020-ci il ərzində ölkəmizə gələn turistlərin sayı 4 dəfəyə qədər azalmışdır. Pandemiya şəraitində ölkədə turizm sektorunun fəaliyyətinin davam etdirilməsi üçün tanıtım stategiyasına üstünlük verilmiş, onlayn platformalar və təlim mərkəzləri yaradılmış, daxili turizmin bərpası istiqamətində işlər aparılmışdır. “Yeni turizm destanasiyaların təqdimatına başlanılmışdır. Düşünürük ki, Qarabağ destanasiyası ilk mərhələdə daxili turizm üçün, Azərbaycan diasporunun nümayəndələri üçün maraqlı olacaq. İşğaldan azad olunmuş ərazilərin turizm strategiyası və Şuşanın turizm konsepsiyası üzərində iş gedir. 2021-ci ilin sonuna qədər turizm sektoru qismən

reabilitasiya olunacaqdır" [15]. Bu amillər baxımından, 2021-ci il pospandemiya dövründə turizm sektorunun və onun müəssisələrinin fəaliyyətinin sabitləşdirilməsi üçün həlledici önəm kəsb edəcəkdir.

## NƏTİCƏ

Beləliklə, postpandemiya şəraitində dünyada turizm sektorunun və müəssisələrinin rəqabətqabiliyyətinin artırılması baxımından bir qrup amillərə və trendlərə daha çox diqqət yetirilməsi lazım gələcəkdir:

- turizm sektorunun fəaliyyəti üçün bu vaxta qədər səmərəli hesab olunan əksər yanaşmaların və mexanizmlərinin qlobal təhdidlərdən yaranan yeni şəraitə uyğun olaraq təkmilləşdirilməsi tələb olunur;
- turizm müəssisələrinin fəaliyyətində və xidmətlərin təşkilində keyfiyyət və kəmiyyət göstəriciləri ilə barabər, təhlükəsizlik amilinin, xüsusilə turistlərin sağlamlığı ilə bağlı məsələlərin daha çox ön plana çıxacağı proqnozlaşdırılır;
- ölkəmizdə turizm sektorunun fəaliyyətinin bərpasında və canlandırılmasında Qarabağ amili – işğaldan azad olunmuş ərazilərdə turizmin inkişaf etdirilməsi üzrə məqsədli dövlət proqramının həyat keçirilməsi daha səmərəli hesab oluna bilər və s.

**Açar sözlər:** *postpandemiya şəraiti, dünya turizmi, turizm sektoru, turizm müəssisələri, rəqabətqabiliyyətlilik problemləri, turizm müəssisələrinin reabilitasiyası, postpandemiya şəraitində turizm müəssisələrinin inkişaf istiqamətləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Roberto Crotti, Tiffany Misrah. The Travel & Tourism Competitiveness Report 2017 // World Economic Forum, 2017.*

*2. Александрова, А.Ю. Актуальные тенденции развития сферы туризма в глобальных городах мира // Современные проблемы сервиса и туризма. – 2015. – Т. 9. – № 2. – С. 5-13.*

*3. Lauren Uppink Calderwood, Maksim Soshkin. The Travel & Tourism Competitiveness Report 2019 // World Economic Forum, 2019.*

*4. Туризм, общий вклад в ВВП (млрд. долл. США). Международный туризм, число прибытий (количество). - https://knoema.ru.*

*5. Benchmarking Travel and Tourism. How does Travel and Tourism compare to other sectors? / World Travel and Tourism Council. – London, 2015. – 7 p.*

*6. Современные тенденции и перспективы развития туризма в мире. http://www.consultant.ru/document/cons_doc_LAW_333756/1e64805d6c2fe35596f0b6f9fd272f8a30c176c0/.*

*7. Волков, С.К. Факторы развития международного туризма в условиях глобализации / С.К. Волков, О.И. Трубачева // Актуальные направления научных исследований XXI века: теория и практика. – 2014. – Т. 2. – № 3. – С. 314-317.*

*8. Экономическое влияние сектора туризма и путешествий в 2019 году и последствия кризиса 2020 года. 29 апреля 2020.*

*9. Юрченко, Е.Е. Международный рынок туристических услуг и его основные черты / Е.Е. Юрченко // Вестник Международного Славянского университета. Серия «Экономические науки». – 2012. – Том XV, № 2. – С. 59-66.*

*10. Международный туризм сократился в 2020 году до уровня 1990 года. 17 декабря 2020. - https://www.interfax.ru/world/741811.*

*11. Минус 1 млрд туристов лишит мировой ВВП $1,17 трлн. 27 августа 2020. - https://www.vedomosti.ru/business/articles/2020/08/26/837880-minus-mlrd.*

*12. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 98 s.*

*13. Azərbaycan Prezidenti: "Turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir". 30 İyun 2020. https://apa.az/az/turizm_az/Azrbaycan-Prezidenti-Turizm-pandemiya-sraitind-n-cox-zrr-ckmis-sahlrdn-biridir-594277*

*14. Fuad Nağıyev: "Turizm daha çox dəstəyə ehtiyacı olan sahə kimi qiymətləndirilir". 23.06.2020. https://tourism.gov.az/news/fuad-nagiyev-turizm-daha-chox-desteye-ehtiyaci-olan-sahe-kimi-qiymetlendirilir*

*15. Bayramova A. Azərbaycan turizmi 2021-ci ilə necə gedir? 28 Dekabr, 2020. https://report.az/turizm/azerbaycan-turizmi-2021-ci-ile-nece-gedir/.*

## РЕЗЮМЕ
## НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ТУРИСТИЧЕСКОГО СЕКТОРА И ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЙ МИРА В ПОСТПАНДЕМИЧЕСКИХ УСЛОВИЯХ

В статье исследованы направления повышения конкурентоспособности туристического сектора и туристических предприятий мира в постпандемических условиях. Раскрыта сущность и особенности туристического сектора в мире. Рассмотрены основные тенденции развития туристического сектора и его влияние на мировую экономику. Анализирована доля туристического сектора в мировом ВВП. Дана доля туристического сектора, влияющая на формирование мирового ВВП. Анализирована численность туристов в разных странах мира. Дана динамика общей добавочной стоимости, созданной в туристическом секторе Азербайджана. Анализированы основные показатели туризма в Азербайджане. Отмечены образовавшиеся проблемы в секторе туризма и пути их решения в связи с последствиями пандемии. Подготовлены рекомендации и даны предложения по смягчению негативных последствий COVID-19 в ближайшей и долгосрочной перспективе.



**Ключевые слова:** *постпандемические условия, мировой туризм, туристический сектор, туристические предприятия, проблемы конкурентоспособности, реабилитация туристических предприятий, направления развития туристических предприятий в постпандемических условиях.*



## SUMMARY
## DIRECTIONS FOR IMPROVING THE COMPETITIVENESS OF THE TOURISM SECTOR AND TOURISM ENTERPRISES OF THE WORLD IN POST-PANDEMIC CONDITIONS

The directions of increasing the competitiveness of the tourism sector and tourism enterprises of the world in post-pandemic conditions are investigated in the article. Essence and peculiarities of tourism sector in the world are considered. The main trends of tourism sector development and its influence on the world economy are given. The share of the tourism sector in world GDP and the share of the tourism sector affecting the formation of world GDP are analyzed. The number of tourists in different countries of the world is given too. The dynamics of total value added created in the tourism sector of Azerbaijan is analyzed then. The main indicators of tourism in Azerbaijan are considered. The emerging problems in the tourism sector and ways to address them in the aftermath of the pandemic are noted. Recommendations and proposals to mitigate the negative effects of COVID-19 in the near and long term are given in the end of the article.



**Key words:** *post-pandemic conditions, world tourism, tourism sector, tourism enterprises, problems of competitiveness, rehabilitation of tourism enterprises, directions of development of tourism enterprises in post-pandemic conditions.*

UOT 101.1

## Fəlsəfə

# TƏHSİL İSLAHATLARININ TƏKAMÜLÜ

**AZAD CƏFƏROV**
*Azərbaycan Dövlət Neft Sənaye Universiteti*
*"İctimai fənlər" kafedrasının dosenti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

*E-mail: zenur@rambler.ru*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan təhsilinin qarşısında duran əsas məsələnin istiqamətini qeyd edərkən demişdir ki, bizim ən böyük resursumuz insanlarımızın biliyidir, savadıdır. "Biz öz imkanları-mızdan səmərəli istifadə edərək maddi kapitalı insan kapitalına çevirməliyik" (6, s19). XXI əsrin əsas kapitalı ölkələrin maliyyə imkanları və təbii resursların zəngin olması ilə bərabər eyni zamanda intellektual potensial hesab edilir. Bu istiqamətdə əldə olunan ümumiləşmiş nəticə ondan ibarətdir ki, intellektual potensialın inkişafını təmin etməkdən ötəri məktəbəqədər təhsil, universal biliklərə yiyələnmə, fasiləsiz təhsil, millilik, multikulturallığı, yeni təhsil maliyyələşməsi modelinin tətbiq edilməsidir.

Qloballaşma şəraitində orta təhsil sistemi yeni həyat və düşüncə tərzi, əxlaqi və mənəvi mədəniyyət, davranış modellərinin sosial-mədəni özünəməxsusluğu və milli-mədəni dəyərlərin orjinallığı cəmiyyətdə yüksək maraq doğurur. Müasir şəraitdə təbii-tarixi inkişaf prosesi subyektiv amillərin təsiri ilə sosial-tarixi prosesə çevrilməyə başlayır.Texnoloji, iqtisadi, siyasi, sosial və mədəni amillər məkan və zamanla öz güclü təsirini göstərir. Qloballaşma istər böyük, istərsə də kiçik ölkələri yeni təhlükələr qarşısında eyni dərəcədə zəifliyə düçar etməyə istiqamət alır. Bu səbəbdən qlobal dəyişikliklər dövründə əxlaqi-mənəvi dəyərlərin texnoloji əsaslarının formalaşması daim diqqət mərkəzində saxlanılmalıdır. Əxlaqi-mənəvi dəyərlər hər bir xalqın inkişaf yolunda keçdiyi mövcud milli irsin və müasir dövrdəki münasibətdən bəhrələnir(2, s.19). Bir sözlə, mədəni irsin mövcudluğu sayəsində formalaşan mədəniyyət, özünü kənar təsirlərdən mühafizə etmək immunitetinə malik olur. Bu baxımdan Azərbaycan təhsil sisteminin formalaşması uzun tarixi prosesin nəticəsidir. Tarixi mənbələrdən də məlumdur ki, Azərbaycan ərazisində mədəniyyətin inkişafı hələ eramızın əvvəlindən formalaşıb. Qədim və abad, incə memarlığı ilə seçilən şəhərlərdə kitabxanalar fəaliyyət göstərib. Xalqımızın müdrikliyi, elmə, yaradıcılığa sonsuz marağı və hər bir məsələyə haqq ədalət prizmasından yanaşması, milli xüsusiyyətlərin təcəssümü olan şifahi xalq ədəbiyyatımızın nümunələrində də aydın şəkildə əksini tapıb. Qədim bir xalq olaraq təhsilə və elmə olan münasibət müxtəlif tarixi mərhələlərdə özünü mədəniyyətin demək olar ki, bütün sahələrində büruzə vermişdi. Məhz bunun sayəsində coğrafi bölgədə qeyd olunan sahədə tarix boyu inkişafın nəsildən-nəslə ötürülməsi baş vermişdi.

Bəşəriyyət nəticələrini ümumiləşdirməklə yanaşı, üçüncü minilliyin həyat fəaliyyət istiqamətlərini də müəyyənləşdirir. Sosial mədəni inkişafda, orta təhsilin müəyyən mədəni tip və səviyyə ilə səciyyələndiyi, bir-birini ardıcıl əvəz edən tarixi pillələr keçmişdir. Bu inkişaf prosesi nəticəsində ibtidai cəmiyyətlərin daxilində yaranan insan idealları, ruhi və maddi dəyərlərin yenidən istehsalı və onların texnoloji, intellektual və etik baxımdan təkmilləşməsi baş verir. Tarixi təcrübəyə müraciət etməzdən əvvəl, dünya mədəni inkişafının mühüm mərhələlərini, başəri inkişafın sosial mədəni qanunauyğunluqlarını düzgün qiymətləndirməyə imkan verən bir neçə mədəni məntiqi nəzəri məsələləri nəzərdən keçirək.

Qlobal dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifələri dəyişir. Ağlın, intellektin inkişaf edilməsi ön plana keçir. Dünyanın təhsil məkanında təkcə bilik və bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atribut kimi qiymətlənir və bu gün təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil sahəsində islahatlar təkamül yolu ilə pillə-pillə aparılır (6, s.4). Cəmiyyətimizin ehtiyac və tələbatlarına uyğun belə bir təhsil sisteminin qurulmasında demokratikləşmə, humanistləşmə,

inteqrasiya, diferensiallaşma, fərdiləşmə, mühüm pedaqoji prinsiplər kimi nəzərə alınır. Şəxsiyyətin maraq və ehtiyaclarını, arzu və istəklərini əsas götürməklə təhsil alanların mənafeyinə xidmət göstərmək ön plana çəkilir. Beləliklə, təhsilin bütün sahələrində dönməz xarakterə malik ardıcıl və sistemli işlərə rəvac verilir. Orta ümumtəhsil məktəblərində kurikulum islahatları elmi əsasda məqsədyönlü, planlı şəkildə həyata keçirilir. Kurikulum modelinə müraciət olunması yuxarıda qeyd olanların bir məcraya gətirməsinə, bir xətt üzrə qurulmasına imkan yaratmışdır. Fənn kurikulumları mahiyyət etibarı ilə cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasına imkan yaradır. Cəmiyyətin tələblərinə cavab verən nəticə yönlü, şəxsiyyət yönlü xarakterə malik vətəndaş yetişir. Orta təhsildə standartları tətbiq olunur ki, nəticədə ona müvafiq normalar və qaydalar tərtib olunur. Burada müəllimin peşəkarlığı səviyyəsi və tədris keyfiyyəti aşkarlanır.

Orta təhsil gələcəkdə mütəxəssis kimi formalaşan insan yaradır. Elə bir insan ki, orta təhsilin nəzərdə tutduğu proqrama uyğun olan ilkin bilikləri özündə əks etdirsin. Burada önəmli olan odur ki, formalaşan insan öz yaşadığı mühit üçün yararlı şəxsiyyətə çevrilsin. Özündə yüksək intellekt, sosial fəallıq, emosional zənginlik və humanizmi birləşdirsin (1, s.24). İnsanın şəxsiyyət kimi formalaşması istiqamətində mədəni inkişaf üçün daha mühüm səciyyə daşımağa başlasın. Belə yanaşma, harmonik inkişaf etmiş insanı nəzərdə tutan H. Mannın “mütləq insan ” formuluna uyğun gəlsin. Nəzərdən qaçırmaq olmaz ki, ingilis filosofu Frensis Bekonun fikirlərinə əsaslansaq, təhsilin önəmli olmasının əsas əlaməti bilik olsa belə, əgər o insana fayda vermirsə deməli lazımsız zinətdir. Baxmayaraq ki, mütəfəkkir biliyi “güc” adlandırır.

Azərbaycanda orta təhsil sistemi təhsil strategiyası əsasında yaradılıb. Təhsil strategiyasının məzmun-mahiyyətini müəllim-şagird münasibətinə yeni yanaşma üsulu təşkil edir. Burada müəllimin təlim prosesində istifadə etdiyi forma, üsul və texnika nəzərdə tutulur. Burada müəllimlər strategiyaya uyğun olanı seçir, ya da ki, yaradıcı qabiliyyəti və səriştəsi olanlar yeni strategiya hazırlayaraq ondan istifadə edirlər. Fəal təlim özü-özlüyündə bir texnika və ya texnologiyadır(1,s.27). Təlimin ənənəvi məzmunu müəllimin irəli sürülən məsələyə özəl yanaşma tərzindən çox asılıdır. Onun istiqamət verici rola malik olması şagirdlərin daha çox müstəqil fəaliyyət göstərməsini, təşəbbüskar olmasını artırmaq üçün səylərdən ibarət olmalıdır. Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, cəmiyyətin gələcək tərəqqisi nəyi və necə öyrətməyimizdən aşlıdır. Kulturoloji tədqiqatların ümumi metodologiyası kimi, tərəfimizdən, dialektika (Hegel fəlsəfəsi daxil olmaqla), tarixilik prinsipi və məntiq (Lütfi-Zadənin qeyri-səlis nəzəriyyəsi daxil olmaqla) seçilmişdi.

Bu metodologiyaya istinad, bəşəriyyətin ruhi və maddi inkişafının tarixi proses kimi bütöv bir tam halında dərk etməsini asan edir. Qədim dövrlərdən indiyə qədər, insanın fikri və hissi ilə yaradılan ruhi mədəniyyət insan davranışının ilkin şəraitidir. İnsanın və cəmiyyətin inkişafı nəticəsində formalaşmış şüur, baxış, zövq, xarakter və dəyər istiqamətləri onun vətəndaş mövqeyi, enerji və yaradıcı təşəbbüskarlığını müəyyən edir. Bununla yanaşı, şəxsiyyətin fəaliyyət uğurları onun bilik, bacarıq və intellektual potensialının inkişaf səviyyəsindən asılıdır.

Mədəniyyət onun daşıyıcısı və istehlakçısından, onun yaradıcısı olan insanın özündən başlayır. İnsan mədəniyyətinin beş əsas xarakteristikası ilə ölçülən düstur mövcuddur: bilik, bacaracaq, mütəşəkkillik, mənəviyyat yaradıcı fəaliyyət. Bilik-elm və təhsil üzərində qərarlaşır. Bacaracaqlar həyat fəaliyyət üsulundan, qabiliyyətlər, vərdiş, təcrübə və enerjidən asılıdır. Mütəşəkkillik nizam intizam, kulturologiya, effektivlik, həyat fəaliyyəti, sosial məsuliyyət və iradənin olmasını tələb edir.

Minilliklər ərzində bəşəriyyətin sosial-mədəni inkişafının başlıca hərəkət-verici qüvvəsi ağıl, bilik və humanizm olmuşdu. Bu baxımdan bütün təhsil pillələri kimi orta təhsil də, cəmiyyətin mədəni inkişafının mühüm komponenti hesab edilir. Orta təhsilin milli xüsusiyyətləri özündə əks etdirməsi vacib şərt hesab edilir. Elm, təhsil və mədəniyyət yeni dövr mədəniyyəti inkişafının dominantı olmalıdır. Dünya elm xadimlərində olan intellektual gücə istinadən həqiqətə, bəşəriyyətin daha uğurlu gələcəyinə doğru gedən yolu işıqlandırırdı.

Xalqımızın müdrikliyi, elmə, yaradıcılığa sonsuz marağı və hər bir məsələyə haqq ədalət prizmasından yanaşması, milli xüsusiyyətlərin təcəssümü olan şifahi xalq ədəbiyyatımızın nümunələrində də aydın şəkildə əksini tapıb.

Dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olan, ulu əcdadlardan bizə yadigar qalmış “Kitabi-Dədə Qorqud“ dastanı 1300 il ərzində xalqımızın mənəvi qidası olub, milli ruhun yaşamasına, millətimizin mübarizə aparmasına, öz

milli mənliyini hifz etməsinə daim yardım göstərib. Təqdirəlayiq haldır ki, bütövlükdə qədim maarif və təhsil ölkəsi olan Azərbaycanda hər bir şəhər və kənddə dini dəyərlərin təbliğ edildiyi məscidlərin yanında, yaxud da ayrılıqda mədrəsələr, mollaxanalar fəaliyyət göstərib, uşaqlar dini təhsillə yanaşı, oxuyub yazmağı, dünyəvi elmləri də öyrəniblər. Hələ Nizami Gəncəvinin yaşadığı dövrdə mədrəsələrdə, qədim üslublu məktəblərdə 24 fənni əhatə edib “ədəbi kompleks” adlanan elmlərin əsasları öyrədilib. Klassiklərin bədii əsərlərində təbiət, fəlsəfə, tarix, astronomiya və digər elmlərə dair məlumatlar–obrazlı informasiyalar, məhz həmin dövrdə verilən təhsilin nəticələridir.

Azərbaycanda elmin, təhsilin inkişafına daim xüsusi önəm verilsə də, respublikamızda təhsil sahəsinə mərkəzləşmiş rəhbərliyi həyata keçirən ilk dövlət qurumu ötən əsrin əvvəllərində, Azərbaycan Demokratik Cümhuriyyəti dövründə yaradılıb. Keçən əsrin axırlarında başlanan təhsil islahatı onun məzmununun yeni olmasını, təkmil olmasını mühüm bir problem kimi irəli sürdü. Təhsil Nazirliyinin göstərişi ilə dərslik konsepsiyasının layihəsi hazırlandı, dərslik siyasəti formalaşdı. Bu sahənin mütəxəssisləri qısa müddətdə ana dili dərsliyinin tərtibi prinsiplərini hazırladılar.

Orta ümumtəhsil məktəbi üçün dərslik probleminin perspektivinin müəyyənləşməsi çox mürəkkəb kompleks vəzifə olub, yalnız müvafiq konsepsiya əsasında həll edilə bilər. Konsepsiya aid olduğu sahənin istiqamətini müəyyən edən konstruktiv prinsiplərin məcmusudur. Azərbaycanda qeyd olunan sahənin eksperti hesab edilən Y.Ş. Kərimovun fikirlərinə görə dərslik konsepsiyası üç əsas aspektlə müəyyənləşir:1.Fəlsəfi. 2.Fəndən asılı olaraq nəzəri-didaktik.3.Didaktik-psixoloji (4, s.122).

Bu problemlərin həllində əsas istiqamətləri müəyyən edən konsepsiyada məntiqi olaraq geniş yaradıcı kollektivin səyi tələb olunur. Bunlardan nəzəriyyəçi alimlərin, pedaqoqların, psixoloqların, metodistlərin, rəy verənlərin, redaktorların, korrektorların, bədii tərtibatçıların və sairələrin əməyi sərf olunur. Hər biri üçün dəqiq konkret tələblər və qaydalar mövcuddur. Burada alimlərin dərsliyin yenilənməsi və tez-tez dəyişməsi ilə bağlı yekdil fikrin mövcud olmaması, təbii hal kimi alimlər tərəfindən qəbul edilir. Burada orta məktəb üçün önəmli olan dərslik dilinin sadə, aydın, anlaşıqlı və hədəfi əldə etmək üçün, materialın məzmununu mənimsəmək mümkün olsun. Müasir orta təhsil sistemində təlimin əsas məzmununun mənimsənilməsi nəticəsində bacarıqların bərqərar olmasında təfəkkürün empirik-nəzəri xüsusiyyətindən geniş istifadə olunur (3, s.34). Empirik təfəkkür hadisəni, nəzəri təfəkkür mahiyyəti əks etdirir. Məktəb bu baxımdan şagirdlərdə əsasən nəzəri təfəkkürü, alman filosofu Hegelin sözləri ilə desək, ağıllı-dialektik təfəkkürü formalaşdırmalıdır. XXI əsrdə təhsilin müxtəlif pillələrində xarakter etibarı ilə fərqlənən yeni təfəkkür tipinin formalaşması təhsilin əsas vəzifəsinin birinə çevirməlidir. Məktəbdə şagirdlərə müəyyən fənlər üzrə biliklər verməkdən daha çox bu biliklərin toplanması yollarını mənimsətmək lazımdır. Bu halda tədris prosesində şagirdlərə təkcə biliyin aşılanması getmir, onlarda ilk növbədə nəzəri təfəkkür və ya insan ağlının qiymətli keyfiyyəti olan tənqidi təfəkkür formalaşır. Aparılmış tədqiqatlar göstərir ki, tənqidi təfəkkür ağlın inteqrativ məziyyətidir. Təlim prosesində yaradıcılığın səmərəli olması bilavasitə dəyərlə şərtlənir. Müasir məktəb bu yolda nə qədər elmi-metodik çətinliklə rastlaşsa da, hal hazırda bu günün məktəbi, təfəkkürün tərbiyəsi problemini şagirdlərdə yaradıcı təfəkkürün formalaşdırılmasından başlamalıdır. Belə təfəkkür dərsləri şagirdlərə həm ali məktəblərdə böyük elmin sirlərini uğurla mənimsəməyə kömək edir, həm də onların həyatda yaradıcı insan kimi formalaşmasının təminatçısına çevrilir. Bunun üçün birinci növbədə müəllimlər yuxarı sinif şagirdlərini məntiqi və tənqidi təfəkkürün qanun və qanunauyğunluqlarının mənimsənilməsinə dair biliklərə yiyələnirlər. Kiçik, orta və gənclik yaş dövrlərində məktəblilərdə tənqidi təfəkkürün formalaşması tədris prosesində elə metod və üsulların tətbiqini tələb edir ki, onlar faktların təhlili və qiy-mətlənməsi üçün faydalı olur.

Artıq bu gün, qürur hissi ilə deyə bilərik ki, biz suveren müstəqil dövlətin azad vətəndaşlarıyıq. Azərbaycan xalqı üçün önəmli olan tarixi hadisə ondan ibarətdir ki, bu günkü nəslin üzərinə vacib hesab edilən böyük bir məsuliyyət düşür. Cəmiyyətimizin hər bir üzvünə toxunan, həyatımızın məhsuldar hissəsini təşkil edən təhsil və elm, müasir dövrün tələblərinə uyğun gəlməsidir(3, s.35). Bu sahədə çalışan və iştirakçısı olan insanlardan, təxirəsalınmaz işlərin həyata keçirməsi tələb olunur. Dövlətimizin bu istiqamətdə gördüyü işləri səmərəli həyata keçirmək üçün, müxtəlif istiqamətdə səylərin artırılması vacibdir.

Demək olar ki, bütün təhsil sahələrində və istiqamətlərində özünəməxsus mahiyyətdən

irəli gələn məsələlər və problemlər mövcuddur. Bu məsələ və problemlər o zaman effektli olar ki, elm və təhsilə yanaşma, köklü sürətdə islahat yolu ilə dəyişsin. Elm və təhsil və bu prosesdə iştirak edənlər, yəni insanlar, istehsalla, həmçinin cəmiyyətdəki inkişafla paralel sürətdə ayaqlaşsın. Təhsil və elmin qarşılaşdığı və həll edə biləcəyi məsələlər, problemlər, cəmiyyətin inkişaf səviyyəsindən və istehsalın real vəziyyətindən irəlidə olmasıdır. Bir tərəfdən zamanın reallığına uyğunlaşan ixtisaslaşmış təhsil və elm müəssisələri, digər tərəfdən isə zamanın tələbinə uyğun gələn kadr potensialı, üçüncüsü isə təchizat və koordinasiya layihələri nəticəsində hədəfə nail olmaq mümkündür.

Burada dövlətimizin apardığı təhsil və elm sahəsindəki siyasətdə müsbət tendensiya müşahidə olunur. Buna baxmayaraq elm və təhsilin biznes əlaqələrində problemlər qalmaqda davam edir(5, s.68). Təhsil və elm sahəsində sosial sifarişin aktual olması imkan verir ki, bu istiqamətdə uğurların miqyası və sürət tempi artsın. Yalnız keyfiyyətli təhsil nəticəsində cəmiyyətin dayanıqlığını təmin etmək olar. Keyfiyyətli təhsil həm də elmin ənənəvi məcradan çıxmasına, istənilən sahədə yeni texnologiyaların yaranmasına və tətbiqinə zəmin yaradır. Qazanılan biliklər, yalnız bilik naminə bilikli olmaq fəlsəfəsindən, biliyin əməli fəaliyyət fəlsəfəsinə çevrilməsi hadisəsinin baş verməsini nəzərdə tutur. Nəticədə fəlsəfə elmi, elmlərin fəlsəfəsi xarakterinə malik olmalıdır. Bu istiqamətdə, öncə fəlsəfi elmlər vasitəsilə elmlərin dinamik inkişafını təmin edə biləcək, strateji konsepsiya ilə, elmlərin fəlsəfəsini dərk etmək əsas şərt olmalıdır. Əks halda həyata keçirilən iş kortəbii xarakter alacaqdır. Nəticədə milli təhsil və elm mövcud inkişaf prosesinin arxasınca gedir. Belə olan təqdirdə təhsilin və elmin idxal edilməsi aktuallaşır. bütün səylərə baxmayaraq milli təhsil və elm digər cəmiyyətlərin təhsil və elmindən asılı vəziyyətdə qalacaqdır (Ərəb ölkələri sindromu).

Hazırda respublikamızda təhsil layihələrinə dövlət qayğısının olması, təhsil investisiyaları bu istiqamətdə təqdirəlayiq hadisədir. Amma belə hal təhsil mü-əssisələrinin özü maliyyələşmə mexanizminə təkanverici xarakter daşımalıdır. Sirr deyil ki, müstəqil dövlətin dinamik inkişafı birbaşa milli təhsil və elmin dinamik inkişafı ilə əlaqəlidir. Bu məsələni iki mərhələdə inkişaf etdirmək mümkündür. Birinci, təhsil alanları və təhsildə iştirak edənləri konkret sahələr üzrə hazırlayanda, əlavə bilik yükündən azad edib, praqmatik məzmuna daha çox üstünlük verilməlidir . Obyekt və predmetin təhlilini təkrarlamaq əvəzinə, onları müxtəlif elmi-pedaqoji-psixoloji üsullarla dəyişdirmək (inklüziv, innovativ, yaradıcı vasitələrlə) vacibdir. Predmetin mahiyyətini araşdırarkən onun zamanın tələbinə uyğun olaraq inkişafın və islahatın mahiyyətini dərk etmək əsas tələb olmalıdır. Bu istiqamətdə təhsildə sabah layihəsini davamını inkişaf etdirmək məqsədəuyğundur. Qısa müddət ərzində nəticələr çox uğurludur. Bələ layihələri magistr və doktorantura səviyyəsində həyata keçirməyin zamanı yetişmişdir.

İkincisi, qabaqcıl universitetlərin məzunlarını bu prosesə cəlb edib, gənc elmi kadrları irəli çəkməklə bərabər, eyni zamanda onlar üçün münbit şəraitin olmasını təmin etmək (intellekt axınının qarşısını almaq üçün ), yeni ideyaların yaranmasını mükafatlanmaq, stimullaşmaq hesabına ideyaları təkrar istehsalına nail olmaq olar. Müasir elmin fəlsəfəsi prioritet ideyalardan ibarətdir. Istənilən sahədə məhz bu ideyalar yeni texnologiyaların yaranma səbəbidir. Fərqli ideyalar cəmiyyətdə müqavimətə rast gəlindiyindən, bu istiqamətdə təbliğat vasitəsindən yararlanmaq olar. İctimai tələbat elmə olan münasibəti fəlsəfə təhsilini (bakalavr) təhsilin fəlsəfəsinə doğru (magistr, doktorantura), gedən yolda məsələnin mahiyətini təşkil etməlidir. Elmə və təhsilə olan ictimai sifariş, cəmiyyətdə nüfuza malik olduğu halda, artıq demək olar ki, bu məsələdə işlək mexanizm mövcuddur. Nəticədə hər bir sahə üzrə nəinki respublika hüdudlarında, hətta digər ölkələrdə mütəxəssislər ailəsinin üzvünə çevrilər. Milli texnologiyaların yaranması hadisəsi baş verər.

ADA Universiteti bu istiqamətdə avanqard rolunda çıxış edir. İnklüziv təhsil prosesində konkret praktiki addımlar atılır. Respublikada tədricən inklüziv təhsil istiqamətində yeniliklər baş verir. Bu prosesin davamlı olması, gələcək nəsillər üçün yeni perespektivlər vəd edir. Hər bir təhsil müəssisəsinin qeyd olunan inklüziv prosesin seçməsi, elm və təhsilin fəlsəfəsinin mahiyyətindən xəbər verir. İstənilən halda inklüziv təhsil prosesinin özü, bu istiqamətdə baş verən inkişafın mexanizmdir.

Azərbaycanda mövcud olan orta təhsil sistemi ümumi təhsil sisteminin tərkib hissəsi olub, tərbiyə və psixi inkişaf imkanlarına malik olan, təlimin həm zəruri şərti, həm də nəticəsi kimi özünü göstərən bilik, bacarıq və vərdişlərin məcmusudur. Xüsusi qaydada təşkil olunan idrak fəaliyyətinin idarə olunması prosesidir. Təlim

isə öz növbəsində az bilikdən çox biliyə, daha da mükəmməl biliyə doğru şərait yaradır. Bu da öz növbəsində həqiqətə çatmaq yolunda biliyin sistemləşdirilmiş təzahür formasıdır(4, s.193). Bununla da orta təhsil sisteminin elmi şəkildə müəyyən edilmiş metodologiya əsasında işləyir. Bu isə öz növbəsində şəxsiyyətin formalaş-ması, şagirddə xarakterin tərbiyəsi, milli dəyərlər əsasında mənəvi keyfiyyətlərin aşılanması üçün böyük əhəmiyyətə malikdir. Azərbaycanın orta təhsil sistemi ilə bağlı dövlətimiz, təhsil siyasətini həyata keçirən Təhsil Nazirliyi davamlı olaraq bu sahədə islahatlar həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti cəmiyyətimizin digər mühüm sahələri kimi öz əhəmiyyətinə görə strateji mahiyyətə malik olmasını nəzərə alaraq daima diqqət və qayğı ilə əhatə olunur. Ölkə başçısının "Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır " deməsi, bu önəmli sahəyə olan münasibətdən xəbər verir. Bu münasibətdən irəli gələn gələcək planların həyata keçməsi üçün aşağıdakı tədbirlər nəzərdə tutulur:1. Təhsil alan şagird şəxsiyyətli, ixtisaslı, təcrübəli, peşəkar müəllimdən dərs almalıdır. Təbii ki, burada pedaqoji keyfiyyətlər özündə ehtiva etməlidir. 2.Tədris prosesində müasir texniki avadanlıqlardan və zamanı qabaqlayacaq texnologiyalardan istifadə olunmalıdır. 3.Təhsil alanla təhsil verən arasında münasibətin təhsil qanunu çərçivəsində həyata keçirilməsi dinamik işlək mexanizminə malik olmalıdır. 4.Təhsil alan şagird yoldaşları ilə ünsiyyətdə qarşılıqlı münasibətin yaranması üçün şəraitin olması nəticəsində sosiallaşması baş verməlidir.

Yekun olaraq qeyd etmək olar ki, təhsil sisteminin faydalı olmasında bütün cəmiyyət üzvləri fəal iştirak etməlidir.

**Açar sözlər:** *ümumi təhsil, orta və tam təhsilin fəlsəfəsi, təhsil islahatı, milli təhsil.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Kərimov Y. Seçilmiş əsərləri.VI cild. Dərslik problemi.Bakı, 2011*

*2. Mehrabov A.Müasir təhsilin konseptual problemləri.Bakı, 2010*

*3.Abbasov Ə. Ümumi təhsilin məzmun islahatları: real standartlara doğru// Azərbaycan məktəbi, 2005, № 4.*

*4. Kərimov Y. Pedaqoji tədqiqat metodları. Bakı. Azərnəşr, 2009*

*5. Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, Təhsil, 2005*

*6. Mərdanov M. Davamlı inkişaf və təhsil. Bakı, Çaşıoğlu, 2007*

**Azad Jafarov**

**Evolution of educational reforms**

**SUMMARY**

There are many scientific and practical researches, pedagogical instructions and methods on this subject in the world as well as in our republic. However, figuratively speaking, there is a crisis in the direction of giving it a breath and the life in order to carry over all the above-mentioned issues to a working mechanism and dynamism. The only way to get rid of this situation is to pay attention to the philosophy of education and science. There are many methods for the general secondary and full education. The suitability of the existing methods for pandemic conditions must already be taken into account.

**Keywords:** *General education, secondary and full education philosophy, national education, educational reforms*

**Азад Джафаров**

**Эволюция реформы образования**

**РЕЗЮМЕ**

В мире, также как и в нашей республике, проводятся множество научных и практических исследований, концепций, педагогических инструкций и методические работы по данной теме. Но для того, чтобы все вышеперечисленное превратить в рабочий механизм и динамизм, образно говоря, сталкиваемся с кризисом в придаче ему жизни и нового дыхания. Единственный способ избавиться от этой ситуации - направить внимание на философию образования и науки. Есть много методов для общего среднего и полного образования. Уместность существующих методов для условий пандемии уже должна быть принята во внимание.

**Ключевые слова:** *Общее образование, в условиях глобализации, философия среднего и полного образования, национальное образование, реформы образования.*

UOT 101.1::316

# SOYQIRIM ANLAYIŞINA SOSİAL-FƏLSƏFİ YANAŞMA

**VÜSALƏ GÜLMALIYEVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunin elmi işçisi*

*E-mail: esma_r86@mail.ru*

**Soyqırım anlayışının məzmunu**

Soyqırım anlayışının mənasını aydınlaşdırmaq üçün onun tarixi kökünü və mahiyyətini araşdırmaq lazımdır. Soyqırım ("genocide") sözü yunanca "irq" və ya "qəbilə" kimi tərcümə edilən "geno" və latınca "qətl" mənasını verən "cide" sözünün birləşməsindən yaranmışdır. Elmi dövriyyəyə ilk dəfə olaraq 1944-cü ildə yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin (1900-1959) tərəfindən gətirilib. O, bu anlayışı müharibə şəraitində olan və işğal edilmiş Avropada vətəndaşlara qarşı törədilən vəhşilikləri təsvir etmək üçün istifadə etmişdir. Onun sözlərinə görə, soyqırım yalnız hüquqi "normadan" kənara çıxmaq deyil, həm də dəqiq müəyyən məqsədlərə nail olmaq üçün qəsdən törədilmiş cinayət, bəzən dövlətçilik elementləri ilə konsentrasiya və əlaqələndirilmiş hücumdur. Məhz R.Lemkin və onun tərəfdarlarının birgə səyləri nəticəsində "soyqırım" termini "Soyqırım Cinayətinin Qarşısının alınması və onun cəzalandırılması" haqqında Konvensiyada (SCQACK) təsbit edilmiş və BMT Baş Assemblyasiyası tərəfindən 9 dekabr 1948-ci ildə qəbul edilmişdir. Bu Konvensiyada qeyd edilmişdir ki, beynəlxalq, etnik, irqi ya da dini qrupu qismən, ya da tamamilə məhv etmək məqsədilə törədilən aşağıdakı hər hansı bir hallar soyqırım cinayətini yaradır:

-qrupa mənsub olanların öldürülməsi;

-qrup üzvlərini ciddi sürətdə fiziki və ya mənəvi ziyan vurmaq;

-qrupun tam və ya qismən fiziki məhvi məqsədilə qrupda həyat şətlərini düşünülmüş şəkildə aşağı salmaq;

-qrupda doğumların qarşısını almaq üçün tədbirlər görmək;

-uşaqları öz mənsub olduqları qrupdan zorla ayıraraq digər qrupa köçürmək; [2, s 79-80]

Konvensiya beynəlxalq hüquqi qüvvəsini yalnız 12 yanvar 1951-ci il tarixində 20 ölkə üzv olduqdan sonra aldı. Buna baxmayaraq, həmin dövrdə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən yalnız 2-si (Fransa və Çin Respublikası) razılaşmaya tərəfdar olduğundan illərcə Konvensiyanın fəaliyyəti zəif olaraq qalırdı. Bu Konvensiya 1954-cü ildə keçmiş SSRİ, 1970-ci ildə Birləşmiş Krallıq, 1983-cü ildə Çin Xalq Respublikası, 1988-ci ildə ABŞ tərəfindən ratifikasiya olunmuşdur. Buna görə də bu beynəlxalq hüquqi akt yalnız 1990-cı illərdə fəaliyyətə başlamışdır. Beləliklə, bəşər tarixində ilk dəfə beynəlxalq hüquqda insan qruplarının milli, etnik, irqi, dini fərqlərinə görə kütləvi məhvinə yönələn cinayətlər "Soyqırım" kimi qəbul edildi. Bu Konvensiyanı qəbul edən, ona qoşulan ölkələrin üzərinə bu kimi cinayətlərin qarşısının alınması və belə cinayətləri törədənlərin cəzalandırılması öhdəliyi bir vəzifə kimi qoyuldu. Tarixdə baş verən soyqırımlara nümunə kimi ilk növbədə nasist Almaniyasının yəhudilər başda olmaqla bir çox etnik qrupa, Fransızların Əlcəzairlilərə, Amerikanlıların qaradərililərə, Kommunist Çinlərin (Tibet, 1957) Türkistan türklərinə, Avropada II Dünya müharibəsindən sonra yaşanan ən böyük insanlıq faciəsi olaraq görülən Srebnitsada baş verən kütləvi qırğınlar, türklərə qarşı edilən soyqırımları göstərmək olar. BMT–nin "Soyqırım Cinayətinin Qarşısının alınması və onun cəzalandırılması" haqqında Konvensiyanın olmasına baxmayaraq müasir dövrümüzdə də soyqırım hallarının baş verdiyinin şahidi oluruq. (Ruanda soyqırımı, Səddam Hüseynin vaxtında Hələbdə kürdlərə qarşı, Bosniya-Hersoqoniyada

bosniyalılara qarşı, Xocalı soyqırımı və s.) Deməli, Konvensiyaya imza atan ölkələr qanunla cinayət elan edilən soyqırım hadisəsinin qarşısını almaq və son qoymağa nail ola bilməmişlər. Bir millətin digər millətin suverenliyini pozmaq halları hələ də öz aktuallığını saxlayır. Holokost tarixçisi Yehuda Bauer iddia etdiyi kimi, "soyqırımı görəndə soyqırım adlandırmaq üçün bizə 1948-ci il konvensiyasında verilmiş vasitələrdən daha güclü analitik vasitələrə ehtiyacımız var." [3, s.87-109]

Soyqırım anlayışını mahiyyətini bilmək üçün hər şeydən öncə tarixdə soyqırım kimi qəbul edilən bütün hadisələri ümumiləşdirib hamısı üçün oxşar və ya fərqli cəhətləri müqayisəli analiz etmək lazımdır. Çünki soyqırım cinayəti sübut olunması çətin olduğundan bu cür metodlarla öyrənmək lazımdır. İlk öncə soyqırımları ideoloji, praqmatik, xarici və daxili növlərə bölərək təhlil etmək olar. Belə ki, ideoloji soyqırım dedikdə, ideoloji olaraq məhv olunacaq qrup göstərilir və siyasət buna uyğun aparılır. Bu soyqırıma ən bariz nümunə I Dünya müharibəsində Nasist-Almaniyası tərəfindən 5 milyondan artıq yəhudilərin məhv edilməsi ilə nəticələnən tarixin ən ağır, ideoloji soyqırımı olan "Holokost"dur. Bu ideologiyada "yəhudilərin yox edilməsi" ideyası mərkəzi yer almışdır. [4,s.20] Digər nümunə kimi, Stalin dövründə Sibirə və digər uzaq yerlərə sürgün edilən kommunistlər də ideoloji soyqırımın qurbanları hesab etmək olar. İdeoloji soyqırımlarda məhvetmə niyyət və məqsəd olaraq aparılır. Burada dövlətin siyasətinə uyğun olaraq düşmənlər axtarmağa meylli olan aqressiv şəxsiyyət formalaşdırılır. Buna görə də cəmiyyətə yəhudi, qaradərililər ideal qorxu obyektləri kimi aşılanırdı. Praqmatik soyqırımların isə həyata keçirilməsi üçün heç bir ideologiya mövcud olmur. Burada qurban olan qrup hədəfə mane olduqları üçün qətliam və ya sürgünlərə məruz qalırlar. Tarixdə də ideoloji soyqırımlardan çox praqmatik soyqırımlar olmuşdur. Ölkə daxili soyqırımlara isə diktator rejimləri tərəfindən həyata keçirilən hadisələri göstərmək olar. Əsasən çox etnik, çoxmillətli ölkələrdə etnik qruplardan birinin hakimiyyətə keçməsi ilə digər etnik qruplara aşağı səviyyədə baxması ilə yaranır. Belə vəziyyətdə olan ölkələr həmişə potensial soyqırım üçün hazırdırlar. Çünki müxtəlif dini, etnik, siyasi qrupların birlikdə yaşaması həssas şərtlərə bağlı olan bir haldır. Bu şərtlər (demokratiya, sərbəstlik, azadlıq, bərabərlik və s.kimi) sərtləşdikdə soyqırımın baş vermə halı daha yüksək olur. Ölkə xaricində olan soyqırımlara isə zəbt edilən ölkələrdə işlənən və "uzaqdan" həyata keçirilən qətliamlar kimi iki qrupa ayırmaq olar. Məsələn, ingilislər Tasmaniya adasını işğal etdikdən sonra yerli tasmaniyaları məhv etdilər. İkinci tipə isə siyasi-texnoloji sahədə inkişaf etmiş ölkələrə aiddir. Belə ki, 1945-ci il II Dünya müharibəsində ABŞ-ın Yaponiyanın Xirosima və Nakasiki şəhərlərinə atdığı atom bombaları yüz minlərlə insanın məhvi buna misal ola bilər. [5, s.2-3]

Soyqırıma hər şeydən əvvəl, mikro və makro səviyyədə yanaşmaq lazımdır. Belə ki, soyqırımın makro səviyyəsi kütlələrin şiddət, zorakılıq halları ilə qarşılaşmasına görə sosioloji bir fenomen kimi araşdırılır.[6, s.85-102]

Çünki etnik qruplar arasında baş verən münaqişələr, bu münaqişə ərəfəsində sosial münasibətlər, burada ikitərəfli və ya təktərəfli qətliamlara yol açılması kimi mövzular sırf sosioloji mövzulardır. Mikro səviyyədə soyqırıma yanaşma isə, fərdlərin psixoloji vəziyyətinin araşdırılmasıdır. Burada zorakılıq, gərginlik sosial bərabərsizlik kimi çətin vəziyyətlərdə meydana çıxan psixoloji hal və vəziyyətləri göstərmək olar. Bununla bərabər şiddətin istifadə edilməsi, cəmiyyət tərəfindən "aşağılayıcı kimi" şərtlər potensial olaraq soyqırım təhdidi kimi ortaya çıxa bilər. Belə ki, qrup üzvü təhdid edilmə psixologiyasına qapılır və başqa insanları incitməyə və hətta öldürməyə daha asan meyl edir. Robert Melson "İnqilab və soyqırım" kitabında qeyd edir ki, soyqırımı "qismi soyqırım" və "küllü soyqırım" kimi iki hissəyə ayırmaq lazımdır. [7, s.66 ] Belə ki, "qismi soyqırım" da hədəf alınan qrupun mədəniyyəti yox, qrupun böyük bir qisminin məhvi və ya kütləvi olaraq qrupun statusunun, siyasi gücünün yox edilməsi mənasını daşıyır. Yox əgər məhv edilmə daha da genişlənib qrupun sosial və mədəni amillərini məhv etməyi məqsədini daşıyırsa, bu artıq "küllü soyqırım" adlandırılmalıdır. Mədəni soyqırımda şiddət mövcud deyil, burada əsas məqsəd qətil olmadan hədəf alınan qrupun buxarlanaraq, yavaş-

yavaş yox olması niyyətini daşıyır. Məsələn, buna dil məhdudiyyəti, hədəf qrupun dininin yox edilməsi, abidələrinin məhv edilməsi və ya uşaqlarının əllərindən alınaraq hücum edən tərəfin ənənələri ilə böyüdülməsi və s. buna misal ola bilər. Bunlar artıq mədəni soyqırımdır. Buna misal olaraq son zamanlar Çin hökumətinin Sincan vilayətində uyğurlara qarşı mədəni soyqırım kompaniyasını göstərmək olar. Belə ki, 1 milyondan çox uyğur və digər türk müsəlman əsir düşərgələrində saxlanılaraq, Çin dilini öyrənməyə, öz dilləri və dini ibadətlərindən imtina etməyə məcbur edilir. Saxlanılan insanların uşaqları təlim verilmək üçün başqa düşərgələrə aparılır.

Soyqırım subyektləri üç qrupa ayrılır: birinci, soyqırımı hər şeydən əvvəl, bütün xırdalığına qədər düşünən, planlaşdıran icracı, ikinci, qurbanlar hansı ki, onlar insansızlaşdırma formasında dəyərləndirilir. Belə ki, soyqırım qurbanları mənsub olduqları qrupun və ya kimliyin bir simasız parçası olaraq bir şey etdiklərinə görə yox, bir şey olduqlarına görə hücuma məruz qalırlar. Qurbanlar əsasən hədəf alınması üçün özəl bir səbəb yoxdur. Tarixə nəzər saldıqda görürük ki, bəzən məzlum vəziyyətinə düşən qruplar hökmranlığı altında yaşadığı dövlətə daxilində daima nifrət və tənqid hədəfi olaraq yaşamışlar. Məhz belə qruplar bəzən soyqırım hədəfi olurlar. Bundan başqa, cəmiyyət daxilində siyasi, mədəni, sosial baxımından təcrid olunmuş qrup soyqırıma  məruz qalma təhlükəsi ilə daha çox üzləşirlər. Məsələn, yəhudilər həmişə cəmiyyətdən uzaq, yad kimi görünmüşlər. II Dünya müharibəsindən əvvəl yəhudi düşmənliyi nasistlər tərəfindən rəsmi siyasətə çevrildiyində yəhudilər artıq sistemli şəkildə bütün siyasi, hüquqi, mədəni və iqtisadi haqlardan məhrum edildilər və  proses olaraq faciəvi şəkildə yox edildilər. Üçüncü qrupu izləyənlər təbəqəsi təşkil edir.

**Soyqırım amilləri**

Soyqırımı təkcə beynəlxalq hüquq sahəsində yox, eləcə də ümumdünya sahədə onun necə qəbul edildiyini aydınlaşdırmaq lazımdır. Müxtəlif elmlər tərəfindən (psixologiya, hüquq, fəlsəfə, sosiologiya, kriminologiya) bu anlayışın təhlil edilməsi, onun nə qədər mürəkkəb və aktual olduğuna dəlalət edir. Tarixə nəzər salanda həmişə insan cəmiyyətinin şiddətə, əhalinin məhv olması ilə nəticələnən müharibələrə məruz qaldığını görmüşük.  Zorakılıq, şiddət insanlığın tarixi ilə demək olar ki, eynidir. Yəni, soyqırım bir növ ad olaraq yeni ola bilər, bəlkə də bu köhnə təcrübələrin üzərində qazanılmış yeni bir addır. İlk soyqırım kimi hələ e.ə. 2200-1800 illər arasında Akkad-Babil-Assur dövlət qurumları ətrafında yaşayan Hurrit (Hurri) əsilli xalqlara və Zaqros-Toros dağ silsilələri boyunca yerləşmiş tayfalara qarşı reallaşdırılmışdır. Daha sonra bu vəhşiliyi göytürklərə qarşı tabqaclar, tibetlilərə qarşı Siuyan(Çin) davam etdirmiş və beləcə sənaye dövrünədək ayrı-ayrı ərazilərdə rast gəlinmişdir. Lakin soyqırımı əvvəlki zorakılıqlardan əsaslı sürətdə fərqləndirən bir neçə amil  var.

Soyqırım ilk növbədə, bir qrup insanın tamamilə və ya bir qisminin yox etməyi məqsədini güdən vasitədir. Lakin soyqırımın əsl mahiyyəti qırğının kütləviliyi deyil, həm də eyni zamanda məqsədli və sistemli olması ən vacib şərtlərdir. Bu amili biz BMT Soyqırım Konvensiyasında bir hadisənin soyqırım kimi qəbul edilməsi üçün ilk növbədə "planlı, məqsədli və düzənli olaraq yoxetmə" olma şərtinin qəbul edilməsində də görürük. Daha sonra soyqırıma təkan verəcək amillər sırasına insanların  "bizlər və onlar" siniflərinə bölünməsi, bir qrupun üzvüləri digər qrupun üzvlərinə insan kimi baxmamaları və müxtəlif təhqiramiz tənqidlər etməsindən asılı olur. Adam Cons "Soyqırım: Ətraflı giriş" kitabında yazır ki,: "Tarix boyu insanların başqa qrupları yad kimi görmə funksiyaları olub". [8, s.36]. Bütün bu deyilənlərlə yanaşı, soyqırımın həyata keçirilməsində "niyyət"in rolunun danılmaz olduğunu deməliyik. Digər tərəfdən, bu amil həmişə mübahisə doğuran bir mövzu olmuşdur. Belə ki, Nasist-Almaniya dövlətindən minlərcə arxiv sənədlərində heç birində yəhudilərin öldürülməsi ilə bağlı konkret göstəriş və planlar öz əksini tapmamışdır. Yəni niyyət burada bilavasitə, digər yollarla bilinir və eləcə də Ruandada Hutu və Tutsilərin münaqişəsində Hutu əsgərlərinin kəndlərə hücum edərək, tutsiləri digər etnik qruplara mənsub insanlardan ayıraraq öldürməsi hadisənin qətliam yox, konkret olaraq tutsilərin məhvetmə siyasətinin olduğuna işarət

edilmişdir.

Bundan əlavə, soyqırım amilinin tərkibində "nifrət" amili durmalıdır. Çünki biz əgər digər məhvolma ilə nəticələnən müharibələr ilə soyqırımı fərqləndirsək görərik ki, müharibələrdə iştirak edən ordu və ya polislər nifrət hissi olmadan da silahlandırılır və təlim alırlar. Lakin soyqırım prosesində isə bu vacib amillərdən biri sayılır. Düzdür, hər ikisi istər soyqırım, istərsə də müharibə zorakılıq formasıdır, yəni soyqırım hadisəsi elə müharibə fonunda baş verir. Müharibəyə xas olan zorakılıqlar soyqırım zorakılığını kölgədə qoyur və maskalayır. Lakin müharibə edən millətlər hərbi əməliyyatları xarici düşmənlərdən qorunma iddialarına qarşı və millətin daxili düşmənlərdən müdafiə olunması zəruriliyinə haqq qazandırmaq üçün yalnız kiçik bir əlavə addım kimi qəbul edirlər. [1,s.202] Soyqırım törədənlər isə guya dünyanı çirkinliklərdən təmizlədiklərinə görə çox rahatca bu vəhşiliyi edə bilirlər. Buna misal olaraq, 1492-ci ildə 12 milyon əhalisi olan Şimali Amerikadakı yerli əhali 1892-ci ildə 500 minə qədər azalmasını göstərmək olar. Bundan əlavə, soyqırımın kökündə "intiqam məqsədi" və ya ölkənin "təbii ehtiyatlar"ından istifadə etmək üçün yerli xalqın qətli və sürgününü də göstərmək olar. Sənayeləşmə sürətləndikcə manufaktura kapitalizmi öz yerini sənayeyə verdikcə yeni tipli soyqırımlar (sənaye, aqrar, iqtisadi tipli soyqırımlar) yaranmağa başlayırdı. Sənaye soyqırımları aqrar soyqırımlardan əsasən ona görə fərqlənir ki, bu əsasən kütləvi metod kimi daha çox siyasi-iqtisadi vəziyyəti dəyişmək niyyəti ilə edilir. Aqrar isə daha çox şəxsi eqoistik göstərişi və intiqam hissi ilə baş verir. Sənaye dövründə soyqırım əsasən obyektiv olan çətin vəziyyətin şərtlərindən məcburiyyətə çevrilirdi. Məsələn, Fransa Əlcəzairdə partizan müharibəsinin qarşısını almaqda üstün olsalar da, yerli əhali partizanlara dəstək verir, evində gizlədir, ərzaqla təmin edirdi. Məhz bu fransızlarda əsəbilik yaradırdı ki, bu da yerli əhaliyə qarşı nifrət hissi ilə amansız rəftar edilməsinə rəvac verirdi.

Bəzən Soyqırım və qətliamı eyniləşdirirlər, lakin bunlar bir-birindən fərqlənən hadisələrdir. Belə ki, soyqırım bir irq, qrupun üzvlərini tamamilə və ya bir qismini yox edərək soylarını yox etməkdirsə, qətliam isə özünü müdafiə gücü olmayan insanları amansızcasına öldürməkdir. Burada soyun, irqin tamamilə yox olma düşüncəsi yoxdur.

Soyqırımın həyata keçirilməsinin arxasında çox hallarda istisnasız olaraq dövlətin durduğunun şahidi oluruq. Radikal siyasi liderlər həmişə öz məqsədlərini həyata keçirmək üçün istər açıq, istərsə də gizlin şəkildə öz səlahiyyətlərindən istifadə edərək dövlətin siyasəti istiqamətində soyqırım həyata keçirmişlər. Strateji məqsəd çərçivəsində yerinə yetirilən yoxetmə məqsədi çox hallarda rəsmi siyasətin nəticəsi olur. Yəni buradan belə nəticə çıxır ki, bəzən soyqırım bir dövlətin diktatorluq rejimi əsasında həyata keçirilən cinayətdir. Çox təəssüf ki, dövlət tərəfindən planlaşdırılan, sistemli şəkildə məhvetmə prosesi, soyqırım mövzusundan siyasi məqsədlər üçün istifadə etmək təcrübəsi bu günümüzdə də görə bilərik. Lakin buna genosid adı yox, "demosid" (democide) adı verilmişdir. Demosid – sözü yunan mənşəli olub, "xalq" və "öldürmə" sözlərindən ibarətdir. Bu anlayışı Havay Universitetinin (ABŞ) professoru R. Rammel belə izah edir: "Demosid" "ölkədəki bir iqtidarın qərarları nəticəsində reallaşan (genosid, soyqırım), politisid (siyasi qırğın) və kütləvi qiyamlara daxil olan hər cür ölümdür. Burada dövlətin rolu istiqamətvericidir. Kxmer hakimiyyəti, yaxud daha formal Kampuçiya Kommunist Partiyasının rəhbəri Pol Potun rejimində 1975-1979-cu illərdə həyata keçirilən politisid və genosiddə təxminən 1,5-3 miyon arasında kambocalı öldüyü hesablanıb. Burada hədəf alınan qrupun müdafiəsizliyi çox vacib faktordur. Kollektiv şəkildə hücuma və yoxolmaya məruz qalan qruplar hər zaman aciz və müqavimət göstərə bilmirlər.

Bəzən qətliamlar bir etnik təmizlik planının parçası olaraq da gerçəkləşə bilər. Məsələn, Avropada II Dünya müharibəsindən sonra ən böyük insanlıq tragediyası hesab edilən Srebrenitsa soyqırımı ən az 8 min 372 bosniya vətəndaşı amansızcasına qətl edildi. [9, s.78 ] Etnik təmizlik - bir etnik qrupa mənsub insanların zorla yerindən tərk edilməsi məqsədini qoyan, dəyişik siyasəti ifadə edir. Bəzi alimlər etnik təmizliyi də soyqırımla eyniləşdirirlər. Düzdür, etnik təmizləmədə soyqırım aspektləri var, hətta bəzi hallarda etnik

təmizləmə soyqırıma səbəb olur. Lakin yuxarıda qeyd etdiyimiz kimi, soyqırımda bir hissənin və ya bütün millətin, dini və ya etnik qrupun məqsədyönlü öldürülməsidirsə, etnik təmizləmədə xalqın müəyyən bir ərazidən qovulması məqsədi daşıyan vasitədir. Buna misal olaraq II Dünya Müharibəsindən sonra 14 milyon alman birbaşa deportasiya edilmişdir. Bu müasir tarixdə bir etnik qrupun ən böyük köçürülməsidir. Etnik təmizləmə öz əsasında inteqral millətçilik ideologiyasına etiqad edən müasir (və ya müasirləşən) dövlətlərin məhsuludur. Burada irqin təmizliyi əsas məqsəddir. İdeya ondan ibarətdir ki, əgər bizim etnik qrupumuz həqiqətən azad olsaydı və milli dövlətimiz üzərində öz nəzarətini həyata keçirməyə imkan versəydi, məqsədlərimizi həyata keçirə biləcək "təmiz" cəmiyyətimiz olardı.

Təəssüflə qeyd etməliyik ki, Azərbaycan xalqına qarşı da zaman-zaman ermənilər tərəfindən soyqırım kimi cinayətlərin həyata keçirildiyini görə bilərik. Ən son nümunəsi isə Xocalı soyqırımını göstərmək olar.  XX əsrin ən dəhşətli soyqırımlarından biri olan Xocalı soyqırımı  1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən   dinc azərbaycanlılara qarşı törədilən soyqırımdır. Xocalı Ermənistan hərbi dəstələri tərəfindən zəbt olunduqdan sonra orada qalan mülki əhali deportasiya olundu. Bununla kifayətlənməyən azğınlar əsl vəhşilik nümayiş etdirdilər, öldürdükləri insanların cəsədləri üzərində misli görünməmiş vəhşiliklər törətdilər. Bu, bir millətin kimliyinə və mövcudluğuna vurulan zərbədən, bir millətin soyunu kəsmək məqsədindən başqa bir şey deyildi. Rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. 8 ailə tamamilə məhv edilmişdir;56 insan işgəncə ilə öldürülmüşdür; 27 ailənin yalnız 1 üzvü qalmışdır; 25 uşaq hər iki valideynini itirmişdir; 130 uşaq valideynlərindən birini itirmişdir; 230 ailə öz başçısını itirmişdir; 487 insan şikəst olmuşdur (onlardan 76 nəfər həddi-buluğa çatmamışlardır); 1275 nəfər əsir götürülmüşdür; 1165 insan girovluqdan azad edilmişdir; 150 nəfərin taleyindən indiyə kimi heç bir məlumat yoxdur. [10]

Bütün bu deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, soyqırım ağır bir insanlıq cinayəti, böyük bir faciədir və onun araşdırılması gələcəkdə baş verməməsi baxımından çox vacibdir. Məhz bu vəhşiliyin qarşısının alınması yolunda tədbirlər təkcə dövlət siyasəti və ya hüquq məsələsi qismində həll etmək düzgün olmazdı. Digər tərəfdən, soyqırım yalnız qurbanlara görə ədalətin bərqərar olması və günahkarları cəzalandırmaq kimi variantlar da yetərli deyil. Soyqırımın sona çatmasının labüdlüyünü bütün dünya insanları rasional olaraq başa düşməli və bu istiqamətdə çalışmaq lazım olduğunu anlamalıdır. Düzdür, əlbəttə ki, belə bir ağır cinayət hadisəsi mütləq cəzalandırılmalıdır. Cəza məhz bu kimi hadisələrin gələcəkdə qarşısının alınması yolunda əsas rol oynayır. Cəzasızlıq soyqırım və digər belə halların inkişafına kömək edə bilər. Lakin bu qarşısı alınma yolları və bir daha təkrarlanmaması insanlar tərəfindən rasioanal olaraq dərk edilməlidir. Yəni insanlar təbii qanunları (özünü qoruma instinkti və ya cazibə qanunu və s. kimi) qəbul etdikləri kimi, bu cür vəhşilikləri törədilməməsini anlamalı və təbii bir qanun kimi başa düşməlidirlər. Cəmiyyət yalnız bu mütləq təbii qanunların bəşəriyyət tərəfindən qəbul olunacağı an ideal bir vəziyyətə çata bilər. Yalnız düşünən, rasional insan bəşəriyyəti xoşbəxtliyə apara bilər. Burada biz fransız filosof  Rene Dekartın hələ 1637-ci ildə yazdığı "Metod üzərinə mühazirələr" kitabında yazdığı "düşünürəm, deməli varam!" (lat."cogito ergo sum") cümləsini yada salırıq. Deməli, var olmaq üçün, mövcudluğumuzu davam etmək üçün düşünmək, anlamaq bizim yeganə çıxış yolumuzdur.  Doğulduğu andan hər bir insan təkrarolunmaz və qiymətli varlıqdır, onun öz muxtariyyəti və ləyaqəti var. Heç bir dövlət siyasəti və digər səbəblər insan həyatının yox olmasına dələlət edə bilməz. Dünyadakı baş verən müharibələri, soyqırım və buna bənzər zorakılıqların qarşısını almaq üçün bəşəriyyət insanpərvərlik ruhunda inkişaf etməli və dövlət səviyyəsində humanizm prinsipləri, insan hüquqları gücləndirilməli, davamlı sülh və təhlükəsizlik təmin edilməlidir.

**Açar sözlər:** *soyqırım, qətliam,etnik təmizlik,müharibə.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Зайцев А.К. Социальный конфликт., М., 2001,456 с.*
2. *Raphael Lemkin, Axis Rule in Occupied Europe, Washington,1944, 674 p.*
3. *Yehuda Bauer, A History of the Holocaust, New-York,1982,200 p.*
4. *Nora Levin, The Holocoust:The Destruction of European Jewry 1933-1945 New-York,1968*
5. *Matthew Lippman, Genocide,in M.Cherif Bassiouni, International Criminal Law, vol.I (2008), 435 p.*
6. *Raul Hilberg, "The Anatomy of the Holocoust", New York,1980*
7. *Robert Melson, Revolution and Genocide,University of Chicago,1996, 363 p*
8. *Adam Jones, Genocide.A Comprehensive Introduction, 2nd Edition,Routledge,2011, 610 p*
9. *Cigar, Genocide in Bosnia, N 66*
10. *az.wikipedia.org/wiki/Xocalı_soyqırımı*


## SUMMARY


The article clarifies the concept of genocide and examines the views of thinkers and researchers on the genocide. It is said that genocide is the most serious crime and it is very important to punish this crime legally. For this, the need to comply with the legal rules adopted by the states is justified. At the same time, along with the concept of genocide, the essence of such concepts as genocide, ethnic cleansing, and genocide is clarified.



**Keywords:** *genocide, massacre, ethnic cleansing, war.*


## РЕЗЮМЕ


В статье уточняется понятие геноцида и исследуются взгляды мыслителей и исследователей на геноцид. Говорят, что геноцид - самое серьезное преступление, и очень важно наказать это преступление на законных основаниях. Для этого обоснована необходимость соблюдения правовых норм, принятых государствами. При этом, наряду с понятием геноцид, проясняется сущность таких понятий, как резня, этническая чистка и геноцид.



**Ключевые слова:** *геноцид, резня, этническая чистка, война.*

UOT 316.334:37

# Sosiologiya

**İLAHƏ İSGƏNDƏROVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: ilahe.a1000@gmail.com*

# ŞAGİRDLƏRƏ GENDER BƏRABƏRLİYİNİN AŞILANMASININ NƏZƏRİ-METADOLOJİ ƏSASLARI

## GİRİŞ

Qədim dövrdən qadın və kişilərin ailədə, ictimai həyatda rolu barədə müəyyən ilkin fikirlər formalaşmış fərqli münasibətlər xüsusi ilə qadın və kişinin üzərinə düşən vəzifələr, iş bölgüsü onların sosioloji fərd olaraq funksiyalarına təsirsiz ötüşməmişdır. Elə sonrakı zamanlarda da, müxtəlifcinsli baxış mövqeyindən tənqidi yanaşma yeni daha humanist və demokratik yanaşmanı ortaya qoymuş beləcə gender bərabərliyi anlayışı şəklində özünü göstərmişdir.

Hələ keçən əsrin 70-ci illərində lüğətlərə daxil olan gender sözü kökünü ingilisdilli feminist ədəbiyyatından götürmüşdür. Gender anlayışı özündə insanların cinsi baxımdan perspektivləri fürsətləri, sosial rolları və qarşılıqlı münasibətləri ehtiva edir. Gender cins və gender anlayışlarını fərqləndirən müasir sosial elmdir. İnsanın cinsi qadın və kişi arasındakı psixoloji və sosioloji fərqlərin başlıca səbəbi və əsası hesab olunur. Beynəlxalq və milli təşkilatların siyasətinin, proqramının və layihə, hədəflərinin uğurla həyata keçirilməsinə sosial inkişaf prosesinə də birbaşa gender təsir göstərir. Gender fərdlərin və cəmiyyətlərin iqtisadi, sosial, gündəlik və özəl həyatının hər tərəfinin və cəmiyyətin kişilərə və qadınlara verdiyi fərqli rolların ayrılmaz bir hissəsidir. “Gender fərqləri” kişilər və qadınlar arasındakı biolojik olaraq təyin olunan özünü göstərən fərqləri cəmiyyətlərdə və mədəniyyətlərdə fərdlərə xas olan qalıcı və dəyişməz bioloji xüsusiyyətləri əks etdirir. Elmi tədqiqatlar nəticəsində aydın oldu ki, bioloji nöqteyi-nəzərdən kişilər və qadınlar arasında oxşarlıq fərqlərdən daha çoxdur. Tədqiqatçılar hətta belə hesab edirlər ki, kişilər və qadınlar arasındakı yeganə aydın və əhəmiyyətli fərq onların nəsil artırmasındakı rolu ilə bağlıdır. Gender münasibətləri isə sosial münasibətlər tarixi boyunca formalaşmış xüsusiyyətləri müəyyənləşdirir. Cins fərqləri, müəyyən bir cəmiyyətin fiziki fərqlər və kişilər və qadınların zövqləri, meylləri və qabiliyyətləri haqqında xüsusi təsəvvürləri əsasında aşılanan müəyyən sosial baxışlar formalaşdırır.

Gender məsələsi XX əsrin ortalarından etibarən yeni elmi istiqamət kimi formalşmış bioloji və sosioloji cins olaraq tədqiq və tədbiqi ehtiva etmişdır. Bioloji cinsindən asılı olaraq qadın və kişilərin psixoloji xüsusiyyətlərini, davranış modellərini, peşə və fəaliyyətinin növlərini müəyyən edən bioloji cins deyil, cəmiyyət tərəfindən formalaşan sosial və mədəni normaların qaydalardır. Cəmiyyətdə kişi və ya qadın olmaq yalnız bu və ya digər anatomik xüsusiyyətlərə sahib olmaq deyil, həm də cəmiyyət tərəfindən müəyyən edilmiş bu və ya digər gender rolunu icra etmək deməkdir. Belə ki, qadın və kişinin cəmiyyətdəki sosial rolu bəzən cəmiyyət tərəfindən təşkil edilir. Gender sistemi cinslərindən asılı olmayaraq, insanlara ünvanlandırılan asimmetrik mədəni qiymətləri və gözləmələri əks etdirir. Sosial normalar zamanla dəyişir, ancaq gender asimmetriyası olduğu kimi qalır. Gender cəmiyyətin sosial stratifikasiyası (laylanması) üsullarından biridir. Bu üsullar irq, milliyyət, sinif, yaş kimi sosial demoqrafik faktorlara uyğun olaraq sosial iyerarxiya sistemini təşkil edir. Gender sisteminin saxlanılması və inkişafında əsas rolu insan şüuru oynayır. Fərdlərin gender şüurunun yaradılması sosial və mədəni stereotiplərin, normaların və təlimatların saxlanması və yayılması vasitəsi ilə baş verir. İnsan doğulandan etibarən gender sisteminin təsir obyektinə çevrilir. Ailə tərbiyəsi prosesində

(valideynlərin və qohumların simasında), təhsil sistemində (uşaq müəssisələrində tərbiyəçi və müəllimlər simasında), ümumiyyətlə, mədəniyyət prosesində (kitablardan və kütləvi informasiya vasitələrindən) gender normaları uşaqların inkişafda şüurunda müəyyən olunmuş davranış qaydaları formalaşdırılır və “əsl kişi” kimdir, “əsl qadın” necə olmalıdır haqqında təsəvvür yaradılır. Gender anlayışı bütün cəmiyyətlər üçün eyni fikri ifadə etsə də , gender bərabərliyinin məsələlərinə mədəni sosial baxışlar fərqlidir. Təbii ki, həm kişi, həm də qadın mövqeyi cəmiyyətdə eyni rola malik olduğundan gender bərabərliyi cəmiyyətin təşkili məsələsini gender ayrıseçkiliyi etmədən önə çəkir. Bəzi antropoloqların fikrinə görə hələ qədim zamanlardan kişilər evin təminatçısı qadınlar isə əsas qayğısına qalan qüvvə idi. Anatomik olaraq da, yanaşdıqda kişilərin fiziki olaraq daha güclü olduğunu və daha aqressiv olmağının şahidi oluruq. Bu cür baxışların olması cəmiyyətdə ele bir baxışı formalaşdırır ki, qadınlar evdə oturmalı kişilər işləməlidir. Gender qadın və kişilərin cəmiyyətdəki mövqe seçim imkanlarına yeni baxış və yeni dünyagörüşüdür. Gender cinslərin qarşılıqlı münasibətlərinin sosial konstruksiyasıdır. Gender sosial reallığın əksi kimi gender assimetriyası, gender münasibətləri gender tarazlığı gender dəyərləri genderşünaslıq və.s əhatə edən nəzəriyyədir. Təbii ki, dünyada gedən siyasi, ictimai proseslər bir sıra streotiplərə baxışı dəyişdirməyə şərait yaratdı. Nəticədə gender bərabərliyi bu gün cəmiyyətin sosial demokratik vəziyyətinin əsas amillərindən birisinə çevrildi. Bunun həm sosial həm də pedaqoji tərəfi vardır. Hansı ölkədə yaşamağınızdan asılı olmayaraq gender bərabərliyi insanların əsas hüququdur. Gender bərabərliyinə dəstək sağlam cəmiyyətin bütün aspektlərində yoxsulluğu aradan qaldırmaqdan başlayaraq, qız və oğlanların sağlamlığını, təhsilini, mühafizəsini və rifahını yüksəltməkdə aparıcı rol oynayır. Sosial aspektən gender bərabərliyi hər iki cinsin nümayəndələrinin sosial baxımdan bərabər hüquq davranış normaları şans və bundan başqa müəyyən imkanlar yaradır ki, bu da öz növbəsində daha bərabərhüquqlu və humanist cəmiyyətin qurulmasını təmin edir. Təhsildə gender bərabərliyi dəyərlərinin aşılanması gələcəkdə bu cəmiyyətin daha sağlam qurulmasına şərait yaradacaqdır. Şagirdlərə gender münasibətlərinin aşılanması işində təlim prosesi xüsusi rol oynayır.

İnsan hüquqlar həm qadın, həm də kişi üçün bərabərliyi əsas götürdüyündən cinsindən asılı olmadan bütün insanların ictimai həyatın bütün sahələrində iştirakına şərait yaradır. Gender bərabərliyinin təmin olunması, bütün qadın və qızların hüquq və imkanlarının genişləndirilməsinə şərait yaradır.

Gender anlayışına müxtəlif cəmiyyətlərdə müxtəlif baxışların mexanizmin formalaşması onların cəmiyyətdəki rollarına, funksiyalarına təsir göstərir. Gündəlik həyat üçün təsirlər çoxdur və bunlara əmək bölgüsü, ev daxilində və xaricindəki ailə üzvlərinin məsuliyyətləri, təhsili və peşə irəliləməsi imkanları və s. daxildir.

Gender bərabərliyinin təmin olunması, bütün qadın və qızların hüquq və imkanlarının genişləndirilməsinə şərait yaradır. Hansı ölkədə yaşamağınızdan asılı olmayaraq gender bərabərliyi insanların əsas hüququdur. Gender bərabərliyinə dəstək sağlam cəmiyyətin bütün aspektlərində yoxsulluğu aradan qaldırmaqdan başlayaraq qız və oğlanların sağlamlığını, təhsilini, mühafizəsini və rifahını yüksəltməkdə aparıcı rol oynayır.

Təhsildə gender mövzusunda tədqiqatın nəzəri və metodoloji aspektləri bu sahədəki yenilikçi nəzəri əsasları və tədqiqat metodologiyalarını inkişaf etdirmək üçün imkan yaradır. Təhsildə və cəmiyyətdə gender bərabərliyi, ikili məsələlər Milli kurrikulumun, dərsliklərin və tədris praktikasının akademik və peşə gözləntiləri, gender məktəb fənləri, şəxslərin milli tədris proqramında təmsil olunması və s. əhatə edir. Həmçinin, məktəblərdə şəxslərin bərabərliyi mövzusunda dərsdənkənar fəaliyyətlər, bu məsələlərin həyata keçirilməsində məktəblərin valideynlər və icma ilə əməkdaşlığı kimi məsələlər əhəmiyyətli rola malikdir.

Gender bərabərliyi məsələsində müasir dövrdə belə qeyri-bərabər baxışların olması dünya insanlarına təsir edən əsas amillərdən biridir. Təəssüf doğuran hallardan biridə budur ki, hər kəs bu məsələdən xəbərdar deyil. Gender bərabərliyi məsələsində gender ayrıseçkiliyinin aradan qaldırılmasına isə hələ məktəbəqədər dövrdən xüsusilə böyük məktəbli dövrdən böyük

əhəmiyyət kəsb edir. Müəyyən məsələlərdə hətta kiçik də olsa maarifləndirmə bu məsələdə həm qızlar, həm də oğlanlar üçün bərabər imkanlar yaratmağa kömək edə bilər. Sirr deyil ki, bəzən valideynlər övladlarının sadə seçimlərini, qərarlarını, düşüncələrini, emosialarını lap kiçik yaşlarından gender bərabərsizliyi baxımından məhdudlaşdırırlar. Bu özünü bir sıra məqamlarda göstərir. Elə ilk yaşlardan övladlarımıza oyuncaq və oyun seçimlərində, rəng və s. konkret qərarların verilməsi, onlarda hələ məktəbəqədər dövrdən avtomatik düşüncə formalaşdırır.

Bu faktdır ki, bir çox qızlar hələ də təhsildən yayındırılır. Bunun üçün ən ümumi səbəblərdən biri qlobal olaraq yanaşsaq təxminən 62 milyon qız nə ibtidai, nə də orta məktəbdə iştirak etmir. Erkən nigahların sayının artması bəzi mədəniyyətlərə görə qızlar ali təhsil oxumaz onsuz ki, axırda evdar xanım olacaqdılar kimi baxışlar həmçinin oğlanların yuxarı sinifyaşlarından təhsildən ayrılıb maddi kömək məqsədi ilə və ya "sən oğlansan iş həyatına alış, əməyə alış" kimi baxışların olması hətta müasir dünyamızda belə gender bərabərsizliyi məsələsini ortaya qoyur. Burada əsas məsələ qız və oğlan ayrıseçkiliyi etmədən onların təhsildən yayındırmalarının qarşını almaq, sağlam cəmiyyətdə bərabər sosial təhsil iş imkanlarının genişlənməsini təmin etməkdir. Gender bərabərliyi məsələsini təkcə sözdə deyil, əməldə də, təmin etmək üçünsə bu məsələnin nəzəri və metodoloji baxımdan təhlili xüsusi əhəmiyyət kəsb edir.

Özünəməxsus qanunauyğunluqları və prinsipləri olan gender elminin aşılanmasının nəzəri əsaslarını pedaqoji elmlər sistemində də, reallaşdırılması təlim-tərbiyə prosesinin səmərəliliyinin artırılmasına kömək edə bilər.

Bütün elmlər kimi genderşünaslıqda qanunauyğunluqlar, prinsiplər və metod-lar elmi nəzəriyyənin əsas komponentləridir və "qanunauyğunluq müəyyən şəraitlərdə obyektiv, əhəmiyyətli, zəruri, ümumi, sabit və təkrar olunan qarşılıqlı əlaqələri əks etdirir". Gender bərabərliyinin aşılanmasında əsas hesab edilən qanunauyğunluqlar əsasən belə təsnif edilir:

1.Qrupun tərkibinin tarazlığı qanunauyğunluğu. Bu qanunauyğunluq gender tarazlığı prinsipindən irəli gəlir ki, bu qrupda gender tərkibinin balanslaşdırılması ilə, yəni qrup tərkibində olan oğlan və qızların sayının bərabərləşdirilməsi ilə müəyyən tarazlığın saxlanmasına kömək edir. Araşdırmalara görə, "çox vaxt oğlanların çoxluq təşkil etdiyi auditoriya qarşısında qızların elmi və ya texniki mövzularda çıxış etməsi çətin olur. Oğlanlarsa kiçik qrupda şəxsi mövzuda danışdıqda çətinlik çəkirlər" Belə qruplarda müəllimlər qrupdakı üzvlərin təkcə sayda deyil, qrupun tərkibindəki qızların və oğlanların bərabər təmsil olunmasına xüsusi diqqət yetirməlidirlər, çünki bu qanunauyğunluğun nəzərə alınması, yəni təlim prosesində, xüsusilə interaktiv təlimdə qrupun gender tərkibinin tarazlığının saxlanılması həm pedaqoji səmərəlilik, həm də gender baxımından əhəmiyyətlidir.

2.Gender identikliyinin formalaşması qanunauyğunluğu.Bu insanın kişi və ya qadın qrupuna mənsubiyyətini xarakterizə edən sosial eyniyyət strukturudur. Eyniyyət anlayışı ilk dəfə əsaslı şəkildə E.Erikson tərəfindən müəyyənləşdirilib. Anlayışa görə insan öz mövcudluğunu təkrarsızlığını görməklə yanaşı digər insanlarla bərabərlik dərəcəsini görməyə imkan yaradır. Ötən yüzilliyin 80-ci illərindən etibarən sosial eyniyyət nəzəriyyəsində gender eyniyyəti etnik, professional, vətəndaş və digər strukturlarla yanaşı, şəxsiyyətin sosial eyniyyəti strukturlarından biri kimi təfsir edilir. Gender eyniyyəti anlayışı cinsi rollar eyniyyəti anlayışından daha genişdir və cinsi eyniyyət anlayışı ilə sinonim deyil.

3. Müəllim tərkibinin gender bərabərliyi qanunauyğunluğu. Belə ki, orta ümumtəhsil müəssisələrində pedaqoji kontingentin tərkibində gender balansının tənzimlənməsi təlim-tərbiyə işinə müsbət təsir göstərən amildir. Təhsil müəssisələrində kişi pedaqoqlar nəinki oğlanlarda kişi xüsusiyyətlərinin inkişafına və gender identikliyinin formalaşmasına, eyni zamanda qızların da gender identikliyi cəhətdən inkişafına müsbət təsir göstərən amillərdəndir. Bu zaman həm qızlar, həm də oğlanlar kişilik etalonlarını və davranışını kişi müəllimlər ilə ünsiyyət prosesində mənimsəyirlər. Bu baxımdan bu qanunauyğunluğun məktəblərdə nəzərə alınması aktual məsələlərdən biridir. Bu qanunauyğunluğun geniş tətbiqi uşaqlarda gender özünüdərketməsinin formalaşmasına, müsbət

gender təcrübəsinin qazanılmasına, gender davranış modelləri haqqında biliklərin genişlənməsinə, cinslərarası münasibətlərin qarşılıqlı hörmət və ehtiramın əsasında qurulmasına şərait yarada bilər.

4. Gender davranış modelinin formalaşması qanunauyğunluğu. Bu qanunauyğunluq tərbiyə olunanlarda oğlan və qızların davranışında eqalitar mövqeyin nəzərə alınması ilə onların daha yaxşı adaptasiyasına və özünüreallaşdırmasına gətirib çıxarır.

5. Tərbiyə olunanlarda gender xarakterinin formalaşması qanunauyğunluğu. Gender identikliyinin formalaşması prinsipindən irəli gələn bu qanunauyğunluğa görə qrup daxilində həm oğlanların, həm də qızların olması oğlanlarda kişilik xüsusiyyətlərinin, qızlarda isə qadınlıq xüsusiyyətlərinin formalaşmasına müsbət təsir göstərir.

Şagirdlərə gender bərabərliyi dəyərlərinin aşılanması prosesində istinad ediləcək prinsiplər isə belə qruplaşdırılır:

1.Təkcə gender xüsusiyyətlərini deyil, eyni zamanda insanın sosial inkişafına təkan verən ümumi prinsiplər: təbiətəmüvafiqlik prinsipi, mədəniyyətəmüvafiqlik prinsipi, fərdi yanaşma prinsipi, dəyər çalarlı istiqamət prinsipi, özünüaktuallaşdırma prinsipi, seçmək prinsipi, yaradıcılıq və uğur prinsipi, inam və dəstək prinsipi.

2. Ancaq gender yanaşmasını özündə ehtiva edən prinsiplər: eqalitarizm prinsipi, gender identikliyinin formalaşması prinsipi, gender tarazlığı prinsipi, mühiti nəzərəalma prinsipi.

Təbiətəmüvafiqlik prinsipinə əsasən oğlan və qızların gender tərbiyəsində uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalı, fərdi xüsusiyyətlər qorunub saxlanılmalıdır. Uşaqları vaxtından əvvəl inkişafa sövq etdirmədən onları necə varsa elə də qəbul etmək, öyrətmək və tərbiyə vermək lazımdır. Bu prinsipə görə uşaqda cismani və ruhi inkişaf təbii qanunlara əsaslanmalıdır. Çünki insan sosial varlıqdır və sosial təbiətin qanunları çərçivəsində fəaliyyət göstərir, inkişaf edir. Uşaqların cinsi-rol tərbiyəsi konsepsiyasını əsas götürən L.İ.Stolyarçuka görə müasir şəraitdə təbiətəvarilik prinsipini inkişaf etdirən zaman oğlan və qızları təbiətin bir hissəsi kimi qəbul etmək lazımdır. Bu prinsip pedaqogikada Y.A.Komenski, J.J.Russo, K.D.Uşinski tərəfindən irəli sürülmüşdür.

Mədəniyyətəmüvafiqlik prinsipi XVII əsrdə pedaqogikada C.Lokk, K.A.Helvetsi, İ.H.Pestalossi, A.Disterveq, K.D.Uşinski, P.T.Kapterev tərəfindən inkişaf etdirilmiş və formalaşdırılmışdır. Bu prinsipə görə uşaqların tərbiyəsi, təhsili, ümumi sosial inkişafı mədəni dəyərlərə uyğun olaraq aparılmalıdır. Çünki “sosial varlıq kimi insan öz həyat və fəaliyyəti prosesində konkret mədəniyyət içərisində yaşayır, həmin mədəniyyəti əxz edir, bu əsasda inkişaf edir və formalaşır”. Bu mədəni dəyərlər cəmiyyətin mədəni səviyyəsinə, xalq adət-ənənələrinə əsaslanır. Bu prinsip uşaqların gender tərbiyəsində bəşəri və milli, regional dəyərlərlə bərabər, onların müstəqilliyinin, şəxsi ləyaqətinin nəzərə alınmasını, onlarda müasir dövrün mədəni dəyərləri baxımından qadın və kişi münasibətlərində gender tarazlığının saxlanılmasının ön plana çəkilməsini əsas götürür.

Seçim prinsipi. E.V.Bondarevskaya və L.İ.Stolyarçuk tərəfindən araşdırılmışdır. Seçim olmadan uşağın inkişafı və özünüreallaşdırma qabiliyyətinin formalaşması çətin olur. Belə ki, hər bir qadın və kişi öz şəxsi tərzini seçməklə bərabər, həm də öz daxili dünyasını, kişi və ya qadın fərdiliyini seçmək hüququna malik olur.

Mühiti nəzərəalma prinsipi. İnsanın həm fərdi sosial inkişafının, həm də cinsi-rol oriyentasiyasının, gender tərbiyəsinin mühitdən asılı olmasını özündə ifadə edir və hər bir şəxsin gender tərbiyəsində bunun nəzərə alınması zərurət kimi qarşıya qoyulur. Mühit amili həm gender, həm də “sosial tərbiyə prosesinə stimullaşdırıcı təsir göstərə, məzmunlaşdıra, neytrallaşdıra və hətta əks təsir göstərə bilər”. İnsanların gender mədəniyyəti, davranışı və tərbiyəlilik səviyyəsi mühit amilinin təsirilə formalaşa və ya digər istiqamətdə özünü göstərə bilər.

İnam və dəstək prinsipi E.N.Kamenskayaya görə humanist dəyərlərə əsaslanır. E.V.Bondarevskayanın fikrincə pedaqoji dəstək uşağa dəstək göstərilməsinə, onu olduğu kimi qəbul etməyə, onunla empatik münasibətə, dialoqa, fikirlər mübadiləsinə əsaslanır. Gender yanaşmasının pedaqoji nəzəriyyəsinə əsasən bu prinsip hər bir uşağın gender aspektindən özünüreallaşdırmasını, təsdiq etməsini və uşağa tərbiyəçinin tolerant münasibətini

özündə birləşdirir. Bu prinsipə əsaslanan pedaqoqlarla uşaqlar və gənclər arasında qarşılıqlı inama əsaslanan münasibət yaranır. Bu zaman şagird asanlıqla öz sirrini müəllimə aca bilir, gender cəhətdən özünütəsdiqetmədə onun köməyinə arxalanır.

Pedaqogikada gender yanaşmasının baza prinsipi eqalitarizm prinsipini S.V.Ştılyova gender tərbiyəsi, İ.S.Klesina gender sosiallaşması, İ.S.Stolyarcuk cinsi-rol tərbiyəsi aspektindən işləmişdir. Bu prinsip cinslərin bütün sferalarda, həyat fəaliyyətinin bütün sahələrində bərabərliyini nəzərdə tutur və bu zaman cinslərin əməkdaşlığı və tərəfmüqabilliyi üçün münbit şərait yaranır. Belə ki, həm siyasi, həm ictimai, həm də sosial cəhətdən bərabərlik şəraitində yaşamaq hər iki cins arasında gender mədəniyyətinə əsaslanan münasibətlərin yaranmasına gətirib çıxara bilər.

Gender tarazlığı prinsipi gender bərabərliyi dəyərlərinin aşılanmasında əsas götürülən baza prinsiplərindən biridir. Bu prinsipə görə orta ümumtəhsil müəssisələrindəki pedaqoji tərkibdə qadın və kişilərin sayı bərabər olmalıdır ki, onlar öz gender davranışları ilə uşaqlarda gender mədəniyyətini formalaşdıra bilsinlər. Bu sahədə müəllimin şəxsi nümunəsi güclü rola malikdir. Gender tarazlığı prinsipi L.İ.Stolyarçukun tədqiqatlarında araşdırılmış və elmi cəhətdən əsaslandırılmışdır.

Tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanması zamanı istifadə edilən metodlara dialoq metodu, konkret gender situasiyalarının analizi və gender problemlərinin qrup halında disskusiya yolu ilə təhlili, oyun metodları (gender oyunları), pedaqoji dəstək,seçim vəziyyətinin yaradılması metodu aiddir

1.Konkret gender situasiyalarının analizi şüurlu fəaliyyətin ətraf mühitə adaptasiyasının inkişafına istiqamətlənmiş metoddur. E.N.Kamenskayaya görə, bu öyrənənlərin aktiv düşünmə və gender tapşırıqlarının təhlil edilməsi qabiliyyətini inkişaf etdirir və gender təcrübəsinin toplanmasına şərait yaradır.

Gender situasiyalarının özü də problemli situasiya, qiymətləndirmə situasiyası, illüstrasiya situasiyasına bölünür.

Gender problemi üzrə qrup şəklində diskussiya dialoji metod olub gender prob-lemlərinin birgə nəzəri, praktik müzakirəsinə və həllinə şərait yaradır. Belə diskus-siyada iştirakçılar öz şəxsi fikirlərini dəqiq və aydın ifadə etməyi, öz mövqeyini fəal müdafiə etməyi, faktlar əsasında etiraz etməyi öyrənirlər. Tədqiqatçı E.N.Kamenskaya yazır: "qruplarla disskusiya əsasən maskulin xüsusiyyətlərə cavab verir, ancaq biz hesab edirik ki, disskusiyada iştirak etməklə qızlar inam və öz nöqteyi-nəzərini müdafiə etmək qabiliyyəti qazanırlar".

Qruplarla diskussiyanın daha effektli və məhsuldar keçməsi üçün əvvəlcədən müzakirə olunacaq suallar hazırlanmalı, müzakirəyə daha çox iştirakçı cəlb etmək, düzgün olmayan fikirləri diqqətdən kənarda qoymamaq, onlara o dəqiqə yox, təhlil yolu ilə cavab tapmaq lazımdır. Sonda alınan cavablar müqayisəli, kollektiv şəkildə təhlil və müzakirə edilməlidir.

Həyatda gender rolları və gender identikliyinin müəyyən edilməsi təcrübə-oyun vasitəsilə həyata keçirilir.Oyun prosesində gender psixodramından istifadə iştirakçılarda emosionallığı artırır, onların özlərini sosial cəhətdən tam şəxsiyyət kimi dərk etmələrinə şərait yaradır.

Gender tərbiyəsində pedaqoji dəstək iştirakçıların şəxsi potensialını gender aspektindən açmaqla bərabər, pedaqoqun bu sahədə çətinliklə qarşılaşan uşağa bu çətinliyi dəf etməkdə yardım etməsinə şərait yaradır.

Seçim situasiyasının yaradılması metodu oğlan və qızlara öz seçiminə görə məsuliyyət daşımağı, müstəqilliyi öyrədir. Bu situasiyadan əvvəl iştirakçıların seçimə hazırlıqlarının səviyyəsi, situasiyanın pedaqoji cəhətdən faydalılığı, iştirakçıların seçimə həvəsləndirilməsi diqqət mərkəzində saxlanılmalıdır.

**Açar sözlər:** *şagird, gender bərabərliyi dəyərləri, gender identikliyi, dərsliklərin gender ekspertizası, gender stereotipləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Əli Abbasov. Rəna Mirzəzadə. Genderə Giriş. Bakı 2004*

*2. Elza.Mollayeva Təlim prosesində şagirdlərin gender tərbiyəsinin imkan və vasitələri.Bakı 2009*

*3. Elza.Mollayeva. Azərbaycan xalq Pedaqogikasında gender bərabrliyinə münasibət. (metodik vəsait) Bakı 2010*

*4. Elza.Mollayeva. Gender tərbiyəsi: tarixi nəzəriyyəsi və müasir problemləri Bakı- 2013*

*5.K.C.Ağayeva. Etika və gender: sosial-əxlaqi davranışların təhlili. Bakı 2007*

*6. Azerbaijan Gender Information Center (gender-az.org)*

*7. Measuring gender equality in education. UNESCO Kathmandu Office*

## SUMMARY

Gender is a new perspective and a new worldview on women's and men's position in society. Gender is a social construction of gender relations. Gender asymmetry as a reflection of gender social reality, gender relations, gender balance, gender values, gender studies, etc. Naturally, the political and social processes in the world have changed the view of a number of stereotypes. As a result, gender analysis has become one of the key factors in the social democratic situation in society today. There is both a social and pedagogical side to this. No matter what state you live in, a basic reality is human right. It plays a leading role in improving the health, education, protection and well-being of girls and boys, starting with eradicating poverty in all aspects of a healthy society that supports sexual attendance. From a social point of view, the use of social relations by members of both sexes creates opportunities and other opportunities for legal norms of behavior, which in turn creates more responsibility and ensures the establishment of a humane society. The analysis of theoretical and methodological bases of gender equality in education will create conditions for a healthier society in the future.

**Keywords:** *student, values of gender equality, gender identity, gender expertise of textbooks, gender stereotypes*

## РЕЗЮМЕ

Гендер - это новый взгляд на положение женщин и мужчин в обществе. Гендер - это социальная конструкция гендерных отношений. Гендерная асимметрия как отражение гендерной социальной реальности, гендерных отношений, гендерного баланса, гендерных ценностей, гендерных исследований и др. Естественно, что политические и социальные процессы в мире изменили представление о ряде стереотипов. В результате гендерный анализ стал одним из ключевых факторов современной социал-демократической ситуации в обществе. В этом есть как социальная, так и педагогическая сторона. Независимо от того, в каком состоянии вы живете, основная реальность - это право человека. Он играет ведущую роль в улучшении здоровья, образования, защиты и благополучия девочек и мальчиков, начиная с искоренения бедности во всех аспектах здорового общества, которое поддерживает сексуальное присутствие. С социальной точки зрения использование социальных отношений представителями обоих полов создает возможности и другие возможности для правовых норм поведения, что, в свою очередь, создает большую ответственность и обеспечивает создание гуманного общества. Анализ теоретических и методологических основ гендерного равенства в образовании создаст условия для более здорового общества в будущем.

**Ключевые слова:** *студент, ценности гендерного равенства, гендерная идентичность, гендерная экспертиза учебников, гендерные стереотипы.*

UOT 316

# AZƏRBAYCANDA GƏNCLƏRİN ƏMƏK BAZARININ DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

**RÜBABƏ ŞƏFİBƏYLİ**
*Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının doktorantı*

*E-mail: rshafibayli@gmail.com*

Azərbaycanın Respublikasının öz müstəqilliyini əldə etdikdən sonra bazar münasibətləri sisteminə keçidi ilə əlaqədar əhalinin məşğulluğu və bu məsələnin həll olunması mexanizmi sahəsində çox saylı yeni və mürəkkəb sosial-iqtisadi problemlərin meydana çıxmasına səbəb olmuşdur. Bu nöqteyi nəzərdən, problemlərin tədqiq edilib öyrənilməsi onlara həm tamamilə yeni nəzəri-metodoloji bucaqdan, həm də formalaşmaqda olan əmək bazarının qanunları və tələbləri baxımından yanaşılmasını tələb edir. [ 13 ] Yeni müstəqillik qazanmış dövlət olaraq bu kimi problemlərin lazımi səviyyədə yerinə yetirilməsi bir sıra infrastrukturların təsis olunmasını da şərtləndirir.

19-cu əsrin sonu – 20-ci əsrin əvvəllərində Qərbi Avropada sosial siyasət məfhumu, bazar iqtisadiyyatının ilkin inkişaf mərhələsində formalaşmış və həmin dövrdən etibarən sosial siyasət dövlət siyasətinin əsas tərkib hissəsi kimi əhalini bazar iqtisadiyyatının mənfi təsirlərindən müdafiə etməyə başlayıb. [ 9 , s.66 ] Müstəqil Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşması bu sahədə həyata keçirəcəyi strateji addımların ilkin göstəricilərindən hesab oluna bilər. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyasında mövcud olan 15, 16 və 38-ci maddələri dövlətin sosial yönümlü olmasına nümunə olaraq göstərmək olar.

Azərbaycan Respublikası nəinki siyasi gücünü, həmçinin daxildə sosial-iqtisadi gücünü artırmaq üçün son illərdə yerinə yetirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsini göstərmək olar. Əmək bazarının yüksək səviyyədə inkişaf etməsi və dövlət üçün səmərəli olması üçün bu sahədə dövlətin lazımi tədbirlər görməsi vacibdir.

Əmək bazarı dedikdə işçi qüvvəsinə tələb və təklifin məcmusu başa düşülür, həmçinin iş yerlərinin dinamikası, yəni daim artıb azalması, dəyişməsi, iş yeri və iqtisadi cəhətdən fəal hesab olunan insanların sahə, ərazi, demoqrafik və peşə-ixtisas cəhətdən təsərrüfat sahələrinə uyğun olaraq yerləşməsi hesab olunur. Əmək bazarında o insan iqtisadi cəhətdən fəal hesab edilir ki, həmin insan məşğul olmayan, yəni iş yeri axtarandır; həmçinin işlə təmin olunmağına baxmayaraq o işdən razı deyil, buna görə də digər və ya ikinci iş yerləri axtarır; eyni zamanda müəyyən bir müəssisədə çalışır, lakin iş yerini itirmək təhlükəsi var. Bu nöqteyi nəzərdən əmək bazar heç də sadə məvhum olmayıb, özündə müxtəlif sosial-iqtisadi münasibətlərin qarşılıqlı və asılı əlaqələrini birləşdirir.

Əmək bazarının strukturuna öncə onun obyekti və subyektini daxil etmək lazımdır. Bu baxımdan satıcı və alıcı əmək bazarının subyekti olaraq hesab olunur. Digər bazarlardan fərqli olaraq əmək bazarında istənilən şəxs satıcı və alıcı kimi çıxış edə bilməz, bu şəxslər, yəni subyekt hesab olunan insanlar sosial-iqtisadi vəziyyətinə görə müəyyən olunmuş insanlardır. Bu nöqteyi nəzərdən subyekt kimi satıcı qismində mütəmadi olaraq öz istehsal vasitələri olmayan, yaşam vasitələrinə sahiblik baxımından çatışmazlıqlar yaşayan, öz işçi qüvvəsinin mülkiyyətçisi hesab olunur. Digər bir subyekt olaraq alıcı mövqeyində isə iş verən, yəni iş şəraiti təqdim edən, öz işçi qüvvəsini təqdim edən satıcını müvafiq işlə təmin edən istehsal vasitələrinin mülkiyyətçisi hesab olunur.

Müasir dövrdə Respublikamızda milli-dövlət-

çilik ənənələrimizin qorunub saxlanması, milli mənafelərimizin lazımınca möhkəmləndirilməsi və gələcək nəsillərə ötürülməsi, təkmilləşdirilməsi və bu sahədə əsaslı addımların atılması, ölkənin iqtisadi cəhətdən gücünün artırılması və əhalinin dövlətin iqtisadi siyasətinin bir hissəsi və aparıcı parçası olaraq görülməsi, vətəndaşların yaşam standartlarının inkişaf etdirilməsi, beynəlxalq normalara uyğun hala gətirilməsi, dövlətin iqtisadi gücünün əsası kimi iqtisadi cəhətdən fəal əhalinin və onların əmək potensialından maksimum dərəcədə yüksək səviyyədə istifadə edərək dövlətin sosial-iqtisadi siyasi xəttinə lazımi fayda vermək, bu sahədə əsas da gənc vətəndaşların həm zehni, həm də fiziki cəhətdən əmək bacarığından yetəri qədər istifadə etmək ölkənin bu sahədə yerinə yetirmək istədiyi uğurlu siyasi kursun fəaliyyət planına daxil olan məsələlərdən biri hesab olunur. Ümummilli liderimiz Heydər Əliyevin miras qoyub getdiyi uğurlu siyasətin davamçısı kimi İlham Əliyev hakimiyyətdə olduğu ilk illərdən başlayaraq dövlətin böyük uğurlar əldə edərək iqtisadi və sosial baxımdan dünyanın bir çox aparıcı dövləti ilə müqayisə olunacaq səviyyəyə çatmasına gətirib çıxarmışdır.

Respublikamızda aparılan iqtisadi islahatlar nəticəsində ölkə daxilində nəzərə çarpacaq dərəcədə keyfiyyət baxımından mühüm dəyişikliklər ölkənin iqtisadi inkişafını şərtləndirmişdir. İqtisadi vəziyyətin dinamik olduğu bu dövrlərdə dövlətin qəbul etdiyi tədbirlər planı və bu istiqamətdə yerinə yetirdiyi fəaliyyətlər ölkədə aparılan islahatların səmərəsini sübut edir. Xüsusilə də iqtisadi inkişafa nail olmaq üçün qeyri-neft sektorunun inkişafına yönəlmiş stratejik addımlar diqqətə layiqdir. Bu nöqteyi nəzərdən əhalinin, xüsusən də gənclərin məşğulluğunun təmin olunması, onların dinamik potensialından istifadə olunması dövlət siyasətinin basilica prioritetlərindən biri hesab olunur. Bu sahədə atılan ilkin addım kimi bir sıra dövlət müəssisələrinin, infrastrukturların, məşğulluq idarələrinin açılmasını göstərmək olar.

Respublikmaızda son dövrlərdə həyata keçirilən siyasi kursun tərkib hissəsi kimi sosial siyasət sahəsində də mühüm addımlardan biri dövlətin əhalinin məşğulluq səviyyəsinə olan ciddi diqqəti və qayğısıdır. Ölkə əhalisinin məşğulluq dərəcəsini maksimuma yüksəltmək üçün məşğulluğa dair dövlət siyasətinin yerinə yetirilməsi və bu sahədə əhalinin, xüsusən də gənc təbəqənin bacarıqlarından səmərəli formada istifadə edilməsi qarşıda duran məşğulluğa dair siyasətin hədəflərindən başlıcası hesab oluna bilər.

İşsizlik problemi, iqtisadi cəhətdən fəal əhalinin müvafiq işlə təmin etmək məsələsi müstəqillik qazandıqdan sonar dövlətimizin qarşısında duran, həll olunması gərəkən vacib vəzifələrdən biridir.

Məhz bu baxımdan 1991-ci il iyunun 27-də, yəni müstəqil Azərbaycan Respublikasının yaranmasından bir neçə ay əvvəl Azərbaycan Respublikasında "Əhalinin məşğulluğu haqqında" qəbul edilmiş Konstitusiya qanununa dəyişikliklər edilməklə Prezident Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli fərmanı ilə "Məşğulluq haqqında" qanun qüvvəyə mindi. Elə məhz bu qanunda məşğulluq, məşğul və işsiz əhali anlayışlarının məzmunu və vətəndaşların işsizlik statusu müəyyənləşdirildi.[13] Bu qanunun qəbul olunması əhalinin, xüsusilə əmək qabiliyyətli gənclərin əməyə cəlb olunması, onların əmək bazarının dövlət tərəfindən tənzimlənməsi üçün də mühüm addım oldu.

İqtisadi kateqoriya kimi məşğulluq anlayışı iqtisadi cəhətdən fəal olan əhalinin əmək bazarında ictimai faydalı əməkdə iştirakı nəticəsində yaranmış əlaqələr cəmi hesab olunur. Məşğulluq sahəsindəki yerinə yetirilən siyasət iqtisadi cəhətdən fəal əhalinin əmək münasibətlərini, minimum əmək haqqı əldə etmək hüququnu, təhsil və kadr hazırlığı səviyyəsinin təkmilləşdirilməsini, əmək bazarının dövlət tərəfindən nizamlanmasını əhatə edir. Çox şaxəli bu fəaliyyət planı ölkənin əmək bazarı modelini formalaşdırır. Son 15 ildə ölkəmizdə iqtisadi sahədə aparılan islahatlar, qəbul olunan qanunlar əmək bazarı sferasında artan keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur.

2013-cü ildə Respublikamızda iqtisadi cəhətdən fəal əhalinin sayı 2000-ci illə müqayisədə 387,6 min nəfər artaraq 4757,8 min nəfər olmuşdur. Bunlardan 4521,2 min nəfərini iqtisadiyyatla məşğul olanlar, 236,6 min nəfərini isə işsiz əhali təşkil etmişdir. [7 , s.175 ] 13 il dövründə ölkə iqtisadiyyatında bu göstərici qəbul olunan məşğulluq haqqında qanunun səmərəsindən xəbər verir.

Respublikamızda 2019-cu ildə məşğul əhalinin sayı 4938,5 nəfər olmuşdur. 2015-ci ildə 4671,6

nəfər olmuşdur. İşsiz statusu verilmiş şəxslərin yaş qrupları 2019-cu ildə 15-29 yaş arası 1% 15-19 yaş, 10,7% 20-24 yaş, 17,2% 25-29 yaş gənclərdir. Azərbaycanda 2019-cu ildə işsiz əhalinin sayı 251,6 nəfər olmuşdur. [ 12] Bu göstərici də 2013-cü illə müqayisədə 6 il ərzində demoqrafik artımı da nəzərə alsaq, demək olar ki, eynidir. Bunun əsas səbəblərindən biri ölkə əhalisinin demoqrafik baxımdan gənc nəslin üstünlük təşkil etməsidir.

Əhalinin, xüsusən də gənc nəslinin əmək məşğuliyyətini təmin etmək üçün onların peşə hazırlığına dövlət dəstəyi danılmaz faktdır. Bu baxımdan 2005-ci ildə dövlət məşğulluq agentliyinin yerli qrumları tərəfindən 29 yaşınadək olan gənclərin 572 nəfəri, 2019-cu ildə isə 1977 nəfər gənc peşə təliminə göndərilib. Bu gənclərdən 1560 nəfəri ilk dəfə hazırlanan, 32 nəfəri yenidən hazırlanan, 385 nəfəri isə ixtisas artıranlardır. [ 12 ]

Dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin say və yaş qrupları üzrə bölgüsünə əsasən Respublikamızda 2019-cu ildə 30 yaşadək olan gənc vətəndaşların ölkə üzrə 5089 nəfəri Ali 3-cü təsnifatlar üzrə inzibati vəzifələrə, 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələrə, o cümlədən yerli icra hakimiyyətinin başçısının müavini, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi və s. kimi müxtəlif dövlət əhəmiyyətli vəzifələr tutmuşlar. [12] Bu göstəricilər dövlətin gənc nəslin yüksək səviyyəli peşə və kadr hazırlığına sahib bir fərd kimi yetişməsində dəstək və qayğısının sübutudur.

İqtisadi cəhətdən fəal əhalinin əməyinin xarakteri və məzmununa görə işçilərin sosial-peşə strukturunun formalaşması onların zehni, fiziki, idarəetmə və icra qabiliyyəti kimi əməyi ilə şərtlənir. [11, s.111]

Respublikamızda gənclərin peşə təhsilindən əmək bazarına inteqrasiyasını yüksəltmək üçün məsləhət və karyera sahəsində planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi, həmçinin rəqəmsal texnologiyalardan yüksək səviyyədə istifadə edilərək təkmilləşdirilməsi, mərkəzləşdirilmiş karyera portalının yaradılması respublikamızda gənclərin peşə təhsilinin inkişafına, təhsil səviyyəsinin yüksək standartlara uyğunlaşdırmaq üçün Prezident İlham Əliyev tərəfindən müxtəlif illərdə qəbul olunmuş xaricdə təhsillə bağlı dövlət proqramlarının yerinə yetirilməsi və tətbiqi gənclərə dövlət qayğısının bariz nümunələrindəndir. Bu baxımdan “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi” qəbul edilmiş, eyni zamanda Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasındakı 35-ci maddəyə əsasən “Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir” . Bu maddənin digər bir müddəasına görə isə “İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır”. Bununla yanaşı “Məşğulluq Haqqında” Azərbaycan Respublikası Qanununun 2001-ci ilin iyun ayında qəbul olunması, eyni zamanda 2006-2015-ci illərə dair “Azərbaycan Respublikasının məşğulluq strategiyası”, 2007-2010-cu illər ərzində “Azərbaycan Respublikasının məşğulluq siyasətinin həyata keçirilməsi üzrə Dövlət Proqramı” və Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011- 2015-ci illər üçün Dövlət Proqramı” qəbul olunması dövlətin sosial-iqtisadi sahədə yerinə yetirdiyi siyasi kursun səmərəli fəaliyyəti üçün mühüm şərait yaradır. Bu proqramların qəbul olunmasında əsas və ilkin hədəf ölkədə işsizliyin azaldılması, hətta aradan qaldırılmasıdır. Lakin əmək fəaliyyəti ilə məşğul olmayan hər bir şəxs işsiz hesab oluna bilməz. Bu baxımdan işsizliyin səviyyəsinin dəqiq ölçülməsi üçün nə vaxt və kimin işsiz hesab edilməsini əszaslı surətdə müəyyənləşdirmək lazımdır. Respublikamızda işsizliyin kəmiyyət göstəriciləri ilə Dövlət Statistika Komitəsi və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti məşğul olur.

İşsiz əhalinin hesablanması müstəvisində qadınların və gənclərin göstəricilərinin yüksək olması məşğulluq sahəsində nəzərə çarpan mühüm problemlərdəndir. 2007-ci illə müqayisədə 15-24 yaşlı gənclərin işsizlik səviyyəsi nisbətən azalaraq 2017-ci ildə 12,9 faiz olaraq respublika üzrə orta göstəricidən 2,6 dəfə çox olmuşdur. 15-29 yaşlı gənclərin məşğulluq göstəricisi 2017-ci ildə 9,2 faiz olaraq, ölkə üzrə orta göstəricidən 1,8 dəfə çox olmuşdur.

İqtisadi termin kimi işsizlik hadisəsi işçinin istəyindən asılı olmayaraq əmək fəaliyyətindən istifadə edə bilməmək, uzun müddət işə düzələ

bilməmək səbəbindən, eyni zamanda muzdlu əməklə işləyən və iş verən, yəni işlə təmin edən arasında əmək müqaviləsinin pozulması nəticəsində dayandırılması hesab olunur. [ 7, s.183 ]

İşsizlik problemi nəinki iqtisadi cəhətdən fərdi çətin vəziyyətə salır, həmçinin sosial-psixoloji cəhətdən də işsiz şəxs ruhdan düşmüş, özünü cəmiyyətdən, insanlardan, əsas da ailəsindən təcrid olunmu, yalnız buraxılmış hiss edir. Bu nüans əsasən gənclər arasında tez-tez rast gəlinən bir haldır. Gənclər Respublikamızda əhalinin demoqrafik baxımdan aparıcı hissəsini təşkil edir və bu baxımdan onların sosial-psixoloji sağlamlığı da dövlətin diqqət və qayğısından kənarda qala bilməz.

İşsizlik problemi eyni zamanda sosial qruplar, siniflər arasında da müəyyən problemlərin yaranmasına səbəb ola bilər. Bu baxımdan Marksizm nəzəriyyəsinin tərəfdaşlarına görə, siniflər arasında iqtisadi fərqlər əsasında onların siyasi həyatda və mədəniyyətdə fərqliliyi formalaşır. Beləliklə, bu təlim siyasi, mədəni, ideoloji, sosial-psixoloji fərqlərin olduğunu qəbul etməklə yanaşı, o, bütün bu fərqləri iqtisadi sahədəki fərqlərin davamı kimi nəzərdən keçirir. [ 11, s.109 ]

Azərbaycan dövlət məşğulluq agentliyinin yerli qurumları tərəfindən ölkə üzrə qeydiyyata alınmış işsiz şəxslərin sayı 2020-ci ilin yanvar ayının əvvəlinə 81,3 min nəfər olmuşdur [12]. Bu göstərici ötən illərlə müqayisədə əsaslı şəkildə müsbət istiqamətdə dəyişikliyin sübutu olub, ölkəmizin növbəti illərdə əmək bazarı və məşğulluğunun dövlət tərəfindən tənzimlənməsi baxımından çox ümidvericidir.

İşsizliyin yaranmasına səbəb olan amillərdən biri də müəssisənin özəlləşdirilməsi nəticəsində onların mülkiyyət formasının dəyişdirilməsi cəmiyyətin təbəqələşməsinin, bununla da sosial bərabərsizlik problemini gücləndirilməsini qeyd etmək olar. [11, s.120]

Ölkəmizdə məşğulluğun təmin olunması və işsizliyin aradan qaldırılmasında ən mühüm problemlərindən biri respublikamızın demoqrafik şəraitinin bir çox ölkərələrdən, eyni zamanda Avropa ölkələrindən müqayisədə yuxarı olması və nəticə olaraq əhali artımı dinamikasının yüksək olması məşğulluq sahəsində əhalinin işlə təmin olunması məsələsini çətinləşdirir. Bununla belə Respublikada əhalinin çoxluğunun gənclər tərəfindən təşkil olunması kimi amillərə görə əmək bazarında əhalinin məşğulluğunun təmin olunması üçün yetərli iş yerləri və müəssisələrin yaradılmasını şərtləndirir.

Respublikamızda məşğulluq strategiyasının reallaşdırılması ilə əlaqədar nəzərdə tutulan hədəflərə 2025-ci ilədək bütün əhali qrupları (xüsusilə gənclər, qadınlar və əlilliyi olan şəxslər) üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olmaq; işsizlik səviyyəsini isə 2030-cu ilədək 4 faizə qədər, eyni zamanda qadınlar və gənclərin məşğulluq problemini və işsizlik səviyyəsini minimum səviyyəyə endirmək daxildir[4].

2017-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının rəhbər orqanına üzv seçilmişdir. Bu nöqteyi nəzərdən, Azərbaycan dövlətinin beynəlxalq arenada inamlı və güvənilir bir dövlət kimi tanınmasının göstəricisi hesab olunmalıdır. Respublikamızın növbəti illərdə reallaşdırılması planlaşdırılan "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" məşğulluğun növbəti 10 illikdə yüksəldilməsinə, işçi qüvvələrinin əmək bazarına cəlb olunması və inteqrasiyasına, əmək bazarı subyektlərinin aktiv fəaliyyətinin təmin olunmasına istiqamətlənir. [4] Məşğulluq sahəsində qəbul olunmuş 10 ili əhatə edən uzun müddətli tədbirlər planı dövlətimizin əhalinin iqtisadi sahədə daha fəal iştirakına cəlb olunması və xüsusən də demoqrafik cəhətdən üstünlük təşkil edən gənc nəslin əmək bazarına inteqrasiyası, əmək bazarının dövlət tərəfindən tənzimlənməsi cəhətdən mühüm addımlardan biri kimi hesab olunur.

**Açar sözlər:** *sosial siyasət, gənclərin əmək bazarı, iqtisadi fəal əhali, tələb və təklif, işçi qüvvəsi, dövlət məşğulluq siyasəti, sosial bərabərsizlik, əmək bazarının dövlət tənzimlənməsi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1."Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyası. (Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir).*

*2.Azərbaycan Respublikasının Konstitusyası. Bakı, Qanun, 2005, s.64*

*3.Azərbaycanda əhalinin iqtisadi fəallığının*

*müayinəsi: müayinənin keçirilməsinin metodologiyası və əmək bazarında vəziyyətin təhlili. Bakı, Oskar, 2008, s.320*

*4.2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası. "Xalq" qəzeti. 31 oktyabr, 2018*

*5.Əsgərov Ə., Hüseynov E., Hüseynov S. Davamlı insan inkişafı , Bakı, Azərbaycan Dövlət Aqrar Universiteti, 2009, Dərslik, s.494*

*6.Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 2002*

*7.Həsənov R., Sosial siyasət. Bakı, Avropa, 2016, s.310*

*8.Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi sosiologiya. Tərcümə edən : Professor İzzət Rüstəmov. Bakı, Azərbaycan Dövlət Pedoqoji Universiteti, 2014, s.492*

*9.Məmmədova S., Azərbaycanda Sosial Dövlət: İnkişafı, Perspektivləri.Bakı, Avropa, 2017, s.232*

*10.Rəcəbli H. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komporativ təhlili , Bakı, Gənclik, 2003, s.372*

*11.Vahidov F., Ağayev T. Sosiologiya. Bakı, Təknur, 2008, s.333*

*12. https://www.stat.gov.az/source/labour/*

*13. http://www.anl.az/down/meqale/azerbaycan/2011/iyun/182794.htm*

*14.https://com-roseltorg.ru/az/vklady-i-depozity/regulirovanie-rynka-truda-osushchestvlyaetsya-cherez-gosudarstvennoe-regulirovanie/*

**Шафибейли Рубаба**

**ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ РЫНКА МОЛОДЕЖНОГО В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В качестве нового независимого государства Азербайджанская Республика предприняла важные шаги для развития социально-экономической сферы и улучшения занятости. Принятие Закона Азербайджанской Республики «О занятости населения» в июне 2001 года, а также принятие «Государственной программы по реализации Стратегии занятости Азербайджанской Республики на 2011-2015 годы» являются важными шагами, предпринятыми государством в этой области.

Повышение активности экономически активного населения, особенно молодежи, на рынке труда и поднятие занятости на более высокий уровень является показателем государственного регулирования рынка труда при реализации стратегии занятости.

***Ключевые слова:*** *социальная политика, рынок труда молодежи, экономически активное население, спрос и предложение, рабочая сила, государственная политика занятости, социальное неравенство, государственное регулирование рынка труда.*

**Shafibayli Rubaba**

**GOVERNMENT REGULATION OF YOUTH LABOR MARKET IN AZERBAIJAN**

**Summury**

As a newly independent state, important steps have been taken for developing the socio-economic sphere and improving employment in the Republic of Azerbaijan. The adoption of the Law of the Republic of Azerbaijan "On Employment" in June 2001, as well as the adoption of the "State Program for the Implementation of the Employment Strategy of the Republic of Azerbaijan for 2011-2015" are considered important steps taken by the state in this area.

Increasing the activity of the economically active population, especially young people, in the implementation of the employment strategy and bringing employment to a high level is an indicator of state regulation of the labor market.

***Keywords:*** *social policy, youth labor market, economically active population, demand and supply, workforce, state employment policy, social inequality, government regulation of the labor market.*

# 2020-Cİ İLDƏ "GEOSTRATEGİYA" JURNALINDA NƏŞR OLUNMUŞ MƏQALƏLƏRİN SİYAHISI

## SİYASİ ELMLƏR


**ƏLİ HƏSƏNOV:** XOCALI SOYQIRIMI ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI HƏYATA KEÇİRDİYİ ƏN AĞIR CİNAYƏTDİR — № 01 (55) səh. 5-10

**ЭЛЬЧИН АХМЕДОВ:** ДИНАМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА: УСПЕХИ И ДОСТИЖЕНИЯ (2003-2019) — № 01 (55) səh. 11-17

**SHABNAM HASANOVA:** ENERGY SECURITY AS AN IMPORTANT ELEMENT OF NATIONAL SECURITY — № 01 (55) səh. 18-21

**ЛАЛА ТАЛЫБОВА:** ПОСРЕДНИЧЕСКАЯ РОЛЬ РОССИИ В УРЕГУЛИРОВАНИИ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА — № 01 (55) səh. 22-27

**XALİD NİYAZOV:** "NEW MEDIA"DA HÜQUQİ MƏSULİYYƏT VƏ KİBERCİNAYƏTKARLIQ — № 01 (55) səh. 28-34

**НИГЯР БАЙРАМОВА:** ЭНЕРГЕТИЧЕСКИЙ РЕСУРС КАК ФАКТОР ГЕОПОЛИТИЧЕСКОЙ УСТОЙЧИВОСТИ АЗЕРБАЙДЖАНА — № 01 (55) səh. 35-42

**NURƏDDİN İBRAHİMOV:** PARLAMENTLİ VƏ QARIŞIQ RESPUBLİKALARDA PREZİDENTLİYİN XÜSUSİYYƏTLƏRİ — № 01 (55) səh. 43-48

**ELÇİN SEYİDOV:** AZƏRBAYCAN RESPUBLİKASI MÜASİR İPƏK YOLU QURŞAĞINDA — № 01 (55) səh. 49-52

**GÜNEL MƏLİKLİ:** AZƏRBAYCAN RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK STRATEGİYASI — № 01 (55) səh. 53-58

**GÜLŞƏN XALIQOVA:** AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ İXRACININ ŞAXƏLƏNDİRİLMƏSİ SİYASƏTİ VƏ ONUN REGİONUN ÜMUMİ GEOİQTİSADİ VƏZİYYƏTİNƏ TƏSİRİ — № 01 (55) səh. 59-62

**SƏNAN HƏSƏNOV:** PREZİDENT İLHAM ƏLİYEVİN İSLAHATLAR KONSEPSİYASINDA ƏNƏNƏVİLİK, KÖNÜLLÜLÜK VƏ YARADICI GƏNCLƏR — № 01 (55) səh. 63-70

**FİDAN HƏSƏNOVA:** "SÜLH ŞƏRAİTİNDƏ BİRGƏ YAŞAMA" ANLAYIŞI VƏ AZƏRBAYCANIN MULTİKULTURALİZM NÜMUNƏSİ — № 01 (55) səh. 71-76

**HƏMDULLA MƏMMƏDOV:** AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QULLUĞU SİSTEMİNİN İNKİŞAF TARİXİ — № 01 (55) səh. 77-81

**LAMİYƏ QASIMOVA:** AZƏRBAYCAN RESPUBLİKASININ SKANDINAVİYA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNİN SİYASİ ƏSASLARI — № 01 (55) səh. 82-86

**GÜNAY MƏMMƏDLİ:** XƏZƏRDƏ REGİONAL ƏMƏKDAŞLIĞI ŞƏRTLƏNDİRƏN AMİLLƏR — № 01 (55) səh. 87-91

**PƏRVİN İBRAHİMOVA:** DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ: AZƏRBAYCAN DİASPORUNUN TƏŞKİLATLANMASI VƏ İNKİŞAFI — № 01 (55) səh. 92-98

**ELDAR ƏMİROV:** TACİKİSTAN-İRAN MÜNASİBƏTLƏRİ (1991-2020): ZİDİYYƏT NÖQTƏLƏRİNİN MEYDANA GƏLMƏSİNDƏ DİN AMİLİNİN ROLU — № 01 (55) səh. 99-102

**RASİM QULUZADƏ:** AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İDARƏÇİLİK

SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ VƏ TARİXİ ASPEKTLƏRİ № 01 (55) səh. 103-105

**SALMAN UMUDOV:** PREZİDENTLİK İNSTİTUTU HAQQINDA BƏZİ NƏZƏRİ MÜDDƏALARIN SİYASİ-HÜQUQİ TƏHLİLİ № 01 (55) səh. 106-111

**XƏYYAM İSMAYILZADƏ:** MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ LİBERALİZMİN XARAKTERİK ƏLAMƏTLƏRİ № 02 (56) səh. 5-7

**ЭЛЬДАР АМИРОВ:** ВАЖНОСТЬ ИСЛАМСКОГО ПРОСВЕЩЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ ВНУТРЕННИХ И ВНЕШНИХ ИДЕОЛОГИЧЕСКИХ УГРОЗ РЕЛИГИОЗНОГО ХАРАКТЕРА: НАСЛЕДИЕ И РЕАЛИИ СОВРЕМЕННОСТИ (К ВОПРОСУ ИДЕОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ) № 02 (56) səh. 8-14

**ŞƏBNƏM HƏSƏNOVA:** AVROPA İTTİFAQI VƏ AZƏRBAYCAN RESPUBLİKASI MÜNASİBƏTLƏRİNDƏ ENERJİ AMİLİNİN YERİ VƏ ROLU № 02 (56) səh. 15-19

**RAMİL ALLAHVERDİYEV:** STRATEGİYA ANLAYIŞI № 02 (56) səh. 20-28

**ЭЛЬВИН ТАЛЫШИНСКИЙ:** ИНФОРМАЦИОННОЕ ПРОТИВОБОРСТВО КАК ЦЕЛЬ ДОСТИЖЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ № 02 (56) səh. 29-33

**NİHAD YAQUBLU:** YAXIN ŞƏRQDƏ DEMOKRATİYA NİYƏ UĞURSUZLUQLA NƏTİCƏLƏNİR?: SƏBƏBLƏR VƏ AMİLLƏR № 02 (56) səh. 34-42

**ZÜRİYƏ QARAYEVA:** QLOBALLAŞMANIN TÜRKİYƏDƏ MİLLİ DÖVLƏTƏ TƏSİRİ № 02 (56) səh. 43-47

**CEYHUN ƏHMƏDLİ:** YENİ NƏSİL MÜHARİBƏLƏRƏ NƏZƏRİ-KONSEPTUAL BAXIŞ VƏ RUSİYA YANAŞMASI № 02 (56) səh. 48-53

**LEYLA NƏBİYEVA:** KİPR PROBLEMİNDƏ TÜRKİYƏ -YUNANISTAN MÜNASIBƏTLƏRİ. Enozis, Qanlı Milad № 02 (56) səh. 54-58

**HƏMDULLA MƏMMƏDOV:** AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVATİV DÖVLƏT QULLUĞU SİSTEMİNƏ KEÇİD PROSESİNİN XÜSUSİYYƏTLƏRİ № 02 (56) səh. 59-64

**CEYRAN RƏHMƏTULLAYEV:** SOSİAL XİDMƏTİN FORMALARI VƏ NÖVLƏRİ № 02 (56) səh. 65-73

**ELDAR ƏMİROV:** İRAN-İRAQ MÜHARIBƏSİ (1980-1988) HƏRBİ-SİYASİ VƏ İDEOLOJİ NƏTİCƏLƏR № 03/04 (57,58) səh. 5-8

**ЭЛЬВИН ТАЛЫШИНСКИЙ:** ИНФОРМАЦИОННОЕ ОРУЖИЕ КАК НОВОЕ СРЕДСТВО ВООРУЖЕННОЙ БОРЬБЫ № 03/04 (57,58) səh. 9-13

**NURƏDDİN MEHDİYEV:** QƏRBİN AZƏRBAYCANA QARŞI İNFORMASİYA MÜHARİBƏSİ № 03/04 (57,58) səh. 14-20

**RAMİL ALLAHVERDİYEV:** ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ AZƏRBAYCANIN HƏRBİ STRATEGİYASI № 05/06 (59,60) səh. 5-16

**HUMAY GÜLMƏLİYEVA:** TÜRKIYƏNİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU № 05/06 (59,60) səh. 17-22

**TARİX**

**GÜNEL ADIGÖZƏLOVA:** AZƏRBAYCAN RESPUBLİKASINDA YOXSULLUQ VƏ İŞSİZLİYİN LƏĞVİ İSTİQAMƏTİNDƏ QEYRİ-NEFT SEKTORUNUN ROLU (2004-2014-cü illər) № 01 (55) səh. 117-121

**MƏHƏRRƏM ƏHMƏDOV:** ƏRƏB XİLAFƏTİ - XƏZƏR XAQANLIĞI MÜNASİBƏTLƏRİ (VIII ƏSRİN İKİNCİ YARISI – X ƏSRİN SONLARI) № 01 (55) səh. 122-127

**ASƏF HACIYEV:** QARADONLU ƏHALİSİ (1926-cı il Ümumittifaq siyahıyaalınması materialları əsasında) № 02 (56) səh. 84-87

**MƏHBUBƏ HACIYEVA:** RUSİYA İMPERATOR TEXNİKİ CƏMİYYƏTİNİN BAKI BÖLMƏSİNİN MƏKTƏBLƏRİ № 02 (56) səh. 88-93

**ELNURƏ ƏZİZOVA:** ƏBU İSHAQ ƏL-İSFƏRAYİNİYƏ AİD EDİLƏN "NURUL-EYN Fİ MƏŞHƏDİL-HÜSEYN" ƏSƏRİ HAQQINDA BƏZİ QEYDLƏR № 02 (56) səh. 94-99

**HÜSEYN HÜSEYNLİ:** FƏRHAD AYDINLI. TÜRKİYƏ-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNDƏ RUSİYA AMİLİ (etnosiyasi proseslər kontekstində) № 03/04 (57,58) səh. 78-82

**NURANƏ MAZANOVA:** XVIII ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏKİ ŞƏHƏRİNİN DAXİLİ TİCARƏTİ HAQQINDA № 03/04 (57,58) səh. 83-87

**SANİ HACIYEV:** İKİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ AZƏRBAYCAN – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ № 05/06 (59,60) səh. 23-28

**ARZU XƏLİLZADƏ:** İLHAM ƏLİYEV DİPLOMATİYASININ UĞURU - QARABAĞ QƏLƏBƏSİNƏ QISA NƏZƏR № 05/06 (59,60) səh. 29-34

**SEVDA ŞƏRİFOVA:** QARABAG ZƏFƏRİ HEYDƏR ƏLİYEV İRSİNİN TƏNTƏNƏSİDİR № 05/06 (59,60) səh. 35-43

**ƏHMƏDOVA HƏCƏR:** AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN ETNİK KİMLİYİ (PYETRO DELLA VALLENİN "SƏYAHƏTNAMƏ" Sİ ƏSASINDA) № 05/06 (59,60) səh. 44-49

**NURDAN ƏSƏDOVA:** XXI ƏSRDƏ TÜRKİYƏ - NATO MÜNASİBƏTLƏRİ VƏ ABŞ-IN BU MÜNASİBƏTLƏRDƏ ROLU № 05/06 (59,60) səh. 50-53

**ASİM CƏNNƏTOV:** TÜRKİYƏ MİLLƏTÇİLƏRİNİN ARAŞDIRMALARINDA İRAN TÜRKLƏRİ VƏ GÜNEY AZƏRBAYCAN MƏSƏLƏSİ № 05/06 (59,60) səh. 54-58

**NUBAR BƏŞİRLİ:** BAKI NEFTİNƏ XARİCİ KAPİTALIN CƏLB EDİLMƏSİNDƏ ÇAR RUSİYASININ ƏKS MÖVQEYİ № 05/06 (59,60) səh. 59-63

**EMİN HÜMBƏTOV:** XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ CƏNUBİ QAFQAZ VƏ ŞƏRQİ ANADOLU UĞRUNDA OSMANLI-RUS HƏRBİ QARŞIDURMASININ TARİXİNDƏN (Türkiyə tarixşünaslığının məlumatları əsasında) № 05/06 (59,60) səh. 64-69

**FƏLSƏFƏ**

**ФАИГ АЛИЕВ:** ФЕНОМЕН ИДЕНТИФИКАЦИИ КАК ПРОЦЕСС САМООПРЕДЕЛЕНИЯ ЧЕЛОВЕКА № 01 (55) səh. 159-163

**VƏFA NAĞIYEVA, ZEYNƏDDİN ŞABANOV, MƏTANƏT ƏLİYEVA:** KORONAVİRUS (COVİD 19) PANDEMİYASI CƏMİYYƏTDƏ BÖHRAN FAKTORU KİMİ № 01 (55) səh. 164-168

**RƏŞAD CABAROV:** ŞİMALİ QAFQAZDA İSLAMIN İNKİŞAF MƏRHƏLƏLƏRİNİN TƏSVİRİ İZAHI № 02 (56) səh. 118-123

**RƏŞAD CABAROV:** XIX ƏSRİN SONU XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ PANİSLAMİZM VƏ ONUN QAFQAZDA YAYILMASI № 03/04 (57,58) səh. 88-93

**ŞƏMS BÜNYATOVA** - B. BLANŞARD, N. REŞER VƏ K. LERER HƏQİQƏTİN KOQERENT NƏZƏRİYYƏSİNİN FORMULATORLARI № 03/04 (57,58) səh. 94-98

**AFAQ İMANOVA:** ELM VƏ TƏHSİLDƏ GENDER PROBLEMİ № 03/04 (57,58) səh. 99-108

**MƏTANƏT ƏLİYEVA:** UŞAQ İNKİŞAFINDA BÖHRAN PROBLEMİ № 03/04 (57,58) səh. 109-113

**AZAD CƏFƏROV:** TƏHSİL İSLAHATLARININ TƏKAMÜLÜ № 05/06 (59,60) səh. 134-138

**VÜSALƏ GÜLMALIYEVA:** SOYQIRIM ANLAYIŞINA SOSİAL-FƏLSƏFİ YANAŞMA № 05/06 (59,60) səh. 139-144

**SOSİAL ELMLƏR**

**OSMAN HACIYEV:** REGİONAL İNKİŞAF – DEMOQRAFİYADA STİMULLAŞDIRICI TENDENSİYA KİMİ № 02 (56) səh. 74-78

**MƏFTUNƏ İSMAYILOVA:** GENDER ZƏMİNİNDƏ MƏİŞƏT ZORAKILIĞI № 02 (56) səh. 79-83

**ƏLİYAR ORUCOV:** AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN İDEOLOJİ ƏSASLARININ İNKİŞAF İSTİQAMƏTİ № 03/04 (57,58) səh. 114-119

**RASİM QULİYEV:** AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ № 03/04 (57,58) səh. 120-124

**İLAHƏ İSGƏNDƏROVA:** ŞAGİRDLƏRƏ GENDER BƏRABƏRLİYİNİN AŞILANMASININ NƏZƏRİ-METADOLOJİ ƏSASLARI № 05/06 (59,60) səh. 145-150

**RÜBABƏ ŞƏFİBƏYLİ:** AZƏRBAYCANDA GƏNCLƏRİN ƏMƏK BAZARININ DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ № 05/06 (59,60) səh. 151-155

**İQTİSADİYYAT**

**MƏLAHƏT HÜSEYNOVA:** AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNİN SƏMƏRƏLİLİK MƏSƏLƏLƏRİ № 01 (55) səh. 128-132

**SƏBUHİ MEHDİZADƏ:** MÜASİR DÖVRDƏ TULLANTILARIN TƏSNİFLƏŞDİRİLMƏSİ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRİ № 01 (55) səh. 133-139

**MİKAYIL NƏBİYEV:** AZƏRBAYCANDA İNNOVATİV BİZNES VƏ ONUN İNKİŞAF PRESPEKTİVLƏRİ № 01 (55) səh. 140-145

**ZƏHRA ABİYEVA:** XİDMƏTLƏR SAHƏSİ MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ TƏHLİLİ VƏ NƏZARƏTİ № 01 (55)) səh. 146-149

**LƏMAN ƏLİBƏYLİ:** DÖVLƏT QULLUĞU SAHƏSİNDƏ KADR SİYASƏTİNİN APARILMASI: KADR SİYASƏTİNİN NÖVLƏRİ, ƏSAS İSTİQAMƏTLƏRİ VƏ VƏZİFƏLƏRİ № 01 (55) səh. 150-153

**ÜLVİYYƏ NİFTƏLİYEVA:** İNNOVATİV FƏALİYYƏTİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ № 01 (55) səh. 154-158

**NOVRUZ HÜSEYNOV:** AZƏRBAYCANIN SOSİAL SIĞORTA SİSTEMİNDƏ MALİYYƏ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ № 02 (56) səh. 100-107

**NURİDƏ QASIMOVA:** MODERNLƏŞMƏ - KƏND TƏSƏRRÜFATININ İNNOVATİV İNKİŞAFININ ƏSASINI TƏŞKİL EDİR № 02 (56) səh. 108-112

**MƏMMƏD CABBARLI:** BİZNESİN (MÜƏSSİSƏNİN) QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODOLOJİ YANAŞMALAR № 02 (56) səh. 113-117

**ƏVƏZ BAYRAMOV:** RƏQƏMSAL İQTİSADİYYAT: TƏHLÜKƏSİZLİK PROBLEMİ VƏ ÖLÇÜ METODİKASI № 03/04 (57,58) səh. 21-32

**VÜQAR BAYRAMOV:** İQTİSADİ İNKİŞAFA NƏZƏRİ YANAŞMALARIN TƏKAMÜLÜ № 03/04 (57,58) səh. 33-40

**KAMRAN ABBASOV:** İQTİSADİYYATDA ŞƏFFAFLIĞIN ARTIRILMASINDA VƏ HESABATLILIĞIN DÜRÜSTLÜYÜNÜN TƏMİN EDİLMƏSİNDƏ AUDİT FUNKSİYALARININ ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ № 03/04 (57,58) səh. 41-45

**RƏŞAD QARAYEV:** AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ BİZNESİN STİMULLAŞDIRILMASINDA DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ № 03/04 (57,58) səh. 46-50

**ELNURƏ MƏMMƏDOVA:** AZƏRBAYCANDA İNVESTİSİYA POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ VƏ İNFRASTRUKTURUN YARADILMASI PROBLEMLƏRİ № 03/04 (57,58) səh. 51-55

**GÜLSÜM BƏDİRZADƏ:** AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİNİN QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ № 03/04 (57,58) səh. 56-61

**HEYDƏR AĞAYEV:** AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ SIĞORTA SİSTEMİNİN TƏNZİMLƏNMƏSİ VƏ GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ № 03/04 (57,58) səh. 62-66

**KƏNAN VƏKİLOV:** POSTPANDEMİYA ŞƏRAİTİNDƏ İNNOVATİK SAHİBKARLIĞIN BİLİK RESURSLARI ƏSASINDA İNKİŞAFININ STRATEJI ASPEKTLƏRİ № 03/04 (57,58) səh. 67-71

**VÜQAR KƏRİMLİ:** AQRAR SAHƏDƏ İQTİSADİ İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARININ ARAŞDIRILMASI, TƏDBİQİ VƏ ÖYRƏNİLMƏSİ № 03/04 (57,58) səh. 72-77

**ƏVƏZ BAYRAMOV:** "RƏQƏMSAL" TRANSFORMASİYANIN DÜNYA İQTİSADİYYATI ÜZƏRİNDƏ PROYEKSİYASI: QLOBAL "VAHİDLƏŞMƏ" KABUSU № 05/06 (59,60) səh. 70-82

**HƏSƏN RƏHİMLİ:** ELM İQTİSADİYYATININ AKTUAL MƏSƏLƏLƏRİ: ÜÇÜNCÜ NƏSİL UNİVERSİTETLƏRİN MALİYYƏLƏŞMƏSİ VƏ ELMİN KOMMERSİYALAŞMASI PROBLEMİ № 05/06 (59,60) səh. 83-88

**VÜQAR BAYRAMOV:** İQTİSADİ ARTIMIN KONSEPTUAL MƏZMUNU: SİSTEMLİ BAXIŞ № 05/06 (59,60) səh. 89-95

**LEYLA ƏHMƏDOVA:** ELMİ-TƏDQİQAT XİDMƏTLƏRİNİN KOMMERSİYALAŞDIRILMASININ İNTENSİVLƏŞDİRİLMƏSİ YOLLARI № 05/06 (59,60) səh. 96-100

**НИЛУФЕР АКПЕРОВА:** ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ ОТРАСЛЕВОЙ СТРУКТУРЫ ЗАНЯТОСТИ В УСЛОВИЯХ ПАНДЕМИИ И ПОСТПАНДЕМИЧЕСКОГО ПЕРИОДА № 05/06 (59,60) səh. 101-106

**NURAN HÜSEYNLİ:** PANDEMİYA VƏ POSTPANDEMİYA DÖVRÜNDƏ REGİONAL TURİZMİN İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ № 05/06 (59,60) səh. 107-111

**АСЛАН ИБРАГИМОВ:** УКРЕПЛЕНИЕ СОТРУДНИЧЕСТВА ГОСУДАРСТВЕННОГО И ЧАСТНОГО СЕКТОРА В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА № 05/06 (59,60) səh. 112-116

**MURAD SALMANOV:** AZƏRBAYCANDA NEFT-KİMYA KOMPLEKSİNİN İXRAC POTENSİALININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ № 05/06 (59,60) səh. 117-121

**ZAUR ƏZİZOV:** АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ И ПУТИ РЕШЕНИЯ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ В КОНТЕКСТЕ СТРАТЕГИЧЕСКОЙ ДОРОЖНОЙ КАРТЫ № 05/06 (59,60) səh. 122-128

**NİHAD HÜSEYNOV:** POSTPANDEMİYA ŞƏRAİTİNDƏ DÜNYADA TURİZM SEKTORUNUN VƏ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ № 05/06 (59,60) səh. 129-133

**PEDAQOGİKA**

**MÜSLÜM NƏZƏROV:** POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ SOSİAL TƏHSİLİN ROLU № 01 (55) səh. 112-116

**ÜSLÜM NƏZƏROV:** TƏHSİLİN MODELLƏŞDİRİLMƏSİ KONSTEKTİNDƏ PEDAQOJİ TEXNOLOGİYALAR № 02 (52) səh. 124-128

# QEYDLƏR

# QEYDLƏR

**Təsisiçi:**
**“Kaspi MY” MMC**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 500**
**Sifariş №24**

**“Elm və təhsil” nəşriyyat-poliqrafiya**
**müəssisəsində çap olunub**

**Founder:**
**“Kaspi PD” MMC**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 500**
**Order №24**

**Published by**
**“Science and Education” publishing house**